Bizans türk qılıncının zərbindən çökəndən sonra onun sonuncu imperatorunun qızı Sofiya (Zoya) Paleoloq 1472-ci ildə Moskva knyazı III İvana ərə gedir [1]. Bu, geosiyasət tarixinin ən vacib evliliyi olmaqla, Bizans imperiyasının təkcə sonuncu varisinin yox, missiyasının da Rusiyaya köçməsi idi. Sofiya Bizansın bütün vəsiyyət və mənəvi-siyasi irsini özü ilə gətirərək, yeni formalaşmağa başlayan rus dövlətinin ideoloji bünövrəsinə yerləşdirmişdi. Bizans imperatorunun bütün hüquqları III İvana və onun varislərinə keçirdi. İkibaşlı qartal da məhz bu hadisə zamanı uçub, Moskvaya qondu [2].

Formalaşmaqda olan Rusiya dövlətinin ideoloji əsası Sofiyanın ölümündən bir qədər sonra onun gətirdiyi "cehizin" təsirilə qoyuldu: Bu, "Moskva – III Roma" nəzəriyyəsi idi. Nəzəriyyəyə görə, birinci və ikinci Roma imperiyaları (ikinci Roma İmperiyası adı altında Bizans nəzərdə tutulurdu) "Günahlarına görə çökdülər, üçüncüsü ayaqdadır, dördüncüsü isə olmayacaq" [3].

Abid Filofeyin bu ideyasının əsasında artıq III Vasili (Sofiya Paleoloq ilə III İvanın oğlu, IV İvan Qroznının atası) Bizansın əfsanəvi imperatoru Konstantinlə bir tutulurdu [4].

Sonrakı mərhələdə məhz "Üçüncü Roma" nəzəriyyəsi rus torpaqlarını Moskvanın ətrafında birləşdirən əsas milli-siyasi ideologiyaya çevrildi. Bu dövrdə "Monomax papağı" haqqında mif də formalaşdırılır – guya rus çarlarının hakimiyyət rəmzi olan baş geyimini onlara Bizans imperatoru Konstantin Monomax veribmiş... [5]

Bütün hallarda, "Üçüncü Roma" nəzəriyyəsi möhkəmlənərək, rus siyasi fəlsəfəsi ilə yanaşı, mənəviyyatına və ədəbiyyatına da yol tapır. Bu nəzəriyyəyə görə, Bibliyadakı Daniil peyğəmbərin "Translatio imperii" prinsipinə əsasən, dünya səltənəti missiyası Rusiyaya ötürülmüşdü. [6] Sual bu idi: İndi dünyada xristianların həyanı, dayağı kim olmalıdır?

Amma nəzəriyyənin çox ciddi bir nöqsanı vardı: Bizansın özünü heç bir halda "İkinci Roma" adlandlırmaq mümkün deyil. Bizans Roma İmperiyasının davamçısı yox, antipodu idi. Əslində geosiyasi kodların tarixinə baxsaq, bugünkü Rusiya-Qərb qarşıdurmasının kökləri gedib Bizans-Roma ziddiyyətlərinə çıxır.

**"İkinci Bizans"**

Nihil nova sub soli. 330-cu ildə Roma İmperiyası ikiyə bölünəndən sonra ta bugünə qədər gedən proseslər demək olar ki, eyni modelin zaman oxu üzrə yerdəyişməsindən başqa heç nə deyil. Məsələn, ABŞ-SSRİ qarşıdurması geosiyasi kodlar baxımından elə həmin Roma-Bizans üzləşməsi idi. Zbiqnev Bzejinskinin ABŞ-ı Roma İmperiyasından sonra ikinci qlobal supergüc kimi təsvir etməsi əsassız deyil [7]. ABŞ – həqiqətən İkinci Romadır

və onun qarşısında İkinci Bizans var. Amma bizi maraqlandıran mövzu bu xətt olmadığı üçün, qayıdaq İkinci Bizansın yeni formalaşdığı dövrə.

Yeni təşəkkül tapan Rusiya dövləti özünü "Üçüncü Roma", əslində isə "İkinci Bizans" kimi dərk etdikcə, onun tarixi missiyasını da üzərinə götürürdü. Bu isə təkcə bütün dünyada pravoslav xristianların hamisi olmaq deyildi, Bizansın siyasi genetikasında müsəlman-türklərlə mübarizə də yazılmışdı. Məhz buna görə rus-türk müharibələri praktik olaraq rusların özlərini "Üçüncü Roma" ("İkinci Bizans") kimi dərk etdikləri dövrlərdən (1568) başlayıb və 350 il – 1918-ci ildə hər iki imperiya çökənə qədər sürüb. Bu proses əslində Osmanlı-Bizans mübarizəsinin başqa formada davamı idi [8].

Həmin mübarizənin bitdiyini, yaxud nə zamansa bitəcəyini düşünmək sadəlövhlük olardı: Bunun üçün əvvəlcə Rusiya "İkinci Bizans" rolundan (Bizansın mənəvi irsindən) imtina etməlidir. Amma tam əksinə, Rusiya həmin yükü getdikcə daha dərindən öz üzərinə götürməkdədir. Ölkədə pravoslavlıq getdikcə inkişaf etdirilir və dövlətlə qarşılqlı əlaqələri gücləndirilir. Sadəcə, XX əsrdə daha çox İkinci Bizans ilə İkinci Romanın qarşıdırması prioritet idi. İndi isə qlobal şərait dəyişdikcə, geosiyasi kodlar yenidən özünü göstərir.

**Bizans və Qafqaz**

Güney Qafqaz son dərəcə maraqlı yerdir. Coğrafiyası elədir ki, burada heç bir mərkəzləşmiş böyük dövlət yaranıb, güclənə bilməzdi, çünki bunun üçün geniş düzənlik ərazi lazımdır. Güney Qafqaz kimi dağlıq və mürəkkəb relyefli ərazilər adətən, böyük imperiyaların periferiyası, maraqların toqquşduğu, bufer zonası kimi baxdıqları yer olur. Belə yerlərdə asanlıqla lokal güclər yarana, relyefdən və təbiətdən dəstək alaraq, böyük güclərə qarşı dayana bilirlər. Və bu zaman əksər hallarda başqa bir böyük güc onların varlığı və direnişi faktorundan öz maraqlarına uyğun istifadə etməyə çalışır.

Biz ilk dəfə Güney Qafqazı Bizans-Sasani geosiyasi qarşıdurmasında bu rolda görürük. Faktik olaraq, hər iki imperiya Qafqaz Albaniyasından digərilə mübarizədə öz maraqlarına uyğun istifadə etməyə çalışır, sələf-dövlətimiz isə bu iki imperiyanın arşında manevrlər etməyə cəhd göstərirdi [9].

Həm də iki qocaman imperiyanın başının bu mübarizəyə qarışması səbəbindən bədəvilərin gənc dövləti onların iksinin də dizini yerə gətirdi, Sasanilərin varlığına nöqtə qoydu, Güney Qafqaz isə bu dəfə Bizans-Ərəb mübarizəsinin vacib cinahına çevrildi. Biz Xürrəmilər hərəkatını adətən bir qəhrəmanlıq dastanı kimi öyrənirik, halbuki, o, bölgənin geosiyasi tarixini anlamaq baxımından da vacib ipucları verə bilər. Şübhəsiz ki, Bizansın gizli dəstəyi olmasa Xilafətə qarşı yerli müqavimət o qədər sürə bilməzdi...

Yəni Güney Qafqaza vacib maraqların toqquşduğu cinah kimi baxmaq Bizansın dövlətçilik ideyasının genetik kodunda var idi və bu kodlar tarixin irsiyyət mexanizmlərilə onun xələfinə də keçib. Bizans üçün həmin mərhələ səlcuqların gəlməsilə bitmiş, amma bundan sonra da dövlətçilik genində yeni kodun yazılması başlamışdı. 1064-cü ildə başlayan, əvvəlcə Bizans-Səlcuq, sonra Bizans-Osmanlı şəklində gedən, 1453-cü ildə İstanbulun fəthilə başa çatan silsilə 1568-ci ildə bu dəfə özünü Bizansın varisi elan edən Rusiya-Osmanlı savaşları şəklində bərpa olunur və 1918-ci ilə qədər sürür. Maraqlı vəziyyət alınır: Rusiyanı Bizansın varisi kimi qəbul etsək (özləri də belə hesab edirlər), belə çıxır ki, səlcuqların regiona gəldikləri vaxtdan başlayan savaşın geosiyasi kodları artıq min ildən çoxdur ki, müxtəlif mutasiyalarla davam edir.

**Müasir dövr**

Biz hazırda gedən proseslərin mahiyyətindəki dərinliyi anlamaq üçün məsələyə məhz bu prizmadan – geosiyasi kodlar aspektindən yanaşmağın tərəfdarıyıq. Osmanlıya yeniləndən sonra Bizans ruhu Rusiyanın simasında ikinci təcəlləsini (inkarnasiyasını) tapıb və tarixi mübarizəsini yeni mövqelərdən davam etdirib. Osmanlı ilə mübarizəsində Rusiya həmişə Güney Qafqaza vacib cinah kimi baxıb və heç vaxt buradan o tərəfə keçməyə can atmayıb. Ona görə yox ki, istəməyib; ona görə ki, qoymazdılar. Tarix bunu dəfələrlə təsdiqləyib. 1878-ci il müharibəsinə nöqtə qoyan müqavilənin imzalandığı San-Stefano şəhərindən səhər yola çıxan rus qoşunları günorta İstanbul boğazının sahilində dincələ bilərdilər və onlara heç nə mane olmurdu – artıq qlobal gücə çevrilmiş və Qərbi Roma İmperiyasının genetik kodlarını daşıyan Avropa dövlətlərindən başqa [10]. Bundan cəmi 25 il əvvəl Krım müharibəsində Avropa Rusi-

yaya başa salmışdı ki, Osmanlını nə qədər sevməsə də, II Bizansın güclənməsi daha arzuolunmazdır. Ona görə, 1878-ci ildə məhz Avropanın qorxusundan Rusiya İstanbula girmədi. Rusiya Güney Qafqazdan adlayıb, Təbrizi də tuta bilərdi, özü də dəfələrlə. Amma Qərbi Roma İmperiyasının genetik kodlarını daşıyan dövlətlər II Bizansa bu imkanı və icazəni verməyiblər.

## YEKUN

Beləcə, Güney Qafqaz 3 geosiyasi kodun (Roma, Bizans, Türk) yayıldığı areallarin hüdudlarının təmasda olduğu məkan kimi formalaşıb. Bu gün də heç nə dəyişməyib. Mübarizə bütün tarix boyunca 3 tərəfin arasında gedib, gedir və gedəcək. Burada "erməni" anlayışına yer yoxdur, heç vaxt da olmayıb. Yalandan tarix uydurmaqla deyil, nə Bizans-Sasani, nə Bizans-Ərəb, nə də Səlcuq-Bizans və Osmanlı-Bizans mübarizələrində biz heç bir erməni faktoru görmürük. Ermənilər ancaq II Bizans türklərlə köhnə mübarizəsini yeni dövrdə həm də Qara Dənizin şərq cinahında yürütməyə qərar verəndən sonra ortaya çıxırlar. Onlar heç vaxt bu tarixi mübarizənin subyekti olmayıblar, indi də deyillər. Min illik proseslər necə qurulubsa, elə də gedir. Çünki onları quran təkcə Əlahəzrət Tarix deyil. Hətta Əlahəzrət Tarixin qurduğu mexanizmlər də bir müddət sonra dayanır, Tarix və Coğrafiya həzrətlərinin birgə qurduqları mexanizmlər isə çox uzun müddət işləyir. Bu halda olduğu kimi.

**Açar sözlər:** *geosiyasi kodlar, geosiyasi varislik, Üçüncü Roma, Rus-Türk münasibətləri, Güney-Qafqaz.*

## XÜLASƏ

Dövlətlərin yürütdüyü xarici siyasət ilk növbədə onların maraqlarının təmin olunmasına xidmət edir. Amma bəzən bu maraqlar təkcə praqmatik təsəvvürlərdən yox, həm də tarixi-mənəvi-dini ənənələrdən doğur. Belə hallarda konkret dövlətin yürütdüyü xarici siyasətin mahiyyətini anlamaq üçün onun siyasi-diplomatik konsepsiyasının köklərinə baxmaq, əsasında duran ideyanı anlamaq vacibdir. Rusiya dövləti üçün bu konsepsiya XVI əsrdə yaranmış "Üçüncü Roma" ideologiyasıdır. Həmin konsepsiyanın təsirilə Rusiya özünü Bizans İmperiyasının davamçısı kimi dərk edir və fəaliyyətini buna əsasən qurur. Maraqlıdır ki, Rusiyanın Güney Qafqaza münasibətində də biz həmin geosiyasi kodların təsirini görürük. Buna görə də, Moskvanın Güney Qafqaz siyasətini daha yaxşı anlamaq üçün tarixə boylanaraq, Bizansın bu regionda yürütdüyü siyasəti təhlil etmək, Bizans-Türk münasibətlərinin mahiyyətini anlamaq lazımdır.

## РЕЗЮМЕ

Внешняя политика, проводимая государствами, служит в первую очередь обеспечению их интересов. Но иногда эти интересы рождаются не только из прагматических представлений, но и из историко-духовно-религиозных традиций. В таких случаях для понимания сути внешней политики, проводимой конкретным государством, важно заглянуть в корни его политико-дипломатической концепции, понять идею, лежащую в ее основе. Для российского государства это понятие-идеология "Третьего Рима", возникшая в XVI веке. Под влиянием этой концепции Россия осознает себя продолжателем Византийской империи и строит свою деятельность на ее основе. Интересно, что и в отношении России к Южному Кавказу мы видим влияние этих геополитических кодов. Поэтому, чтобы лучше понять политику Москвы на Южном Кавказе, необходимо, опираясь на историю, проанализировать политику, проводимую Византией в этом регионе, понять суть византийско-турецких отношений.

**Ключевые слова:** *геополитические коды, геополитическая преемственность, Третий Рим, российско-турецкие отношения, Южный Кавказ.*

## SUMMARY

Foreign policies are implemented to ensure that a state's interests are met. However, sometimes these interests are not only related to pragmatic ideas, but also to historical-spiritual-religious traditions.

Therefore, it is necessary to go through the concept taking root in political and diplomatic discourse to gain a better understanding of the essence of foreign policy in a particular state, namely the underlying idea.

Russia recognises this concept as the ideology

of the "Third Rome", which appeared in the XVI century. The influence of this concept makes Russia consider itself as a successor to the Byzantine Empire and develops its actions based on it. Interestingly, we observed the influence of these geopolitical codes in Russia's attitude to the South Caucasus.

Hence, it is essential to go back in time and analyze the policy of Byzantium in the South Caucasus region for an enhanced understanding of Moscow's policy in this region and the essence of Byzantine-Turkish relations.

**Keywords:** *geopolitical codes, geopolitical succession, Third Rome, Russian-Turkish relations, South Caucasus.*

### ƏDƏBİYYAT SİYAHISI

*1. Панова Т. Д. Софья Палеолог. М., 2005*

*2. Ульянов Олег Германович. Двуглавый орел от Рима к Третьему Риму: мифологизация Translatio Imperii (30.07.2018)*

*3. Синицына Н. В. Третий Рим. Истоки и эволюция русской средневековой концепции (XV—XVI вв.). — М.: Индрик, 1998*

*4. Тимошина Е. В. Теория «Третьего Рима» в сочинениях «Филофеева цикла» // Правоведение : журнал. — СПб., 2005. — № 4. — С. 181—208.*

*5. Богатырёв С. Н. Шапка Мономаха и шлем наследника: репрезентация власти и династическая политика при Василии III и Иване Грозном // Санкт-Петербургский государственный университет, 2011. — Январь-Июнь (№ 1 (9)). — С. 171—200*

*6. Ульянов Олег Германович. Двуглавый орел от Рима к Третьему Риму: мифологизация Translatio Imperii (30.07.2018)*

*7. Бжезинский, Збигнев. Великая шахматная доска. — М.: Международные отношения, 2010. — 256 с. — ISBN 978-5-7133-1375-3.*

*8. Арнольд Дж. Тойнби Цивилизация перед судом истории. Мир и Запад*

*9. AZƏRBAYCAN TARİXİ (ən qədim zamanlardan-XXI əsrin ilk onilliklərinədək), Ali məktəblər üçün dərslik, (yenilənmiş üçüncü nəşri), "Bakı Universiteti" nəşriyyatı, BAKI-2016*

*10. Беляев Н. И. Русско-турецкая война 1877—1878 гг. М. 1956 г.*

UOT 32

# QLOBALLAŞAN DÜNYANIN İNKİŞAF İSTİQAMƏTLƏRİ VƏ ÜMUMDÜNYA TİCARƏT TƏŞKİLATI

**SEVDA HÜSEYNOVA**
*Azərbaycan Respublikası Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının doktorantı*

*E-mail: sevda_adu@yahoo.com*

Məlum olduğu kimi, qloballaşma olduqca kompleks və ziddiyyətli bir konsepsiyadır. Termin olaraq 1980-ci illərdə daha geniş yayılsa da, qloballaşmanın universal olaraq qəbul edilmiş vahid tərifi yoxdur. Qloballaşma həm təsviri, həm də normativ mənada təfsir edilir. Təsviri mənada o, milli bazarların bir-biri ilə daha sıx bağlı olması, qlobal səviyyədə bazar strategiyalarının və siyasətlərinin vahid müstəvidə qərar verildiyi proses kimi başa düşülür. Normativ mənada isə qloballaşma milli iqtisadiyyatlarda ticarət və xarici investisiya rejimlərinin tətbiq edilməsi prosesi kimi anlaşılır [3, s.135]. Siyasətçilər qloballaşmanı fərdi cəmiyyətlərin dünya miqyasında siyasi, iqtisadi və mədəni proseslərə bərabər inteqrasiyası [25, s.210], iqtisadçılar isə mal, kapital və əmək bazarlarının beynəlxalq inteqrasiyası [12, s.110] kimi tərif edirlər. Qloballaşma eyni zamanda, dünya ölkələrinin davamlı inteqrasiya prosesi olmaqla texnoloji inkişaf, ticarətin liberallaşdırılması, millətlərüstü qaydaların artan zəruriliyi sayəsində daha da sürətlənən, milli əməkdaşlıq və iqtisadiyyatları hər zamankından daha çox rəqabətə sövq edən siyasi-iqtisadi bir prosesdir.

XIX əsrin ortalarından etibarən 2 əsas qloballaşma cərəyanı baş vermişdir. Birinci cərəyan XIX əsrin ortalarında başlamış və Birinci dünya müharibəsinin başlaması ilə dayanmışdır. İkinci epizod isə İkinci dünya müharibəsindən sonra başlamış və bu günə kimi davam etməkdədir [4, s.94]. Hər iki qloballaşma cərəyanı göstərdi ki, bu proses heç də “hamar” getməmişdir. XIX əsrin ortalarından XIX əsrin ortalarına kimi surətlə gedən qloballaşma, müharibə dövrləri arasında kəskin tənəzzül dövrü keçirmişdir. Hər iki qloballaşma cərəyanı zamanı mühüm siyasi və iqtisadi inteqrasiya – beynəlxalq təşkilatların və əməkdaşlıq birliklərinin yaranması, hərbi münaqişələrin qismən azalması, mədəni-ticarət əlaqələrin qurulması, ticarət-əmək bazarlarının geniş miqyaslı inteqrasiyası və s. müşahidə olunmuşdur.

Bu gün qloballaşma qarşısıalınmaz bir “icbari” prosesdir və hazırda müasir dünyada qloballaşmanın bir sıra əsas cərəyanları vardır. Onlar arasında beynəlxalq siyasi-iqtisadi əməkdaşlığa əsas təsir edən xüsusiyyətləri – a) beynəlxalq ticarətin genişlənməsi, b) beynəlxalq kapital axınının genişlənməsi və daha dərinləşməsi, c) istehsalın beynəlmiləlləşməsi və d) transmilli münaqişələr, maraqlar və transmilli idarəetmə arasında əlaqə [20, s.13]. Daha geniş miqyasda isə bu gün qloballaşma dünyanın inkişaf istiqamətləri müxtəlif beynəlxalq qurumlar, hökumətlərarası və millətlərüstü təşkilatlar tərəfindən müzakirə edilir. Hazırki beynəlxalq münasibətlərin inkişafına qloballaşma və inkişaf istiqamətlərinin də mühüm təsiri nəzərə alınaraq, məqalədə qloballaşma və müasir dünyanın inkişaf istiqamətlərində Ümumdünya Ticarət Təşkilatının rolu və qarşılıqlı təsir amilləri tədqiq edilir.

Qloballaşmanın dərinləşməsi fonunda siyasətçilər və iqtisadçılar onun regional inkişafa əks olması fikirləri ilə də çıxış etmişlər. İddia edilir ki, cari problemlərin həlli hazırda daha spesifik olduğu ölkələrin dar çərçivəsində deyil, qlobal səviyyədə, xüsusilə Böyük Yeddilik ölkələrin tərəfindən qərar verilir. Digər ölkələr və regionlar, inkişaf etməkdə və keçid dövründə olan ölkələr isə de-fakto olaraq ikinci cəbhə oyunçularıdır və onların dünyada baş verən proseslərə təsiri olduqca məhduddur. Bu regionların və ölkələrin əsas çətinliyi ümumi qloballaşma proseslərində öz həlli yollarını tapmaqdır [24, s.38]. Belə bir sual yaranır ki, qloballaşma və regionalizm bir-birini əvəz edir, yoxsa bir-birini tamamlayırmı? Dövlətlər birbaşa qlobal siyasət və iqtisadiyyata qoşulmalıdırmı, yoxsa əvvəl regional inteqrasiyaya uğurla nail olmalıdırlarmı? Bu sualların cavabları hər bir ölkə üçün səciyyəvi olmaqla yanaşı, onların coğrafi məkanından, tarixi və mədəniyyətindən, iqtisadi strukturundan asılıdır. Lakin bütün istinadlar onu göstərir ki, ölkələr müasir qloballaşma problemlərinin öhdəsindən gəlmək üçün öz strategiyasını hazırlamalıdır. Bu strategiyanın iki komponenti vardır – milli və re-

gional. Regional komponent üçün əsas şərt ölkənin maraqlarının regionda rəhbər tutulması, milli komponent üçün isə əsas şərt hökumətlərin rolunun yenidən təsbit edilməsidir [16, s.48]. Regional səviyyədə bu strategiya regionalizmin bir hissəsinə inkişaf etməkdə və keçid dövründə olan ölkələrin qloballaşmaya hazırlığının təminatına çevrilir. Qloballaşma və regionalizm iki fərqli güc tərəfindən idarə edilən iki prosesdir. Qloballaşma istehsalın beynəlmiləlləşməsi, beynəlxalq ticarət və ya kapital axını formasından asılı olmayaraq əsasən dünyada getdikcə artmaqda olan özəl şirkətlər tərəfindən reallaşdırılır. Regionalizm isə fərdi dövlətlərin hökumətləri tərəfindən idarə edilən beynəlxalq sazişlər, Avropa İttifaqı, MERKOSUR (Cənubi Amerika Ölkələrinin ümumi bazarı), NAFTA (Şimali Amerika Azad Ticarət Sazişi) və özəl sektor aktorları tərəfindən icra edilir [6, s.415].

Araşdırmamız göstərir ki, qloballaşan dünyanın qarşısında bir sıra inkişaf istiqamətləri vardır. Bunlar arasında USAİD tərəfindən əsas inkişaf istiqamətləri kimi hərbi münaqişələrin azaldılması ilə dünyada sülhün təminatı, ərzaq təhlükəsizliyi, qlobal iqlim dəyişikliyinin qarşısının alınması, qlobal səhiyyə təşəbbüsləri, su təminatı, elm və texnologiyanın inkişafı, təhsil, vətəndaşların təhlükəsizliyi (iş qüvvəsinin inkişafı, cinayətlərin qarşısının alınması, xüsusi risk qrupunda olan gənclərə dəstək və s.), innovasiyaların yaradılması göstərilir [26].

Məlumdur ki, Birləşmiş Millətlər Təşkilatı tərəfindən səkkiz beynəlxalq inkişaf məqsədi, iyirmi bir hədəf və altmış indikatoru özündə ehtiva edən Minilliyin İnkişaf Məqsədləri işlənib hazırlanmış və bu məqsədləri 192 ölkə, çox sayda beynəlxalq təşkilatlar 2015-ci ilə kimi nail olmağı məqsəd qoymuşdular. 2016-ci ildən etibarən isə BMT “2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”də əks olunan Dayanıqlı İnkişaf Məqsədləri (DİM-lər) qüvvəyə minmişdir. Hər kəsi əhatə edən və universal xarakter daşıyan bu yeni Məqsədlər fonunda, qarşıdakı on beş il ərzində ölkələr “heç kəsi kənarda qoymamaq” prinsipini rəhbər tutaraq, yoxsulluğun bütün formalarına son qoymaq, bərabərsizliklərə qarşı tədbirlər görmək və iqlim dəyişikliyi ilə mübarizə aparmaq məqsədilə bütün səylərini səfərbər edəcəklər. “Qlobal Məqsədlər” kimi də tanınan DİM-lər Minilliyin İnkişaf Məqsədlərinin (MİM-lər) əldə etdiyi nəticələrə əsaslanır və daha da irəli gedərək, yoxsulluğun bütün formalarının aradan qaldırılmasını hədəfləyir. Məhz bu məqsədlər qloballaşan dünyanın əsas inkişaf istiqamətlərini təsbit edir. Ümumdünya Ticarət Təşkilatının fəaliyyətindən irəli gələrək onun məramı əsasən həm səkkizinci – inkişaf üçün qlobal əməkdaşlıq [27, s.68], həm də yeddinci inkişaf məqsədinin - ətraf mühitin davamlılığı və bio-müxtəlifliyin qorunmasının icrasına töhfə verir. Daha dəqiq desək, ÜTT zəif inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdən olan ixracat üçün gömrük və preferensial tarifləri vasitəsilə daha yaxşı bazar təminatı şərtlərini təşviq edir. Digər tərəfdən isə ÜTT-nin təsis sazişi təsbit edir ki, üzvləri arasında iqtisadi münasibətlər “davamlı inkişaf məqsədinə uyğun olaraq dünya ehtiyatlarından optimal istifadə” əsasında təşkil olunmalıdır [19, s.541]. Bundan başqa ÜTT fəaliyyətləri həm də birinci dayanıqlı inkişaf məqsədi – yoxsulluq və aclığın aradan qaldırılması məqsədinə də aiddir. ÜTT BMT alt-qurumları ilə yaxın əməkdaşlıq çərçivəsində, ticarət ilə əlaqədar olan Minilliyin İnkişaf Məqsədlərinə, daha sonra isə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunma səviyyəsini yoxlayır.

ÜTT-nin qloballaşma və beynəlxalq münasibətlərdə artan roluna onun təsis strukturu və şəbəkə prinsip əsasında fəaliyyəti də mühüm təsir göstərən amillərdəndir. Ümumdünya Ticarət Təşkilatı beynəlxalq iqtisadi təşkilatlar arasında nisbətən daha gəncidir. Ona qədər mövcud olan Ticarət və Tariflər üzrə Baş Sazişi (ingilis sözlərinin baş hərfləri ilə GATT) tam mənada şəbəkə təşkilatı deyildi. Həmin zaman dünyanın iki zidd sistemə bölünməsi və qütblərin kəskin qarşıdurması səbəbindən o, ciddi millətlərüstü təşkilata çevrilə bilməmişdi. GATT həmin zaman beynəlxalq ticarətin liberallaşdırılması və beynəlxalq münaqişələrin həlli üzrə razılaşdırılmış şərtlərin real icrasını təşkil edəcək yeganə beynəlxalq saziş olmaqla, [8, s.41], 1947-1948-ci illərdə 53 ölkənin iştirakı ilə keçirilmiş Havana Beynəlxalq Konfransının “tör-töküntüsü” idi. Sonda Beynəlxalq Ticarət Təşkilatının yaranması haqqında xartiya imzalanmışdı [15, s.454]. Lakin ABŞ Konqresi bu xartiyanı ratifikasiya etmədiyi üçün bu təşkilat yaranmadı. GATT-in ÜTT-ə çevrilməsi 8 il davam edən (1986-1994-cü illər) uzun müddətli Uruqvay raundu nəticəsində yarandı. Ümumilikdə, ÜTT-nin yaranması nə az, nə çox 47 il çəkdi. Beləliklə, 15 aprel 1994-cü ildə 123 dövlət tərəfindən imzalanmış

Mərakeş sazişi əsasında 1995-ci il yanvarın 1-dən ÜTT fəaliyyətə başladı.

Bəzi tədqiqatçılar beynəlxalq bir təşkilat olaraq ÜTT-nin funksionallığına bir neçə mövqedən yanaşırlar. Hər şeydən əvvəl, qeyd edildiyi kimi, ÜTT ticarətin liberallaşdırılması üçün bir təşkilatdır. Hökumətlər üçün ticarət sazişlərinin müzakirəsi üçün bir forumdur. Ticarət mübahisələrinin həlli üçün bir platformadır. O, ticarət qanunlarını yaradır. ÜTT-nin özü də danışıqlar nəticəsində yaranmışdır. Onun əsas həll mexanizmi də danışıqlardır. Təşkilatın hazırkı fəaliyyətinin böyük bir hissəsi 1986-1994-cü illər Uruqvay Raundu və Tariflər və Ticarət üzrə Baş Saziş (GATT) danışıqlarından qaynaqlanır. Daha sonra onun gündəliyini 2001-ci ildə təşkil edilmiş Doha İnkişaf Proqramı zənginləşdirmiş oldu [22, s.2]. ÜTT təkcə ticarətin liberallaşdırılması deyil, həm də ticarət maneələrinin aradan qaldırılmasına dəstək verən bir quruma çevrildi. ÜTT sazişləri, dövlətlər tərəfindən imzalanmış razılaşmalar beynəlxalq ticarət üçün hüquq baza qaydaları təmin etdi. Bu qaydaların əsas məqsədi mal və xidmət istehsalçıları, ixracatçılar və idxalatçılara öz bizneslərini sağlam yürütməsi və bu zaman həmin dövlətlərə sosial və ətraf mühit məqsədlərinə də sadiq qalmasını təmin etməkdir. ÜTT-nin əsas məramı ticarətin mümkün olduğu qədər azad aparılması və bu zaman arzuolunmaz əks təsirlərə yol verilməməsinə nail olmaqdır ki, bu da iqtisadi inkişaf və rifah üçün olduqca vacib bir amildir [11, s.4]. Buraya həm də fərdlər, şirkətlər və hökumətlərə dünya miqyasında sağlam ticarət qaydalarını yeritmək və onlarda qlobal ticarətə etimad formalaşdırmaq daxildir. Həmin mövqedən yanaşılarsa, o zaman ticarət qaydaları tam şəffaf və gözlənilən olmalıdır.

İdarəetmənin şəbəkə mexanizmləri ÜTT-nin qloballaşmanın siyasi aktoru kimi fəaliyyət göstərməsinin əsasını təşkil etmişdir. ÜTT mexanizminin əsasında çoxtərəfli öhdəliklər, iştirakçı dövlətlər tərəfindən bu təşkilatın ticarət siyasəti alətlərindən istifadə dayanır [1, s.310]. Çoxtərəfli sazişlər GATT və Uruqvay raundunda da öz əksini tapan aşağıdakı elementləri əhatə edir:

• Çoxtərəfli ticarət sazişlərinin tənzimlənməsi sisteminin əsas prinsipləri;

• Ticarət məhdudiyyətləri sahəsində iştirakçı dövlətlərin fərdi öhdəlikləri (GATT-da gömrük tarifləri, ÜTT-də gömrük tarixləri, kənd təsərrüfatı mallarının ticarətinə subsidiyaların tətbiqi);

• Ticarət məhdudiyyətlərinin və digər tənzimlənmə tədbirlərinin tətbiqi qaydalarının əsasları;

• Sazişlərin tətbiqi ilə əlaqədar ticarət mübahisələrinin həlli mexanizmi [2, s.33].

ÜTT-nin şəbəkə mexanizminin qlobal idarəetmədə olan siyasi mövqeyini əks etdirmək üçün çoxtərəfli sazişin yuxarıda göstərilən ilk elementi aşağıda daha ətraflı nəzərdən keçirilir. Beləliklə, çoxtərəfli sistemin əsas prinsipləri ayrı-seçkiliyə yol vermək, daha açıq, şəffaf, rəqabətli, zəif inkişaf etmiş ölkələr üçün daha faydalı olmaq və ətraf mühiti mühafizə etməkdir.

Mühafizəkar fikirli tənqidçilər ÜTT-ni milli suverenliyə təhdid hesab edirlər. Lakin amerikan jurnalisti Tomas Fridman “The Lexus and the Olive Tree” [7, s.234] və “The World is Flat” [6, s.234] kitablarında qeyd etdiyi kimi, hazırki qlobal qarşılıqlı asılılıq şərtlərində təcridetmə istənilən halda dünya sistemindən çıxarılmağa bərabərdir.

ÜTT çərçivəsində Uruqvay raundunun nailiyyətinin, daha doğrusu “Sağçı ÜTT”nin islah edilməsi uğrunda mübarizə aparılır. Bu sistemdə kifayət qədər yüksək hədəfli prinsiplər və beynəlxalq ticarət qaydaları ehtiva edilmişdir. Həmin sənədlərin əksəriyyəti 1940-1950-ci illərdə GATT dövründə tərtib edilmişdir. Digər bir qismi isə 1970-ci illərdə yaradıldı və ÜTT-nin hüquqi sənədlərində daha da təkmilləşdirilmişdir və onun fəaliyyəti dövründə yeniləri qəbul edilmişdir. Habelə, 1995-ci ildən bəri o sənədlərin əksəriyyəti təkmilləşmə baxımından geri qalmış və Şimal (inkişaf etmiş ölkələr) və Cənub (inkişaf etməkdə olan ölkələr) arasında fərqi daha da dərinləşdirmişdir [24, s.117].

ÜTT-də gedən ticarət mübahisələrinin dinamikasının araşdırılması göstərir ki, ABŞ və Avropa İttifaqı tərəfindən saysız-hesabsız mübahisə iddiaları qaldırılmışdır. Ondan da dəfələrlə çox müxtəlif dövlətlər tərəfindən onlara qarşı iddialar qaldırılmışdır [5, s.6]. İnkişaf etməkdə olan ölkələr ÜTT-də xüsusi üstünlüklərə malikdirlər. Onlar yavaş-yavaş təşkilatı səmərəli lobbiçilik meydanına çevirirlər. Bununla da beynəlxalq səviyyədə öz siyasi nüfuzlarını artırırlar. Hətta inkişaf etməkdə olan ölkələr tərəfindən onların maraqlarına uyğun olmadığı üçün çoxtərəfli danışıqların bloklanması halları da az olmamışdır. Onlardan biri də 1999-cu ildə Sieteldə olmuşdur [23]. İnkişaf etməkdə

olan ölkələrin mövqeyi kifayət qədər sərtdir. Onlar ÜTT-nin səlahiyyətlərinin genişləndirilməsinə və yeni fəaliyyət sahələrinin artırılmasına qarşı çıxış etməklə yanaşı, öz mallarının ixracı üçün aparıcı dövlətlərdə yeni bazarların yaradılması nail olmağa çalışmışdılar.

Yeni iqtisadi dünya sistemdə məsələn, Çin kimi dinamik inkişaf edən iqtisadiyyatlar daha geniş səlahiyyətlər və təmsilçilik əldə etməlidirlər. NATO həm də onu irəli sürürdü ki, danışıqların gedişatında güzəştə getməyən "outsayder" ölkələr tariflərin liberallaşdırılmasında üstünlüklər əldə etməməlidir. Həmçinin danışıqların dinamikliyinə görə hesab edilirdi ki, Doha raundu nəticələrindən asılı olmayaraq sonuncu olmalıdır [10].

Ən uzun müddətli danışıqlar raundu olan [10] Doha raundunda əsas çətinlik mal və xidmətlərin azad ticarəti ilə kənd təsərrüfatı sektorunda proteksionizmin saxlanılması (bu inkişaf etmiş ölkələr tərəfindən əsas tələbdir) və digər tərəfdən kənd təsərrüfatı malları üzrə ədalətli ticarətin təminatı (bu isə inkişaf etməkdə olan dövlətlərin əsas tələbidir) arasında razılığın əldə edilməməsi idi. Bunun nəticəsində hökumətlər arasında çox sayda ayrı-ayrı azad ticarət sazişləri də ərsəyə gəlmişdi [17, s.2].

Doha raundunda əhəmiyyətli irəliləyişlər demək olar ki, 2011-ci ildə Davosda Dünya İqtisadi Forumunun keçirilməsi və 2013-cü ildən sonra Bali Nazirlər Konfransında bəyannaməsinin qəbulu ilə əldə edildi. 2012-ci ilin iyul ayında isə ÜTT sistemində kənd təsərrüfatı ticarət danışıqları üzrə ayrıca qruplar yaradıldı [172, s.102]. Bali bəyannaməsi ilə ticarətdə bürokratik maneələrinin aradan qaldırılması üzrə qərar qəbul edildi. 2015-ci ildə Kenya paytaxtı Nayrobidə keçirilən görüş Doha raundunun sonu kimi qəbul edilir. Belə ki, Nayrobi görüşü on dörd illik danışıqların uğursuzluğunu qəbul edərək inkişaf etməkdə olan dövlətlərə subsidiyaların ixracının dayandırılmasına qərar verdi [14, s.1]. Dövlətlər də Doha raundunun bağlanması və irəliyə - növbəti mərhələyə keçilməsi labüdlüyünü vurğulayırdılar. Nayrobi görüşü ilə Doha raundu bitdisə, o zaman raudun uğurları oldumu? Bu suala cavab olaraq əksər ekspertlər Nayrobi görüşünün əsas uğurunun subsidiyaların dayandırılması olduğunu hesab edirlər [17]. Görüşdə yeni üzvlər Ticarətin sadələşdirilməsi sazişini imzaladılar. Nayrobi görüşündən iki ay əvvəl, 2015-ci ilin sentyabrında ÜTT 50-ci dövləti bu sazişə qoşulmasını qeyd etmişdisə, Nayrobi görüşündə bu rəqəm 63-ə çatdı. Həmçinin Nayrobi görüşünün digər bir mühüm uğuru ÜTT konfrans zamanı İkinci İnformasiya Texnologiyaları üzrə Sazişin vasitəsilə yeni ticarətin liberallaşmasına nail olunacağını qeyd etdi. Bu element Doha gündəliyinin xüsusi bir hissəsi olmasa da ÜTT-nin ticarətin liberallaşdırılmasının təşviqi vəzifəsini yerinə yetirdiyini göstərirdi [13].

Ümumilikdə ÜTT-nin hər üç funksional mərhələsində – ticarətin liberallaşdırılması və yeni ticarət qaydalarının yaradılması, ticarət siyasətlərinin monitorinqi və mübahisələrin həlli – sahəsində islahatlara ehtiyac vardır. 2016-ci ilin iyun ayında Obama Administrasiyasının qərarı ilə, Appelyasiyaya Orqanının ABŞ əleyhinə qəbul etdiyi qərara görə, ABŞ-ın Cenevrədəki ÜTT nümayəndəsi ÜTT Appelyasiya Orqanına yeni üzvlərin seçilməsi prosesini bloklamış oldu [14]. 2017-ci ildə isə Tramp Administrasiyası bu qərarı qüvvədə saxlamaqla, Appelyasiya Orqanına qarşı şikayətlər qaldırmağa başladı. Xatırladaq ki, bu orqan ÜTT mübahisələrin həlli sisteminin ikinci səviyyə strukturudur. 7 üzvü olan bu Orqanın, 3 üzvü qaldı və bu da onun yetərsizliyi demək idi. Ona görə də ÜTT-yə çıxarılan mübahisələr üzrə birinci instansiyada qəbul olunmuş qərarların faktiki olaraq appelyasiyaya verilməsi mümkün olmadığı üçün bu dövlətlərin narazılığına və kiçik miqyaslı ticarət müharibələrinə səbəb ola bilir. Ona görə də, 2019-cu ildə Appelyasiya Orqanının daha bir üzvünün də istefa verməsi ilə yalnız bir üzv qalması və ABŞ tərəfindən yeni üzvlərin seçilməsinin bloklaşdırılması ÜTT-ni yaradılışından bəri ən ciddi böhrana sürükləmiş oldu [9].

Qeyd edək ki, Amerika Birləşmiş Ştatlarının demokratlar və respublikaçılar partiyasının ÜTT-yə yanaşması fərqli və bir qədər tənqidi olmuşdur. COVİD-19 pandemiyasının əvvəllində ABŞ prezidenti Tramp sərt çıxış edərək ABŞ-ın ÜTT üzvlüyünü dayandırmaq niyyətini bildirirdi. Bunun ardınca senator Hauley sərt qətnamə çıxardaraq ÜTT-nin ümumiyyətlə ləğv olunmasını təklfi etmişdir [21]. Bu sərt qətnamə birtərəfli qarşılanmamışdır və senator Hauleyin nitqində təkzibedici məqamlar müşahidə olunmuşdur. Əvvəla, Hauley qeyd edir ki, ÜTT buraxılmalı və ÜTT yaranmasından 50 il əvvəlki dünya ticarət düzəni sisteminə qayıtmalıyıq [22]. Sual olunur, elə ÜTT-dən 50 ilki mərhələ GATT dövrü – yəni

ÜTT-nin yaradılmasının əsası qoyulduğu dövr deyilmi? Dünya nə üçün geriyə qayıtmalıdır?! Daha sonra isə hakimiyyətə gələn demokratlar partiyasının nümayəndəsi C.Bayden ÜTT-yə daha yumşaq münasibət göstərmiş və Amerikan politoloqlarının fikrincə Bayden administrasiyası ABŞ ilə ÜTT münasibətlərinin daha da yaxşılaşmasına nail ola bilər. ABŞ və Çin arasında olan qlobal ticarət müharibəsi hesab edilir ki Bayden dövründə daha da nizamlanar və bu da yeni ticarət erasının başlanğıcı ola bilər [9].

Yeni Zellandiyanın ÜTT səfiri David Valker bu böhranın aradan qaldırılması üzrə fasilitator təyin olundur və ona Appelyasiya Orqanının funksionallığının bərpası üzrə təkliflər hazırlanması tapşırıldı. Nəticədə Valker Prinsipləri hazırlandı və bu prinsiplərə əsasən strukturun islahatlarına – qərarları 90 gün ərzində qəbul etmək mandatı, Appelyasiya Orqanı üzvlərinin ikinci müddətdən sonra tutduqları vəzifəni tərk etmələri, Orqanın mübahisə tərəflərinin qaldırdığı mübahisə predmeti məsələlərinə baxması şərti, panel hesabatlarına presedent kimi deyil, lazım olduqda istinad edilməsi daxil edildi [28] və bu Prinsiplərin qəbul və tətbiq edilməsi hazırda ÜTT islahatlarında ilk və əsas həlledici mərhələ hesab edilir.

ÜTT-nin modernləşməsi istiqamətində islahatların tələb olunduğu sahələrə COVİD-19 pandemiyasının da labüdləşdirdiyi rəqəmsal ticarət və elektron kommersiya da daxildir. Pandemiyanın yaratdığı çətinliklər nəticəsində əksər ölkələrdə hökumətlər tərəfindən ayrılan subsidiyalar ilə bağlı məsələnin də həll edilməsi vacibdir (Çinin ticarət siyasətləri və təcrübələri, dövlət paylı müəssəsisələrin və sənaye subsidiyalarının idarə edilməsi ÜTT üzvləri üçün nümunə ola bilər). Ticarətin davamlılığını təmin etmək təkcə pandemiya ilə mübarizə üçün deyil, həm də tənəzzülə uğramış iqtisadiyyatların bərpasının dəstəklənməsi üçün, gələcəkdə daha davamlı, inklüziv və dayanıqlı dünya naminə əsasların təmin edilməsi üçün də vacibdir.

Beləliklə, aparılmış təhlillərdən və faktların ümumiləşdirməsindən, belə qənaətə gəlmək olar ki, müasir dünya inkişafı istiqamətləri siyasi amillərdən daha çox iqtisadi amillərə əsaslanar. Qloballaşan dünya qarşısında sülhün təminatı əsasında iqtisadi artım, yoxsulluğun aradan qaldırılması, alternativ enerji mənbələrinin yaradılması, texnoloji innovasiya, ərzaq təminatı, təhsilin və səhiyyənin inkişafı kimi inkişaf məqsədləri yalnız qlobal əməkdaşlıq səviyyəsində mümkündür. Qloballaşmaya təsir edən əsas amillər texnoloji innovasiyalar, daha geniş siyasi dəyişikliklər və iqtisadi siyasətlərdir. Bu istiqamətdə isə qlobal iqtisadi siyasətlərin formalaşmasında isə ÜTT-nin rolu beynəlxalq ticarət qaydalarının işlənməsi, beynəlxalq ticarətin yürüdülməsi, gömrük tariflərinin tənzimlənməsi, ticarət siyasətlərinin formalaşdırılması və ən mühümü ticarət mübahisələrinin həlli əsasında danılmaz olmuşdur. Artan ikitərəfli və regional ticarət sazişləri, ticarətin liberallaşdırılması, inkişaf etməkdə olan ölkələrin daha çox sənayeləşdirilməsi, bəziləri üçün ilk dəfə olaraq ticarət siyasətlərinin formalaşdırılması, ixrac yönümlü inkişaf strategiyalarının yürüdülməsi ÜTT-nin qloballaşmaya verdiyi əsas töhfələrdən biri hesab etmək olar.

Göründüyü kimi, ÜTT-nin yaradılması tarixi iqtisadi proseslərin nəticəsi olmuşdur. Onun strukturu digər beynəlxalq təşkilatlar ilə müqayisədə, daha çox siyasi təsir gücü vermiş və beləliklə, şəbəkə mexanizminin də sayəsində qloballaşmanın əsas aktoruna çevirmişdir. Bu təsirin idarəedilməsi və yönləndirilməsi səbəbindən irəli gələrək təşkilatın strukturu və funksionallığının təkmilləşdirilməsinə aid fərqli fikirlərin, bəzi hallarda bir-birinə ziddiyyət təşkil mövqelərin olduğu müşahidə olunur. Hər bir fikrin müəyyən üstün tərəfləri və çatışmazlıqları vardır. NATO-nun mövqeyi bəllidir: bir vaxtlar GATT-ın təşəbbüskarı olan ABŞ üçün ÜTT artıq bir təhlükə olmağa başlayır [24, s.17]. ÜTT-yə üzvlərinin əksəriyyəti zəif iqtisadiyyata və qeyri-sabit siyasətə malik inkişaf etməkdə olan ölkələrdir. Buna baxmayaraq onlar mübahisələrin həlli orqanında ABŞ ilə eyni səviyyədə iştirak edə bilər və mübahisələrə baxılma üçün ekspertlər qrupu (tretey) qrupunu öz tərəfinə cəlb edə bilər. Bununla yanaşı, ÜTT hüququ ABŞ üçün artıq qəbuledilməzdir. Çünki, o ABŞ-a proteksionizm siyasətini tam yürütməyə maneəçilik yaradır, üçüncü dünya ölkələrindən ölkəyə idxal üçün müəyyən maneələrə səbəb olur [31, s.171]. Onların məntiqi yanaşması demokratik və ya praqmatik mövqedən daha çox praktikidir – dünyada mal dövriyyəsində xüsusi töhfəsi olan dinamik inkişaf edən iqtisadiyyatlar töhfə verməyən “outsayder” dövlətlərdən daha çox səs hüququna malik olmalıdırlar.

Hazırda bu əlaqələrin təkmilləşdirilməsində qloballaşma, regionalizm, müasir qlobal qarşılıqlı əks-təsir, qlobal dünya aktorlarının siyasi-iqtisadi məsələlərə və sistemdə olan dəyişikliklərə qarşı həssaslığı nəzər alınmalıdır. Beynəlxalq iqtisadi sistemin yenidən qurulması, o cümlədən "Böyük Üçlük" təşkilatlarının buraxılması gözlənilməz mənfi nəticələrə, qarşılıqlı təsir sisteminin və institutların funksionallığının pozulmasına və siyasi böhrana gətirib çıxara bilər. ÜTT müəyyən mənada böyük oyunçuların maraqlarını rəhbər tutur və bununla da daha zəif iqtisadi təsirə və mühafizə edilən sistemə malik olan kiçik dövlətləri zərbə altında qoyur. Siyasi (ölkələr arasında sülh tərəfdaşlığının moderatoru kimi) və iqtisadi (dünya iqtisadiyyatında vahid hüquq normalarının yaradıcısı kimi) rolunu nəzərə alaraq ÜTT -də bəşəri təhlükəsizlik nəzəriyyəsi əsasında islahların aparılması onu fərdi inkişaf və ehtiyacları əsasında fərdi yanaşma sayəsində uğurlu bir təşkilata çevrilməsinə yardım edər. Xüsusilə COVİD-19 pandemiyası fonunda yaranmış dərin iqtisadi tənəzzül kontekstində modernləşmiş və tam funksional ÜTT-nin olması həmişəkindən daha vacibdir və ÜTT-ni beynəlxalq ticarəti tənzimləyən beynəlxalq təşkilat kimi saxlamaq və funksionallığını təmin etmək, təşkilatın yaradılması təşəbbüskarı olan ABŞ və Avropa İttifaqının marağındadır. ÜTT-nin modernləşdirilməsi və təşkilatda islahatların aparılması üçün zaman məsələsidir və 2021-ci il bu sahədə mühüm irəliləyiş ilə yadda qalacağı hesab olunur.

## ƏDƏBİYYAT SİYAHISI


***Rus dilində:***

*1. Данильцев, А.В. Основы торговой политики и правила ВТО / А.В.Данильцев. – Москва: Международные отношения. – 2006, – 448 с*

*2. Иванова, С.В. Всемирная торговая организация. Учеб. пособие. / С.В.Иванова. – Москва: Экономистъ, – 2007. – 317 с*

*3. Сорос, Дж. О глобализации / Дж.Сорос. – Москва: Эксмо, – 2004. – 244 с*

*4. Тангян, А.С. Неолиберальная глобализация. Кризис капитализма или американизация планеты? / А.С.Тангян. Современная экономика и право, – 2004. – 240 с.*

***İngilis dilində:***

*5. EU scraps sanctions against Cuba // Guardian. 20 June 2008*

*6. Friedman, P. The World Is Flat 3.0: A Brief History of the Twenty-first Century / P.Friedman. Picador; 3 edition. – 2007. – 660 p*

*7. Friedman, T.L. The Lexus and the Olive Tree. Farrar, Straus and Giroux Publisher / T.L.Friedman. – United States: – 1999. – 394 p*

*8. Goldstein, J., Rivers, D., Tomz, M. Institutions in International Relations: Understanding the Effects of the GATT and the WTO on World Trade. Volume 61, Issue 1.*

*9. Goldstein, J. A New Era for Trade? AJIL Unbound, 115, 52-56. doi:10.1017/aju.2020.91, – 2021*

*10. Goodbye Doha, hello Bali. // The Economist. 8 September 2012*

*11. Guzman, A.T. Against Global Governance in WTO. // Harvard International Law Journal, Volume 45, Number 2, Summer 2004. – p.353-365.*

*12. Helleiner, G.K. Markets, Politics, and Globalization: Can the Global Economy Be Civilized? Global Governance. Critical Concepts in Political Science / Ed. By Thimothy Sinclair. Vol.4. – London-NY: – 2004. – 265 p.*

*13. Inter-linkage between external liberalization and internal refonn./AVoiking Group on Trade, Debt and Finance. WT/WGTDF/W/29., p. 7//ww\v.\vto.org*

*14. International Monetary Fund http://www.imf.org/*

*15. Joanne, G. and Yeon K.S., An Exclusive Country Club: The Effects of GATT on Trade 1950-94. // World Politics.Volume 57, Number 4, July 2005. – p.453-478.*

*16. Keohane, Robert O.&Nye. Power and Interdependence revisited / Keohane, Robert O.&Nye, S.Joseph. Longman Classics in Political Science. – 2011 – 58 p.*

*17. Lester, S. Is the Doha Raund Over? The WTO's Negotiating Agenda for 2016 and Beyond. Cato University. Free Trade Bulletin. No 64. Feb. 2016.*

*18. Meltzer, J. The Challenges to the World Trade Organization: It's All About Legitimacy. // Global Economy and Development Policy Paper 2011-04. THE BROOKINGS INSTITUTION. – Washington: – 2011. – 18 p.*

*19. Padideh, A. A Human Rights Critique of the WTO: Some Preliminary Observations. // George Washington International Law Review (2000-2002),*

*Paper 303. Washington, - 2002. – p.537-553*

*20. Robert, G. Global Political Economy: Understanding the International Economic Order / G.Robert. Princeton. Description and chapter 1, "The New Global Economic Order". – 2001. – 24 p*

*21. Senator Hawley Introduces Joint Resolution to Withdraw from WTO (internet resurs) [https://www.hawley.senate.gov/senator-hawley-introduces-joint-resolution-withdraw-wto]*

*22. The WTO and Doha Raund: Walking on Two Legs // Economic Premise/ Poverty Reduction and Economic Management Network. Number 68. – Washington DC: – 2011. – 6 p.*

*23. Weeks, J. Getting past the Doha Round crisis: Moving forward in the WTO. // VOX CERP's Policy Portal. 28 may 2011*

*24. Williamson, J.G. Trade and Poverty: When the Third World Fell Behind / J.G.Williamson. The MIT Press, Reprint edition. – 2013. – 220 p*

*25. Woods, N. (Co-Author) Inequality, Globalization, and World Politics / N.Woods (Co-Author). Oxford University Press, – 1999. – 366 p.*

*26. Woods, N. Power Shift. Do we need better global economic institutions? / N.Woods. – London: Institute for Public Policy Research. – 2007. – 26 p*

*27. WTO Annual report 2016. Dispute settlement. P. 102.January 2007, – p.37-67*

*28. WTO General Council agenda item 4 informal process on matters related to the functioning of the appellate body – report by the facilitator, H.E.DR. David walker (New Zealand). 15 October 2019*

**Açar sözlər:** *Qloballaşma, Ümumdünya Ticarət* Palatası, dayanıqlıq inkişaf məqsədləri, qlobal əməkdaşlıq, Doha raundu, ÜTT-də islahatlar

**SUMMARY**

**Development trends in globalized world and the World Trade Organization**

Nowadays globalization is kind of "mandatory" and inevitable process and currently there are several trends of modern globalization. In a broader scope development trends of the globalized world are being discussed by different international entities, intergovernmental and supra-national organizations. In consideration with the impact of globalization to the current international relations, the article focuses on the role and contribution of the World Trade Organization in / to the development trends of international cooperation. The article describes how the establishment of WTO was the actual outcome of historic-economic processes and that the WTO holds more political impact on the international economic relations in comparison with the other international organization. This article also expresses the need for reforms in the WTO to ensure its proactive participation in the globalization and those needs have been escalated to high importance in the context of COVID-19 pandemic.

**Key words:** *Globalization, World Trade Organization, sustainable development goals, global partnership, Doha Raund, reforms in WTO*

**РЕЗЮМЕ**

**Тенденции развития глобализирующего мира и Всемирная Торговая Организация**

Сегодня глобализация - это непреодолимый «принудительный» процесс, и сегодня существует ряд основных тенденций глобализации в современном мире. В более широком масштабе тенденции развития современного глобализированного мира обсуждаются различными международными организациями, межправительственными и транснациональными организациями. Учитывая важное влияние глобализации и тенденций развития на развитие современных международных отношений, в статье исследуются роль и факторы взаимодействия Всемирной торговой организации в развитии глобализации и современного мира. Анализируется, что создание ВТО является результатом исторических экономических процессов, ее структура имеет большее политическое влияние, чем другие международные организации. Также описывается реформы, которые необходимы в ВТО после пандемии COVID-19.

**Ключевые слова:** *Глобализация, Всемирная Торговая Организация, Цели Устойчевого Развития, раунд Доха, реформы в ВТО.*

UOT 342.34

# ŞƏKİ-ZAQATALA REGİONU AZƏRBAYCAN RESPUBLİKASININ GÜRCÜSTAN VƏ RUSİYA FEDERASİYASI İLƏ TRANS-SƏRHƏD ƏMƏKDAŞLIQ SİSTEMİNDƏ

**SİMNAR MAMEDOV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*

*E-mail: simnar86@gmail.com*

Sərhədyanı ölkələrdə mövcud vəziyyət regionda sosial, iqtisadi və siyasi proseslərə əhəmiyyətli təsir göstərir və bu təsir həm müsbət, həm də mənfi ola bilər. Regionun inkişafında sərhədəyanı bölgələrin roluna yerli əhalinin qonşu ölkələrə münasibəti, miqrasiyanın səviyyəsi, sərhədyanı bölgələrdə biznesin aparılması təcrübəsi, coğrafi-iqlim şəraiti, sərhədyanı əməkdaşlıq üçün infrastrukturun inkişaf səviyyəsi kimi amillər təsir göstərir. Bununla yanaşı, regiona iqtisadiyyatı nisbətən kiçik olan sərhədyanı rayonların daxil olması nəticəsində sərhəd qoşunlarının və gömrük orqanlarının mövcudluğu, regionda məşğulluğun səviyyəsinəmüsbət təsir edir və gəlirlərin artmasına səbəb olur.

Sərhədlər ölkələri biri-birindən ayırmaqla onların aşağıdakı sahələrdə fərqlənməsinə səbəb olur:

- Coğrafiya: resurslar, topoqrafiya, ətraf mühit;
- Demoqrafiya: əhalinin yaş strukturu, artım tempi, sayı, milli tərkibi və sıxlığı;
- İqtisadiyyat: istehsal amillərinin mövcudluğu, iqtisadiyyatın strukturu, uzunmüddətli artım tempi, inkişaf səviyyəsi;
- Siyasi sistem: mərkəzləşdirmə və qeyri-mərkəzləşdirmə, hökumət funksiyalarının təçkili, hüquqi sistem, ümumi praktika;
- Mədəniyyət: tarix, etnik tərkib, dil, ənənə [1, s.20].

Çoğrafi və iqtisadi amillərdəki fərqlər ölkələr, o cümlədən həmsərhəd regionlar arasında iqtisadi əlaqələrin formalaşmasına müsbət təsir göstərdiyi halda, siyasi və mədəni amillərdəki fərqlər bu əlaqələrin inkişafını məhdudlaşdırır.

Şəki-Zaqatal iqtisadi rayonu Gürcüstan və Rusiya ilə sərhəddə yerləşir. Regionun Balakən, Zaqatala və Qax rayonlarının həm Rusiya, həm də Gürcüstanla sərhəddi, Şəki, Oğuz və Qəbələ rayonlarının yalnız Rusiya ilə sərhəddi vardır. Rusiya ilə sərhəd dağlıq ərazilərdən ibarət olduğundan və bu ərazilərdə məskunlaşma səviyyəsi həddən artıq aşağı olduğundan bu ölkə ilə nəqliyyat əlaqələri yoxdur. Bununla yanaşı, iqtisadi rayonun Gürcüstanla nəqliyyat əlaqələri mövcuddur. Bu əlaqələr əsasən Gürcüstanın Kaxeti vilayəti ilə yaradıla bilər. Gürcüstanla sərhəd əlaqələri Balakən və Zaqatala rayonlarının ərazisindən mümkündür. Balakən rayonunun ərazisində “Mazımçay” gömrük sərhəd buraxılış məntəqəsi, Zaqatala rayonunun ərazisində isə “Muğanlı” gömrük sərhəd buraxılış məntəqəsi fəaliyyət göstərir.

Qeyd etmək lazımdır ki, məkan amilləri iqtisadi əlaqələrin inkişafına müxtəlif aspektlərdən təsir göstərir. Bu aspektlərdən ikisi: məsafənu qət etmə və sərhəddi keçmə ilə bağlı xərclər iqtisadi münasibətlərin formalaşması xərclərinə əhəmiyyətli dərəcədə təsir göstərir. Belə ki, Şəki-Zaqatala iqtisadi rayonunun Rusiya sərhəddi yüksək dağlıq ərazilərdən keçdiyindən mövcud təbii sərhədlər regonun Rusiyanın sərhəd regionları ilə iqtisadi əlaqələrini məhdudlaşdır. Regionun Gürcüstanla əlaqələrinə isə məsafə və sərhəddi keçmə xərcləri əhəmiyyətli dərəcədə təsir göstərir. Belə ki, Gürcüstanın Katexi əyaləti ilə Balakən rayonunda sərhəd keçid məntəqəsi fəaliyyət göstərir. Şəki-Zaqatala iqtisadi rayonunda yaşayan əhalinn Gürcüstana keçidi əsasən bu keçid məntəqəsi vasitəsilə həyata keçirilir ki, bu da dağ kəndlərində yaşayan əhalinin Gürcüstanın qonşu kəndlərlə gediş-gəlişi üçün əlavə məsafə qət etmələrinə səbəb olur. Bununla yanaşı, Rusiya və Gürcüstanla azad ticarət münasibətlərinin formalaşması və vizasız gediş-gəlişlər sərhəddi keçməklə bağlı sərf olunan xərc və vaxtın azalmasına səbəb olur. Bütövlükdə, sərhədyanı iqtisadi əlaqələrin inkişafı üçün zəruri infrastrukturun olması vacibdir. Sərhədyanı infrastrukturun inkişafı aşağıdakı amillərdən asılı olur:

- sərhəd: sərhəddin olması sərhədyanı tərəfdaşların əməkdaşlığı üçün əhəmiyyətli maneə ola bilər
- infrastrukturun inkişafının idarəedilməsi:

sərhəddin hər iki tərəfindən infrastrukturun inkişafının qeyri-mərkəzləşdirmə dərəcəsinin fərqli olması infrastruktur təminatı ilə bağlı qərarların müxtəlif səviyyəli orqanlar tərəfindən təsdiqinə səbəb ola bilər. Bu amil də bu istiqamətdə danışıqlarda çətinliklər yaradır;

- iqtisadi inkişaf: sərhəddin hər iki tərəfindəki regional iqtisadiyyatların inkişafının fərqli olması infrastrukturun inkişafı üçün fərqli imkanlar yarada bilər. Belə halda, infrastrukturun gücü sərhəddin hər iki tərəfindən fərqli ola bilər;

- qanunvericilik: sərhədyanı əməkdaşlığa dair mövcud qanunvericilikdə olan fərqlər müştərək qərarların verilməsini çətinləşdirə bilər;

- əlavə maliyyələşmə: müxtəlif tərəflərin xarici mənbələrindən maliyyə vəsaiti əldə etmək imkanı sərhədyanı ərazilərdə infrastrukturun inkişafı üçün əlavə perspektivlər açır [2].

Azərbaycan MDB-nin üzvü kimi Rusiya ilə siyasi və iqtisadi əlaqələri sıxdır. Belə ki, iki ölkə arasında vətəndaşlarının vizasız gediş-gəlişi haqqında, sərbəst ticarət haqqında, gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergiqoymanın aradan qaldırılması haqqında, qarşılıqlı ticarətdə vasitəli vergilərin tutulması prinsipləri haqqında, ölkələr arasında beynəlxalq avtomobil əlaqələri haqqında, iqtisadi əməkdaşlığın əsas prinsipləri və istiqamətləri haqqında və digər çoxsaylı sazişlər bağlanmışdır. Habelə, Azərbaycanın qeyri-neft məhsullarının əsas satış bazarı Rusiyadır. Belə ki, 2017-ci ildə ixrac edilmiş kartofun 99,4 faizi, təzə tərəvəzin 96,5 faizi, təzə meyvənin 67,4 faizi, çayın 52,8 faizi, meyvə və tərəvəz konservlərinin 47,1 faizi, meyvə və tərəvəz şirələrinin 57,1 faizi, təbii üzüm şərabları və üzüm suslosunun 82,0 faizi, tütünün 28,6 faizi, pambıq parça ipliyinin 57,7 faizi Rusiyanın payına düşmüşdür. Bununla yanaşı, Şəki-Zaqtala iqtisadi rayonu ilə Rusiyanın həmsərhəd Dağıstan Respublikası arasında avtomobil və dəmiryolu əlaqəsi yoxdur. İki ölkə arasındakı sərhəd yüksək dağlıq və nibətən az məskunlaşmış ərazilərdən keçdiyindən bu regionun inqtisadi inkişafına Rusiya ilə sərhəddə yerləşməsi əhəmiyyətli dərəcədə təsir göstərmir. Belə ki, regionun xüsusilə, Qəbələ, Oğuz, Şəki rayonlarının Rusiya ilə həmsərhəd olan şimal hissələrində buzlu və qarlı dağ massivləri mövcuddur.

Bütövlükdə, Azərbaycanın 2017-ci ildə ən çox qeyri-neft məhsulları ixrac etdiyi birinci ölkə Rusiya, üçüncü ölkə isə Gürcüstan olmuşdur. Belə ki, qeyd edilən ildə Azərbaycandan Rusiyaya 553 mln. ABŞ dolları, Gürcüstana isə 138 mln. ABŞ dolları məbləğində qeyri-neft malları ixrac edilmişdir.

Azərbaycan və Gürcüstan Respublikaları arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsindədir və bu münasibətləri tənzimləyən əsas sənəd 1996-cı ildə imzalanmış Dostluq, əməkdaşlıq və təhlükəsizlik Sazişidir. Bununla yanaşı, 1993-cü ildə iki ölkə arasında vizasız gediş-gəliş haqqında, 1996-cı ildə kənd təsərrüfatı və ərzaq sahəsində əməkdaşlıq haqqında, ticarət-iqtisadi əməkdaşlığın prinsipləri haqqında, sərbəst ticarət haqqında və digər sazişlər bağlanmışdır. Gürcüstan Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir. Belə ki, 2017-ci ildə Azərbaycanın ixracının 2,5 faizi, idxalının isə 0,8 faizi Gürcüstanın payına düşmüşüdür. Habelə, bu ildə Gürcüstanın ixracda payının yüksək olması əsasən enerjidaçıyıcılarının ixracı ilə əlaqədar olmuşdur. Gürcüstan Azərbaycanın enerji daşıyıcılarının xarici bazarlara çıxarılması üçün əsas tarnzit ölkə rolunu oynayır. Belə ki, Bakı-Supsa və Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəməri, habelə 2019-cu ildə istismara veriləcək Cənub Qaz Dəhlizi bu ölkənin ərazisindən keçir. Habelə, Azərbaycan bazarı Gürcüstanın əsas ixrac bazarlarından biridir. Belə ki, 2018-ci ildə Gürcüstanın ixracının 15,0 faizi Azərbaycanın payına düşmüşdür. Hazırda Azərbaycan Gürcüstanın MDB ölkələri arasında ən böyük ticarət tərəfdaşlarından biridir. 2018-ci ildə Gürcüstanın idxalının 6,4 faizi Azərbaycanın payına düşmüşdür ki, bu da MDB ölkələri arasında ikinci ən böyük tərfdaş deməkdir.

Qeyd etmək lazımdır ki, Azərbaycanın Gürcüstanla 480 kim sərhədd xəttinin yalnız 150 km-i Şəki-Zaqatala iqtisadi rayonunun payına düşür. Bununla yanaşı, Azərbaycanı Şəki-Zaqatala iqtisadi rayonunda Gürcüstanla yalnız avtomobil yolu birləşdiridiyi halda, Gəncə-Qazax iqtisadi rayonunda həm avtomobil, həm də dəmir yolları birləşdirir. Bu baxımdan, Gəncə-Qazax iqtisadi rayonunda yerləşən sərhəd məntəqələri iki ölkə arasındakı iqtisadi əməkdaşlıqda daha üstün rola malikdirlər və əsas ticarət Gəncə-Qazax iqtisadi rayonundakı sərhəd məntəqələri vasitəsilə həyata keçirilir.

Hazırda Gürcüsatan sərhəddində sahəsi 4 hektar olan, gündə təxminən 190 avtomobil və 500-600 nəfər şəxsin buraxılışını təmin edən, müvəqqəti

saxlanc yeri və anbarlar, yeməkxana, inzibati binaya malik olan və 60 nəfərin çalışdığı Balakən Gömrük İdarəsinin "Mazımçay" gömrük sərhəd buraxılış məntəqəsi fəaliyyət göstərir. Habelə burada "Az Duty Free Shops LTD" MMC-nin rüsumsuz ticarət mağazası yaradılmışdır. Son illərdə bu məntəqənin fəaliyyətinin səmərəlilyinin yüksədilməsi istiqamətində tədbirlər həyata keçirilir. Son illərdə nəqliyyat vasitələrinin məntəqədən keçmə vaxtı azaldılmışdır. Belə ki, 2017-ci ilin yanvar ayında nəqliyyat vasitələrinin ümumi sayında məntəqədən 20 dəqiqədən çox olmayan müddətə keçənlərin payı 57,7 faizə, 20-60 dəqiqəyə keçənlərin payı 28,1 faizə, 60 dəqiqədən çox müddətə keçənlərin payı 14,17 faiz olduğu halda, bu göstəricilər 2019-ci ilin yanvar ayında müvafiq olaraq 61,0 faizə, 36,2 faizə və 3,3 faizə bərabər olmuşdur. Qeyd etmək lazımdır ki, Zaqatala rayonlarında Muğanlı və Lahıc gömrük postları da fəaliyyət göstərir. Muğanlı gömrük postu sərhəddə yerləşir. Bununla yanaşı, bu postların xarici ticarətdə rolu "Mazımçay" gömrük sərhəd buraxılış məntəqəsinin dövriyyəsinə nisbətən kiçikdir. Bununla yanaşı, 2016-cı ildə bu gömrük məntəqəsindən təqribən 100 mln. ABŞ dolları dəyərində mal ixrac olunmuşdur ki, bu da əvvəlki ilə nisbətən 25 faiz çoxdur. Habelə, ixrac edilən məhsulların əsas hissəsini fındıq, tütün, xurma və digər kənd təsərrüfatı malları təşkil etmişdir. Bununla yanaşı, qeyd edilən məbləğ Azərbaycanın qeyri-neft ixracının 8,4 faizini təşkil etmişdir.

Şəki-Zaqatala iqtisadi rayonu Gürcüstanın Kaxeti vilayəti ilə sərhəddir. Bu iki region oxşar coğrafi mühitə malikdir. Həm Şəki-Zaqatala, həm də Kaxet regionlarının əhalisinin əksəriyyətini (70 faizdən çoxunu) kənd əhalisi təşkil edir. Belə ki, 2017-ci ildə Şəki-Zaqatala iqtisadi rayonunun əhalisinin 72,0 faizi, Kaxeti regionun əhalisinin 77,3 faizi kənd əhalisinin payına düşmüşdür. Qeyd etmək lazımdır ki, qeyd edilən regionlarda məşğulluq problemi aktual olaraq qalır. Bunun nəticəsində əhalinin mexaniki miqrasiyası baş verir. Məsələn, Kaxeti regionunda 2018-ci ildə əhalinin sayı 2000-ci ilə nisbətən 1,2 dəfə azalmışdır.

Gürcüstanda təqribən 240 min nəfər azərbaycanlı yaşayır ki, bu da Gürcüstan əhalisinin təqribən 6,3 faizini təşkil edir. Azərbaycanda isə təqribən 10 min nəfər gürcü yaşayır ki, bu da ölkə əhalisinin təqribən 0,1 faizinə bərabərdir. Gürcüstanda azərbaycanlıların sıx məskunlaşdığı Kvemo-Kartli regionu Gəncə-Qazax iqtisadi rayonu ilə həmsərhəddə yerləşir. Bununla yanaşı, Azəarbyacanda gürcülər əsasən Şəki-Zaqatala iqtisadi rayonunda məskunlaşmışlar. Məsələn, 2017-ci ildə Qax rayonunda əhalinin 14,0 faizini gürcülər təşkil etmişdir. Bununla yanaşı, Kaxeti vilayətində də azərbaycanlı kəndləri mövcuddur. Bu baxımdan, qeyd edilən amil də sərhədyanı əlaqələrin inkişaf etdirilməsini zəruri edir.

Qeyd etmək lazımdır ki, Şəki-Zaqatala iqtisadi rayonu ilə Kaxeti vilayətinin iqtisadiyyatlarının strukturunda müəyyən fərqlər olsa da, hər ikisi əsasən kənd təsərrüfatı məhsullarının istehsalına və bu məhsulların emalına əsaslanır. Belə ki, 2018-ci ildə Şəki-Zaqatala iqtisadi rayonunun ümumi məhsulunda sənayenin payı 16,3 faizə, kənd təsərrüfatının payı 36,7 faizə, tikintinin payı 18,9 faizə, ticarət, nəqliyyat vasitələrinin təmiri sahəsini payı isə 25,9 faizə bərabər olmuşdur. Kaxeti vilayəti üzrə isə 2018-ci ildə ümüumi daxili məhsulda kənd təsərrüfatının payı 27,0 faizə, sənayenin payı 14,3 faizə, tikinti 2,9 faizə, dğvlət idarəetməsi 9,4 faizə, təhsil, səhiyyə və sosial xidmətlər 10,0 faizə, digər xidmətlər isə 17,5 faizə barabər olmuşdur. Göründüyü kimi, hər iki regionun iqtisadiyyatının əsasında kənd təsərrüfatı və onun məhsullarının emalı sahələri durur. Bundan başqa, hər iki regionun şoğrafi oxşarlığı regionların iqtisadi əməkdaşlığı üçün imkanları məhdudlaşdırır. Belə ki, əməkdaşlıq bir-birini əvəz edən deyil, bir-birini tamamlayan inkanlar əsasında həyata keçirilir. Bununla yanaşı, turizmin inkişafı, ətraf mühitin qorunması, regionların tranzit imkanlarından itifadə edilməsi, bəzi kənd təsərrüfatı məhsullarının ticarəti və digər istiqamətlərdə iqtisadi əməkdaşlıq imkanları mövcuddur.

Şəki-Zaqatala iqtisadi rayonun Gürcüstanla birbaşa quru əlaqələri olan Balakən və Zaqatala rayonlarının iqtisadiyyatına bu əlaqələrin təsiri məhdud olaraq qalır. Belə ki, aşağıdakı şəkildən göründüyü kimi, 2003-2018-ci illər ərzində iqtisadi rayonda əhalinin gəlirlərində əhəmiyyətli artım müşahidə edilsə də, Balakən və Zaqatala rayonlarında əhalinin gəlirlərində region üzrə orta göstəriciyə nisbətən əhəmiyyətli yüksək artım müşahidə edilməmişdir. Bu gəlirlərin artımı əsasən regional inkişaf proqeamları çərçivəsində həyata keçirilmiş tədbirlərin hesbına baş vermişdir.




**Şəkil 3.4. Şəki-Zaqatala iqtisadi rayonunda əhalinin gəlirlərinin dinamikası (2003=100)**

Şəki-Zaqatala regionun əsasını kənd təsərrüfatı təşkil etdiyindən sərhədyanı ticarətdə kənd təsərrüfatı məhsullarının ixracı üstünlük təşkil edə bilər. Bu məhsullara tərəvəz və meyvə aiddir. Belə ki, Gürcüstanda tərəvzin idxalı daxili istehlakda əhəmiyyətli paya malikdir. 2017-ci ildə tərəvəz istehlakının təqribən 30 faizindən çoxu idxal hesabına təmin edilmişdir. Habelə, 2017-ci ildə Gürcüstan 42,5 mln. ABŞ dolları dəyərində tərəvəz, 78,1 mln. ABŞ dolları dəyərində meyvə idxal etmişdir. Şəki-Zaqatala iqtisadi rayonu ilə qonşuluqda yerləşən Gürcüstanın Kaxeti vilayətinin iqtisadiyyatının strukturunda kənd təsərrüfatının payı 2017-ci ildə 7,0 faizə bərabər olmuşdur ki, bu da kənd təsərrüfatı məhsullarının Kaxeti vilayətinə ixracını əlverişli edir. Bununla belə, Kaxeti vilayəti Gürcüstanın əsas buğda, kukruz, meyvə və üzüm istehsalçısıdır. Belə ki, 2017-ci ildə Gürcüstanda istehsal edilmiş buğdanın 82,1 faizi, kukruzun 35,9 faizi, meyvənin 35,5 faizi, üzümün isə 74,6 faizi bu vilayətin payına düşmüşdür. Bütövlükdə, üzümçülük və şərabçılıq sənayesi bu vilayətin iqtisadiyyatının əsasını təşkil edir və kənd təsərrüfatının payının azalmasının əsas səbəbi şərtabçılıq sənayesinin inkişafı ilə bağlıdır. Kaxeti vilayətində tarixən üzümçülük inkişaf etmişdir və buradan bir çox ölkələrə şərab ixrac olunur. Qeyd etmək lazımdır ki, Şəki-Zaqatala iqtisadi rayonunun əhalisinin sayı Kaxeti vilayətinin əhalisinin sayından təqribən 1,8 dəfə çox olmasına baxmayaraq, 2017-ci ildə pərakəndə ticarət dövriyyəsinə görə 3,2 dəfə böyük olmuşdur. Göründüyü kimi, adambaşına düşən pərakəndə ticarət dövriyyəsinə görə Şəki-Zaqatala regionu Kaxeti vilayətini əhəmiyyətli dərəcədə üstələyir.

Qeyd etmək lazımdır ki, həmsərhədd əməkdaşlıq əsasında turist marşurutlarının müəyyən edilib inkişaf etdirilməsi bu sahədə potensialın reallaşdırılması baxımından əhəmiyyətlidir. Belə ki, son illərdə Kaxeti vilayətində mehmanxana infrastrukturunun inkişaf etdirilməsinə baxmayaraq bu sahəyə investisiya qoyuluşları məhdud olaraq qalır. Belə şəraitdə birgə əməşdaşlıq həm qarşılıqlı imkanların reallaşdırılmasına, həm də daha maraqlı turizm paketlərinin formalaşdırılmaısna səbəb olar. Həmsərhəd bölgələr həm tarixi abidələrlə zəngindir, həm də təbiətcə turizmin inkişafı üçün potensiala malikdir. Belə şəraitdə mühüm məsələlərdən biri turistlərə hər iki ölkəyə daxil olmaq üçün asan yolla viza əldə etmək imkanlarının verilməsi və həmsərhədd regionlarının əməkdaşlığı üçün dövlətlərarası razılaşmanın əldə edilməsidir.

Bütövlükdə, müasir dövrdə turizm sahəsində sərhədyanı və beynəlxalq əməkdaşlıq ən geniş yayılmışdır. Bu əməkdaşlıq bir ölkənin regionlararası əməkdaşlığını, iki ölkənin sərhədyanı regionlarının əməkdaşlığını və çoxtərəfli ölkələrarsı əməkdşlığı nəzərdə tutur. Bu baxımdan, Azərbaycan və Gürcüstan arasında ikitərəfli turizm marşurutlarının işlənib hazırlanmasında və reallaşdırılmasında Şəki-Zaqatala iqtisadi rayonu və Kaxeti vilayəti əsas rol oyanaya bilər.

Qeyd edilənlərlə yanaş, Qanıx (Alazan), Mazımçay və digər çayların daşmasının qarşısının alınması məqsədilə monitorinqlərin aparılması və seldən müdafiə tədbirlərinin həyata keçirilməsi üçün sərhədyanı bölgələrin əməkdaşlığının təmin edilməsi zəruridir. Belə ki, Şəki-Zaqatala iqtisadi rayonu təhlükəli daşqın və sellərin baş verdiyi ərazilərdən biridir. Habelə, Şəki-Zaqatala iqtisadi rayonunda kənd təsərrüfatı torpaqlarının suvarılmasında Qanıx (Alazan) çayı və onun qolları əhəmiyyətli rol oynayır. Aparılmış araşdırmalar göstərir ki, Gürcüstanda illik yağıntının miqdarı Azərbaycana nisbətən 2 dəfədən çoxdur. Bununla belə, bu çayın suyunun əsas hissəsi ölkədaxilində formalaşır.

Bütövlükdə, Azərbaycan və Gürcüstan sərhədyanı regionlarının əməkdaşlığı bir neçə istiqməti əhatə edə bilər. Birincisi, bitrərəfli fəaliyyət nəticəsində qarşılıqlı mənfi nəticələrin azaldılması. Belə ki, qonşu ölkədə sərhədyanı bölgədə aparılan tədbirlər sərhədyanı bölgələr üçün əlavə çətinliklərin yaranması ilə nəticələnə bilər. Məsələn, sudan istifadə, çaylara atılan tullantıların həcminin artması,

tikinti işləri və s. bu kimi fəaliyyətlər qonşu ölkənin sərhədyanı rayonlarında mənfi nəticələrə səbəb olur. Bu baxımdan, yarana biləcək mənfi nəticələrin aradan qaldırılması və ya təsirinin azaldılması üçün birgə əməkdaşlığın edilməsi tələb olunur. Belə əməkdaşlıq formalarından biri ətraf mühitin qorunması ilə bağlıdır. Məsələn, sərhədyanı ərazilərdən keçən çayların suyunun keyfiyyətinin azalması torpağın, havanın və suyun çirklənməsi ilə bağlıdır. Belə ki, torpaqdan və havadan zərəverici maddələr yağışlar vasitəsilə çaya daxil olur və onun suyunun çirkləndirilməsinə səbəb olur. Qeyd etmək lazımdır ki, sərhədyanı bölgələrdə ətraf mühitin qorunması və su ehtiyatlarından səmərəli şəkildə idarəedilməməsi suyun çirklənməsinə və ekosistemdə geriləmələr qarşılıqlı təsirə malikdir. Belə ki, ekosistemdə geriləmələr çayların çirklənməsinə, onlarda suların həcminin və axın sürətinin azalmasına, sulaarın çirklənməsi isə ekosistemdə tarazlığın pozulmasına gətirib çıxara bilər. Bu sahədə neqativ halların yaranmasının əsas səbəblərindən biri bir çox hallarda qarşı tərəfin suyun çirklənməsinin azaldılması iistiqamətində tədbirlər həyata keçirməsi sahəsində təşəbbüs göstərməməsi ilə bağlı olur. Qeyd edilənləri nəzərə alaraq ətraf mühitin davamlılığnın və ekosistemin özünü tənzimlənmə imkanlarının artırlması üçün sərhədyanı bölgələr arasında əməkdaşlığın təmin edilməsi məqəsdəuyğundur.

İkincisi, sərhəd bölgələrinin əməkdaşlığı nəticəsində bir bölgəniin həyata keçirdiyi tədbirlərdən digər sərhədyanı bölgənin faydalanması hesabına yaranmış müsbət nəticələrin sinergetik təsiri artır. Məsələn, sərhədyanı keçid məntəqələrində infarstrukturun təkçilləşdirilməsi insanların hərəkətini asanlaşdırmaqla iqtisadi fəallığı artıra bilər. Fikrimizcə, hazırda Şəki-Zaqatala iqtisadi rayonununda turizm infarstrukturunun inkişaf etdirilməsi və turist marşurutlarına Gürcüstanın da daxil edilməsi bu tədbirlərin ikitərəfli təsirini artıra bilər.

Şəki-Zaqatala iqtisadi rayonunun Kaxeti vilayəti ticarət əməkdaşlığının artırılması məqsədilə sərhədyanı bazar və ya yarmarkaların təşkili məqəsəduyğundur. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 24 iyun 1997-ci il tarixli, 609 nömrəli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"na əsasən sərhədyanı ticarət, müstəsna olaraq müvafiq sərhədyanı ərazi çərçivəsində istehsal olunan, eləcə də müvafiq sərhədyanı ərazi çərçivəsində istehlakı nəzərdə tutulan mallara münasibətdə yerli ehtiyacların ödənilməsi üçün Azərbaycan Respublikasının sərhədyanı ərazisində daimi yaşayış yeri olan bütün şəxslər tərəfindən Azərbaycan Respublikasının həmhüdud dövlətlərlə beynəlxalq müqavilələrində müəyyən olunmuş müvafiq sərhədyanı ərazidə xarici şəxslərlə həyata keçirilə bilər. Azərbaycanda sərhədyanı ərazilər və ticarət qaydaları İqtisadiyyat Nazirliyinin rəyi əsasında Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

Şəki-Zaqtala iqtisadi rayonunda sərhədyanı əlaqələrin genişləndirilməsinin mühüm amillərindən biri nəqliyyat imkanlarının artırılmasıdır. Belə ki, nəqliyyat inkişafın vacib şərtidir və bu baxımdan, sərhədyanı əlaqələrin inkişafı nəqliyyat yollarının inkişafından əhəmiyyətli dərəcədə asılıdır. Bu baxımdan, nəqliyyatın inkişafı regionun davamlı inkişafının təmin edilməsi və sərhədyanı iqtisadi əlaqələrin inkişaf potensialının reallaşdırılması üçün zəruridir. Davamlı nəqliyyat insanların və əmtəələrin mobilliyi üçün təhlükəsiz, əlçatanl, qiymətinə görə əldə edilə bilən, səmərəli və dayanaqlı olan, indiki və gələcək nəsillərin iqtisadi və sosial inkişafını dəstəkləyən, ətraf mühitə mənfi təsiri minimallaşdıran xidmət və infrastrukturun təklifidir [3]. 2004-2018-ci illərdə Şəki-Zaqtala iqtisadi rayonunda nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi həm regional inkişaf, həm də sərhədyanı əlaqələr baxımından əhəmiyyətli olmuşdur. Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il Fərmanı ilə təsdiq eilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən Şəki-Zaqatala iqtisadi rayonunda Yevlax-Zaqatala-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun Yevlax-Şəki hissəsinin və Qullar-Tulü-Talalar-Acılıqbinə-Qaysa avtomobil yolunun, Balakən-Qazbinə-İtitala avtomobil yolunun yenidən qurulması nəzərdə tutulmuşdur.

Bütövlükdə, Şəki-Zaqatala iqtisad rayonunda və Gürcüstanın həmsərhəd ərazilərində yaşağan əhalinin etnik tərkibi, tarixən formalaşmış əlaqələr, mövcud inkişaf potensialının reallaşdırılması, ətraf mühitin qorunması zəruriliyi iqtisadi, sosial və ətraf mühit sahəsində sərhədyanı əməkdaşlığı məqəsədəuyğun edir.

**Açar sözlər:** *Şəki-Zaqatala regionu, Kaxetiya, Dağıstan, trans-sərhəd əməkdaşlığı, sərhədyanı ticarət, Gürcüstan-Azərbaycan münasibətləri, sərhədyanı infrastruktur.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Cooperation, Environment, and Sustainability in Border Regions/ edited by Paul Ganster, San Diego: San Diego State University Press, 2001, 434 p.*

*2. Povh G. P. Infrastructural providing transfrontal collaboration of regions. Lutsk: Lutsk National Technical University, 2011*

*3. https://sustainabledevelopment.un.org/content/documents/2375Mobilizing%20Sustainable%20Transport.pdf*

## РЕЗЮМЕ

В статье изучается роль Шеки-Закатальского региона Азербайджана в укреплении и развитии взаимоотношений с соседними государствами – Грузией и Российской Федерацией. Отмечается, что этот регион обладает необходимым потенциалом для создания тесного сотрудничества с соседними регионами России и Грузии – Дагестаном и Кахетией соответственно.

**Ключевые слова:** *Шеки-Закатальский регион, Кахетия, Дагестан, трансграничное сотрудничество, приграничная торговля, Грузино-Азербайджанские отношения, приграничная инфраструктура.*

## SUMMARY

The paper investigates the role of Sheki-Zaqatala region in the enhancement and development of interconnected relationships with neighbouring Russian Federation and Georgia. The current research underlines the necessary potential of the region in establishing the relations with Georgia’s Kakheti and with Russia’s Dagestan Republic.

**Key words:** *Sheki-Zaqatala region, Kakhetia, Dagestan, trans-border cooperation, cross-border trade, Russian-Azrbaijan relations, cross-border infrustructure.*

UOT 32

# THE ROLE OF MULTICULTURALISM ON THE DIALOGUE OF CIVILISATIONS: THE AZERBAIJANI PERSPECTIVE

**TOGRUL SALMANZADE**
*PhD candidate at Baku State University*
*Scientific researcher at Azerbaijan National Academy of Sciences*

*E-mail: togrulsalmanzada@gmail.com*

**Emergence and development of multiculturalism policy**

Although the emergence of multiculturalism in political science is relatively new, the ideas about multiculturalism existed for a long time, leading to the modern development of societies, political and human rights which resulted in the organisation of specific institutions and particular study of multicultural policies. In Azerbaijan, multiculturalism existed as a custom and the distinctive way of life before it became the state policy for the first time after independence. From the ideological and theoretical point of view, multicultural ideas manifested in the concept of Azerbaijanism, which has been the dominating ideology for unification all nations under Azerbaijani national identity. The ideology as a multicultural approach unites all nations living here, preserves their culture and ensures their development.

From the historical perspective, many nations lived in this area since the beginning of our era, and each of these peoples had different cultures, customs, and religious views. Therein, modern Azerbaijani culture was not formed only by one ethnos or religious practice; it moulded jointly by the traditions and customs of many folks that existed in this region, from the synthesis of ever-changing sometimes coexisting religions.

Principles of the ideology of Azerbaijanism stated by national leader Heydar Aliyev's speech at the International Conference "Peace and Patience" held in Istanbul on February 7, 1994: "Azerbaijan is a multinational state. Many nations have lived together in our republic for centuries. Along with Islam, there are also Christianity and Judaism in Azerbaijan, and they practice in a very friendly atmosphere. Citizens of our country have the same rights regardless of religion, race or political views, and their rights are protected by the Azerbaijani state. Be sure that we will always adhere to these principles ..." [11, p.100]

**Literature review**

The term multiculturalism was first used in the 1960s and soon aroused widespread interest in the social and political sciences. Since then, numerous studies were conducted on this subject, and even many Western countries began to pursue it in their policies. However, towards the end of the twentieth century, the concept of multiculturalism was criticised, and some scholars and politicians claimed that it might cause social conflicts. Although the rise of religious extremism resulted in some European leaders voicing concerns about the failure of multiculturalism, there is a greater need to prevent intercultural conflicts and ensure mutual understanding and cooperation between civilisations. In this case, the promotion of multiculturalism will help to soften the growing nationalist tendencies and make different ethnic groups feel safe.

The primary origin of the progress of cultures and innovations, political and economic evolution has always been the interaction among the cultures (Mammedzadeh 2009). After the fall of "iron curtain" considering the new millennium's political, economic and cultural situation, and especially modern integration processes isolation policies indisputably can no longer be successful. Modern international relations are also developing as intercultural relations result from these cultural relations and integration can be observed even among the most distant nations. Thus, multiculturalism and dialogue of civilisations provide unprecedented opportunities for worldwide cultural pluralism that can reduce interstate conflicts and ensure peace and security.

Multiculturalism also covers the issues related to migrants and their rights, both cultural and political. Free movement of workers as the main element of integration and interdependency among countries made the problem even more protruding, especially after the 1957 Rome treaty. Increasing migration is not only specific to Europe; it is also in the upsurge

in far east and America. However, not all countries across the world have open policies towards migrants, which in turn halt their economic growth, or even worse may cause cultural conflicts within countries, as well as the with other countries.

In his book “Multiculturalism: A Critical Introduction” Micheal Murphy states that multiculturalism was in the rise as a political philosophy and as the policy of democratic countries in the 1990s (2013). American sociologist Nathan Glaser's famous approach, "we are all multiculturalist now" (1998), was also becoming a new reality. Today, we hear more and more in the political environment and theory that multiculturalism is in crisis. The hostility to multiculturalism was due to immigrants, and the biggest concern was with Muslim immigrants. Although the reasons for this were initially the majority of emigrants to Europe were Muslims, later Islamic fundamentalism and the terrorist attacks caused fear and mistrust between the parties. [7, p.7-8]

Although in Europe anti-immigrant sentimentality seemingly directed towards Muslims, in the United States it mostly aimed at Latinos. In 2004, Samuel Huntington considering the validity of his decade-old theory "Clash of civilisations" published a new book titled "Who Are We?: Threats to America’s National Identity," which leans towards the internal problems of the United States in the “new era of clashes”. According to Huntington, in the new international political system, dominated by the idea of a clash of civilisations, other civilisations and Spanish-speaking immigrants pose a threat to Anglo-protestant identity, American linguistic and cultural unity, and intervene US domestic politics and values. [9]

There is disagreement among multiculturalists about the recognition of cultural groups that can be liberal or radical; the political and institutional organisation of this recognition; and the balance between individual and minority rights. Hence, in some countries, there are problems with immigrants, in others with local minorities. Even though multiculturalism is commonly understood as a cultural term, it is further related to political pluralism and political incentives.

According to Ilham Mammadzadeh (2017), "Conflict between the global-cosmopolitan thinking and local thinking individuals is inevitable for the modern world, and they understand it as a conflict of identity and cultural diversity. At the same time, there are myths, illusions and preconceived notions about which culture is better, more ancient, more progressive.” [4, p.26] The problem is addressed by Martha Ackelsberg in her article, “Identity Policy, Political Identities: Thoughts toward a Multicultural Politics” as following: “No national culture is free or neutral from the relationship of power and dominance. At the same time, no national identity is permanent and unchanging. Thus, the main goal of multicultural policy should be empowering people to develop and experience the richness of their identities (cultures) which will eventually change due to the interaction with other cultures” (Ackelsberg 1996).

As a new concept in political philosophy, multiculturalism and its contours have not been fully defined. As stated by Annamari Vitikainen in the Oxford Research Encyclopedia of Politics in modern political philosophy, multiculturalism is used in three cases: as a descriptive term, a normative term, and as specific types of state policies. As a descriptive term, multiculturalism characterises the existing system of relations in modern societies. As a normative-theoretical term, it perceives cultural diversity as a desirable relations system and provides a normative basis for ensuring this diversity. Thirdly, as a policy-oriented term, it covers state policies aimed at ensuring cultural diversity and culturally differentiated rights. (2017) All three aspects indicate how broadly multiculturalism covers both the theoretical and political spheres, moreover, how it evolves into a political concept.

**Results**

In general, multiculturalism is an expression of cultural differentiation, which can be based on different identification criteria, and encompasses all forms of diversity - ethnic, religious, racial, while. Along with tolerance, the concept emphasises on the joint activity and integration of cultures. Accepting and creating equal opportunities for all cultures also prevents assimilation.

Multiculturalism is politically and legally reflected in the Constitution of the Republic of Azerbaijan. Even though the vast majority of the population is Muslim, there has been no pressure on other religions in Azerbaijan, and no attempt has been

made to convert them to Islam. Hence, as a secular country, no religion recognised with official status, no religion was given preferential privileges. Under Article 48 of the Republic of Azerbaijan's Constitution, equal opportunities were created for the activity of all religions and freedom of conscience was ensured [10, p.44].

Constitution of Azerbaijan, which was adopted in 1995, was built on the idea of citizenship without favouring any national identity over another, and Article 25 grants equal rights and freedom of all citizens regardless of their origin, race, ethnicity, language, and religion. Considering the country's multinational population, Article 44 specifically states that "everyone has rights to preserve their national identity and no one can be forced to change their nationality. [2]

Linguistic rights – right to use mother tongue in education and creative work, which is one of the essential components of ethnic and national identity, is guaranteed by Article 45 of the Azerbaijani Constitution. [2] Thus, it should be noted that as a multicultural country, the legal basis to protect national identities is first of all reflected in the Constitution of the Republic of Azerbaijan, which is the highest law; and religious liberty, freedom of conscience are protected as fundamental human rights and constitutional rights.

Looking at the recent history of multiculturalism development, it can be said that after independence even before the adoption of multiculturalism as a state policy or political concept, protection of cultural diversity was in the centre of public policy. Ilham Mammadzadeh notes (2017), "The unifying force of cultural diversity in modern Azerbaijan has been the ideology of Azerbaijanism, which includes all the specific components of our past and present culture, including the experience of cultural interaction with other entities." [4, p.54-55]

The further development in Azerbaijan in the new millennium has paved the way for the country to develop into a space for international dialogue, the promote national moral values in the international arena, and advance multiculturalism as a separate political-theoretical approach. The conference of the Ministers of Culture of the Council of Europe member states, held in Baku in 2008, laid the foundation for this direction, known as the Baku Process.

Multicultural society does not mean being "fragmented"; on the contrary multiculturalism is a more robust and more progressive form of society that embraces cultural diversity. The current integration processes, cultural expansions, and the increasing use of "soft power" increases risks of domestic, and interstate conflicts agitated by cultural grievances. Non-multicultural countries remain vulnerable to these influences, and external interference or stimuli can easily ignite conflicts in this context. The development of intercultural dialogue and mutual trust leads to the prevention of such conflicts and the advancement of political and cultural values.

**Multiculturalism and national identity**

The security studies suggest that national security can be divided into five key areas: military, environmental, political, economic and social. In this regard, coherent national identity policy is one of the main issues for countries to control social threats, including identity and balance problems. However, nowadays, globalisation itself poses a threat to the traditional concept of social identity. Thus, states face with the dilemma of whether to integrate into the international community or isolate themselves for the sake of protecting national security. [3, p.31] The current level of multilateral cooperation, integration and interdependence between states to challenge the isolation option, leading to the only possibility of preserving national identity while adapting to all globalisation trends. So, it is necessary to abandon the former concept of “us versus them” and form the idea of national identity and self-awareness in the context of communication and cooperation.

In this context, Ilham Mammadzadeh (2009) writes: “... it must be acknowledged that even the early stages of the integration with the world create a serious change in the national consciousness. 3In this respect, it is possible to speak about a wide variety of opinions in the public consciousness about the tendencies that determine the direction of our activities towards the future.” [5, p.7-8]

National identity and self-identity problems also demand the development of cooperation between nations. The concept of national identity becomes a problem when it is not adequately understood, but if the promotion of identity does not endorse any ethnic homogeneity or superiority, then other ethnic

groups feel comfortable and secure within these identity and political institutions. [5, p. 34]

The existence of different cultures and civilisations does not necessarily mean they have to be in conflict or use constant confrontation to protect their national identity. While referring to Samuel Huntington's (1993) infamous concept of "us and them" it should be noted that it is possible to preserve national identity while cooperating common values with other countries, regions, even civilisations. The existing heterogeneous national identity policies of Azerbaijan, Azerbaijanism and multiculturalism, create essential opportunities for the development of international relations.

Academician Kamal Abdullayev notes, "We can characterise the Azerbaijani model of multiculturalism as a doctrine that unites differences or different cultures under the umbrella of Azerbaijanism. The ideology of Azerbaijanism is one of the most important factors strengthening the Azerbaijani state with its national, cultural, political, legal and social aspects, so multiculturalism alone would not have become such an effective tool for uniting Azerbaijani society." [6]

Comparing the phenomena of intercultural dialogue and multiculturalism comes to a result that multiculturalism means the integration of domestic cultures and ethnic groups. Successful implementation of multicultural policies consents to the dialogue of civilisations at the global level. Looking at the ethnic composition of modern states confirms that no country is monoethnic, and ethnic minorities living in any country's territory are often representatives of the ethnic majority of a neighbouring country. In this case, the implementation of multicultural policies within the countries creates a basis for the development of diplomatic relations at the regional and international levels and dialogue among civilisations in the future.

## Conclusion

The emergence of multiculturalism in Azerbaijan began with establishing public administration on a multi-ethnic, secular model after independence, even though the vast majority of the population is Turkish-Muslim. In the following period, this policy proved to be a successful model for security and stability in Azerbaijan, which is located in a susceptible region. At the same time, this all-inclusive model of policy created invaluable opportunities to construct national identity. Given that almost no country in the world is mono-ethnic and countries' geographical borders never cover the entire territory inhabited by a single nation, the protection of ethnic diversity allows us to act as a more reliable partner in relations with other countries. Looking at the ethnic roots of the people living in Azerbaijan, there are representatives of neighbouring Georgian, Armenian, Russian, numerous Caucasian peoples, and even Jews.

With the start of the Baku Process in 2008, Azerbaijan began to explore and promote dialogue of civilisations and multiculturalism opportunities in a global context. Based on the relationship between Azerbaijan-Organisation of Islamic Cooperation and Azerbaijan-Council of Europe, this platform, with the support of the United Nations Alliance of Civilizations, has quickly become a global dialogue forum involving more than a hundred countries belonging to different civilisations.

Although political and economic relations between other countries and organisations are easy to observe, we disdain the same level of cultural ties. That leads to the severance of political and economic relations in a fraction of time during diplomatic crises. Simultaneously, the development of friendly relations between the civilisations allows for the development of political and economic relations. To develop the dialogue among civilisations, the initiating parties must create equal opportunities for the development of ethne within their countries, which are the members of other civilisations.

**Keywords:** *Azerbaijan, civilisations, identity politics, intercultural dialogue, multicultural policies.*

**References:**

*1. Ackelsberg, Martha A. "Identity Politics, Political Identities: Thoughts toward a Multicultural Politics." Frontiers: A Journal of Women Studies, vol. 16, no. 1, 1996, pp. 87–100.*

*2. Azərbaycan Respublikasının Konstitusiyası president.az/azerbaijan/constitution http://www.elibrary.az/docs/FERMAN/frm2011_46.pdf*

*3. Contemporary Azerbaijan in Social and Political Dimension. Edited by Piotr Bajo. Kraków, 2016.*

*4. İlham Məmmədzadə. Mədəniyyətlərin qarşılıqlı təsir fəlsəfəsi və almanların Cənubi Qafqazda məskunlaşması. Print-E-service MMC, Bakı, 2017. 159 pages.*

*5. İ.Məmmədzadə. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında. Bakı, Təknur, 2009.*

*6. Kamal Abdullayev: Multikulturalizmin Azərbaycan modelini fərqlilikləri, fərqli mədəniyyətləri azərbaycançılıq çətiri altında birləşdirən doktrina olaraq səciyyələndirə bilərik. http://yeniazerbaycan.com/Axtarish_e26933_az.html*

*7. Michael Murphy. Multiculturalism: A Critical Introduction, Routledge, 2013. 198 pages.*

*8. Samuel P. Huntington. "The Clash of Civilizations?" Foreign Affairs, vol. 72, no. 3, 1993, pp.22–49.*

*9. Samuel P. Huntington Who are We?: The Challenges to America's National Identitys. Simon & Schuster, 2004. 428 pages.*

*10. S.Allahverdiyev. Konstitusiyanın və hüququn əsasları. Dərslik. «Digesta » nəşriyyatı. Bakı, 2011. 444 pages.*

*11. S.Məmmədova. Azərbaycanda sosial dövlət: inkişafı, perspektivləri. Bakı, Avropa nəşriyyatı, 2017. 232 pages.*

*12. Vitikainen, A. (2017, May 24). Multiculturalism and Political Philosophy. Oxford Research Encyclopedia of Politics. Retrieved December 17 2020, from https://oxfordre.com/politics/view/10.1093/acrefore/9780190228637.001.0001/acrefore-9780190228637-e-252.*

**Роль мультикультурализма в диалоге цивилизаций: взгляд Азербайджана**

**РЕЗЮМЕ**

В данной статье анализируется мультикультурализм как основа для межкультурного диалога и его ресурсы для продвижения прав человека и культурных прав на примере азербайджанской модели. Также принимаются во внимание разногласия среди мультикультуралистов, влияние интеграции, глобализации и проблемы мигрантов. Наконец, были исследованы возможности мультикультурализма для решения вопросов национального и социального обеспечения. Тщательное изучение показывает, что мультикультурная политика может укрепить политическую, экономическую и культурную безопасность, межгосударственные и межкультурные отношения, если она тщательно соблюдается и поддерживается законодательством. В статье делается вывод о том, что мультикультурализм является первым шагом к диалогу цивилизаций, поскольку он создает исходную модель межкультурного сотрудничества и взаимного доверия между государствами.

**Ключевые слова:** *Азербайджан, цивилизации, политика идентичности, межкультурный диалог, мультикультурная политика.*

**Multikulturalizmin sivilizasiyalararası dialoqda rolu: Azərbaycan perspektivi**

**XÜLASƏ**

Bu məqalədə, multikulturalizm mədəniyyətlərarası dialoqun təməli kimi götürülür və onun insan hüquqları və mədəni hüquqların təmini üçün imkanları Azərbaycan modeli əsas nümunə götürülməklə təhlil olunur. Multikulturalistlər arasındakı olan fikir ayrılıqları, inteqrasiyanın təsiri, qloballaşma və miqrant məsələləri də nəzərə alınmışdır. Nəhayət, multikulturalizmin milli və sosial təhlükəsizlik məsələlərinin həllində mövcud imkanları araşdırılmışdır. Hərtərəfli araşdırma göstərir ki, multikultural siyasət qanunvericiliklə dəstəklənərsə və tam olaraq tətbiq edilərsə, siyasi, iqtisadi və mədəni təhlükəsizliyi, dövlətlərarası və mədəniyyətlərarası əlaqələri inkişaf etdirə bilər. Məqalədə belə nəticəyə gəlinir ki, multikulturalizmin mədəniyyətlərarası əməkdaşlıq və dövlətlər arasında qarşılıqlı inam modeli yaratmaqla sivilizasiyalararası dialoqun inkişafı istiqamətində ilk addımdır.

**Açar sözlər:** *Azərbaycan, sivilizasiyalar, kimlik siyasəti, mədəniyyətlərarası dialoq, multikultural siyasət.*

UOT: 323

# YENİ MEDİANIN AZƏRBAYCANDA SİYASİ MƏDƏNİYYƏTİN FORMALAŞMASINA TƏSİRİ

**NİGAR ADİLOVA**
*AMEA Hüquq və İnsan Haqları İnstitutunun doktorantı*

*E-mail: adilova.nigar@gmail.com*

**Giriş**

Müasir informasiya cəmiyyətində siyasi mədəniyyətin transformasiyası prosesi aktual məsələlərdən biridir. Çünki daxili və xarici mühitin təsiri ilə daim yenilənən siyasi mədəniyyət özü ilə bərabər yeni siyasi-ictimai mühit də formalaşdırır. Azərbaycanda da qədim zamandan müstəqil dövlət yarananadək və ondan sonrakı illərdə müxtəlif informasiya-kommunikasiya texnologiyalarının siyasi mühitə, proseslərə təsir etməsi ilə əlaqədar siyasi mədəniyyətin də formalaşması, hər bir tarixi, siyasi, mədəni, iqtisadi mühitdə zəngin xüsusiyyətlər qazanaraq yenilənməsi geniş şəkildə müşahidə edilmişdir. Yeni əsrdə informasiya-kommunikasiya texnologiyalarının inkişaf etməsi, geniş yayılması və qlobal mühitdə baş verənləri daxili mühitə daha rahatlıqla sala bilmə imkanları siyasi mədəniyyətimizin yenidən formalaşmasını labüd etmişdir. Belə ki, beynəlxalq inteqrasiya şəraitində qlobal mühitin yeni media vasitəsilə siyasi mədəniyyətə müdaxiləsi qaçılmaz olmuşdur.

**Azərbaycanda internet və yeni medianın yaranması və yayılması**

İnternet Azərbaycanda 1993-cü ildən inkişaf etməyə başlamışdır. Ölkəmizdə ilk sayt Azərbaycan Elmlər Akademiyasında 1994-cü ildə, ilk dövlət orqanına məxsus sayt isə (Azərbaycan Respublikası Prezidentinin saytı) 1997-ci ildə yaradılmışdır. Azərbaycanda genişzolaqlı xidmətlərin göstərilməsinə 2006-cı ildən başlanılmışdır və istifadəçilərin sayı getdikcə çoxalmaqdadır. Son illərdə ölkədaxili internet şəbəkəsinin qlobal internet şəbəkəsinə qoşulma sürəti dəfələrlə artırılmışdır [1].

Bununla yanaşı, bütün ölkə ərazisində "Azərbaycan Respublikasının informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə Tədbirlər Planının 5.1.7-ci bəndinə əsasən, 2016-ci ildən rəqəmsal TV yayıma keçid edilmişdir. 2019-cu ildə isə radionun da rəqəmsallaşması istiqamətində yoxlamalar aparılmış və Bakı ərazisində onun təmin edilməsinə nail olunmuşdur. Bütün bu tədbirlər Azərbaycanda da yeni medianın inkişafına təkan vermiş və bununla yanaşı, ümumilikdə mədəniyyətə və onun tərkib hissəsi olan siyasi mədəniyyətə təsir yollarını artırmışdır.

Azərbaycanda internet istifadəçilərinin sayı 2021 -ci ilin yanvar ayında 8,26 milyon olmuş, internetə giriş isə 81,1% təşkil etmişdir. Ölkəmizdə sosial media istifadəçilərinin sayı eyni tarixdə əvvəlki illərlə müqayisədə 600 min (+16%) artaraq 4.30 milyon olmuşdur. Həmin dövrdə sosial media istifadəçilərinin sayı ümumi əhalinin 42,2% -nə bərabər idi. Həmçinin, sosial şəbəkələrdən istifadənin artmasının əsas səbəblərindən biri kimi mobil əlaqənin miqdarı da göstərilən dövrdə yüksək olmuş (11,30 milyon) və bu, ümumi əhalinin 111%-ni əhatə etmişdir [9]. Beləliklə, Azərbaycanda müasir dövrdə internet, ümumilikdə yeni media və mobil əlaqə istifadəçiləri demək olar ki, əhalinin əsas hissəsini, sosial media istifadəçiləri isə təqribən yarısını əhatə edir.

**Yeni mediada postmaterialist dəyərlərin Azərbaycan siyasi mədəniyyətinə təsiri**

Yeni medianın Azərbaycanda siyasi mədəniyyətə təsirindən danışarkən ilk növbədə ümumi qlobal tendensiyalar fonunda onun izahı daha məqsədə uyğundur. Bunun üçün qlobal mühitdə olan inkişaf tendensiyaları və artan postmaterialist dəyərlərin qeyd edilməsi çox mühümdür. Belə ki, yeni medianın rəqəmsallıq xüsusiyyəti onun hər yerdə, hər an və rahat çatımlılığını təmin etdiyi üçün digər iqtisadi, ictimai və siyasi sahələrin inkişafı ilə bərabər postmaterialist dəyərlərin də Azərbaycanda get-gedə yayılmasını müşahidə etmək mümkündür. Bu vəziyyət sırf siyasi kommunikasiyanın məhsulu kimi ortaya çıxmasa da, sosial və mədəni, texnoloji təsirlər fonunda meydana gəlir və geniş yayılır. Müasir qlobal medianın məzmunu postmaterialist dəyərləri özündə ehtiva etdiyi üçün qlobal inteqrasiyanın bir hissəsi olan Azərbaycanda da ondan yayınmaq mümkün deyil. Bu baxımdan

xüsusilə, qeyri-siyasi mahiyyətli media məzmunun rolu qiymətləndirilməlidir. Bu cür məzmunun cəmiyyətə yayılmasında Hollivud və digər müasir filmləri, müxtəlif məzmunlu video çarxları, şəkilləri, musiqili videoları izləmək imkanı verən Youtube kanalları, podkastlar, internet TV və internet radio, eyni zamanda, sosial şəbəkələr əsas rol oynayır. "Globalstats" platformasına əsasən, Azərbaycanda 50 ən çox izlənilən youtube kanalından yalnız 10-u siyasi biliklənməni təmin edir [10]. Yerdə qalan kanallar isə "əyləncəvi" kateqoriyaya aid kanallardır. Yəni, əhali sosial şəbəkələrdən daha çox əyləncə məqsədilə istifadə edir. O da qeyd edilməlidir ki, sosial şəbəkələrin əsas istifadəçiləri yeniyetmələr və gənclər olduğu üçün onların siyasi mədəniyyətinə təsir daha çox qeyri-siyasi məzmunlar vasitəsilə həyata keçir.

Bu gün qeyd edilən media resurslarında siyasətə heç bir aidiyyatı olmayan hər hansı video, şəkil və ya mətnin məzmununda belə cəmiyyətə siyasi cəhətdən təsirə malik olan elementləri müşahidə etmək mümkündür. Postmaterialist məzmun və mesajlar vətəndaşların liberal baxışlarının daha da dərinləşməsinə və öz istəkləri və tələbatları uğrunda mübarizliyə, eyni zamanda, dünyəvi dəyərlərin inkişaf etməsinə şərait yaradır. Hesab edilir ki, post materialist dəyərlər siyasi fəallığı, siyasi düşüncə və söz azadlığını daha da artırır. Bununla yanaşı, siyasətdən uzaq və siyasi marağı olmayan auditoriyanın siyasi görüşlərində, dəyərlərində özləri də hiss etmədən yeni, bir sıra hallarda mənfi meyllər ortaya çıxır.

Sosial şəbəkələrdən daha çox əyləncə məqsədilə və ya yazışmaq üçün istifadə edənlərin əksəriyyəti zərərli təsirlərə məruz qala bilən əsas potensial kütləni təşkil edir. Belə vətəndaşlarda siyasi sistemə bağlılıq və vətənpərvərlik hisləri zəif olur. Bəzi sosioloqların apardığı müşahidələrə görə, sosial şəbəkə istifadəçiləri əxlaqi təməllərin dağılması təhlükəsi ilə üz-üzədir. Bu, başlıca olaraq, hələ psixologiyası tam formalaşmamış uşaqlar, yeniyetmə və gənclərə aiddir. Sosial-mədəni, mənəvi dəyərlərə, dövlət qanunlarına qarşı etinasızlıq (və ya əks mövqedə olmaq), müxtəlif zərərli fikirlərin təsiri altına düşmək, "istehlakçı psixologiyasının" formalaşması belə mənfi təsirlərə nümunədir [2; 151-152].

Yeni media postmaterialist dəyərləri xüsusi strategiyalar və alətlər vasitəsilə istər məqsədyönlü şəkildə, istərsə də mexaniki şəkildə auditoriyaya ötürür. Xüsusilə, hələ bu dəyərlərin mahiyyətini dərk etməyən, məsələn azad düşüncənin və ya, azad fikrin nə olduğunu, siyasi və sosial fəallığın əsl məğzini anlamayan kütləyə aşılanması arzu olunmayan nəticələri, eləcə də siyasi mədəniyyəti ortaya çıxarır.

Kütlənin yönləndirilməsi məqsədilə media və psixoloji manipulyasiyanın (televiziya, qəzet və jurnallar, sosial şəbəkələr və digər vasitələrlə yönləndirilmə) kütləvi (Crowd manipulation), məlumat (Data manipulation), bazar (Market manipulation) manipulyasiyalarından istifadə edilir. Bunlarla yanaşı, video manipulyasiyası da geniş yayılmış təbliğat üsullarından biridir [5]. Bu baxımdan, vizuallıq və səs effektləri ilə duyğulara təsir etmək imkanları daha geniş olan və televiziyanın yeni mediada əsas alternativi olan Youtube sosial şəbəkəsi xüsusilə əhəmiyyətli təsirə malikdir.

Video formatın bu cür təsiredicilik xüsusiyyəti ondan siyasi kommunikasiyada da istifadəni şərtləndirmişdir. Müasir dövrdə siyasi mediada müşahidə olunan tabloidləşmə (məlumatların şəxsiləşdirilməsi, fraqmentasiya və s.) bu baxımdan ictimai fikrin yönləndirilməsində xüsusi önəm kəsb edir. Xüsusilə, sosial şəbəkələrdən məqsədsiz şəkildə istifadə edən insanlar belə sensasiyon xarakterli, rəsmi məlumatlardan daha fərqli və cəlbedici görünən müxalif yönümlü məlumatları izləmək və qəbul etməyə həvəsli olurlar. Eyni zamanda, video format və ya tabloidləşmiş xəbərlər duyğu və hislərə, dəyərlərə daha çox təsir edə bildiyi üçün onların kütlə düşüncəsinə və davranışlarına da müdaxiləsi güclü olur. Çünki bu izləyicilərin ümumi siyasi proseslər və tendensiyalar haqqında o qədər də dərin və əhatəli bilik və informasiyaları yoxdur. Belə fərdlər əsasən süni konformizm nümayiş etdirirək yalnız yanlış ictimai fikrin formalaşmasında əsas rol oynayırlar.

2005-2007-ci illərdə Eynulla Fətullayev hadisələri və Azərbaycan milli hisslərinə təhqiramiz sayılan həssas videoların cəmiyyətdə böyük bir səs -küyə səbəb olmaq üçün internetə yüklənməsi (Xarici İşlər Nazirliyi, buna cavab olaraq, etirazını bildirmək və videoların silinməsi üçün İnternet provayderinə rəsmi məktub göndərmişdi [7]), 2011-ci il saxtalaşdırılmış materialların youtube şəbəkəsində yerləşdirilməsi nəticəsində baş verən

Quba hadisələri, 2019-cu ildə İçərişəhərdə bəzi restavrasiya işləri ilə əlaqədar sosial şəbəkələrdə şişirdilmiş şəkildə saxta və fərqli zamana aid şəkillərin yayılması nəticəsində yaranan ajiotaj buna misal ola bilər.

**Yeni media və söz azadlığı**

Postmaterialist dəyərlərin əsas tərkib hissəsi olan özünüifadə dəyərləri içərisində vacib elementlərdən biri söz və media azadlığıdır. Yeni medianın bir hissəsi olan sosial şəbəkələr xüsusilə beynəlxalq arenada azad söz və fikir məkanı kimi qəbul olunmuşdur. Azad söz mühiti demokratikləşmə, modernləşmə və siyasi inkişaf məqsədilə çağırışlara cavab vermək baxımından çox əhəmiyyətlidir. Azərbaycanda da bu baxımdan yeni media mühiti daha azad söz məkanına çevrilmişdir və qeyd edilən demokratik tendensiya müşahidə olunmaqdadır. (Bir sıra QHT-in və təşkilatların mənfi xarakterli iddialarına baxmayaraq (Xüsusilə, "Sərhədsiz jurnalistlər" təşkilatı, Beynəlxalq Amnesty təşkilatı, "Azadlıq Evi", Avropa Şurası və s.)). Bu barədə 2012-ci ildə İlham Əliyevin İnternet İdarəçiliyi forumunun açılışında səsləndirilən məktubunda qeyd edilmişdir: "Təqdirəlayiq haldır ki, Azərbaycanda internet azadlığı mövcuddur. Ölkəmizdə internet radio, internet –televiziya, elektron qəzet və jurnallar, xarici və daxili sosial şəbəkələr geniş yayılıb, minlərlə bloqqer Azərbaycanın internet məkanında azad fəaliyyət göstərir. Biz insanlar və xalqlar arasında qarşılıqlı hörmət əsasında bərabərhüquqlu dostluq əlaqələrinin yaradılması üçün istənilən xoşməramlı internet fəaliyyətini dəstəkləyirik [3]".

Azad medianın göstəricisi olaraq, hazırda Azərbaycanda internet siyasi kommunikasiya məkanında müxtəlif dövlət və özəl kanallarla yanaşı, TV Müsavat, Meydan TV kimi müxalifət yönümlü siyasi kanallar da fəaliyyət göstərir. BBC, "Amerikanın səsi" və "Azadlıq radiosu" kimi beynəlxalq media kanalları da vətəndaşların siyasi biliklənməsinin təmin olunmasında fəal iştirak edirlər. (Bir çox hallarda isə hakimiyyətə müxalif məlumatların işıqlandırılması əsasında olsa belə) Bununla yanaşı, sosial şəbəkə məkanında müxtəlif siyasi baxışlara malik istifadəçilər də vardır ki, onlar da öz siyasi xarakterli paylaşımlarını sərbəst şəkildə həyata keçirirlər. (Bəzən bu cür paylaşımlar hətta etik normalardan kənara çıxsa belə.)

Sosial şəbəkə mühiti bol informasiya mənbəyi olsa da, həm də fərqli və bəzən də yanlış informasiyaların yayılmasının əsası olur. Sosial şəbəkələrin açıqlığı cəmiyyət üçün müsbət keyfiyyətlərlə yanaşı, təhlükəli məqamlar da doğurur. Bu media vasitəsi ilə həyata keçirilən informasiya-psixoloji təsir zamanı birinci yerdə ictimai fikrin formalaşdırılması prosesi dayanır. Bu halda azlıq təşkil edənlərin fikirlərini çoxluğun fikri kimi təqdim etmək sosial şəbəkələrdə ən çox istifadə olunan üsullardandır. Bu üsuldan istifadə mövcud informasiya mühitini dağıtmaq və onu digər informasiya mühiti ilə əvəz etməyə imkan verir ki, nəticədə, cəmiyyətin maraqları bu cəmiyyətə təsir edən tərəfin maraqlarına tabe etdirilir və ya uyğunlaşdırılır [2; 152]. Beləliklə, yeni media söz və fikir azadlığı imkanları altında postmaterialist dəyərlərin istənilən şəkildə (mənfi və müsbət yöndə) cəmiyyətdə təbliğinə çalışır. Bununla da, siyasi mədəniyyətdə, siyasi davranışlarda yeni çalarlar ortaya çıxır.

**Yeni media və ictimai-siyasi iştirakçılıq**

Son illərdə həm yerli, həm də qlobal səviyyədə ictimai birliklərə, fondlara və digər QHT-lərin yaradılması və onlara üzvlülük fəaliyyətinin artması, həmçinin, könüllülük kimi ictimai və eyni zamanda da siyasi fəallığın çoxalması müşahidə olunur. Müqayisə üçün qeyd edilməlidir ki, 2015-ci ildə Azərbaycanda 3000-ə qədər qeydiyyatdan keçmiş QHT fəaliyyət göstərirsə, bugün bu rəqəm 3541-ə çatır. Lakin burada onu da qeyd etmək lazımdır ki, bu cür siyasi fəaliyyət daha çox paytaxt şəhəri əhatə edir. Qeyd edilən fəaliyyət regionlarda hələ ki, zəifdir.

Bununla yanaşı, son onillikdə müşahidə olunan sosial və siyasi, dinc, qanuni və bəzən də qanunsuz nümayişlər, etirazlar da özünüifadə dəyərlərinin cəmiyyətdə yer etməsinin göstəricisidir. Təsadüfi deyil ki, Ümumdünya Dəyərlər Sorğusunun Azərbaycana aid nəticələrinə əsasən qanuni və qanunsuz siyasi nümayişlərdə iştirak faizi əvvəlki illərlə müqayisədə bir qədər artmışdır. Amma vurğulanmalıdır ki, bu cür etiraz xarakterli nümayişlər Azərbaycan siyasi mədəniyyətində o qədər də geniş yayılmamışdır, yalnız qlobal post-modernist siyasi mədəniyyətin xırda göstəriciləri kimi müşahidə olunmaqdadır. Belə nümayişlər bəzən siyasi mahiyyətə malik olaraq siyasi partiyalar tərəfindən həyata keçirilsə də, bəzən də

feminist və digər sosial hərəkatların qolu kimi ortaya çıxır. Az hallarda onların təşkili sosial şəbəkələr vasitəsilə motivə edilir və yönləndirilir. Umumilikdə isə, aparılan sorğular və müşahidələr onu göstərir ki, Azərbaycanda sosial şəbəkələrin mobilləşməni təmin etməkdə rolu o qədər də güclü deyil [4]. Bunun əsas səbəblərindən biri əhalinin çox hissəsinin hakimiyyətdən razılığıdırsa, digər səbəbi də siyasi marağın azlığıdır.

**Yeni media və sağlam siyasi fəallıq**

Mənfi təsirləri ilə yanaşı, sosial şəbəkələr axtarış portalları ilə birlikdə həm də nəhəng informasiya mənbəyidirlər. Dünyanın müxtəlif xəbər və elmi mənbələrinə çatımlılığı təmin edən informasiya mühiti dərin siyasi biliklərin əldə olunması üçün adi vətəndaşa belə geniş imkanlar verir. Bununla da, təkcə siyasi biliklənmə deyil, onlayn siyasi fəallığın artırılması üçün də əlverişli zəmin yaranır. Həmin fəaliyyət həm dövlət tərəfindən təşkil olunan və dəstəklənən, həm də azad şəkildə mövcud olur. Müxtəlif saytların nəzdində yaradılan forumlar, diskussiya mərkəzləri, rəy sorğuları buna misal ola bilər.

Sağlam siyasi fəallığa nail olmaq üçün əsas vasitələrindən biri də yeni tendensiyalardan hesab olunan kraudsorsinqdir (kütlə fikrindən bəhrələnmə). Kraudsosusinqin yaranması əvvəlki dövrlərə aid olsa da, müasir dövrdə o daha çox internet üzərindən həyata keçirilən adi insanların siyasi də daxil olmaqla hər-hansı qərarların qəbulunda iştirakının təmin edilməsidir. Bu üsul internet vasitəsilə bir araya gətirilən izdihamın gücünü və biliklərini istifadə edən geniş alətlər dəstini əhatə edir [6; 5]. Müasir zamanda təkmilləşdirilmiş kommunikasiya texnologiyaları kollektiv zəkanın daha mürəkkəb istifadəsini təmin edə bilir [6; 8]. Kraudsoursinqin məşhur növlərinə kütlə xəritələri (SeeClickFix and FixMyStreet,), viki platformalar aiddir.

Bir çox dövlətlərin təcrübələrində müxtəlif siyasi sahələrdə kraudsorsinq imkanlarından geniş isitfadə olunur. Finlandiya, Braziliya, ABŞ buna əsas nümunələrdir. Azərbaycanda Təhsil Nazirliyi tərəfindən təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına dair həyata keçirilən qrant müsabiqələri buna nümunə ola bilər. Problemi yaşayan insanların onu həll etmək üçün təklifləri çox zaman səmərəli nəticələr ortaya çıxarır. Bu baxımdan onlayn sosial şəbəkələr vasitəsilə vətəndaşların fərqli yanaşmalarının əldə oluması hər hansı problemə daha ətraflı yanaşmanı təmin edə bilir. Dövlət idarəçiliyində sosial şəbəkələrdən istifadə zamanı birgə fikir mübadiləsindən sonra isə birgə yaratma (co creation) mərhələsi gəlir. Bu zaman artıq kütlə içərisində xüsusi bacariq və biliyə malik insanlar dövlətlə birgə hansısa xidmətin yaradılmasında iştirak edir [8]. Bu baxımdan da ölkəmizdə müəyyən yeni addımlar atılmaqdadır. Məsələn, 2021- ci il iyunun 2-də yaradılmış "Onlayn ictimai nəzarət" platforması buna misal ola bilər [11].

**İKT-nin təsiri ilə vətəndaşların siyasi mədəniyyətinin qiymətləndirilməsinə dair sorğunun nəticələri**

Yuxarıda qeyd edilən nəzəri məsələlərin isbatı məqsədilə Azərbaycanda İKT-nin vətəndaşların siyasi mədəniyyətinə necə təsir etməsinə dair sorğu həyata keçirilmişdir. Sorğu sualları müasir informasiya kommunikasiya texnologiyalarının siyasi mədəniyyətin üç tərkib hissəsinə təsirini öyrənmək hədəfi ilə tərtib edilmişdir. Sorğu prosesini ağırlaşdırmamaq məqsədilə vətəndaşlara on sual ünvanlanmışdır. Bu sualların 3-ü onların yaş, cins və sosial status göstəriciləri ilə əlaqədardır. Qeyd edilən sualların daxil edilməsi demoqrafik göstəriciləri fərqli olan vətəndaşların siyasi mədəniyyətinə İKT-nın təsirinin müəyyənləşdirilməsinin təmin edilməsi ilə əlaqədardır. Digər suallar vətəndaşın siyasi biliyinə, düşüncəsinə, siyasi mövqeyinə, yanaşmalarına və davranışlarına təsirini araşdırmaq məqsədilə təklif olunmuşdur. Daha obyektiv nəticələrin əldə olunması üçün sorğu anonim keçirilmişdir.

Prosesdə iştirak edənlər təsadüfi sorğu ünvanlanan şəxslərdir. Onların ümumi sayı 214-dür. Qeyd edilməlidir ki, sorğuda iştirak edənlər Bakı şəhərinin sakinləridir. 214 nəfərdən 6-si cinsini, 2 nəfər yaşını, 2 nəfər isə sosial statusunu qeyd etməmişdir. Eyni zamanda, bəzi sualları iştirakçıların bir neçəsi cavabsız qoymuşdur. Demoqrafik göstəricilərinə görə respondentlərin 67.3% -ni qadınlar, 32.7% -ni isə kişilər təşkil edir. Onlardan 85.8% gənclər, 11.3 % ortayaşlı insanlar, 2.8 %-i isə yaşlı nəslin nümayəndələri olmuşlar. Sorğuda iştirak edənlərin 53.3% özəl sektorda, 31.6% dövlət sektorunda, 2.4% isə ictimai sektorda işlədiyini, 6.1 % təhsil aldığını, 6.6%-i isə heç harda

işləmədiyini qeyd etmişdir.

**Sorğu sualları və cavablar.** Respondentlərin "İnternetdən daha çox hansı məqsədlə istifadə edirsiniz?" sualına cavabları demək olar ki, üç bərabər göstəricini ortaya çıxarmışdır. Belə ki, siyasi bilik və aktual ictimai-siyasi məlumatları almaq üçün istifadə edənlər 38.3%, əyləncəli video rolikləri, filmləri, musiqili klipləri izləmək üçün istifadə edənlər 33%, sosial şəbəkələrdə dost-tanışlarla ünsiyyətdə olmaq üçün istifadə edənlər isə 23.9% olmuşdur. Bəzi iştirakçılar isə internetdən öz ixtisaslarını, müxtəlif sahələrdə dünyagörüşlərini və peşə bacarıq və biliklərini artırmaq üçün yararlandıqlarını bildirmişlər.




İştirakçılar digər "İctimai-siyasi xəbərləri ən çox hansı mənbədən əldə edirsiniz?" sualına çoxluqla (72.4%) "sosial şəbəkələrdən", az bir qisim isə "televiziya və radio proqramlarından" (11.9%), daha az qisim isə "elektron qəzetlərdən" (7.6%) cavabını vermişlər.




"İnternet-informasiya resursları sizin siyasi biliklərinizin artırılmasına necə təsir edir?" sualına 72.6% respondent "aktual olan gündəlik ictimai-siyasi xəbərlərlə təmin edir" cavabını vermiş, 21.2% "siyasi bilik və savadımı artırır" seçimini etmişdir. 5.3% iştirakçı isə lazımlı siyasi məlumatla az təmin etdiyini bildirmişdir.




İştirakçıların yarıdan çoxu seçkilər və namizədlər barədə daha çox məlumatı sosial şəbəkələrdən aldıqlarını, 24% iştirakçı isə bu haqda məlumatı televiziyadan əldə etdiyini bildirmişdir. Respondentlər arasında az bir qisim qeyd edilən məlumatlar haqqında elektron qəzet və youtube kanallarından da bəhrələndiklərini vurğulamışdır.




"İnternet –informasiya resursları sizin siyasi baxışlarınıza necə təsir edir" sualını isə iştirakçıların 39.9 % neqativ (Siyasi baxışlarımı dəyişə bilmir), 27.4% isə pozitiv (Bir neçə il öncəki siyasi baxışlarımı dəyişib) cavablandırmışdır. Maraqlı cavablardan biri də 20.2% - i əhatə edən "Bir neçə il öncəki siyasi baxışlarımı daha da möhkəmləndirib" cavabı olmuşdur. 10.1% "Siyasi fikirlərimdə çaşqınlıq yaradır" cavabını seçmişdir.




"Sizcə, sosial şəbəkələr vətənpərvərlik hissinə necə təsir edir?" sualına 74% "Vətənə rəğbət hissi yaradır," 14.5% isə "Vətənə rəğbət hissi yaratmır" cavabını vermişdir. Oxşar bir sual televiziya timsalında da verilmişdir. Burada da "Vətənə rəğbət hissi yaradır" cavabı 65.4% ilə üstünlük təşkil etmişdir.






“Sosial şəbəkələr sizin siyasi davranışlarınıza necə təsir edir?” sualına 60% - ə yaxın iştirakçı “heç bir təsir etmir”, 34.4% “Vətəndaşlıq borcumu yerinə yetirməyə təşviq edir”, 5.3% iştirakçı isə “siyasi baxımdan passivliyimə səbəb olur” cavabını vermişdir.




“İnternet-informasiya resursları sizin seçki davranışınıza necə təsir edir?” sualına respondentlərin 69% - i “seçki fəallığıma təsir etmir” cavabını, 27.6% - i “seçki fəallığımı artırır” cavabını vermişdir.




“Siyasi baxış və davranışlarınızda 5 -10 il öncəkinə nisbətdə dəyişiklik varmı?” sualına 38.5% respondent “Siyasi baxışlarım daha pozitiv olub, amma davranışlarımda dəyişiklik yoxdur” cavabını vermişdir.




**Təhlil və nəticə.** İlk öncə qeyd edilməlidir ki, iştirakçıların bəzi sualları cavablandırmaması araşdırmanın nəticələrində dəqiqliyin bir qədər pozulmasına səbəb olmuşdur. Buna baxmayaraq, respondentlərin sayı kifayət qədər çox olduğu üçün ümumi yanaşmanın müəyyən etmək mümkün olmuşdur. Suallara cavabların bir-bir tədqiqi nəticəsində demoqrafik göstəricilərin də təsiri nəzərə alınaraq yekun nəticədə qeyd edilmişdir. Sorğu iştirakçılarının çox hissəsinin gənclərdən ibarət olması siyasi bilik mənbəyi kimi əsas vasitənin sosial şəbəkələr seçilməsinə ən vacib səbəblərdəndir. Yaşlı təbəqə isə daha çox televiziyanı siyasi bilik mənbəyi kimi qeyd etmişdir. Digər vacib məqam əyləncə məqsədilə sosial şəbəkələrə müraciət olunmasının siyasi bilik əldə olunmasından cəmi 5% az olması ilə əlaqədardır. Bu yuxarıda qeyd etdiyimiz “Azərbaycanda vətəndaşlar sosial şəbəkələrdən daha çox əyləncə məqsədilə istifadə edir” iddiasına tam uyğun olmasa da, yaxın nəticədir. Bu fərqli nəticənin səbəbi sorğu iştirakçılarının əksəriyyətinin ali təhsilli olması ilə əlaqədar ola bilər. Digər tərəfdən, nəticələr yeni mediada vətənpərvərlik hissinin çox aşılanmasına və vətəndaşların siyasi yanaşmalarının pozitiv olduğunu əks etdirmişdir. Buna baxmayaraq, siyasi iştirakçılıq və seçki davranışlarına İKT vasitələrinin təsiri o qədər də görünməmişdir. Belə nəticəyə gəlmək olar ki, siyasi biliyin təmin olunmasında sosial şəbəkələr kifayət qədər əhəmiyyətli rol oynasa da, bu daha çox siyasətlə maraqlananları lazımı siyasi informasiya ilə təmin etməklə əlaqəlidir. Maraqlanmayanlar yalnız gündəmi izləmək məqsədilə və ya təsadüfən qarşılarına çıxan xəbəri izləməklə kifayətlənirlər. Bu isə siyasi bilikli olmaq anlamına gəlmir. Belə hal yalnız ictimai fikrin formalaşmasını təmin edir. Bəzən isə bu vəziyyət yanlış ictimai fikrin və yanlış siyasi yanaşmaların yayılmasına şərait yaradır.

Beləliklə, sosial şəbəkələrin siyasi baxışların dəyişməsinə və siyasi davranışlara təsiri siyasi bilikli vətəndaşlarda güclü deyil. Bu təsir daha çox siyasi baxımdan maraqsız vətəndaşlarda müşahdə olunur. Siyasi baxımdan bilikli və maraqlı vətəndaşlarda isə mövcud baxışların və davranışların daha da güclənməsi mümkün olur. Bununla da, yuxarıda qeyd edilən fikirlər bir daha öz təsdiqini tapmış olur.

Sorğunun nəticələri müəyyən olunarkən, eyni zamanda, o da nəzərə alınmalıdır ki, sorğu yalnız Bakıda yaşayan bir qisim vətəndaşı əhatə edir. Həmçinin, sorğu siyasi mədəniyyəti tam anlamaq üçün məhdud məzmuna malikdir. Bu baxımdan,

gələcək tədqiqat işlərində daha geniş və dərin məzmunlu sualların tərtibatı və daha geniş kütləni əhatə edən sorğunun keçirilməsi siyasi mədəniyyətin daha düzgün qiymətləndirilməsini təmin edə bilər. Burada bir məsələ də qeyd edilməlidir ki, siyasi mədəniyyətin tam dəqiqliklə ölçülə bilmə meyarları yoxdur. Bu baxımdan yalnız sorğu metodu ilə onun dəyərləndirmək mümkün deyil.

**Nəticə**

İnformasiya kommunikasiya texnologiyalarının siyasi mədəniyyətə əsas təsir istiqamətlərindən biri yeni mediadır. Yeni medianın siyasi mədəniyyətə təsiri həm məqsədyönlü, həm də gözlənilməz ola bilər. Məqsədyönlü istifadə dövlətin informasiya siyasəti ilə əlaqəlidirsə, göznənilməz təsir qlobal mühitin təsirləridir. Dövlətin informasiya siyasəti nəticəsində siyasi mədəniyyətin mənfi keyfiyyətlərinin aradan qaldırılması və eyni zamanda, müsbət keyfiyyətlərin əhəmiyyəti vurğulanaraq qorunması təmin edilə bilər. Bu məqsədlə həm birbaşa siyasi, həm də qeyri-siyasi məzmun və informasiya ilə yeni siyasi bilik formalaşdırmaq, siyasi düşüncə və yanaşmalara nüfuz etmək mümkündür. Bu fəaliyyəti xüsusilə, televiziya, youtube kanalları vasitəsilə video materiallar, filmlər vasitəsilə həyata keçirmək olar.

Ümumiyyətlə, yeni mediadan gündəlik siyasi biliklərə və yanaşmalara, eyni zamanda, davranışlara təsir etmək üçün siyasi kommunikasiya aləti kimi, eyni zamanda, duyğu və hislərə təsir edən və zaman-zaman dəyərləri dəyişən kommunikasiya vasitəsi kimi istifadə olunur.

Yeni medianın siyasi mədəniyyətə gözlənilməz təsirləri sosial şəbəkələr və qlobal internet axtarış sistemləri, saytlar vasitəsilə həyata keçir. Bu mühitdə cərəyan edən informasiya daha çox postmaterialist dəyərləri özündə ehtiva etdiyi üçün yerli siyasi mədəniyyətlərə təsiri də bu istiqamətdə olur. Müxtəlif beynəlxalq aktorların, QHT-lərin məqsədli müdaxiləsi ilə, və ya məqsədsiz neqativ məzmunlu informasiya insanların şüuraltında yer edir. Siyasi bilikdəki boşluqlar, siyasi maraqsızlıq bu cür informasiyaların suni konformizm yolu ilə mənimsənilməsinə səbəb olur.

Texnoloji inkişafın nəticəsində ortaya çıxan postmaterialist dəyərlərin ehtiva etdiyi dünyəviləşmə və özünüifadə dəyərləri siyasi mədəniyyətin dəyişməsinə öz töhfəsini bu yolla verir. Siyasi bilikli və milli-mənəvi dəyərlərini tanıyan və mənimsəyən vətəndaşlarda bu dəyərlər müsbət inkişafa, digərlərində isə mənfi inkişafa səbəb ola bilir. Məsələn, bununla əlaqədar olaraq, bəzən dünyəviləşmə dinsizləşmə kimi qəbul olunur və ya müxtəlif yeni dünyəvi kimliklər (məs, feminist, lgbt) ortaya çıxmağa başlayır. Texnoloji inkişaf bir çox kimliklərin yaranmasının səbəbi olmasa da, lakin onların yayılmasını təmin edir. Bununla yanaşı, yeni kimliklər uğrunda mübarizə aparan, özünüifadə və iştirakçı siyasi mədəniyyətin elementləri görünməyə başlayır.

Digər tərəfdən, siyasi bilikli və milli-mənəvi dəyərlərinə bağlı vətəndaşların, xüsusilə gənclərin siyasi iştirakçılığının artması müsbət tendensiyadır. Bu cür vətəndaşlarda iştirakçı siyasi mədəniyyətin formalaşması ümumilikdə demokratik siyasi mədəniyyətin formalaşmasını təmin edir.

O da qeyd edilməlidir ki, tarixən Azərbaycanda tabeçilik siyasi mədəniyyəti daha üstün olmuşdur. Bunun bir çox təzahürləri bu gün də qalmaqdadır. Bu mədəniyyətin iştirakçı siyasi mədəniyyətə keçid etməsi üçün siyasi şüur və mentalitetdə mənfi xüsusiyyətlər aradan qalxmalı, sosial normalardan asılılığın azaldılması istiqamətində maarıfləndirmə işləri aparılmalı, tənzimləmə, nəzarət işləri həyata keçirilməklə vətəndaşlar sağlam siyasi fəallığa təşviq edilməlidir. Bu zaman onları narahat edən, cəsarətsizləşdirən meyarlar aradan qaldırılmalıdır. Bununla yanaşı, dəyərlərin, mənəviyyatın təbliği genişləndirilməli, lakin bu zaman təqdim edilən informasiyalar obyektivlik və dürüstlüyə əsaslanmalıdır. Eyni zamanda, kraudsorsinq və dövlət-vətəndaş əməkdaşlığını təmsil edən birgə e-xidmətlər üçün yeni platformalar yaradılması siyasi mədəniyyətdə inkişafın müsbət nəticələrinin zəmanəti ola bilər.

**Açar sözlər:** *yeni media, postmaterialist dəyərlər, siyasi mədəniyyət, siyasi iştirakçılıq, siyasi baxışlar.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycanda internet / [Elektron resurs]: vikipediya. URL: https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycanda_internet*

*2. Ələkbərova İ. Qloballaşma dövründə dünya siyasəti və sosial şəbəkələr / Bakı Beynəlxalq Humanitar Forumu: "XXI əsr ümid və çağırışlar", - 4-5 oktyabr, - 2012-ci il. - s. 147-152.*

*3. İlham Əliyevin Bakıda keçirilən VII İnternet İdarəçilik Forumunun iştirakçılarına məktubu (Bakı: 5 noyabr 2012-ci il) // [Elektron resurs]: Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi, - 6 noyabr, 2012.*
*URL: https://president.az/articles/6546/print*
*4. Konvensional və qeyri konvensional siyasi iştirak (dördüncü hissə)/ [Elektron resusr]: Sosial Tədqiqatlar Mərkəzi. – 18 noyabr, 2019. URL: https://stm.az/az/news/648/konvensional-ve-qeyri-konvensional-siyasi-istirak-dorduncu-hisse*
*5. Yusibova A. Sosial şəbəkələrin yeni statusu: Hüquqi tənzimləmə sosial sifariş kimi / [Elektron resurs]: Sosial Tədqiqatlar Mərkəzi. - 9 İyul, 2020. URL: https://stm.az/az/news/219/sosial-sebekelerin-yeni-statusu-huquqi-tenzimleme-sosial-sifaris-kimi*
*6. Aitamurto T, Crowdsourcing for Democracy: A New Era in Policy-Making / Aitamurto T. - Publication of the Committee for the Future, – 2012. – p. 48.*
*7. Azerbaijan / [Electronic resource]: Net İnitiative. – 17 November, 2010.*
*URL: https://opennet.net/research/profiles/azerbaijan*
*8. Khan G. F. Social Media for Government: A Practical Guide to Understanding, Implementing, and Managing Social Media Tools in the Public Sphere / Khan G. F. - Singapur: Springer Nature Singapore Pte Ltd., - 2017. - p. 159.*
*9. Kemp S. Digital 2021: Azerbaijan / [Electronic resource]: Datareportal. -11 february, 2021.*
*URL: https://datareportal.com/reports/digital-2021-azerbaijan*
*10. Most subscribed Youtube channels in Azerbaijan / [Electronic resource]: Videooly. - URL: https://vidooly.com/top-youtube-channels/AZ/most-subscribed*
*11. https://enezaret.az/*

**Influence of new media on the formation of political culture in Azerbaijan**

**SUMMARY**

As the process of formation of political culture is a continuous process, the study of its changing characteristics in the new information age is considered one of the important issues in political science. In this regard, the article examines the impact of new media (mainly social networks) on political culture, and the impact on public opinion, political thought and behavior. In addition to the analysis method, the survey method was used in the article. With the mentioned methods, various directions and means of influence of networks on political culture were studied, and their role in political tendencies and participation was described. It was concluded that the new media can change the political tendencies of citizens, especially those with weak political interests and knowledge, and strengthen the existing approaches of those interested in politics and the influence of social media on political behavior is small.

**Keywords:** *new media, postmaterialist values, political culture, political participation, political views.*

**Влияние новых медиа на формирование политической культуры в Азербайджане**

**РЕЗЮМЕ**

Поскольку процесс формирования политической культуры представляет собой непрерывный процесс, изучение ее изменяющихся характеристик в новую информационную эпоху считается одним из важных вопросов политической науки. В связи с этим в статье исследуется влияние новых медиа (в основном социальных сетей) на политическую культуру, а также влияние на общественное мнение, политическую мысль и поведение. Помимо метода анализа, в статье использован метод опроса. С помощью упомянутых методов были изучены различные направления и способы воздействия сетей на политическую культуру, а также описана их роль в политических тенденциях и участии. Был сделан вывод, что новые медиа могут изменить политические тенденции граждан, особенно тех, у кого слабые политические интересы и знания, и усилить существующие подходы тех, кто интересуется политикой, а влияние социальных сетей на политическое поведение невелико.

**Ключевые слова:** *новые медиа, постматериалистические ценности, политическая культура, политическое участие, политические взгляды.*

UOT 328; 342.5; 351/354

# MİLLİ MENTALİTETİN İQTİSADİ PROYEKSİYASI: HƏQİQƏT AXTARIŞINDA...

**ƏVƏZ BAYRAMOV**
*İqtisad elmləri doktoru, professor,*
*Azərbaycan Dövlət İqtisad Universiteti*

*E-mail: avazbayramov61@gmail.com*

*A.Smitin "iqtisadi insan"ı – Qərb sivilizasiyasına və katolik dininə mənsub olan bir "ingilis"dir.*
*Müəllif*

## GİRİŞ

Dünya yol ayrıcındadır... Modernist paradiqmanın böhranı və paralel olaraq modernizmin "doğurduğu" milli varlığı konkret məna ilə "yükləyən" dəyər – konseptlərin "infliyasiyası" birgə yaşayış qaydalarında kardinal mahiyyət dəyişikliyi ilə müşaiət olunmaqdadır...

Milli varlığın "iqtisadiləşməsi" dərəcəsi artıq o nöqtəyə çatıb ki, hətta insan həyatının mənası belə iqtisadi təfəkkür tərəfindən müəyyənləşdirilir. Özü də, milli yaxud sivil kimliyi olmayan, ümumbəşəri abstraktsiyanl ifadə edən, hamı və hər kəs üçün yeganə doğru (oxu: haqq yolu) yolu göstərən, ictimai həyatın bütün spektrinin (siyasi, sosial ideoloji, mənəvi və s.) requlyatoruna çevrilmiş iqtisadi təfəkkürdən söhbət gedir...

Amma... neoliberal ritorikanın "vurğunu" olanlar unudurlar ki, təfəkkürün bütün formaları, o cümlədən, iqtisadi təfəkkür, istisnasız olaraq milli spesifikanı özündə əks etdirir.

Yəni, inkişaf səviyyəsindən asılı olmayaraq, əksər ölkələrdə cəmiyyətin sosio – mədəni tipinə adekvat olan milli iqtisadi təfəkkür mövcuddur. O, iqtisadiyyatı əlahiddələşmiş bir konstruktsiya kimi "görmür" (zatən, bu heç mümkün də deyil), onu cəmiyyətin bütün fəaliyyət sferaları ilə üzvi bağlılıqda təsəvvür edir.

Və bu anlamda da , iqtisadiyyatda milli spesifikanın əhəmiyyətli yerə malik olduğunu ortalığa qoyur.

Eyni zamanda, milli iqtisadiyyat – hal – hazırda hakimi – mütləq olan (qlobal elmi fikirdə) universalizmin nəinki inkarı deyil, hətta onun bir çox konsept – dəyərlərindən (sırf iqtisadi məzmunlu) yararlanır yaxud yararlanma aspektindən kəskin qadağaları yoxdur ("kəskinlik" prizmasından islam dövlətləri xaric). Digər tərəfdən, qloballaşmanın (iqtisadi) böyük intensivliklə getdiyi, qlobal rəqəmsal mühitin sürətlə formalaşdığı bir dövrdə "milli iqtisadiyyat" anlayışını qabartmaq – hansısa bir nəzəri təxəyyülün gəldiyi qənaət deyil, qlobal sosio – iqtisadi və sosio – mədəni gerçəkliyin doğurduğu məntiqi zərurətdir. Milli varlığın gələcəyini nəyə yaxud nələrə biət etdiyi məlum olmayan (insani fəzilətlər nöqteyi – nəzərindən), həyatın mənasını faydanın maksimumlaşdırmasında görən qlobal kapitalın "insafına" buraxmaq – geri görüşü mümkünsüz olan humanitar fəlakətə yol açmaq deməkdir.

Beləliklə, biz insan cəmiyyətini – liberal yozumda (fərdlərin mexaniki cəmi/məcmusu) deyil, konkret məzmunlu milli – mental/sivil/dini dəyərlər əsasında təşəkkür tapmış canlı "orqanizm" keyfiyyətində görürük. Bu anlamda, cəmiyyətin bütün fəaliyyət sahə və sferaları arasında üzvi bağlılığın olduğunu, bütün fəaliyyət spektri üzrə izomorfluq prinsipinin gerçəkliyini, həqiqət kimi qəbul edir, sahə və sferalar arasında mühümlülük aspektindən hər hansı bir ierarxiyanın mövcudluğunu inkar edirik... Belə ki, bu sahə və sferaların hamısı, əslində bərabər güclüdür və birmənalı olaraq milli varlığa immanentdirlər... İqtisadiyyat – mühümdür, vacibdir, iqtisadi artım olmadan cəmiyyətin və daha konkret formada, milli varlığın mövcudluğu və gələcəyi böyük şübhə altına düşə bilər... Lakin, məhz həmin iqtisadi artımın gerçəkləşməsi milli mentalitet dəyərlərlə çulğalaşmış sistemin ortalığa qoyduğu effektdir. Yəni, iqtisadiyyat – "təkbaşına" bu yönümdə funksional fəaliyyətini həyata keçirə bilməz.

Cəmiyyətin iqtisadi altsisteminin milli varlığa immanentliyi (bunu – zəruri və qaçılmaz hesab edirik) nöqteyi – nəzərindən formalaşdırdığımız nəzəri – konseptual müddəaların verifikasiyası - əlbəttə ki,

aparılmalıdır.

Təbii ki, bu proses (verifikasiya) çoxlu sayda və müxtəlif məzmunlu, müxtəlif yönümlü dəyişənlərin tam şəkildə əhatə olunmasını tələb edir. Yəni, kifayət qədər mürəkkəb və ziddiyyətli səciyyə daşıyır. Həm də, bu qəbildən olan araşdırmaların yaxud nəzəri – konseptual müddəaların həqiqiliyinin yoxlanılması – kollektiv yanaşma tələb edir. Çağdaş situasiyada belə bir imkanın yoxluğunu nəzərə alaraq, çox sadə bir yolla hərəkət etmək qərarı aldıq... Müxtəlif milli spesifikaya malik olan ölkələr qrupu arasında müqayisə aparmaqla, həmin spesifikliyin nəzəri təsvirini verməyə çalışacağıq. Verifikasiya – təkcə milli deyil, həm də sivilizasiya mənsubiyyətliliyinin təzahür formalarını aşkarlama imkanı yaradacaqdır. Beləliklə, qeyd etdiyimiz yönümdə 3 qrup ölkələri (slavyan, ərəb və türk) müqayisə edəcəyik.

***Müqayisəli qiymətləndirmənin nəzəri – metodoloji platforması...***

Milli iqtisadiyyat, milli iqtisadi sistem – müasir elmi fikirdə ikili anlam daşıyır:

1)Etnik mənsubiyyətli identikliyi özündə ehtiva edən anlayış: "Qan eyniliyi" qrupu;

2)Vətəndaşlıq mənsubiyyətli identikliyi özündə ehtiva edən konstruktsiya; "Torpaq eyniliyi" qrupu;

Modern eranın ilkin başlanğıcında gətirdiyi "millilik" məhz etnik kökənin eyniliyini ehtiva edirdi.

XIX əsrin birinci yarısında Fransa (Napoleon) vətəndaş "milliliyi" anlayışını ortalığa qoydu. Etnik mənsubiyyətindən asılı olmayaraq Fransada yaşayan və Fransada dünyaya gəlmiş hər kəs (istisnasız olaraq) fransız adlandırılmağa başlandı. Çox tezliklə bu yenilik bütün Qərbi Avropanı əhatə etdi... Elə indiki dövrdə də millilik, milli iqtisadiyyat anlayışları böyük əksəriyyət tərəfindən "fransızca" dərk edilir...

Bizim yanaşmamızda milli iqtisadiyyat – hər şeydən əvvəl etnik mənsubiyyətli iqtisadiyyat kimi tövsif olunur. Hesab edirik ki, gerçəkliyi olduğu kimi anlamaq – mövcudluq və inkişafın təminatında həlledici rol oynayır... Vətəndaş həmrəyliyi – bir qayda olaraq, dövlət quran millətin mental – dəyərləri bazasında formalaşan sosial yaranışdır.

Əks təqdirdə, vətəndaş həmrəyliyi mümkünsüz hala gələ bilər. Bizim baxış bucağımızın mərkəzində milli mentalitetin yaşam standartları ilə bağlılıq dərəcəsini aşkarlamaq istəyi dayanır. Yəni, problemin qoyuluşu – sırf iqtisadi məzmun daşıyır. Bu mövqenin siyasi – ideoloji müstəvidə interpretasiyası – həm mənasız və əhəmiyyətsizdir, həm də sözügedən həmrəyliyi (vətəndaş) pozmaqdan qeyri bir işə yaramır. Eyni zamanda, mövzunun spekulyativ diskursun predmetinə çevrilməməsinin hüquqi qarantiyası olmalıdır. Bunun üçün "dövlətquran millət" ifadəsinin ölkənin konstitusiyasına daxil edilməsi kifayətdir. Bir sözlə: söhbət hansısa (birgə yaşayış qaydaları nöqteyi – nəzərindən) ayrı – seçkilikdən, etnik mənsubiyyətə görə qradasiyalara bölünmədən və s. getmir. Əsas hədəf: sosio – iqtisadi inkişaf prosesinin dəyərtutumunun "xalis"liyi probleminin həllidir. Ona görə ki, dünya təcrübəsinin də göstərdiyi kimi, inkişaf etmək istəyən sosiumun/cəmiyyətin sadəcə olaraq, alternativi yoxdur.

N. Berdyayev yazırdı ki: "... Millət anlayışına təkcə bəşər aləmi deyil, eləcə də məbəd, saray və imarətlərin tikildiyi daşlar, qəbir daşları, köhnə əlyazmalar və kitablar daxildir. Millətin iradəsini anlamaq üçün həmin daşları eşitmək, saralmış səhifələri oxumaq lazımdır" [2,səh.101].

Yəni, millətin iradəsini – deyək ki, səsvermə yolu ilə anlamaq, istənilən halda hissəvi səciyyə daşıyacaqdır. Anlamanın tamlığı zamanca ölçülən qiymətləndirmədir: "keçmiş", "indi" və "gələcək" zaman moduslarının hər birində milli iradənin dərkedilməsi tələb olunur. Millət – fövqəlzaman statuslu yaranışdır. Millətin əldə etdikləri və ümumiyyətlə, ona məxsus olan nə varsa, nəsillərarasında proporsional şəkildə bölünməlidir.

İqtisadi hadisə və proseslərə milli baxışın əsas istinad "nöqtələri" aşağıdakı müddəalardan qaynaqlanır:

1. Millət – "cəmiyyət" və "dövlət" anlayışlarından daha geniş və daha zəngin dəyərtutumuna malikdir.

Millət > Fərd + vətəndaş cəmiyyəti + Dövlət-in cəmindən çoxdur. Millətin "sərhədləri" – zaman və məkanla, siyasi və iqtisadi fəaliyyətin prinsip və qaydaları ilə məhdudlaşmır. Bu aspektdən – millətin "sərhədi" yoxdur. Sərhəd məhdudiyyəti – yalnız və yalnız dəyər ölçülüdür.

2. Millət – müstəqil sosial varlıqdır. Bu varlığın əsas struktur elementi – sosio – mədəni identikliyi gerçək məzmun kəsb edən azad insanlardır.

3. Millətin yaxud onun formalaşdırdığı institutsional yaranışın (milli sosio – iqtisadi sistem, dövlət) qlobal iqtisadi sistemdə özünəxas spesifik

mövqeyi və yeri vardır;

4. Millətin – formalaşdırdığı cəmiyyət tipi və ona adekvat olan institutsional şəkildə qurulmuş təsərrüfat mexanizmi mövcuddur.

5. Millətin mənafeləri – hər şeydən və hər kəsdən üstündür. Spesifik formada təzahür edən dövlət mənafeyi – milli mənafelər kontekstində formalaşa yaxud yarana yaxud ödənə bilər. İndividual və korporativ mənafelər analoji məzmunda dəyərləndirilir.

6. İnkişaf vektorlarının seçilməsi, ümummilli səviyyədə keyfiyyət yeniləşməsi prosesi və cəmiyyətin tip dəyişikliyinin rasionallıq dərəcəsi milli mənafelərə adekvatlığı kontekstində qiymətləndirilir.

7. Sosial kapitalın "yabancı" (əcnəbi) dəyərlər bazasında formalaşması və inkişafın arzuedilməzdir (Bu zatən, mümkün də deyil).Sosial həmrəylik→ sosial əməkdaşlıq→sosio – mədəni identikliyin formalaşmasının yeganə bazası (qaynağı) milli – mental dəyərlər sistemidir.

Sübut etməyə ehtiyac yoxdur ki, hansı cəmiyyət tipində olmasından yaxud sosio – iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, ayrıca götürülmüş hər bir ölkənin nail olmağa canatdığı əsas hədəflər sırasında sosial bütövlük, sosio – mədəni identiklik ön yerlərdən birini tutur. Bu yönümdə çoxlu sayda faktlar mövcuddur. Məsələn, son dövrlərdə Fransada yaşanan sosial konfliklərin əsas qaynağı – ölkə əhalisinin bir qrupuna münasibətdə "fransız" identikliyinin gerçəkləşməməsidir. İslam peyğəmbərinə qarşı həyata keçirilən tərbiyəsizliyin kökündə məhz bu amil dayanır: Etnik mənsubiyyətindən və dini əqidəsindən asılı olmayaraq, vətəndaş – fransız və xristian kimi davranmalıdır (dəyərlər nöqteyi – nəzərindən). Paradoksal yanaşmadır:

Bir ərəbin (müsəlmanın) fransız (xristian) olmayacağı bəllidir. Deməli, bu halda ya situasiya olduğu kimi qəbul edilməlidir, ya da ərəbi "fransız" adlandırma...

Digər tərəfdən, nə qədər qəribə səslənsə də, sosial bütövlüyə nail ola bilməyən millətlər zaman keçdikcə məhz birləşdirici dəyərləri itirməklə deqradasiyaya uğrayır... və sonucda qəbilə/tayfa keçmişinə geri dönür. Yeri gəlmişkən, qeyd edək ki, "haralısan" sualı məhz həmin "keçmişin" əks – sədasıdır.

Sosio – mədəni identiklik: 1) Sosiumun mövcudluq şərti və inkişaf platformasıdır; 2) Markososial sabitliyin dayanıqlılığını mümkünlük vəziyyətinə gətirən fundamentdir;3)İnkişafın, o cümlədən iqtisadi inkişafın gerçəkləşməsi və sistemli xarakter almasının əsas sütun dayaqlarından biridir;4) Milli varlığın varoluşunun substansiyası, keyfiyyət xarakteristikasıdır;5)Dövlət müstəqilliyini və iqtisadi suverenliyi qoruyan "mühafizə zolağı"dır;6) İnsanlıq qaydası – sosial ədalətin mental modelini formalaşdıran, üzvi bağlılıqda olan dəyərlər məcmusudur və s.

Sosio – mədəni identiklik: sivil, milli, ideoloji, əxlaqi – etik və dini dəyərlərin sistem bütövlüyündən qaynaqlanan inteqral fenomenidir. Sosio – mədəni identikliyi yaradan sosial hərəkətin məntiqi ardıcıllıqla baş verən təzahür formalarının (sosial həmrəylik → sosial əməkdaşlıq) gerçəkləşməsi sadalanan dəyərlərin sistem bütövlüyü bazasında baş verir... Göründüyü kimi, sosio – mədəni identiklik milli varlığın bugünü və gələcəyinin fundamental bazası keyfiyyətinə sahibdir.

İdentiklik və onun dayanıqlılığı çoxsaylı amillər kompleksinin qarşılıqlı optimal bağlılıqlarından alınan sinergiyanın üzərində qərarlaşır. Bu yönümdə, iqtisadi komponent önəmli təsir gücünə malik olur. İqtisadi effektin/faydanın proporsional və ədalətli bölgüsü – xüsusi əhhəmiyyət kəsb edir...

Və eyni zamanda, təsir birtərəfli deyil, qarşılıqlı səciyyə daşıyır. Müəyyən şərtlərin mövcudluğu halında sosio – mədəni İdentiklik – iqtisadi resurs keyfiyyətində çıxış edir. Sözügedən bağlılıq (qarşılıqlı)iqtisadi təfəkkürün anlaya biləcəyi bağlılıq deyildir.

O anlamda ki, sosio – mədəni identikliyin formalaşması və qorunması iqtisadi effektin aramsız yüksəlişindən daha böyük əhəmiyyətə malikdir. Bu rakursdan aksiomatik məzmunlu qənaətlərə belə gəlmək olar:

- Ədalətli və proporsional (ən azı nəsillər arası) bölünən sabitqədəmli iqtisadi effekt (artım),qeyri – proporsional və ədalətsiz bölünən maksimal səviyyəli effektdən (iqtisadi artımdan) daha sərfəli və daha çox rasionaldır:

Məhz bu halda faydanın – individual çərçivədən daha geniş olan ümummilli səviyyədə maksimumlaşdırılması baş verir. Sosial – mədəni identikliyi mühafizə etmədən, qeyd olunan maksimallaşma gerşəkləşə bilməz.

Beləliklə, sosio – mədəni identiklik – təkcə sosial deyil, həm də siyasi, ideoloji və iqtisadi anlamda

bütövləşmə, "vahidləşmədir"... Yəni, o təkcə dəyərlərin harmoniyası, inteqrasiyası deyildir.

Sosio – mədəni identiklik- formalaşdırılandır; Məqsədyönülü şəkildə harmoniyanın yaradılması prosesi və nəticəsidir. Onun əsas qaynağı milli mentalitet, milli mental dəyərlərdir. Çoxmillətli ölkələrdə dövlət quran millətin mental spesifikası ön plana çıxır. Təbii ki, qarşılıqlı zənginləşmə, bir sıra "yabançı" dəyərlərin "özününküləşdirilməsi" prosesi də gedir. Amma qeyd etdiyimiz "qarışıqlıq", nəticə etibari ilə elə bir əhəmiyyətli rol oynamır.

***Gerçəkliyin empitik təsviri***

Əksər inkişaf parametrləri üzrə müqayisə 3 ölkə qrupunu əhatə edir: 12 slavyan ölkəsindən 5-i, 22 ərəb ölkəsindən də 5 ölkə, eləcə də türk ölkələrinin hamısı (6 ölkə) apardığımız araşdırmada yer almışlar.

Hər şeydən əvvəl, qeyd edək ki, hər üç qrup – daxili sosio-siyasi və sosio – iqtisadi təbiəti prizmasından homogen deyildir. Belə ki, slavyan ölkələri - ən azı bir əlamət üzrə fərqli hərəkət trayektoriyasındadırlar. Sabiq SSRİ-nin tərkibində olan və 1990 –cı illərin əvvəllərində dövlət müstəqilliyi əldə etmiş ölkələrlə, şərqi Avropada yerləşən ölkələr arasında kəskin fərqliliklər möcvuddur. Hətta, bu ölkələrin qarşılıqlı münasibətlərində belə sosialist keçmişindən qalma problemlər bu gün də öz aktuallığınl saxlamaqdadır.

Və bu problemlər artıq slavyan ölkələri arasındakı qarşılıqlı münasibətlərdə böyük uçurum yaratmışdır. Avropa slavyanları – çox qısa bir zaman surəcində Ukraynanı öz "müstəvilərinə" çəkməyə və Rusiyadan ayırmağa nail ola bildilər. Eyni sosio-mədəni identikliyə sahib olan toplumların fərqli sistemlərdə yaşaması yaxud birgə yaşayış qaydalarının fərqli məzmunda mövcudluğunun ideya qaynağı provaslav dəyərlərinin "izafi" yaxud "aşırı" səviyyədə ruhi anlam daşımasıdır. Hər şeylə razılaşma fəlsəfəsi, "...Köynəyini istəyənə üst paltarını da ver", "... Bir üzünə şillə vurursa, o biri üzünü də çevir" [3] tipli çağırışların sosiumun təfəkküründə yer alması – istənilən situasiya ilə barışma anlamını daşıyır. Hələ II dünya müharibəsində Avropa slavyanları Alman ordusunun tərkibində Şərqi slavyanlara qarşı müharibədə iştirak etmişlər. Yəni, slavyan toplumunun istənilən cəmiyyət quruluşunda yaşama problemi yoxdur... "Aşırı" səviyyəli ruhi – mənəvi dəyərlərin təfəkkür tərzində yer almasının fərqli nəticəsi olmur. Türk ölkələrində - fərqlilik yaradan yeganə şey – sosialist keçmişi və sovet imperiyasının buraxdığı və bu gün də öz aktuallığını saxlayan "dəyərlər" , qiymətləndirmə proseduralarıdır. Bu aspektdən, Türkiyə xaric, bütün türk ölkələri "deja – vyu" yaşamaqdan hələ də tam şəkildə uzaqlaşa bilməmişlər. Amma, slavyanlardan fərqli olaraq, bu ölkələrdə əməl dini olan islamın dəyər – konseptləri bazasında formalaşmış vahid milli mentalitetin daşıyıcıları olaraq qalmaqdadırlar. Hətta cəmiyyətin idarəedilməsi fəlsəfəsi belə ən azı son 600 ildə dəyişməmişdir: əksər türk ölkələrində, həmçinin Türkiyədə idarəetmə fəlsəfəsi Əmir Teymurun tətbiq etdiyi model çərçivəsində qalmaqdadır.

Bu yönümdə, zaman – zaman dəyişiklik çabaları da olmamış deyildir. Məsələn, Türkiyədə -İdarəetmə fəlsəfəsinin Atatürkdən başlayan "qərbləşmə" yönümündə yerləşidirilməsinə edilən cəhdlər, haradasa 70 il sürdü və N.Ərbakan hökümətinin hakimiyyətə gəlişi ilə durduruldu və Türkiyə - özünə, həqiqi milli varlığına geri döndü... Qısa zaman ərzində də dünyada söz sahibi olan dövlətə çevrildi.

Ərəb ölkələri də bu aspektdən analoji situasiyadadırlar. Ərəb milləti – dövlət anlayışını Məhəmməd peyğəmbərin qurduğu xilafətdən götürmüşdür. Bu ölkələrin əksəriyyətində konstitutsiyalı, yaxud mütləq monarxiya qurulmuşdur. İqtisadi inkişaf nöqteyi – nəzərindən fərqlilik kifayətqədər böyükdür. Karbohidrogen resurslara malik ölkələr öndədirlər. Yəni, ərəb dünyasının yüksək texnologiyalar sferasında hər hansı "payı" mövcud deyildir.

Beləliklə, milli spesifikasının sosio-iqtisadi sfera üzərindəki proyeksiyası çərçivəsində apardığımız empirik qiymətləndirmə nəzəri ehtimalların bir növ təsbiti kimi qəbul edilə bilər.

Müqayisə göstərir ki, iqtisadi güc (ÜDM – un həcmi) nöqteyi – nəzərindən slavyan ölkələri öndədir. Türk ölkələrinin birlikdə ÜDM – ın cəmi təkcə Rusiyanın analoji göstəricisinin 66,3% - ni təşkil edir. İkinci sırada Ərəb ölkələridir ki, adambaşına düşən ÜDM – un həcminə görə digər iki qrupu üstələyir. Bu göstəriciyə görə ən aşağı səviyyə Türk ölkələrində qərarlaşmışdır. Müxtəlif parametrlər üzrə reytinq göstəriciləri də əhəmiyyətli dərəcədə fərqlənir. Bu aspektdən üstün səviyyə ərəb ölkələrinə və Avropa slavyan

**Cədvəl 1.**
**Milli spesifikanın inkişaf prosesi üzərində proyeksiyası**

| Ölkələr | ÜDM(mlrd.dol) | | Adambaşına ÜDM (min/d.) | | REYTİNQ | | | | | | İşsizlik səviyyəsi | | Orta aylıq əmək haqqı (dol.) | Həyatın dəyəri |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Məbləğ | Reytinq | Məbləğ | Reytinq | Insan inkişafı indeksi | Təhlükəsizlik indeksi | Korrupsiya indeksi | Təhsil indeksi | Səhiyyə indeksi | İqtisadi azadlıq indeksi | (%) | Reytinq | | Reytinq |
| I.Slavyan ölkələri | | | | | | | | | | | | | | |
| 1.Rusiya | 1464,0 | 11 | 9,9 | 65 | 52 | 108 | 129 | 20 | 103 | 93 | 5,6 | 74 | 670 | 88 |
| 2.Ukrayna | 142,5 | 57 | 3,4 | 121 | 75 | 116 | 117 | 37 | 114 | 133 | 11,0 | 28 | 350 | 112 |
| 3.Belarus | 57,7 | 79 | 6,1 | 88 | 53 | 86 | 64 | 32 | 76 | 87 | 1,4 | 97 | 480 | 95 |
| 4.Polşa | 580,8 | 23 | 15,3 | 51 | 35 | 27 | 36 | 34 | 40 | 46 | 3,8 | 89 | 1480 | 78 |
| 5.Çexiya | 241,9 | 47 | 22,6 | 39 | 27 | 11 | 38 | 28 | 28 | 23 | 3,1 | 93 | 1350 | 63 |
| II.Ərəb ölkələri | | | | | | | | | | | | | | |
| 1.Səudiyyə ərəbistanı | 680,9 | 19 | 19,1 | 43 | 41 | 54 | 55 | 68 | 68 | 82 | X | X | 2200 | 56 |
| 2.Qətər | 147,7 | 55 | 52,7 | 9 | 45 | 7 | 33 | 64 | 48 | 31 | X | X | 4000 | 29 |
| 3.Küveyt | 108,6 | 59 | 22,2 | 40 | 56 | 37 | 78 | 85 | 51 | 78 | X | X | 2500 | 44 |
| 4.Oman | 62,3 | 74 | 14,4 | 53 | 48 | 23 | 53 | 72 | 61 | 74 | X | X | 1850 | 59 |
| 5.Misir | 361,8 | 34 | 3,5 | 118 | 115 | 103 | 118 | 107 | 111 | 141 | 8,3 | 46 | 280 | 114 |
| III.Türk ölkələri | | | | | | | | | | | | | | |
| 1.Türkiyə | 649,4 | 20 | 7,7 | 77 | 54 | 107 | 89 | 80 | 64 | 70 | 14,6 | 15 | 820 | 90 |
| 2.Kazaxstan | 165,7 | 53 | 8,7 | 71 | 51 | 44 | 98 | 38 | 84 | 39 | 7,8 | 58 | 370 | 108 |
| 3.Özbəkistan | 59,7 | 77 | 1,7 | 148 | 107 | 109 | 158 | 81 | 41 | 113 | X | X | 218 | 113 |
| 4.Azərbaycan | 41,6 | 89 | 4,1 | 107 | 80 | 71 | 152 | 75 | 66 | 44 | 6,5 | 64 | 480 | 110 |
| 5.Türkmənistan | 47,9 | 86 | 8,0 | 74 | X | X | X | X | X | 169 | X | X | X | X |
| 6.Qırğızstan | 7,4 | 146 | 1,1 | 158 | 122 | 89 | 132 | 77 | 89 | 80 | 6,6 | 63 | 180 | 120 |

ölkələrinə məxsusdur. Ümumiyyətlə, görünən bu ki, əksər xüsusi əhəmiyyət kəsb edən reytinqlər üzrə Avropa ittifaqının slavyan ölkələri və ərəb ölkələri öndədirlər. Türk dünyasında bu aspektdən formalaşmış situasiya – ağırdır. Ölkələrdən biri – Qırğızstan – dünyanın ən yoxsul 10 ölkəsi sırasındadır. Özbəkistanda da situasiya ümid-verici deyildir. Həyat səviyyəsi prizmasından da türk ölkələri geridədirlər. Əksər reytinqlər üzrə bu ölkələr birinci 50 likdə yer almırlar (bəzi istisnalar-la). 2 saylı cədvəldəki məlumatlardan göründüyü kimi, adambaşına səhiyyə xərclərinin mütləq məbləğinə görə türk ölkələri – birlikdə - Qətərin analoji göstəricinin 62,9% -ni təşkil edirlər. Hər 1000 nəfər doğulana düşən 5 yaşına qədər uşaq ölümünün sayına görə ən yüksək səviyyə nümayiş etdirirlər.

Bu aspektdən, maraqlı uyğunsuzluq mövcuddur. Belə ki, türk ölkələri içərisində adambaşına düşən səhiyyə xərclərinin məbləğinə görə ilk 100-də yer alan yeganə Türkmənistandır: eyni zamanda, 5 yaşına qədər olan uşaq ölümünün sayına görə (42 – ci ölkə) bu ölkə yenə də “irəlidədir” və s.

Hətta, qrupun lider ölkəsi olan Türkiyədə də vəziyyət normal hesab edilə bilməz.

Slavyan ölkələrindəki situasiyada (Avropa ittifaqının üzvü olanlar xaric) da elə bir fərq müşahidə edilmir. Yalnız Ərəb ölkələri - ələlxüsus karbohidrogen resursları ilə zəngin olan - qeyd edilən sferada daha yüksək səviyyəyə sahibdirlər.

Ekosistemin effektivliyi yönümündə də kəskin şəkildə fərqli situasiyalar qərarlaşmışdır. Məsələn, yalnız bir göstərici – adambaşına karbon qazı ($CO_2$) tullantısı - ətraf mühitə münasibətin fərqli olduğunu bütün çılpaqlığı ilə ortalığa qoyur. Bu aspektdən Qətər irəlidədir – adambaşına 38,8 ton karbon yazı “istehsal”! Təbii ki, qeyd edilən tullantının əsas mənbəyi karbohidrogen resurslarının hasilatı sferasıdır... Bununla belə, dəyərlər nöqteyi – nəzərindən həlledici əhəmiyyət kəsb edən amili gözardı etmək doğru olmazdı. Belə ki, ərəb dünyası islam intibahı dövrünü yaşasalarda, cahiliyyə zamanından qalma “pintilikdən” xilas ola bilməmişlər. Və bu gün də ətraf aləmə münasibətdə

**Cədvəl 2.**
## Yaşam standartları nöqteyi - nəzərindən mövcud fərqliliklər

| Ölkələr | Adambaşına ÜDM | | Səhiyyə xərcləri ÜDM –(%)-lə | | Adambaşına səhiyyə xərcləri | | 5 yaşına qədər olan uşaq ölümü (hər 1000 doğulana) | | Adambaşına karbon qazı ($CO_2$) tullantısı (tonla) | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Məbləği Min.dol. | Reytinq | % | Reytinq | Min.dol | Reytinq | Sayı | Reytinq | Miqdarı | Reytinq |
| I.Slavyan ölkələri | | | | | | | | | | |
| 1.Rusiya | 9,9 | 65 | 5,3 | 117 | 0,609 | 72 | 5,8 | 151 | 12,4 | 19 |
| 2.Ukrayna | 3,4 | 121 | 7,7 | 54 | 0,228 | 114 | 8,4 | 132 | 4,4 | 62 |
| 3.Belarus | 6,1 | 88 | 5,6 | 111 | 0,356 | 95 | 3,2 | 176 | 7,0 | 44 |
| 4.Polşa | 15,3 | 51 | 6,3 | 94 | 0,979 | 55 | 4,4 | 159 | 8,3 | 35 |
| 5.Çexiya | 22,6 | 39 | X | X | 1,7 | 34 | 3,2 | 177 | 9,9 | 25 |
| II.Ərəb ölkələri | | | | | | | | | | |
| 1.Səudiyyə ərəbistanı | 19,1 | 43 | 6,4 | 93 | 1,4 | 41 | 6,6 | 146 | 18 | 8 |
| 2.Qətər | 52,7 | 9 | 2,5 | 179 | 1,7 | 36 | 6,5 | 147 | 38,8 | 2 |
| 3.Küveyt | 22,2 | 40 | 5,0 | 129 | 1,7 | 37 | 7,9 | 134 | 23,2 | 4 |
| 4.Oman | 14,4 | 53 | 4,1 | 148 | 0,678 | 68 | 11,4 | 123 | 18,5 | 7 |
| 5.Misir | 3,5 | 118 | 4,9 | 130 | X | X | 20,3 | 83 | 2,5 | 87 |
| III.Türk ölkələri | | | | | | | | | | |
| 1.Türkiyə | 7,7 | 77 | 4,1 | 149 | 0,390 | 93 | 10,0 | 125 | 5,0 | 54 |
| 2.Kazaxstan | 8,7 | 71 | 2,9 | 175 | 0,276 | 105 | 10,5 | 124 | 14,9 | 15 |
| 3.Özbəkistan | 1,7 | 148 | 5,3 | 120 | 0,082 | 145 | 17,4 | 91 | 2,9 | 79 |
| 4.Azərbaycan | 4,1 | 107 | 3,5 | 166 | 0,166 | 125 | 20,4 | 82 | 3,5 | 71 |
| 5.Türkmənistan | 8,0 | 74 | 6,6 | 83 | 0,460 | 87 | 42 | 50 | 15,2 | 14 |
| 6. Qırğızıstan | 1,1 | 158 | 6,5 | 90 | 0,086 | 143 | 18,3 | 88 | 1,9 | 102 |

**Cədvəl 3.**
## İnkişaf yönümlülük aspektindən qiymətləndirmə

| Ölkələr | Məcmu dövlət borcu | | Beynəlxalq ehtiyatlar (mlrd.d.) | | Yüksək texnoloji malların ixracı (mlrd.d) | | İnternet trafiki | | | Rəqabət qabiliyyətlilik indeksi |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | ÜDM(%) | Reytinq | Məbləği | Reytinq | Məbləği | Reytinq | Ümum ev təsərrüfatl arında % | Sürəti Mb/s | Qiyməti (Dol) | Reytinq |
| I.Slavyan ölkələri | | | | | | | | | | |
| 1.Rusiya | 18,9 | 174 | 555,1 | 4 | 10,8 | 29 | 76,9 | 14,0 | 0,91 | 43 |
| 2.Ukrayna | 65,7 | 83 | 25,3 | 55 | X | X | X | 7,7 | 0,51 | 85 |
| 3.Belarus | 50,9 | 110 | 9,3 | 69 | 757 | 54 | 78,6 | 13,1 | 2,36 | X |
| 4.Polşa | 60,0 | 96 | 128,3 | 20 | 20,3 | 23 | 86,7 | 24,0 | 1,32 | 37 |
| 5.Çexiya | 39,1 | 149 | 149,8 | 18 | 37,8 | 17 | 81,1 | 23,0 | 4,9 | 32 |
| II.Ərəb ölkələri | | | | | | | | | | |
| 1.Səudiyyə ərəbistanı | 33,4 | 161 | 514,9 | 6 | 0,270 | 62 | 99,2 | 5,2 | 5,62 | 36 |
| 2.Qətər | 68,1 | 78 | 39,7 | 46 | 0,012 | 118 | 93,6 | 5,3 | 4,62 | 29 |
| 3.Küveyt | 19,3 | 173 | 43,6 | 42 | 0,026 | 90 | 100 | 3,8 | 2,01 | 46 |
| 4.Oman | 81,5 | 51 | 16,6 | 62 | X | X | 94,5 | 5,0 | 11,2 | 53 |
| 5.Misir | 86,6 | 42 | 44,5 | 41 | 0,324 | 60 | 59,9 | 1,6 | 1,49 | 93 |
| III.Türk ölkələri | | | | | | | | | | |
| 1.Türkiyə | 41,7 | 143 | 105,6 | 23 | 4,3 | 38 | 88,3 | 5,2 | 2,25 | 61 |
| 2.Kazaxstan | 23,4 | 170 | 28,9 | 52 | 2,2 | 42 | 90,3 | 4,6 | 0,49 | 55 |
| 3.Özbəkistan | 36,1 | 156 | 29,2 | 50 | 0,020 | 95 | X | 1,3 | 3,27 | X |
| 4.Azərbaycan | 20,1 | 172 | 7,0 | 83 | 0,028 | 88 | 78,2 | 3,1 | 2,69 | 58 |
| 5.Türkmənistan | 30,9 | 165 | X | X | X | X | X | X | X | X |
| 6. Qırğızıstan | 68,1 | 77 | 2,4 | 107 | 0,029 | 86 | X | 2,5 | 0,27 | 96 |

eyni yanaşma tərzindən çıxış edirlər... Yəni, ətraf aləmə etinasız və zərərverici münasibət – bu sosiumun milli mentallığında yer almaqdadır. 3 saylı cədvəldə isə müasir qlobal situasiyanın çağırışları ruslosunda ölkə qruplarının inkişaf yönümlülüyünü dəyərləndirən göstəricilər yer almışdır.

Məlumatlardan göründüyü kimi, inkişaf səviyyəsi ilə bağlı formalaşmış situasiya, inkişaf yönümlülük anlamında da analoji məzmun kəsb edir. Yüksək texnoloji ukladın qurulması nöqteyi – nəzərindən islam sivilizasiyasına aid olan ölkələr – həm ərəb, həm də türk ölkələri – zəruri potensiyalı formalaşdırma baxımından geriliklə üzləşmişlər.

Postsovet avrasiyasında yerləşən həm slavyan, həm də türk ölkələrində bugünə formalaşmış situasiyasının əsas səbəblərindən biri milli dəyərlər sisteminin yaxud Adəm peyğəmbərdən bu yana mövcud olan,lakin son orta əsrlərdə (modern era) aktuallaşan dəyərlərin – insan haqları, azadlıq, demokratiya və s. – anqlosakson interpretasiyasında qəbuludur. Qırğızstanın düşdüyü vəziyyətin (dünyanın ən yoxsul 10 ölkəsindən biri) əsas səbəbi, yuxarıda qeyd etdiyimiz “interpretasiyaya” aşırı bağlılıqla dəyərlərin münasibətləri formalaşdıran əlaqədardır. kardinal formada baş verən dəyişikliyinin doğura biləcəyi yeganə nəticə məhz budur! Problemin qəbizliyi ondadır ki, qeyd etdiyimiz təsbitin həqiqiliyi şübhəsiz olsa da, onu neoklassikanın anladığı “dildə” sübut etmə imkanı yoxdur. Yəni, təsbitin verifikasiyası kəmiyyətcə ölçü prosedurunun çərçivəsinə nəinki sığmır, həm də rəqəmlərlə ifadə forması yoxdur. Ayrıca götürülmüş bir ölkənin iqtisadi mədəniyyətini formalaşdıran məlum dəyərlərin “yabançı” interpretasiyasının ön plana çıxışı – ölkədaxili iqtisadi düzənin və “oyun qaydalarının”, fərqli müstəviyə keçidi, pozulması deməkdir. Ona görə ki, iqtisadi mədəniyyət – mədəniyyətin yalnızca iqtisadi formasını deyil, həm də ümummədəniyyətin iqtisadi sferada proyeksiyasının doğurduğu unikal yaranışdır. Və hər bir ölkənin özünəxas, tarixi - genetik bağlılığın mühüm yer aldığı iqtisadi mədəniyyəti mövcuddur.

Hətta, ölkə milli müstəqilliyini itirsə, yaxud hansısa bir “imperiyanın” diqtəsi altına düşsə belə, iqtisadi mədəniyyətin milli özünəməxsusluq keyfiyyəti uzundövr ərzində öz varlığını qoruyub saxlayır.

***Azərbaycan: milli mentallığın strateji əks – sədası***

2008 – ci il böhranı, dünya iqtisadiyyatının əsas güc mərkəzlərinə iqtisadi effektin ənənəvi – stereotip yanaşma çərçivəsində artım potensiyasının tükəndiyi gerçəkliyini anlatdı. Rəqəmsal transformasiyaya sistemli keçid qərarı verildi. Böhran – Azərbaycan iqtisadiyyatına, ən ümumi formada qiymətləndirsək – 2 mlrd. dol. zərər vurdu...

Bununla əlaqədar olaraq, hökumət – ekzogen – qlobal mühitin kəskin konyunktur dəyişikliklərinin doğurduğu təhlükə və təhdidləri neytrallaşdırmaq yönümündə sistemli axtarışlara rəvac verirdi... Prosesin sonucu olaraq, 2012 – ci ildə “Azərbaycan 2020: gələcəyə baxış” strateji inkişaf konsepsiyası qəbul olundu. 2020-ci ilə qədər, yəni 8 il ərzində ölkənin inkişaf etmiş ölkələr kateqoriyasına keçməsini hədəfləyən konkret vəzifələr müəyyənləşdirildi (cəd.4).

8 illik (2012-2020) dinamikanın əks olunduğu cədvəldən göründüyü kimi, gözlənilən effektə nail olunmayıbdır: əksinə, tənəzzül müşahidə edilir.

Amma, eyni zamanda, 5 əsas göstərici üzrə-ikisi istisna olmaqla (rəqabətqabiliyyətlilik; İKT-nin inkişaf indeksi) – irəliləyiş əldə olunmuşdur. Tənəzzül şəraitində paradoksal hesab edilə biləcək qalxınmanın əsas səbəbi institutsional “yerdəyişmələrin” verdiyi effektdir. Həm də, bu effektin – ümumeniş situasiyasında- uzunmüddətli dövrü əhatə edə biləcəyi, elə də inandırıcı deyildir. Məsələ burasındadır ki, 2016 – cı ildə qəbul edilmiş digər bir strateji sənəd:

“Strateji yol xəritəsi” – eyni aqibətlə üzləşmişdir. Amma... nədən? Axı, qəbul edilmiş strateji yanaşma, qlobal iqtsiadi təfəkkürdə hakim mövqedə olan “meynstrimin”, ölkənin böyük əksəriyyəti tərəfindən az qala aksioma kimi qəbul edilən müddəalarına tam şəkildə uyğundur və hər hansı bir formada məntiqi ziddiyyəti özündə ehtiva etmir! Onda yalnışlıq nədə yaxud hardadır? Hesab edirik ki, yalnışlıqdan həqiqətə dönüş - iki aspektin həlledici əhəmiyyət kəsb etdiyinin birmənalı qəbulundan keçir:

1) İnkişaf mərhələlərinin (tsiklləri, fazaları, dalğaları) məntiqi ardıcıllığına sözsüz əməl olunması; Yəni, bu anlamda inkişafın hansısa bir mərhələsinin üzərindən “sıçrayışla” keçmək qeyri – mümkündür. Populizm və mistika, tərəqqiyə deyil, ən yaxşı halda mexaniki “yerdəyişmələrə” səbəb olur ki, bu da sonuc etibari ilə iqtisadiyyatın növbəti

**Cədvəl 4.**
**Azərbaycan 2020: proqnoz göstəricilərin reallaşma dərəcəsi**

| Göstəricilər | 2012 | 2020 | | | Dünyada reytinqi | | |
|---|---|---|---|---|---|---|---|
| | | Proqnoz | Faktiki | Kənarlaşma | 2012 | 2020 (2019) | Dəyişmə (+;-) |
| 1.ÜDM (mlrd.d) | 69,7 | 132,6 | 41,6 | -68,7% | 67 | 89 | -22 |
| 2.Adambaşına ÜDM(min.dol) | 7,5 | 13,0 | 4,1 | -68,5% | 82 | 107 | -25 |
| 3.Adambaşına qeyri – neft məhsullarının ixracatı (dol) | 140 | 1000,0 | 170 | -83,0% | X | X | X |
| 4.Qeyri – neft ÜDM-nun orta illik artım tempi(%) | 3,1 | 7,0 | 2,4 | -4,6% | X | X | X |
| 5.Ölkə əhalisinin sayı (mln.nəfər) | 9,3 | 10,2 | 10,06 | X | 90 | 90 | X |
| -İnsan inkişafı indeksi | X | X | X | X | 96 | 80 | +16 |
| -İqtisadi azadlıq indeksi | X | X | X | X | 116 | 44 | +73 |
| -Rəqabətqabiliyyətlilik indeksi | X | X | X | X | 46 | 58 | -12 |
| -Həyat səviyyəsi indeksi | X | X | X | X | 94 | 88 | +6 |
| -İKT –nin inkişafı indeksi | X | X | X | X | 61 | 65 | -4 |

patologiyasına gətirib çıxarır. Qısası: əvvəlcə, modernləşmə prosesini və industrial təsərrüfat tipinin formalaşmasını başa çatdırmaq lazımdır. Yalnız bu halda sosio-iqtisadi və sosio-mədəni sfera bifurkasiya prosesinə, yaxud postmodernizmə keçidin “sərhəd situasiyasına” daxil ola bilir. Yüksək texnologiyalara aparan innovativ axınlar funksional fəaliyyətin “təhrik”etdiyi prosesdir. Başqa sözlə, nəyinsə təkmilləşməsi yaxud kamilləşməsi – o nəisənin əvvəlki təsərrüfat tipini də mümkün olan ən yüksək səviyyəyə çatmasından “doğan” zərurətdir...

Yalnız bu halda elmin innovativ potensialı hərəkətə keçə bilir.

2) Sosium → yeniləşmə (oxu:inkişaf) prosesi sıx qarşılıqlı bağlılıqdadır. Bu mənada diqqət yetirilməsi zəruri olan əsas nüansları (inkişafın gerçəkləşməsini təmin edən) aşağıdakı kimi sıralamaq olar:

- Yeniləşmə meylinə sosiumun verdiyi reaksiya:İnam, şübhə və “biz bunu bacararıqmı?” sualının gerçək məzmunda cavablandırılması;
- Milli mentalitetin dəyər – konseptlərinin yeniləşmə prosesi üzərində nəzəri proyeksiyası;
- Son 30 il ərzində formalaşmaqda olan iqtisadi mədəniyyətin “milli”lik məzmunun qiymətləndirilməsi;
- Sonuc olaraq milli mentalitet və iqtisadi mədəniyyətin doğurduğu fenomenin - milli iqtisadi təfəkkürün anlama potensiyasının rasional sərhədləri.

Yeniləşmənin (inkişafın) aid olduğu subyekt – sosiumdur. Və bu prosesin gerçəkləşmə imkanı məhz sosiumun davranış tərzindən determinoloji asılılıqdadır. İnkişaf – milli varlığın (oxu:sosiumun) keyfiyyətcə yeni səviyyəyə çıxışı prosesidir. Onun, direktiv göstərişlə gerçəkləşmə imkanı/ehtimalı yoxdur.

Beləliklə, yeniləşmə/inkişaf prosesinin rəvan gedişi milli – mental dəyərlərin sistemli formada nəzərə alınmasını yaxud ölkənin inkişaf modeli və milli iqtisadiyyatın mental modeli arasında formalaşması zəruri olan üzvi – orqanik bağlılıqla determinə olunur.

Mentalitet – milli şüurun “doğurucu mexanizmlərinin” ən dərin qatlarında yer alır. Uzunmüddət ərzində davam edən tarixi – mədəni dinamikanın formalaşdırdığı yaranış olmaqla, eyni zamanda həmin dinamikanın mənbəyi kimi çıxış edir. Sosio – iqtisadi davranışın milli modeli məhz həmin millətə xas olan mentalitet üzərində formalaşır. Haşiyəyə çıxaraq, qeyd edək ki, bugünə mövcud olan Azərbaycanın tarixən formalaşmış mentaliteti (Cənubi Azərbaycan fərqli koordinant sistemindədir) mahiyyət dəyişikliyinə uğramaqda, üç fərqliliyin cəmiyyət daxili mental “savaşına” məruz qalmaqdadır:

1) Kollektiv Qərbin “individualizmi” və onun rolunu mütləqləşdirən dəyərlərin qəbulu yönümündə davam etməkdə olan geosiyasi və geoiqtisadi pressinq: Qərb mentalığının daha konkret ifadə ilə, A.Smitin məhşur “ingilis”inin

– yəni “iqtisadi insan”ın milliləşdirilməsi, milli mentalitetdən “süzülərək” özününküləşdirmə - modern dövlət (oxu:cəmiyyət) statusu yalnız bu halda kollektiv Qərb tərəfindən təsbit edilə bilər. Bunun alternativi – sadəcə olaraq yoxdur. Kollektiv Qərb – birmənalı şəkildə “mənə oxşamalısan” – deyir.

2) Postsovet avrasiyasının tarixboyu aqressiv səciyyə daşıyan dəyərlər sistemi – Rus mentalitetinin “hücumunda” irəli sürülən əsas tələb: müasir çağrışlara münasibətdə yalnız tarixi mənası olanları saxlaya bilərsən... Amma, başlıca hədəf:mənə (rusa) oxşamağa çalışmandır.

Bu yönümdə həyata keçirilən “mental müdaxilə”, ilkin olaraq rus dilinin cəmiyyətin ünsiyyət dilinə çevrilməsidir... Rus mentaliteti – feodal zehniyyətdən nəinki xilas ola bilməmiş, hətta bu zehniyyəti klassik orta əsrlərin “qibtə” edəcəyi bir səviyyədə genişləşdirməkdədir.

3) Ən zəif həlqə (müdaxilə nöqteyi – nəzərindən) islam dəyərlərinin təsiridir. Ölkə əhalisinin 90% - dən çoxu müsəlmandır. Azərbaycan – dünyadakı 57 müsəlman ölkələrindən biridir. Amma, islami dəyərlərin mental münasibətlər sistemində qərarlaşması müşahidə edilmir: Əlbəttə, təbliğat-şouları, pafoslu çıxışlar xaric olmaqla. Eyni zamanda, atəşpərəstlik dövründən qalma dəyərlərlə islami dəyərlərin paradoksal bir yönümdə “simbiozu” formalaşır ki, bu da cəhalət, möhvumat və xurafatın “təntənəsinə” gətirib çıxarır. Məsələn, qaloş piri və ya orucluğa dieta kimi yanaşma və s. və i.

Ən azı min il ərzində Azərbaycan milli mentallığının dəyərtutumu islamdan qaynaqlanmışdır... Hətta, hamının zorən ateist elan edildiyi sosialist təsərrüfat tipində belə “halal”lıq anlayışı vardır... Problem də, elə ondadır ki, müasir dövrümüzdə “halal”lıq anlayışı ya ingiliscə, ya da rusca “interpretasiya” olunur...

Ölkədə bugünə formalaşmış iqtisadi mədəniyyətin – hər hansı bir formada tipologiyasını aparmaq mümkün görünümür: iqtisadi mədəniyyət – müxtəlif məzmunlu komponentlərin “simbiozu” formasında təzahür edir:

1) Ən başda gələn spesifika – heterogenlikdir. Sivil, dini və regional “yaranışların” (mədəniyyət kontekstində) eyni yaxud bərabər güclü təsiri davram etməkdədir.

Tolerantlıq, multikulturalizm – məhz bu sferada mənfi işarəli rol oynayır.

İqtisadiyyatın subyektiv “dünyası”na (iqtisadi mədəniyyət) münasibət bir növ sovet “uravnilovkası” nı ( bərabərləşdirmə) xatırladır.

2) Fraqmentallıq, müxtəlifliklərı vahid “məxrəcə” gətirmə çabası; Qərbin “bazar mədəniyyəti” və Qərbə aid institutusional yaranışla “paternalist dəyərlərin” tətbiqindən doğan spesifik “yaranışları” adaptasiya etmək istəyi; Hissəvilik (fraqmentallıq) hər iki “müxtəlifliyə” tətbiq edilir;

3) Ziddiyyətlilik; sosio-mədəni identikliyin problematikliyi fonunda iqtisadi dəyərlərlə bağlı fundamental konsensusa (ümum- cəmiyyət miqyasıda) gəlinməsinin ifrat müşkül xarakter alması. Bu konteksdə birmənalı şəkildə dəqiqləşdirilməsi zəruri olan problem – vektor seçimi problemidir: Qərbmi?, islam “dünyasımı” ? Avrasiyamı (Rus “dünyası”) ? yoxsa özünə xas milli inkişaf trayektoriyasımı? – nəhayət ki, öz həllini tapmalıdır.

Dəyərlər sistemi – “qarışıqlıqdan” formalaşa bilməz. “Qarışıqlıq” – istənilən situasiyada yalnız özünü, yəni “qarışıqlığı” doğura bilər.

4) Ambivalentlik yaxud iqtisadi dəyərlər kontekstində “müxtəlifliyin” eyni hərəkətdə yaxud eyni zaman intervalında eyni güclə dəstəklənməsi; ölkənin bugünə formalaşmış iqtisadi inkişaf modeli etatist → liberal məzmunludur. Yəni, bir tərəfdən, mühafizəkar yanaşma, digər tərəfdən liberal dəyərlərin qərarlaşmasına rəvac vermək: Nəinki uzun, hətta ortamüddətli dövr üçün sözügedən “sintez” – birgəliyini qoruyub – saxlamaq iqtidarında deyildir və zatən, belə bir “bütövləşmə” prinsipcə, imkansızdır. Tarixi təcrübə də, göstərir ki, paternalist iqtisadi mədəniyyət – “ələbaxımlıqdan” və dövlətə “baba” deməkdən qeyri heç bir effektiv nəticə ortalığa qoymaq gücündə deyildir: İqtisadiyyatda, ən azı əmək motivasiyası aspektindən “ağalıq→tabeçilik” münasibətləri nəinki tam yararsızdır, hətta inkişaf dinamikasında fəsadlı situasiyalara rəvac verə bilər. Bu aspektdən seçim “ya→ya” tiplidir və alternativsizdir. Sözügedən “bütövlüyün” mövcudluq şərtlərinin zamanca “uzanması” – yaxşı heç nə vəd etmir.

Azərbaycanın sovet keçmişi iqtisadi mədəniyyət sferasında çox dərin izlər buraxmışdır. Son 30 il ərzində formal institutlar çərçivəsində həyata keçirilən “təmizləmə” prosesi bu gün də davam etməkdədir. Sözügedən “təmizlənmə” – həm də cəmiyyətin bütövlükdə sosio – mədəni tipinin keyfiyyət yeniləşməsi istiqamətində də

aparılmaqdadır... Söz yox ki, tip yeniləşməsi uzunmüddətli zaman resurslarını tələb edir.

Amma... iqtisadi mədəniyyətin – həm identiklik dərəcəsi, həm də yeniləşmə tezliyi və onun həlli problemi, sözün bütün mənalarında "indi"nin problemidir. Əks təqdirdə gözlənilən gələcək "indi"nin ksero – surətində başqa bir şey olmayacaqdır.

***Yekun söz yaxud nəzəri baxışın "millilik" problemi...***

Hər şeydən əvvəl, milli – iqtisadiyyata baxışda nəzəri – konseptual və metodoloji konsensusa nail olmaq lazımdır. Nəzəri konstruktsiya – milli iqtisadiyyatı həm funksional, struktur, həm də davranış aspektlərindən ən azı adekvat təsvirini verə bilmək qabiliyyətində olmalıdır. Həm iqtisadiyyatın, həm də onun nəzəri konstruktsiyasının milli məzmunluluğu heç bir halda şübhə altına alınmamalıdır. Bu aspektdən digər ölkələrlə müqayisə yaxud xarici ölkələrin təcrübəsindən istifadə yaxud əcnəbi mənşəli institutların kütləvi "idxalı" milli iqtisadi inkişafın dayanıqlılığı kontekstində qətiyyən yetərli deyildir.

Onilliklər ərzində qərarlaşmış stereotip baxışlardan mədəd ummaq, açıq – aşikar yanılmaq deməkdir:

1) Qeyd edilən yönümdə aparılan "müqayisə" – həqiqəti aşkarlamır. Yalnız milli iqtisadiyyatların (müqayisə edilən) özünəxas spesifikasını anlamaq baxımından yararlıdır.

2) Eyni zamanda, əcnəbi mənşəli təcrübənin tətbiqi – məzmun etibari ilə özünüaldanış anlamından qeyri bir məna yükü daşımır; Ən azı, ona görə ki, hansısa milli iqtisadiyyatın təcrübəsi – ona xas olan dəyər – konseptlər bazasında formalaşır ki, bunun da, mahiyyət fərqliliyi ucbatından gerçəkləşmə imkanları ifrat dərəcədə məhdud olur. Digər tərəfdən, təcrübə nə səbəb, nə də proses yox, nəticədir. Və "nəticənin tətbiqi" deyilən şey – heç bir halda həmin nəticəni yaradan səbəbi ( səbəbləri) doğura bilməz. Əlaqə - əks yönümlüdür.

3) Əcnəbi mənşəli institutların "idxalı" - əcnəbi mənşəli formal və qeyri – formal dəyər konseptlərin "idxalı" deməkdir. Bu institutların effektiv fəaliyyət göstərə bilmə ehtimalı çox aşağı səviyyədədir. Bu tezisin gerçək məzmun daşıdığını anlamaq üçün ölkəyə "kütləvi" şəkildə "idxal" olunmuş vətəndaş cəmiyyəti institutlarının real fəaliyyətinə ötəri nəzər salmaq kifayətdir.

Sözün qısası: milli iqtisadi inkişafın təminatı amilləri, mənbələri, mental – dəyər tutumu – birmənalı olaraq endogen məzmun daşıyırlar. Özgə atına "minməklə" (xüsusilə, aşırımda) dayanıqlı inkişaf trayektoriyasına çıxış imkansızdır.

Həmçinin, unutmaq olmaz ki, yuxarıda qeyd etdiyimiz nəzəri – metodoloji adekvatlıq probleminin tarixi – genetik kökləri vardır. Belə ki, tarixin heç bir dönəmində müasir Azərbaycanın indiki ərazisi çərçivəsində dövlət quruluşu olmamışdır. Azərbaycan – azərbaycan türklərinin qurduğu imperiyaların (feodal imperiyaları) bir hissəsi olmuş, yaxud çoxlu sayda xanlıqlara parçalanmışdır. 1918 – ci ildə qurulan milli dövlət 23 aydan sonra Rusiyanın işğalına məruz qalmış və ləğv edilmişdir. Azərbaycanda, eləcə də postsovet avrasiyası ölkələrində 70 illik sovet ideologiyası və sosialist təsərrüfat tipi iqtisadi təffəkürün deformasiyasında müstəsna rol oynamışdır. Sosializmin süqutunun ilk illərində - bazar iqtisadiyyatına keçid prosesində - biznesmen, sahibkar və s. adlarda iş adamlarının ortaya çıxmasına, cəmiyyət miqyasında, ən yaxşı halda istehzalı yanaşma sərgilənirdi: İş adamları bir mənalı olaraq, aşağılayıcı anlamda "al-verçı", "al-ver" adamı kimi xarakterizə olunurdular. Belə bir yanaşmanın yaranmasında bədii söz, ədəbiyyat da az rol oynamamışdır. Keçən əsrin ikinci yarısından sonuna qədər nəşr edilmiş bədii əsərlərdə (hekayə, povest, roman) əgər, ən azı bir mənfi qəhrəman olurdusa, o mütləq ticarətçidi... Və ictimai şüurun, müxtəlif stereotiplər, illiyuziyalar, əsli - əsası olmayan miflərlə bu qədər "bulandığı" bir situasiyada, milli iqtisadi təfəkkürün formalaşması prosesinin uzun müddət davam etməsi qaçılmazdır.

Artıq anlaşıldığı kimi, cəmi 30 illik müstəqil dövlətçilik tarixi olan bir ölkədə, müstəqil mahiyyətli iqtisadi mədəniyyətin və milli iqtisadi təfəkkürün formalaşması uzunmüddətli zaman resursları tələb edir.

**Açar sözlər:** *mentalitet, model, millilik, dəyər, təfəkkür, iqtisadi mədəniyyət, identiklik.*

## ƏDƏBİYYAT SİYAHISI


1. *Kissinger, H. Dünya düzəni. İstanbul. 2016*
2. *Бердяев, Н.А. Философия неравенства. М; 1990; стр.101*
3. *Евангелие от Матфея 5 стих 40*
4. *Минервин, И.Г. Культура и этика в экономике. RAN/ 2011*
5. *Мировой Атлас Данных/ элект.ресурс/ кноема.ру/атлас/ранкс*
6. *Hampden – Turner,C., Trompenaars,A. Seven Cultures of Capitalism/ Amsterdam*
7. *Randi, KE. Sociology of Development/ Delhi/1985*


## РЕЗЮМЕ


***Д.э.н.проф.А.И.Байрамов***
***Азербайджанский государственный университет экономики***
***Email:avazbayramov61@gmail.com***


### ПРОЕКЦИЯ НАЦИОНАЛЬНОГО МЕНТАЛИТЕТА НАД ЭКОНОМИКОЙ: В ПОИСКАХ ИСТИНЫ…

***«Экономический человек» А.Смита – это «англичанин»- Прикадлежающий католической церкви и заподную цивилизацию.***


Нет никаких сомнении в том, что «экономоцентризм» имеет прямое отношение к демонстрацию «устойчивости» сменяющихся друг – друга проблем современного человечество.

Использование ментального подхода в деле преодоление проблемных ситуации, однозначно сыграет положительную роль в упорядочение хозяйственного порядка.

Методология исследовании построено на основе вероятностно – дедуктивного метода.

Полученные результаты показывает, что эффект масщтаба находиться в пропорциональной зависимости от степени «ментальности» в процессе экономического развития.



**Ключевые слова:** *менталитет, модель, ценность, мышление, национальность, идентификация, экономическая культура.*


## SUMMARY


***Doctor of Economics Prof. A. I. Bayramov***
***Azerbaijan State University of Economics***
***Email: avazbayramov61@gmail.com***


### PROJECTION OF NATIONAL MENTALITY OVER THE ECONOMY: IN SEARCH OF TRUTH ...

***"Economic man" A. Smith is an "Englishman" - Affiliated Catholic churches and western civilization.***


There is no doubt that "economocentrism" is directly related to the demonstration of the "stability" of the changing problems of modern mankind.

Using a mental approach in overcoming problematic situations will definitely play a positive role in streamlining the economic order.

The research methodology is based on the probabilistic - deductive method.

The results obtained show that the scale effect is proportional to the degree of "mentality" in the process of economic development.



**Key words:** *mentality, model, value, thinking, nationality, identification, economic culture.*

УДК 33
338:61

# ВОЗМОЖНОСТИ ПОВЫШЕНИЯ РЕГИОНАЛЬНЫХ МЕДИЦИНСКИХ УСЛУГ И ИХ ЭФФЕКТИВНОСТИ

## (На примере Аджарской Автономной Республики)

**СОФИЯ БАКУРИДЗЕ**
*Батумский Государственный Университет.*
*Докторант факультета экономики и бизнеса*

*E-mail: seva15000@gmail.com*

В Аджарском регионе существует особая экономическая, демографическая, урбанистическая, технологическая и техническая среда для развития комплекса системы медицинских услуг.

Возможность создания соответствующих условий и взаимного согласования интересов для удовлетворения интеллектуальных, коммерческих, корпоративных и технологических стремлений многих развитых и развивающихся стран в различных областях так называемого международного туризма, медицинских исследовательских учреждений, инфраструктуры, крупных структур международного бизнеса превращает регион в привлекательную географическую единицу для медицинских структур, имеющих соответствующие материально-технические, организационные и академические ресурсы для реагирования.

Многочисленные государственные и коммерческие учреждения вовлечены в процесс создания и реализации различных социально-экономических программ, основной целью которых является не только выполнение обязательства социальной ответственности бизнес субъектами, но и улучшение экономического положения страны, забота об общественном благосостоянии, успешное функционирование бизнес - деятельности и получение прибыли.

Аджария является одним из важнейших регионов Грузии. Он вносит значительный вклад в экономику страны, облегчает социально-демографические и индустриальные проблемы. Важными сферами производственного потенциала являются строительство, промышленность, энергетика, инфраструктура, информационная и туристическая индустрия. Аграрный, рекреационный и пищевой комплекс, а также промышленное строительство являются приоритетными и развитыми в стране.

Прибрежное расположение региона, Черное море, налаженная инфраструктура, природно-климатические условия, отраслевое разнообразие и изобилие производственных сил создают возможности для развития высокоэффективного, конкурентоспособного региона международного уровня и имиджа, и развития бизнеса в разных направлениях. Соответственно, на повестке дня стоит необходимость удовлетворения растущих потребностей населения и туристической индустрии в таких сферах услуг, как отдых, лечение и др.

По абсолютному объему регионального валового продукта, а также с расчетом на душу населения, Аджария является одним из лидеров по экономической деятельности в сравнении с другими регионами. Структура валовой продуктивности в 2018 году характеризуется следующим образом:

В 2018 году валовой внутренний продукт (ВВП) составил 44 599,3 миллиона лари. В региональной структуре наибольшую долю имеет:

1. Г. Тбилиси - 51,7%
2. Имерети - 9,3%
3. Аджарская АР - 9,0%
4. Квемо Картли - 7,8%
5. Самегрело - Верхняя Сванетия - 5,3%

**Диаграмма 1. Региональная структура валового внутреннего продукта, 2018 г.**




*Источник: https://www.geostat.ge/media/28787/Mtliani-shida-produqti-regionuli-2018-%28geo%29.pdf [4].*

**Таблица 1.**

**ВВП в текущих ценах, млн. лари**

| Регионы | 2017 | 2018 |
|---|---|---|
| Тбилиси | 18 151.8 | 20 063.7 |
| Аджарская АР | 3 059.6 | 3 491.5 |
| Гурия | 632.7 | 651.3 |
| Имерети | 3 212.9 | 3 587.2 |
| Кахетия | 1 902.2 | 2 017.6 |
| Мцхета-Мтианети | 819.2 | 932.3 |
| Рача-Лечхуми и Нижняя Сванетия | 174.6 | 214.0 |
| Самегрело-Верхняя Сванетия | 2 123.0 | 2 067.6 |
| Самцхе-Джавахети | 1 114.3 | 1 200.2 |
| Квемо Картли | 2 991.5 | 3 039.6 |
| Шида Картли | 1 165.9 | 1 513.6 |
| ВВП в базовых ценах | 35 347.6 | 38 778.5 |
| Налоги на продукцию | 5 604.0 | 6 031.2 |
| Субсидии на продукцию | 190.0 | 210.3 |
| ВВП в рыночных ценах | 40 761.7 | 44 599.3 |

*https://www.geostat.ge/media/28787/Mtliani-shida-produqti-regionuli-2018-%28geo%29.pdf [4].*

Аджарская Автономная Республика является третьей по величине в стране по объему добавленной стоимости, отраслевая структура регионального валового продукта в 2018 году выглядит следующим образом:

1. Строительство - 16,6%
2. Деятельность, связанная с недвижимостью - 15,5%.
3. Оптовая и розничная торговля; ремонт автомобилей и мотоциклов - 10,6% [4].

Регион обладает сильным потенциалом для экономического развития, о чем свидетельствуют показатели инвестиционной активности по регионам, где Аджария по данным за 2018 год по-прежнему остается лидером среди регионов с 75 551,3 долл. США.

**Таблица 2**

| Прямые иностранные инвестици по регионам<br>Тысячи долл.США | | |
|---|---|---|
| Регион | 2017 | 2018 |
| Всего | 1,962,613.5 | 1,265,236.1 |
| Среди них | | |
| Г. Тбилиси | 1,514,709.8 | 1,033,290.7 |
| Аджария | 209,642.1 | 75,551.3 |
| Кахетия | 12,113.9 | -9,785.3 |
| Самцхе- Аджавахети | 38,856.5 | 44,795.7 |
| Квемо Картли | 64,701.7 | 87,028.1 |
| Самегрело – Верхняя Сванетия и Гурия | 55,912.5 | -10,530.8 |
| Самегрело – Верхняя Сванетия | 54,828.0 | -10,828.9 |
| Гурия | 1,084.5 | 298.1 |
| Имерети, Рача-Лечхуми и Нижняя Сванетия | 59,852.7 | 26,763.1 |
| Имерети | 57,358.6 | 26,269.6 |
| Рача-Лечхуми и Нижняя Сванетия | 2,494.1 | 493.5 |
| Шида-Картли и Мцхета –Мтианети | 6,824.4 | 18,123.2 |
| Шида -Картли | 1,087.8 | 15,240.0 |
| Мцхета - Мтианети | 5,736.6 | 2,883.3 |

*Источник: https://www.geostat.ge/ka/modules/categories/191/pirdapiri-utskhouri-investitsiebi [4].*

Инвестиционное направление особенно актуально в сельском хозяйстве, строительстве, транспорте и туризме, соответственно, экономический рост, активизация экспортного потенциала, развитие занятости и др. важны в

этих отраслях.

На особенность транспортного, экономического и человеческого потенциала региона, природных ресурсов, системы управления, социальной стабильности и других конкурентоспособных факторов указывает анализ сильных и слабых сторон, возможностей и угроз, разработанный нами с учетом различных факторов.

**Сильные стороны (S)**

***Природные условия и ресурсы***

1. Возможности развития субтропической культуры;
2. Возможности развития горного сельского хозяйства;
3. Возможности развития тепличного хозяйства;
4. Сезонные возможности для развития курортной туристической индустрии;
5. Развитие инфраструктуры;
6. Развитие индустрии;

***Экономический и человеческий потенциал***

1. Высокий имидж региона для развития бизнеса;
2. Значительные возможности для развития международного бизнеса;
3. Наличие квалифицированных групп в различных секторах экономики;
4. Соответствующее материально-техническое обеспечение для развития строительной и туристической индустрии;
5. Положительные миграционные процессы;
6. Высокий уровень вовлеченности в целевые государственные и международные программы;

***Географическое и транспортное хозяйство***

1. Прямой выход на международные связи;
2. Развитие всех видов транспортной инфраструктуры;
3. Социальная стабильность;
4. Эффективно развитая система регионального управления;

**Слабые стороны (W)**

1. Нехватка современных технологий в различных отраслях;
2. Низкая производительность труда;
3. Низкий уровень инвестиционной привлекательности некоторых отраслей экономики;
4. Низкий уровень использования современной рыночной системы, организации труда, управления, технологического и экологического развития и других направлений;
5. Низкий уровень развития инфраструктуры;
6. Низкий имидж некоторых направлений туристической инфраструктуры;
7. Конкурентоспособность некоторых услуг местного производства и низкого уровня продукции;
8. Зависимость от стоимости ресурсов;
9. Зависимость от иммиграции ресурсов, необходимых для сельского хозяйства;
10. Низкие покупные возможности значительной части населения;
11. Протяженность сел в хозяйстве в целом и связанные с этим проблемы в сферах образования, здравоохранения и других сферах;
12. Нехватка профессиональных кадров в некоторых сферах.

**Возможности: (O)**

1. Технологии повышения конкурентоспособности товаров и услуг местного производства;
2. Масштабные и системные инвестиционные мероприятия;
3. Формирование среды государственной поддержки инфраструктурных и отраслевых программ;
4. Поддержка возможностей развития традиционных и инновационных областей;
5. Поддержка реализации различных программ в туристической индустрии;
6. Поддержка и поощрение регионального использования местных региональных ресурсов;
7. Разработка и реализация международных и межрегиональных программ;
8. Содействие развитию глобального бизнеса в регионе, прочный фундамент для его ускоренного развития в реальной экономике;

**Угрозы (T)**

1. Ускоренные темпы роста конкурентоспособности продукции и услуг в странах ближнего зарубежья, нежели в регионе;

2. Ускоренный рост технологических и технических параметров в отдельных секторах реальной экономики в странах ближнего зарубежья;

3. Рост показателей миграции эффективных кадров;

4. Возможность развития географических процессов в нежелательных направлениях;

5. Ожидаемая возможность темпов восстановления экологических процессов; [1].

Данный анализ выявляет, что основные социально-экономические проблемы в Аджарском регионе заключаются в следующем:

1. Повышение конкурентоспособности продукции и услуг местного производства;

2. Высокая зависимость реальной экономики региона от цен импортируемых ресурсов;

3. Повышение покупательной возможности населения;

4. Преимущественное развитие транспортной и коммунальной инфраструктуры, повышение трудовой активности и мобильности населения, поощрение эффективной трансформации рабочей силы;

5. Поощрение рационального использования ресурсов горных муниципалитетов;

6. Создание возможностей для профессионального образования и развития.

Роль и значение системы здравоохранения в решении указанных и многих других проблем имеют особую значимость. Стратегия развития региональной системы здравоохранения в первую очередь должна быть осуществлена с учетом тенденций расположения населения и туристско-рекреационных зон. [2].

Сфера медицинских услуг динамично развивается в Аджарском регионе. За последние годы, на фоне некоторых сезонных наблюдений, отмечается положительная динамика в плане сокращения уровня доходов пациентов и потерь рабочего времени. [5].

По анализу специалистов данное обстоятельство обусловлено осуществлением массовых профилактических проектов, повышением эффективности профилактических мероприятий среди населения и активизацией амбулаторных услуг, а также разработкой и реализацией ряда краевых, региональных программ, обеспечивающих укрепление или оптимизацию расположения материально-технической базы медицинских учреждений. [7].

На сегодняшний день основные показатели здравоохранения в Аджарском регионе не только улучшились по сравнению с предыдущим годом, но и занимают лидирующие позиции по сравнению с другими регионами. В частности:

1. Численность врачей - 2,7 тыс.

2. Численность медсестринского персонала - 2,1 тыс.

3. Больницы и медицинские центры – 19 ед.

4. Количество больничных коек - 1,5 тыс.

5. Количество амбулаторно – поликлинических учреждений – 207 ед.

6. Число обращений к врачам амбулаторно – поликлинических учреждений - 838 тыс.[4].

Отраслевой и структурный анализ медицинских услуг в регионе показывает, что для повышения деятельности этой сферы возможно создание инновационной управленческой и организационной структуры (модели), которая будет опираться в первую очередь на высокую степень партнерства между частными и государственными учреждениями. [1].

Я считаю, что такой инновационной организационно-правовой формой для Аджарии, как для комплексного экономического, географического, геополитического и специфического демографического региона, является медицинский кластер.

Медицинский кластер представляет собой организационную модель, сформированную на основании взаимного согласия, которая эффективно реализует процессы профилактики, диагностики, лечения, реабилитации, отдыха и оздоровления и опирается на интеграцию государственных - частных ресурсов. [6].

Региональный медицинский кластер будет включать в себя некоторые взаимозависимые организации, фирмы и учреждения, имеющиеся в географической единице, которые осуществляют взаимодополняющие технологические процессы своей деятельностью и нацелены на удовлетворение населения внутреннего рынка.

**Таблица 3**

| | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | **Основные показатели здравоохранения (на конец года)** | | | | | | | | | | | | | |
| 2 | **2017** | | | | | | | | | | | | | |
| 3 | | Грузия | Тбилиси | Абхазская АР | Аджарская АР | Гурия | Имерети | Кахетия | Мцхета-Мтианети | Рача-Лечхуми и Нижняя Сванетия | Самегрело-Верхняя Сванетия | Самцхе-Джавахети | Квемо Картли | Шида Картли |
| 4 | Численность врачей, занятых по должностям, тыс.* | 27,4 | 15,8 | 0,2 | **2,2** | 0,4 | 2,9 | 1,1 | 0,4 | 0,2 | 1,4 | 0,5 | 1,5 | 0,8 |
| 5 | Численность медсестринского персонала, тыс. | 18,0 | 8,6 | 0,1 | **2,0** | 0,3 | 2,6 | 0,8 | 0,3 | 0,2 | 1,0 | 0,5 | 1,1 | 0,5 |
| 6 | Больницы и медицинские центры, ед. | 272 | 129 | … | **19** | 5 | 36 | 15 | 6 | 4 | 20 | 9 | 19 | 10 |
| 7 | Количество больничных коек, тыс. | 15,1 | 8,0 | … | **1,3** | 0,1 | 2,3 | 0,5 | 0,2 | 0,1 | 0,6 | 0,4 | 1,0 | 0,5 |
| 8 | Количество амбулаторно –поликлинических учреждений, ед. | 2 369 | 501 | 13 | **236** | 110 | 367 | 277 | 71 | 62 | 265 | 104 | 211 | 152 |
| 9 | Число обращений к врачам амбулаторно – поликлинических учреждений | 11 493 | 6 159 | 157 | **975** | 223 | 1 455 | 529 | 161 | 41 | 481 | 188 | 611 | 514 |
| 10 | 2018 | | | | | | | | | | | | | |
| 11 | | Грузия | Тбилиси | Абхазская АР | Аджарская АР | Гурия | Имерети | Кахетия | Мцхета- | Рача-Лечхуми и Нижняя | Самегрело-Верхняя | Самцхе- | Квемо Картли | Шида Картли |
| 12 | Численность врачей, занятых по должностям, тыс.* | 31,0 | 17,3 | … | **2,7** | 0,4 | 3,5 | 1,4 | 0,4 | 0,2 | 1,7 | 0,5 | 1,7 | 1,3 |
| 13 | Численность медсестринского персонала, тыс.* | 18,0 | 8,6 | … | **2,1** | 0,3 | 2,6 | 0,7 | 0,3 | 0,2 | 1,0 | 0,5 | 1,0 | 0,8 |
| 14 | Больницы и медицинские центры, ед. | 271 | 126 | … | **19** | 5 | 38 | 15 | 5 | 4 | 21 | 9 | 18 | 11 |
| 15 | Количество больничных коек, тыс. | 16,0 | 8,4 | … | **1,5** | 0,1 | 2,4 | 0,5 | 0,2 | 0,1 | 0,6 | 0,4 | 1,0 | 0,8 |
| 16 | Количество амбулаторно –поликлинических учреждений, ед. | 2283 | 384 | … | **207** | 108 | 389 | 282 | 70 | 65 | 275 | 106 | 231 | 170 |
| 17 | Число обращений к врачам амбулаторно – поликлинических учреждений | 12 261 | 7772 | … | **838** | 259 | 1131 | 513 | 116 | 31 | 466 | 173 | 370 | 594 |

*Источник: https://www.geostat.ge/ka/modules/categories/191/pirdapiri-utskhouri-investitsiebi*

В кластер входят медицинские объекты, учреждения соответствующего профиля, крупные туристические объекты и транспортная инфраструктура.

С учетом того, что ежегодно тысячи граждан Грузии обращаются за получением медицинских услуг в разные регионы (Турция, Россия, Германия и др.), где средние расходы одного пациента составляют более 20 тысяч долларов США, возникает необходимость в предоставлении полного спектра медицинских услуг. Более того, в Грузии, в основном через Аджарию, 5-6 миллионов туристов и визитеров пересекают границу, плюс, растущий морской грузопоток и пассажиропоток. В регионе назрело формирование системы высококачественных и высокоэффективных медицинских услуг. [3].

Именно эта модель может выйти на

межрегиональный рынок, который будет привлекателен для международных инвесторов, привлечет высококвалифицированные кадры и создаст современную инновационную материально-техническую базу.

Пользу и инновационность регионального медицинского кластера можно оценить по следующим направлениям:

1. Улучшение медицинского обслуживания в первичных звеньях;
2. Высококачественное лечение;
3. Высокое качество медицинского рынка и снабжения лекарственными средствами и эффективность поставок;
4. Подбор, привлечение и распределение высококвалифицированных кадров;
5. Внедрение эффективных форм управления;
6. Высокая организация реабилитационных и оздоровительных пространств;
7. Эффективные связи с необходимыми звеньями.

Такая организационная форма интеграции в первую очередь сделает частное и государственное партнерство эффективным, медицинские услуги будут трехуровневыми, и все барьеры для сельского населения и туристов будут устранены, а управленческий аппарат и сокращение затрат на инфраструктуру будут оптимальными, сократятся неэффективные расходы на лекарственные средства, а также наладятся и станут эффективными многие мероприятия, направленные на мотивацию медперсонала.

**Ключевые слова:** *партнерство, эффективность, географический ареал, кластер, медицинское учреждение, инфраструктура, ресурс, туристическая индустрия.*

## СПИСОК ЛИТЕРАТУРЫ

*1. Стратегическое видение экономического развития на 2022–2025 гг. Центр исследования экономической политики (EPRC). 2021. https://eprc.ge/uploads/1234Economic_Strategy-GEO.pdf*

*2. Верулава Тенгиз. Медицинский рынок: сущность, специфика, стимулы. Журнал Экономика и бизнес, Том X, №4, 2017. с.73.*

*3. Отчет об исследовании международных посетителей за 2019 год. Министерство экономики и устойчивого развития Грузии. www.econoty.ge*

*4. Национальная статистическая служба Грузии. www.geostat.ge*

*5. Паресишвили Отар, Кварацхелия Лаура, Мирзаеви Валентина. Перспективы развития медицинского (реабилитационного) туризма в Грузии в период пандемии и постопандемический период. Журнал Бизнес и законодательство, январь-июнь 2020 г.*

*6. Lunt Neil, Smith Richard, Exworthy Mark, Green Stephen T., Horsfall Daniel and Mannion Russell. Medical Tourism: Treatments, Markets and Health Sistem Implications: A scoring revive ( OECD).*

*7. Ettelt Stefanie, Nolte Ellen, Tomson Sarah, Mays Nicholas и International Healthcare Comparisons Network. Основы политики планирование оказания медицинской помощи: обзор международного опыта. М.: Реал Тайм, 2009. – 64 с https://www.euro.who.int/__data/assets/pdf_file/0005/108968/E91193R.pdf*

**Sofiya Bakuridze**
**Batumi Dövlət Universitetinin İqtisadiyyat və Biznes fakültəsinin doktorantı**

## REGİONAL SƏHİYYƏ XİDMƏTLƏRİNİN VƏ ONLARIN EFFEKTİVLİYİNİN ARTIRILMASI İMKANLARI (Acarıstan Muxtar Respublikasının nümunəsində)

## XÜLASƏ

Məqalədə Acarıstan Muxtar Respublikasının başlıca iqtisadi, coğrafi, sənaye, demoqrafik və digər göstəricilərindən söz açılır, bölgənin potensialı, resursları, infrastrukturu, istehsalat strukturu, dövlət, eyni zamanda digər subyektlər tərəfindən həyata keçirilən biznes layihələri təhlil edilir. Həmçinin müəllif tərəfindən miqrasiya proseslərindən, həmçinin turist axınlarından irəli gələn müvafiq sosial və iqtisadi problemlər diqqətə çatdırılmış, onların həllinin sosial proseslərə təsiri xüsusilə vurğulanmışdır. Məlum olduğu kimi Acarıstan Gürcüstanın ən böyül regionlarından biri hesab olunur. Onun ölkə iqtisadiyyatında əhəmiyyətli pay sahibi olmaqla yanaşı, bir sıra sosial-demoqrafik və sənayeləşmə ilə bağlı bir sıra vəzifələrin icrasında

mühüm rol oynayır.

Bölgədə müxtəlif təyinatlı geniş fəaliyyət sahələrinin çoxluğu, həmçinin yetərli qədər əmək qüvvəsinin mövcudluğu yüksək gəlirə malik, rəqabətə davamlı beynəlxalq səviyyəli biznes layihələrinin icrasını kifayət qədər asanlaşdırır. Bütün bunlar həm də Gürcüstanın beynəlxalq nüfuzunun artırılması, onun dünyada təbliği baxımından əlavə imkanlar yaradır. Mövcud potensial nəzərə alınmaqla, bölgədə əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün əlavə tədbirlər gücləndirilməli, turizm infrastrukturunun müasirləşdirilməsi üçün yeni istirahət, səhiyyə və əyləncə obyektlərinin inşası həyata keçirilməlidir. Xüsusilə də səhiyyə turizminin əhəmiyyətini vurğulayan müəllif, məqalədə bölgədə hal-hazırda fəaliyyət göstərən bir sıra səhiyyə müəssisələrinin potensialına dair statistik təhlillərini də təqdim etmişdir.

Məqalədə Acarıstanın müasir tələblərə uyğun inkişafını təmin etmək məqsədilə innovativ layihələrin icrasının əhəmiyyətinə toxunulmuş, texnoloji əsaslarda idarəçiliyin yaradılması, ixtisaslı kadrların bölgədəki layihələrin idarə olunmasına cəlbi kimi məsələlərin həllinə dair təkliflər irəli sürülmüşdür.

**Açar sözlər:** *əməkdaşlıq, effektivlik, coğrafi areal, klaster, səhiyyə müəssisələri, infrastruktur, resurs, turizm obyektləri.*

**Sofia Bakuridze**
**Doctoral student at the Faculty of Economics and Business, Batumi State University**

## OPPORTUNITIES TO IMPROVE REGIONAL HEALTH SERVICES AND THEIR EFFECTIVENESS (On the example of the Autonomous Republic of Adjara)

### SUMMARY

The paper presents the main economic, geographic, sectoral, demographic and other characteristics of the Autonomous Republic of Adjara. The potential of the region, resources, industry structure, infrastructure, business projects of the state and other subjects are analyzed. Social processes that necessitate an accelerated solution of the relevant social and economic problems associated with the growth of population migration and the diversity of tourist (guest) flows. Adjara is one of the largest regions of Georgia. It makes a significant contribution to the country's economy, alleviates socio-demographic and industrial problems.

Industry diversity and an abundance of production forces create an opportunity for the development of highly efficient, competitive international business and image in different directions. Accordingly, on the agenda is the need to meet the growing needs of the population and the tourism industry in areas such as recreation, medical treatment, etc.

The quantitative and some qualitative indicators of healthcare facilities (medical services) are given, on the basis of which opinions are presented on the subsequent management, structural and organizational improvements in this area.

The sectoral and structural analysis of medical services in the region shows that to enhance the activities of this area, it is possible to form an innovative management and organizational structure (model), which will rely primarily on the high quality of partnerships between private and public entities.

The author believes that such an innovative organizational and legal form for Adjara, as for a complex economic, geographic, geopolitical and specific demographic region, is the medical cluster.

The medical cluster is an organizational model formed on the basis of mutual consent, which effectively implements the processes of prevention, diagnosis, treatment, rehabilitation, recreation and recovery and relies on the integration of public-private resources.The regional medical cluster will include some interdependent organizations, firms and institutions located in a geographical unit that carry out complementary technological processes with their activities and are aimed at satisfying the population of the internal market.

This organizational form of integration, first of all, will make private - public partnership effective, medical services will be three-tier, and all barriers for the rural population and tourists will be removed, and the administrative apparatus and reduction of infrastructure costs will be opti

**Key words:** *partnership, efficiency, geographic area, cluster, medical institution, infrastructure, resource, tourism industry.*

UOT 331.01

# MÜASİR BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ FİRMA STRATEGİYASININ HAZIRLANMASININ ƏSAS XÜSUSİYYƏTLƏRİ

**FAMİL RÜSTƏMOV**
*İqtisadiyyat üzrə fəlsəfə doktoru.*
*AMEA İqtisadiyyat İnstitutu*

*E-mail: familrustamov456@gmail.com*

**Giriş**

Son illər inkişaf etmiş ölkələrdə firmanın planlaşdırma fəaliyyətində uzunmüddətli planlaşdırmanın əvəzinə strateji planlaşdırma əsas yer tutmağa başlamışdır. Strateji planlaşdırmada uzunmüddətli planlaşdırma ilə müqayisədə firmanın fəaliyyət sahəsi daha geniş olur. O, özündə həm iqtisadi təşkilatın daxili mühitinin əsas elementlərini, həm də xarici aspektləri birləşdirir. Sosial və siyasi amillər, alıcıların zövqləri və ehtiyacları, rəqiblərin fəaliyyəti və s kimi amillər burada yer alır. Bundan əlavə, strateji planlaşdırmada firmanın uzunmüddətli məqsədləri mövcud fəaliyyətin şərtlərinin sadə əks olunmasını istisna edərək şirkətin xarici və daxili mühitindəki dəyişikliklərin təhlili nəticəsində təzahür etdi. Strateji planlaşdırma ilə uzunmüddətli planlaşdırma arasındakı əsas fərq onun dəyişkənliyi, şirkətin gələcək inkişafının alternativ versiyalarının hazırlanmasıdır [1].

Strateji planlaşdırmanın inkişafı prosesində çoxlu sayda strateji analiz metodları və modelləri, problemlərin rəsmi həll üsulları ortaya qoyulmuşdur. Formal strateji planlaşdırmanın populyarlığı 70-ci illərin sonu 80-ci illərin əvvəllərinə, şirkətin istənilən problemin həllində bir vasitə kimi dərk olunduğu müddətə təsadüf etmişdir. Buna baxmayaraq 1980 -ci illərdə strateji planlaşdırmanın formal üsulları yeni şərtlərlə öz məhdudiyyətlərini də üzə çıxardı.

Cari zamanda strateji planlaşdırma bir sıra müəssisələrin idarə olunması funksiyalarında öz yerini tutmuşdur. Bu gün rəsmi, kəmiyyət metodları ilə yanaşı, strateji planlaşdırma yaradıcı intuitiv bir yanaşmanı təqib edir. Biznes uğurlarına nail olmaq məqsədilə universal üsul olmasa da şirkətin uğurlu fəaliyyətinə zəmin formalaşdırmaq imkanına qadirdir.

**Müasir iqtisadi şəraitdə strateji planlaşdırmanın əsas xüsusiyyətləri**

Strateji planlaşdırma bir-biri ilə əlaqəli bir neçə mərhələdən ibarətdir. Əvvəlcə təşkilatın xarici və daxili mühitinin tədqiqi aparılır, sonra şirkətin əsas inkişaf istiqamətləri müəyyən edilir, sonrakı mərhələdə strateji təhlil çərçivəsində şirkət birinci və ikinci mərhələnin nəticələrini müqayisə edir, strategiyalar üçün mümkün variantlar müəyyənləşdirir. Ardınca seçimlərdən birini seçərək öz strategiyasını formalaşdırır, son mərhələdə isə firma əvvəlki prosedurlara və zəif səviyyəli təkliflərə əsaslanaraq yekun strateji plan hazırlayır. Təşkilatın mühit təhlili şirkətin öz məqsədlərinə nail olma qabiliyyətinə təsir edə biləcək xarici və daxili mühitin kritiki mühüm elementlərinin müəyyənləşdirilməsi prosesidir. Mühit təhlili şirkətin fəaliyyəti üzrə bir sıra vacib funksiyaları yerinə yetirir [2]:

- strateji planlaşdırma nöqteyi-nəzərindən iqtisadi təşkil və gələcək fəaliyyətə təsir göstərə biləcək ən mühüm amillərin nəzərə alınmasını təşviq edir;
- firmanın siyasi nöqteyi-nəzərindən ən əlverişli təəssüratın formalaşdırılmasına kömək edir;
- mövcud fəaliyyət baxımından isə işçi funksiyaların ən üstün şəkildə icra olunması istiqamətində zəruri biliklər təmin edir.

Təşkilat mühitinin təhlili prosesi firmanın daxili və xarici məkanının əsas elementlərinin müəyyən edilməsindən başlayır. Elementlərin müəyyənləşdirilməsindən sonra firma ən mühüm əhəmiyyətli elementləri digərləri arasından seçməlidir ki, bunlar da "kritik nöqtələr" adlandırılır. Ardınca firma bu kritik nöqtələr haqqında zəruri informasiya toplayır. İstənilən təşkilatın daxilində 3 sferanın daxili mühit, iş mühiti, ümumi mühit cəmi müəyyənləşdirilir.

Təşkilatların daxili mühiti zəifdakı əsas elementləri əhatə edir: istehsal, maliyyə, marketinq, kadr idarəçiliyi, təşkilati quruluş. Daxili mühitin təsviri, təşkilatın güclü və zəif tərəfləri, daxili imkanları haqqında fikir verir.Digər iki sfera firmanın xarici mühitini təşkil edir.

İş mühiti firma ilə birbaşa təmas mühitidir, firmanın birbaşa əlaqələri olan və ya şirkətə birbaşa təsir edən bazar subyektlərini əhatə edir. Bun-

lar, birincisi, firmanın ehtiyac duyduğu iqtisadi resursların təchizatçıları (xammal, maliyyə kapitalı, istehsal kapitalı), ayrı-ayrı əmək təchizatçıları – muzdlu işçilər, daha sonra müştərilər - firmanın məhsullarının istehlakçıları, vasitəçilər - maliyyə, ticarət, marketinq, dövlət iqtisadi strukturlar (məsələn, vergi idarəsi). İkincisi, iş mühitinin elementləri arasında şirkətin müsbət və ya mənfi imicinin formalaşmasına əhəmiyyətli təsir göstərən rəqabət aparan firmalar və kütləvi informasiya vasitələri, istehlakçı cəmiyyətləri və s. ehtiva edən əlaqə auditoriyası şəklində çıxış edir. Əks təqdirdə, təşkilatın iş mühitinə firmanın mikro mühiti də deyilir. Ümumi təsir mühiti həmçinin firmanın makro mühiti adlandırılır [3].

Daxili və xarici mühitin təhlili başa çatdıqdan sonra firma əvvəlki mərhələnin nəticələrinə əsasən öz fəaliyyətinin əsas qaydalarını müəyyənləşdirir. Bəzən strateji planlaşdırmada məqsədlərin təyin edilməsi mühitin analizindən öncə baş verir . Bu praktikanın öz əhəmiyyəti var: iqtisadi təşkilatın mövcudluğu həyat fəaliyyəti üçün bəzi məqsəd və motivləri ehtiva edir. Şirkətin fəaliyyəti ilə bağlı meyarlar məcmusu üç əsas növə bölünür:

• ideallar- öncədən proqnozlaşdırılmış müddətdə əldə etməyi gözləmədiyimiz, lakin daim cəhdlər göstərdiyimiz meyarlar.

• hədəflər-planlaşdırılan dövr müddətində şirkətin fəaliyyəti üçün ən ümumi qaydalardır, buna nail olmaq işin tam və ya böyük hissəsini əhatə edir.

• vəzifələr - tapşırığın formasını və vaxtını təyin edən spesifik, ölçülə bilən meyarlar, vəzifə təlimatları və funksiyalar.

Strategiyanın inkişafı idealların və məqsədlərin müəyyənləşdirilməsini əhatə edir. Əməliyyat planlaşdırmasının bir hissəsi olaraq, şirkət işin hər bir icraatçısı üçün konkret vəzifələri müəyyənləşdirir. Şirkətin inkişaf ideallarına vizyon-baxış da daxildir.

Baxış işin istiqamətləndirici fəlsəfəsidir, şirkətin mövcudluğunun səbəbidir, məqsədin özü deyil, daha çox əsas hədəf mahiyyətidir. Başqa sözlə, vizyon gələcəyin, ən əlverişli şəraitdə əldə edilə bilən ideal icmal mənzərəsidir. Vizyon, strateji planlaşdırma prosesində cəlbedicilik səviyyəsini təyin edir. Müsir qloballaşan dünyada neçə vizyon nümunələri vardır. Onlara aşağıdakıları nümunə göstərmək mümkündür :

- fərdi kompüter istehsalçısı “Apple”-ın vizyonu: "Bəşəriyyəti təkmilləşdirən intellektual vasitələrin qlobal inkişafına töhfə vermək".

- səhiyyə sahəsində ixtisaslaşmış “Merk” firmasının vizyonu: “İnsan həyatını qorumaq və yaxşılaşdırmaq işinə xidmət edirik. Bütün fəaliyyətimiz bu məqsədə nail olmaqla ölçülməlidir".

Vizyon anlayışı biznes dünyasında getdikcə daha çox populyarlıq qazanır. Vizyonun artan əhəmiyyəti aşağıdakı amillərlə müəyyən edilir.

-Vizyon firmaların işçilərini, xüsusən də iri, mərkəzləşdirilməmiş işçiləri həvəsləndirmək üçün yaxşı vasitədir, insanların fəaliyyətini vahid istiqamətdə birləşdirməyə, cəmləşdirməyə kömək edir.

-Vizyon ümumi anlamda qazanc əldə etmək niyyətini vurğulamır, təşkilatın bütün iştirakçılarının fərdi ideallarını vahid dəyərlər standartına birləşdirir. Bu baxımdan, o, əsas təşkilat dəyəri olan şirkətdaxili mədəniyyətlə üst-üstə düşür [4].

- Vizyon təşkilatın fəaliyyətində perspektiv hissi yaradır, şirkətin müvafiq məqsədlərinin davamlılığını təmin edir. İstənilən məqsəd firmanın hərəkətlərinin əhatə dairəsini məhdudlaşdırır , lakin vizyonun məhdud cizgisi yoxdur, odur ki, davamlı tərəqqi üçün impuls xarakteri daşıyır.

**Firmanın strateji planlaşdırılmasının əsas perspektivləri**

Missiya vizyondan daha konkret meyar kimi səciyyələndirilir. Vizyondan fərqli olaraq, missiyanın öz yekun cizgisi var müəyyən olunmuş müddət ərzində işin görülmə meyarı. Missiya, müəyyən fəaliyyət riski ilə birlikdə şirkətdə qüvvələrin tətbiqi ilə birləşəcək şəkildə tərtib edilməlidir. Missiyanın müddəti cari işçi nəslin işlərinin nəticələrini görə bilməsi üçün öncədən proqnozlaşdırıla bilən və kifayət qədər qısa (ən çox 5 il) olmalıdır. Vizyon kimi missiya da şirkətin ümumi istiqamətini müəyyənləşdirir.

Missiya-təşkilatın mövcudluq hədəfidir və planlaşdırılan müddətdə icra olunmalıdır. Missiya uğura nail olmaq üçün şirkətin fəaliyyət oriyentirlərinin həm daxili(məsələn, məhsuldarlığın artması), həm də xarici (rəqabətlə bağlı) istiqamətlərini əks etdirən kompleks məqsəddir. Təşkilatın fəaliyyəti üçün missiyanın xüsusi əhəmiyyəti aşağıdakılardan ibarətdir:

-İlk növbədə, missiya, təşkilatın məqsəd və

vəzifələrini daha da müəyyənləşdirmək üçün bütün planlaşdırma qərarlarının əsası, dayağıdır;

-İkincisi, təşkilatın ziddiyyətsiz, aydın, müqayisə edilə bilən məqsədlərə yönəlməsinə inam yaradır;

-Üçüncüsü, missiya işçilərin səylərini seçilmiş istiqamətə yönəltməyə kömək edir, hərəkətlərini birləşdirir;

-Dördüncüsü, missiya təşkilatın xarici iştirakçıları (səhmdarlar, maliyyə firmaları və s.), uğurunda maraqlı olanlar arasında anlaşma və dəstək formalaşdırır.

Missiyanın məzmunu aşağıdakı əsas müddəaları özündə ehtiva etməlidir:

-Təşkilat tərəfindən təklif olunan məhsulların və və ya xidmətlərin təsviri;

-Bazar xüsusiyyətləri - təşkilat əsas istehlakçılarını, müştərilərini, istifadəçilərini müəyyən edir;

-Yaşam, gəlirliliyin artması terminləri ilə ifadə olunan təşkilatın məqsədləri;

-Texnologiya: avadanlıqların xüsusiyyətləri, texnoloji proseslər, texnologiya sahəsindəki yeniliklər;

- Güc mənbələrini, əsas zəif cəhətləri, rəqabət qabiliyyətini, təkan faktorunu təcəssüm etdirən təşkilatın öz təəssüratını təsvir etdiyi daxili konsepsiya;

Missiya formalaşması yüksək inkişaf etmiş biznes sahələrində geniş yayılmışdır. Rusiya iqtisadiyyatında yeni yaranan özəl firmalar son zamanlarda missiya tərtibatı ilə məşğul olmağa başladılar və müəyyən artım və müvəffəqiyyət əldə etdilər. Bir missiyanın tərifi kiçik şirkətlər və ya yeni iş formaları üçün şübhəsiz ki faydalıdır. Missiyanın təsviri biznes planın tərkibinə daxil edilmişdir [5].

Firmanın fəaliyyətinin əsas istiqamətini təyin edən qısa şüarı, yuxarıda qeyd etdiyimiz bütün müddəaları özündə ehtiva edən ağlabatan və diqqət cəzb edən missiya mətni ilə birləşdirmək daha məqsədəuyğundur. Missiyadan fərqli olaraq, hədəflər və ya məqsədlər təşkilatın fəaliyyətinin fərdi xüsusi istiqamətlərini ifadə edir. Məqsədləri müəyyənləşdirməyin vacibliyi aşağıdakı amillərdən qaynaqlanır:

-bütövlükdə idarəetmə prosesinin əsasını təşkil edir (planlaşdırma, təşkiletmə, motivasiya, nəzarət);

-iş səmərəliliyinin artırılması yollarını müəyyənləşdirir;

- istənilən işgüzar qərarın verilməsinin əsası hesab olunur;

-konkret hədəf göstəricilərin formalaşdırılması üçün bələdçi rolunu oynayır.

**Nəticə**

Firmanın fəaliyyətinin məqsədi kimi mənfəətin əhəmiyyəti şişirdilməməlidir. Firma, səhmdarların maraqları istisna olmaqla, digər maraqlara xidmət etməzsə, belə strategiya yalnız qısa müddətdə və digər daxili iştirakçıların dəyərlərinə laqeyd yanaşma şərtilə yaxşı maliyyə nəticələrini verəcəkdir və firmanın xarici mühiti ciddi maliyyə problemləri ilə üzləşəcəkdir. Alıcıların fikirlərinin nəzərə alınmaması məhsul və xidmətlərin keyfiyyətinin aşağı düşməsinə və satışın azalmasına səbəb ola bilər; müəssisə ətraf mühit problemlərinə biganə qalarsa və mənfəət əldə etmək məqsədi ilə təbiətdə istifadə normalarını pozarsa, onun fəaliyyət göstərmə ehtimalı şübhə doğura bilər. Artıq qeyd edildiyi kimi, eyni dərəcədə əhəmiyyətli uzunmüddətli amil firma işçilərinin maraqlarıdır [6].

Hədəflər müəyyən edildikdən sonra keyfiyyət baxımından uyğunluğu yoxlanılmalıdır. Burada əsas meyarlar aşağıdakılar götürülməlidir:

• Məqsədlərin mümkün olan maksimum spesifikliyi. Məqsəd nə qədər konkret olaraq formalaşdırılarsa, ona nail olmaq da bir o qədər asan olar.

• Məqsədlər, işçilərin səylərinin məqbul səviyyədə olması üçün hazırlanmalıdır. Məqsədlərə nail olmaq çox da asan olmamalıdır, bu, şirkətin öz potensialından yetərincə istifadə etməməsi deməkdir. Şübhəsiz ki, güc də ifrat dəcədə tətbiq olunmamalıdır, əks halda işə maraq itiriləcək və motivasiya zəifləyəcək.

• Hədəflərin çevikliyi və gözlənilməz dəyişikliklərlə əlaqədar olaraq onları tənzimləmək üçün mühitin mövcudluğu.

• Hədəflərin müqayisəsi. Müqayisə aşağıdakı meylləri əhatə etməlidir:

- müxtəlif əsas mühit hədəfləri. Yəni mənfəət göstəriciləri şirkətin bazar mövqeyinin göstəricilərinə uyğun olmalıdır (satışların müəyyən artımı) və ardınca öz növbəsində resurs məqsədləri ilə əlaqələndirilməlidir və s.;

- hər biri daha yüksək səviyyəli məqsədə uyğunlaşdırılmalı şirkətdaxili iyerarxiyanın hədəf məqsədləri. Menecerin işinin vacib hissəsi,

hədəfləri alt hədəflərə düzgün şəkildə bölməkdir. Bunu elə etmək lazımdır ki, hər bir fərdi hədəfə çatmaq (məsələn, əməyin ödənilməsi üçün yeni sistemin inkişafı) təşkilatın ümumi məqsədinə nail olmağa (gəlirliliyinin artmasına) dəlalət etsin.

Ümumiyyətlə, aparlmış təhlil onu göstərir ki, Azərbaycan Respublikasında firmaların yaxın perspektiv dövr ərzində inkişafı prosesində təhlil prosesində qeyd olunan məsələlər nəzərə alınmalıdır. Bu məqsədlə inkişaf etmiş ölkələrin beynəlxalq təcrübəsinin öyrənilərək ölkəmizdə tətbiqi zəruridir.

**Açar sözlər:** *sahibkarlıq, iqtisadi tənzimləmə, islahatlar, iqtisadi inkişaf, milli iqtisadiyyat, investisiya, region*

## ƏDƏBİYYAT SİYAHISI

1. *Abasov İ.D. Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı , Bakı.:Şərq-Qərb, 2013, 712 s.*
2. *Şəkərəliyev A.S. Bazar iqtisadiyyatının əsasları, Bakı: Elm, 2002, 265 s.*
3. *Abdullayev K.N. Regional təhlükəsizliyin təmin olunmasında "Şərq-Qərb" beynəlxalq nəqliyyat dəhlizinin rolu // Şəxsiyyət, Cəmiyyət, Dövlət: Qarşılıqlı münasibətlərə müasir yanaşmalar (Respublika elmi konfransının materialları), Azərbaycan Respublikası Təhsil Nazirliyi, Mingəçevir Dövlət Universiteti , Mingəçevir.: MİQ poliqrafiya nəşr. 2019, s.304-305*
4. *Волгина Н.А. Международная экономика, Москва.: Эксмо, 2010, 480 с.*
5. *Алетдинова А.А. Инновационное развитие аграрного сектора на основе цифровизации и создания технологических платформ // Инновация: электронный научный журнал. 2017. №4 (33). – с. 22.*
6. *Афонина В.Е. Влияние цифровизации на развитие аграрного сектора экономики //МСХ. 2018. №3. – с. 15-17.*

**Фамил Вели оглы Рустамов**
**Д.ф.э., Институт Экономики НАНА**

## ОСНОВНЫЕ ОСОБЕННОСТИ РАЗРАБОТКИ СТРАТЕГИИ ФИРМЫ В СОВРЕМЕННОЙ РЫНОЧНОЙ ЭКОНОМИКЕ

**Резюме**

В статье рассмотрены основные особенности разработки стратегии фирмы в современных экономических условиях. Опыт развитых стран показывает, что разработка корпоративной стратегии фирмы является одним из важнейших приоритетов. В статье также исследуется влияние развития фирм на экономическое развитие страны. Анализ показывает, что необходимо увеличивать государственную поддержку разработки стратегии для фирм в нашей стране. При этом в статье выявляются существующие проблемы в разработке стратегии фирмы, выдвигаются предложения и рекомендации по их решению.

**Ключевые слова:** *предпринимательство, экономическое регулирование, экономические реформы, экономическое развитие, национальная экономика, инвестиции, регион.*

**Famil Famil oglu Rustamov**
**Ph.D in economnics, Institute of Economy of ANAS**

## MAIN FEATURES OF DEVELOPING A FIRM STRATEGY IN A MODERN MARKET ECONOMY

**Resume**

The article discusses the main features of developing a firm's strategy in modern economic conditions. The experience of developed countries shows that the development of the corporate strategy of the firm is one of the most important priorities. The article also examines the impact of the development of firms on the economic development of the country. The analysis shows that it is necessary to increase government support for developing strategies for firms in our country. At the same time, the article identifies the existing problems in the development of the firm's strategy, puts forward proposals and recommendations for their solution.

**Key words:** *entrepreneurship, economic regulation, economic reforms, economic development, national economy, investment, region.*

**UOT 331.97**

# AZƏRBAYCANIN BİZNES MÜHİTİNDƏ İNSAN RESURSLARININ İNNOVATİV İDARƏETMƏ İSTİQAMƏTLƏRİ

**AYGÜN ABDULOVA**
*Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı,*
*BMDM-in "İqtisadiyyat və idarə etmə" kafedrasının müəllimi*
*E-mail: aygun_abdulova@unec.edu.az*

## Giriş

Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafı və milli iqtisadiyyatın perspektivləri üzrə "Strateji Yol Xəritələrində" əmək məhsuldarlığının yüksəldilməsini təmin etmək üçün insan kapitalının inkişafının stimullaşdırılması, fəaliyyətin nəticələrinə əsaslanan həvəsləndirmə mexanizmlərinin tətbiqi məsələləri, kiçik və orta sahibkarlıq subyektləri üçün model müəssisələrin yaradılması və sahibkar düşüncə tərzinin təşviqi istiqamətində peşə təhsili və təlimi müəssisələrinin fəaliyyətinin təşkili kimi əsas proritetlər nəzərdə tutulur.

Qeyd etmək lazımdır ki, son illərdə ayrı-ayrı müəssisələrdə baş verən dəyişikliklərin öyrənilməsi, mövcud nöqsanların aşkar edilməsi, innovativ insan resursları modelinin hazırlanaraq tətbiq edilməsi insan resurslarının səmərəliliyi baxımından mühüm əhəmiyyət kəsb edir və olduqca aktualdır. İnsan resurslarının idarə edilməsi sahəsində elmi tədqiqatlar və ortaya çıxan əsərlər bu sahənin həmişə aktual olacağı ilə bağlı düşüncə formalaşdırır. İstehsal prosesinin icrasında yeganə insanlar canlı varlıqlardır və onların düşüncə duyğuları nəzərə alınmalıdır. Dünya təcrübəsi göstərir ki, iqtisadiyyat elminin inkişafı bu sahənin paralel inkişafına təsir göstərir.

Bu sahə ilə bir çox alimlər məşğul olmuşlar. Belə ki, Adam Smith 1776-cı ildə "Millətlərin Sərvəti" adlı əsərini nəşr olunandan sonra insan resurslarının idarə olunması nəzəriyyəsində kəskin tarixi inkişaf və yenilikləri özündə ihtiva edən məsələlərə toxunulmuşdur. A.Smitə görə bu sahəni beş mərhələdə təhlil etmək lazımdır. Adam Smithin əmək nəzəriyyəsi daha sonra Peter Druckerin insan resursları nəzəriyyəsində Theodore William Schulzin insan kapitalı konsepsiyasında, Dave Ulrichin insan resurslarının idarəçiliyində daha bariz formada öz əksini tapmışdır. İnsan resurslarının idarə edilməsində məhsul xəttinin nəzəriyyəsi isə Edward Lawler tərəfindən irəli sürülmüşdür. Buna əlavə olaraq, Adam Smith 1776-cı ildə "Millətlərin Sərvəti" adlı əsərini nəşr olunandan sonra insan resurslarının idarə olunması nəzəriyyəsində kəskin tarixi inkişaf və yenilikləri özündə ihtiva edən məsələlərə toxunulmuşdur. A.Smitə görə bu sahəni beş mərhələdə təhlil etmək lazımdır. Adam Smithin əmək nəzəriyyəsi daha sonra Peter Druckerin insan resursları nəzəriyyəsində Theodore William Schulzin insan kapitalı konsepsiyasında, Dave Ulrichin insan resurslarının idarəçiliyində daha bariz formada öz əksini tapmışdır. İnsan resurslarının idarə edilməsində məhsul xəttinin nəzəriyyəsi isə Edward Lawler tərəfindən irəli sürülmüşdür. [7,45]

D.Ulrichin sözlərinə görə, "XX əsrdə müəssisələrdə insan resurslarının idarə edilməsi transformasiya prosesinin iki mühüm mərhələsin şəklində təcəssüm edir: birincisi, prosesin idarə olunmasından işçilərin idarə olunmasına və "adam" ilə "proses"in paralel idarə olunmasına keçid; İkincisi, gündəlik davranışın rəhbərlikdən insan resurslarının inkişaf strategiyasına, "insan və proseslərin inkişaf strategiyası" və "paralel idarə olunmaya keçid", "gündəlik rəftarın idarə edilməsi" diqqət mərkəzindədir.

Bu proseslər heyyətin idarə edilməsindən insan resurslarına keçidi təmin eləməyə imkan yaratdı. Heyyətin idarə edilməsindən insan resurslarına keçid aşağıdakı prosesləri özündə birləşdirir:

• Dar ixtisaslaşmadan və məhdudiyyətli məsuliyyətdən geniş peşəkar və öhdəlikli ixtisasa doğru gedilmə;

• Planlaşdırılmış karyera yolundan azad peşəkar inkişaf trayektoriyasına istiqamətlənmə;

• Heyyətin nəzarətindən onun inkişafı üçün imkanların yaradılma;

• Mütəxəssislərin qapalı seçimindən açıq seçiminə addımlama;

Yeni dövr XX əsrin son iyirmi illiyi özü ilə dəyişikliklər gətirmişdir. Texnoloji, itisadi, si-

yasi və sosial inkişaf insanların yaşam tərzini və gözləntilərini önəmli şəkildə dəyişdirmişdir, böyük ümidlərin aydın olduğu 1980-cı illərin arxasınca 1990-cı illər dəyişikliklərə məruz qalmayan, iş həyatında heç bir dəyişiklik eləməyən təşkilatlar üçün çətin keçmişdir. Belə təşkilatların bir çoxu dəyişməyə can atdı, buna görə çox böyük investisiya qoydular. Bəziləri gözlədiklərinə nail oldular, bəziləri öz fəaliyyətlərini yarı yolda qoydular. Bu prosedurlar zamanı bir fakt danılmaz olaraq qalır ki, insan bütün bu hadisələrin mərkəzində dyrdu. O təşkilat ki, insan amilini ikinci dərəcəli gördülər onlar geri qaldılar.

Hal-hazırkı dövrdə insan resursların formalaşmasına təsir edən amillər mövcuddur ki, onları aşağıdakı kimi sıralamaq mümkündür: [1,343]

a) İR xərcləri. Bütün təşkilat, xüsusilə də İR departamenti onun necə idarə edildiyi ilə yaxından maraqlanırlar. Təşkilatın vacib resursu yalnız maliyyə vəsaitləri deyil, vacib resurslar doğru insanların doğru zamanda qarşılaşdırılmasıdır. Çünki, İR-nın səmərəli idarəedilməsi nəticəsində xətalar və davamsızlıq azalmağa başlayır. Bu da dolayı yolla işləyənlərin əhval ruhiyyəsində, məhsul və xidmətlərin keyfiyyətində özünü göstərir. İR xərcləri yalnız brutto qiymətlərdən ibarət deyil. Heyyətə istiqamətlənən sosial xidmətlər və yardımlar vacib bir heyyətə sərf edilən xərc olub qarşımıza çıxa bilər. Digər tərəfdən heyyətin təmin edilməsi, seçilməsi, təhsil verilməsi kimi xərclər bura aiddir.

b) Məhsuldar böhran. Edilən araşdırmalara görə ABŞ-ın istehsal göstəricisi 1960-cı illərdə 3 faiz artaraq, 1973-cü ildə bu rəqəm dərhal 0-a qədər düşmüşdür. Buna qarşılıq olaraq 1973-78-ci illərdə sənaye sektorunda istehsalın artımı Yaponiyada 3.1, Qərbi Almaniyada isə 3.2 faiz olmuşdur. İstehsalın belə göstəricilərinin olması bütün ölkələrin iqtisadiyyatına təhlükədən başqa bir şey deyildir. Məhz bu vəziyyət dövlət və özəl sektorda İR-nın vacibliyini daha da artırıb.

c) Dəyişikliyin tezliyi və qarmaqarışıqlıq. 20-ci əsrin sonunda mədəni, təhsil və sosial sferadakı sürətli dəyişikliklər İR-nın vacibliyini daha da qabartmışdır. Fərqli sahələrdə yaranan bu dəyişikliklərə dayanıqlığını və təmin olunmamaq hisslərini artırmışdır. Misal olaraq statistikaya görə ABŞ-da işlərin 20 faizi yalnız yüksək təhsilli insanlara ehtiyac yaradır. Buna qarşılıq olaraq universitet məzunlarının sayı getdikcə artmaqdadır. Bu insanlar iş axtaran zaman öz keyfiyyətlərinə uyğun gəlməyən iş yerlərində işləmələri qənaətlənmə hissini azaldır və bunun nəticəsində rentabellitasyon işlərinə pul xərclənir. Azərbaycanda eyni problemlərin daha kəskin şəkildə yaşaması İR mövzusunda çoxlu problemləri yaradır.

d) Qloballaşma. Dünya sürətli dəyişməkdədir və digər ölkələr Amerika bazarına daxil olmaq üçün çoxlu əziyyət sərf edirlər. Lakin Amerikalı iş adamları bu dəyişikliklərə uyğunlaşa bilmirlər. Bu sahədə, bu bazarda işləməkdən ötrü İR-nın vacib rolu vardır. Bu şöbə işçiləri beynəlxalq bazarda işləyə bilmələri üçün təhsilləndirməlidir.

e) Balacalaşma və sayının azalması. Son illərdə təşkilatlarda işçi heyyətin azalmağı müşahidə olunur. Sayın az olması ilə güclü olma fəlsəfəsi əhəmiyyət kəsb etməyə başlayıb. Əvvəllər əllə edilən iş 3 insan tərəfindən edilirdisə, indi bu əmək mexanikləşib və işçi sayı azalıb.

İnsan resursları və heyyətin idarəedilməsi anlayışları bir-birləri ilə zidd anlayışlar deyil. Onlar arasında oxşar cəhətlər də vardır. Bunları aşağıdakı şəkildə göstərə bilərik:

1. Heyyətin strategiyası İRİ-nin strategiyası kimi təşkilatın strategiyasına əsaslanır
2. Heyyətin idarə edilməsi və İRİ də işlərin idarə edilməsindən ötrü üst rəhbərlərə həvalə edilir
3. Hər iki anlayış gəlirin maksimumlaşdırılmasına istiqamətlənib
4. Heyyətin idarə edilməsinin elədiyi texniki fəaliyyətləri İRİ da yerinə yetirilir
5. Hər iki anlayış təşkilatla bütövləşmə kimi fəlsəfəyə əsaslanır.

Araşdırılan sahə bank sektoru olduğundan bu sahədə olan innovativ istiqamətlər göstərilməyə çalışılsa demək olar ki, idarəetmədə qısamüddətli, uzunmüddətli və mənəvi motivasiya mexanizmlərini müəyyən etmək çox vacibdir. Bonus-həvəsləndirmə layihələri qısa müddətli maddi motivasiya təşkil edir. Onların mahiyyəti performans bonus sxemlərinin və risk ödəmələrinin inteqrasiyasından ibarətdir. Yenilikçi tipli müəssisələrdə fəal şəkildə istifadə olunur, çünki burada onlar kadrların peşəkar artımına ciddi yanaşırlar və başqa müəssisəyə qayğı göstərərkən potensial rəqib kimi öz çətinliklərinə diqqət yetirməyə hazırdırlar. Onların köməyi ilə yüksək səviyyəli peşə bilikləri olan şəxslərin təşəbbüsü ilə müəyyən bir mürəkkəblik səviyyəsi ilə bağlı işi yerinə yetirməyə və müəyyən bir risk səviyyəsi ilə xarakterizə etməyə

və eyni zamanda yüksək dərəcədə gəlir əldə etməyi nəzərdə tutur.[3,120]

İşçilərin mükafatlandırılması məqsədilə yüksək texnologiyalı müəssisələr işçilər üçün "menyu" imtiyazları yaradıblar:

- pul ödənişləri,
- ev təsərrüfatlarının dəstəklənməsi formaları,
- ödənişli tətil,
- seçmə haqqını işçilərin özlərinə buraxaraq, tibbi xidmət və digər kompleks mexanizmlər.

Hal-hazırda motivasiya olaraq banklar hansını daha çox prioritet tutduqlarını araşdırsaq görərik ki, mənəvi və maddi motivasiya arasında bir çox tərəddüdlər var.

Araşdırmanın nəticəsində hipotezləri test eləməkdən ötrü və məqsədləri reallaşdımaqdan ötrü kəmiyyət metodlarından istifadə edilir. Bu sahədə dissertasiyalara və beynəlxalq təcrübələrə müdaxilə edilir. Araşdırma anketimdə iki istiqamət üzrə anket tərtib eləmişəm. Birinci istiqamətdə (5 sual) hazırlamışam, ikinci istiqamətdə (9 sual) tərtib eləmişəm. Araşdıramnın hipotezlərini test eləməkdən ötrü IBM SPSS (Statistical Package for the Social Sciences) 23 programı ilə aparmışam, frekans, faktör analizi, Normality ve Kruskal- Wallis testi, Mann-Whitney U testi, KMO testi, Pearson Korelasyon, Regresyon testleri istifadə edilmişdir. Əldə edilən nəticələr cədvəlləşdirilir və “Tapıntılar və şərhlər” bölməsində göstərilib.

Tədqiqatda müəyyən bir əsas kütlə (seqment) müəyyən edilməmişdir. Bunun

səbəbi, Azərbaycanda kənd təsərrüfatı, xidmət və sənaye sektorlarında hansı kadr şöbələrinin olduğu və hansı şirkətlərin işə qəbul prosesində insan resursları işçilərinin olduğu bilinmir. Bundan əlavə, insan resurslarının idarə edilməsi sahəsində işçilərin İR-nin müxtəlif funksiyalarında işlədiklərini və bəzilərinin işə qəbul prosesində iştirak etməmələrini nəzərə alaraq, seçmə metodu asanlıqla seçilmiş və tədqiqat nümunəsi iş müsahibələrində iştirak edən insan kadrları vəzifəli şəxs kimi müəyyən edilmişdir. c" Azərbaycanda insan resursları sosial media, sosial qruplar və tək-tək (HR işçiləri ilə konfrans və seminarlarda) anket, elektron və əl ilə paylama anketləri paylandı və cavablandırılması istəndi. Onlayn sorğu 350 rəy tətbiqi ilə təmin edilir. Sorğu nəticəsində 300 sorğu anketi əldə olunsa da, etibarlı sorğuların sayı 250 oldu.

Fəaliyyət göstərdiyim müəssisədə işimdən məmnunam.
251 responses




Aparılan sorğudan görsənir ki, 46.6% respondent işindən məmnundur. Qismən razı olanların faiz göstəricisi 25.9 % təşkil edir.

Müəssisədə aşağı səviyyəli motivasiya işdən çıxma səbəblərindən biri kimi qəbul edilir.
251 responses




İşdən çıxma səbəbi kimi motivasiyanın aşağı olması kimi qeyd edənlər razı olanları faiz dərəcəsi 34.7%-dir. Qismən razı olanlar isə 37.1% təşkil edir.

Hansı mühitdə işləmək Sizin üçün daha uyğun olardı?
251 responses




Digər bir sualın nəticəsi kimi hansı mühit onlara daha müsbət hesab edilməsi sualına isə ən çox fazi dərəcəsi aşağı əmək haqqı və müsbət auralı kollektiv oldu.

## Nəticə

Gəlinən nəticə ondan ibarətdir ki, iş mühitində maddi motivasiya önəmli olmayıb mənənvi motivasiyaya daha çox diqqət verməк lazımdı. Mənəvi motivasiya ilə iş performansını artırmaq mümkündür. Korporativ mühit və mədəniyyəti artırmaq məqsədə uyğundur. Araşdırma nəticəsində məlum olmuşdur ki, innovativ idarəetmə tətbiq edən banklarda iş mühiti işçilərin motivasiyasına təsir edir, çünki iş mühiti işçilərin motivasiyasına təsir

etməsi bank sistemində motivasiya prosesinin tətbiqinin ölçülməsi və qiymətləndirilməsi prosesinə təsiri 95% əminlik intervalında statistik baxımdan əhəmiyyətli bir fərqlilik göstərmişdir ($p<0,05$). Bununla H4 hipotezinin doğruluğu öz təsdiqini tapmışdır. Bu nəticələrə əsaslanaraq deyə bilərik ki, bank sistemində motivasiya prosesinin tətbiqinin ölçülməsi və qiymətləndirilməsi prosesini həyata keçirmək istəyirsə, mütləq şəkildə işçilərin iş mühitini daha da rahatlaşdırmalı və bu siyasətin uğurla tətbiq olunmasina xüsusi diqqət yetirməlidir.

**Açar sözlər:** *insan resursları, innovativ istiqamətlər, kadr hazırlığı.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Analoui F. "Strategic Human Resource Management"(2007) UK: International Thomson Business Press,343 p.*

*2. Appelbaum S. H. & Wohl, L.( 2000 ) Transformation or change: some prescriptions for health care organizations. Managing Service Quality, 10(5), 279-298.*

*3. Armstrong M. (2012) "Armstrong's handbook of strategic human resource management". Kogan Page - London*

*4. Aston C. (2002)"HR transformation at AT&T Consumer Services". Human Resource Management International Digest, 10(5), 6-11.*

*5. Beer M. (1997) "The transformation of the human resource function: Resolving the tension between a traditional administrative and a new strategic role. Human Resource Management", 1997. 36(1), 49-56.*

*6. Bowman, K., Geller, J., Lissak, R., Mazor, A.H., Walsh B.(2002) Business Driven HR Transformation: The Future Starts Now. In Global Business Driven HR Transformation - The Journey Continues. Deloitte*

*7. Cappelli P. and Keller, J. R.(2013) 'Classifying work in the new economy', Academy of Management Review, vol. 38, no. 4, pp. 575–96.*

*8. Dessler G. "Human resource management. 13th ed." London: Pearson, 2013. pp.30-31.*

*9. Dessler, Gary (2014) "Human Resource Management. 14th ed." Upper Saddle River, NJ: Prentice Hall*

*10. Dwivedi, S. Sagar, Sen P.(2016) "Human Resource Transformation: What's Next? Realizing the impact of HR as a business enabler". Deloitte*

*11. Lawler III. Edward. E, Boudreau. John W. What Makes HR A Strategic Partner? // People & Strategy, 2009, 32(1).*

*12. Lewin B.(2014) "Transforming People Management – Lessons Learnt and predictions for future success"*

*13. Machael Lowsy, Future of HR. Pekin - 2006.*

## РЕЗЮМЕ

В статье, которую я исследовал, я попытался проанализировать текущее состояние человеческих ресурсов в банковском секторе Азербайджана, показать инновационные направления, которые существуют помимо применяемого в них электронного банкинга. Я изучал переход от управления персоналом к человеческим ресурсам в современных банках. Таким образом, кадровая экономика является основой управления человеческими ресурсами, а также источником демографического потенциала в целом. Следовательно, с точки зрения управления человеческими ресурсами, обучение персонала должно основываться на организационном управлении, социально-психологических проблемах и других вопросах, связанных с организационным поведением. По этой причине характеристики человека и его характер должны приниматься во внимание в таких вопросах, как профессиональная специализация в данной области.

**Ключевые слова:** *человеческие ресурсы, инновационные направления, подготовка кадров.*

## SUMMARY

In the article I researched, I tried to analyze the current state of human resources in the banking sector of Azerbaijan, to show the innovative directions that exist in addition to e-banking applied in them. I have studied the transition from personnel management to human resources in modern banks. Thus, the staff economy, in addition to forming the basis of human resource management, also forms a source of demographic potential as a whole. Therefore, in terms of human resource management, staff training should be based on organizational management, socio-psychological problems, and other issues related to organizational behavior. For this reason, the characteristics of a person and his character must be taken into account in matters such as professional specialization in the field.

**Keywords:** *human resources, innovative directions, staff training.*

UOT 338

# ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ ÜZRƏ VƏZİYYƏTİN TƏHLİLİ VƏ AZƏRBAYCANDA APARILAN İSLAHATLAR

**VƏFA QULİYEVA**
*Naxçıvan Dövlət Universitetinin dissertantı*

*E-mail: vefaquliyeva96@gmail.com*

## GİRİŞ

Son illərdə dünya miqyasında bir sıra iqtisadi və siyasi proseslər mürəkkəbləşməkdə davam edir. Maliyyə, valyuta, enerji resurslarının sabitliyinin pozulması inkişaf etmiş ölkələrdə inkişafın azalmasına səbəb olaraq, ümumiyyətlə beynəlxalq səviyyədə iqtisadi artımı yavaşladır.

Əhalini kifayət qədər ərzaqla təmin etmək, davamlı sosial-iqtisadi sabitliyin əsas şərtlərindən birinə çevrilmişdir. Həm qlobal, həm regional, həm də milli səviyyədə ərzaq təhlükəsizliyinin təmin edilməsi və cəmiyyətin bütün üzvlərinin qida ehtiyaclarının tam ödənilməsi üçün görülən tədbirlərin daimi olaraq gücləndirilməsi problemin aktuallığını və onun effektiv həllinə ehtiyac olduğunu göstərir.

Ərzaq təhlükəsizliyi dövlətin milli təhlükəsizliyinin ən vacib bir elementidir. O, istənilən vaxt bütün ölkə əhalisinin aktiv və sağlam bir həyat sürməsi üçün kifayət qədər həm kəmiyyət, həm də keyfiyyət baxımından təhlükəsiz qida ilə istər fiziki, istərsə də iqtisadi cəhətdən tam təmin olunduğu bir rifah vəziyyətini əks etdirir.

## ƏSAS HİSSƏ

21-ci əsrdə qida və ekoloji problemlər, şübhəsiz ki, bütün bəşəriyyət üçün ən vacib, kəskin və aktual olaraq qalmaqda davam edir. Kənd təsərrüfatı, çay və dəniz balıqçılığı, qida və emal sənayesi və.s bu kimi sahələrin inkişafında böyük irəliləyişə baxmayaraq qida istehlakının səviyyəsi, insanlıq tərəfindən qidanın əlçatanlığı problemi hələ də tam həll edilə bilməmişdir.

BMT-nin məlumatına görə, yer üzündə 1 milyarddan çox insan daimi aclıq və qidalanmada əskikliklərdən əziyyət çəkir. Nə qədər dəhşətli səslənsə də hər il 13-18 milyon insan qida çatışmamazlığı, hər 24 saatda isə orta hesabla 35 insan birbaşa və ya dolayı aclıq səbəbindən həyatını itirir [4].

Uzun illərdir mövcud olan ərzaq çatışmamazlığı problemi bir sıra səbəblərə görə həll olunmamışdır:

- Birincisi, dünyada qida məhsullarının artım sürətindən qat-qat çox olan yüksək əhali artım templəri mövcuddur. Yeni bir dövrün, məskunlaşmanın başlanğıcında təxminən 200-250 milyon insan yaşayırdı və ilk milyarda 2000 ildən sonra, ikinci milyard - 100 ildə, beşinci isə cəmi 20 ildə çatıldı. Hazırda əhalinin illik artımı BMT -nin məlumatına görə 90 milyondur, 30 ildən sonra dünya əhalisinin 8.5 milyarda, 100 ildən sonra isə 14,4 milyard insana çatacağı hesablanır. Bu artım tempi bir tərəfdən ərzaq təhlükəsizliyi təminatını daha da ağırlaşdırır.
- İkincisi, suvarılan əkinçilik üçün əkin sahələrinin və şirin suyun azalması. Kənd təsərrüfatı fəaliyyəti dövründə, təxminən 10 min il ərzində, dünya 2 milyard hektar münbit torpaq itirilmişdir. Son 300 ildə 700 milyon hektar kənd təsərrüfatı istifadəsindən çıxarılmışdır, illik orta hesabla 2,5 milyon hektar torpaq yararsız hala düşməkdə davam edir. Bu problem Azərbaycan üçün də çox aktualdır. Beləki içməli su mənbələrinin azlığı, mühbit torpaq ehtiyatlarının azalması mövcüd vəziyyəti daha kəskinləşdirir.
- Nəhayət, səbəblərdən biri də əhali artımının ən yüksək olduğu Afrika və Asiyanın bir çox ölkələrində kənd təsərrüfatı qida kompleksinin inkişaf səviyyəsi aşağı olmasıdır. Yəni, ərzaq ehtiyatları ilə əhali kütləsi artımı arasında regionlar üzrə qeyri mütanasiblik mövcuddur[4].

Azərbaycanın iqtisadi təhlükəsizliyi strategiyasında ərzaq təhlükəsizliyinin təmin edilməsi əsas məsələlərdən biridir. Son illərdə Azərbaycan hökuməti tərəfindən bu istiqamətdə çox böyük işlər görülmüşdür. Ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün müxtəlif proqramlar, habelə bu sahənin inkişafına və təkmilləşdirilməsinə yönəlmiş bir sıra qanunlar qəbul edilmişdir.

Bu istiqamətdə əsas tədbirlərdən biri də xarici təcrübənin öyrənilməsidir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində xarici təcrübənin tətbiqi

bu sahədə əsas problemlərin hərtərəfli təhlili üçün ön şərt yaradır. Bundan əlavə, bu tədbirlər qida sektorunun modernləşdirilməsini də təmin edir. Hazırda ərzaq ixracatının böyük hissəsini inkişaf etmiş ölkələr, məsələn ABŞ, Avropa Birliyi və Rusiya təşkil edir. Bundan əlavə, sadalanan ölkələr də ərzaq məhsulları idxalçılarıdır. Bu baxımdan xarici təcrübənin öyrənilməsi Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində səmərəli müsbət nəticələrin əldə olunmasına kömək olacaqdır [3.s 397].

Əhalinin əsas ərzaq məhsulları ilə təmin olunmasının və inkişafının əsasları məşğul əhalinin çoxunun çalışdığı kənd təsərrüfatı sektoru ötən əsrin 90-cı illərinin ortalarında qurulmuşdur. Bu sahədə Azərbaycanda müxtəlif torpaq islahatları həyata keçirilmiş, kənd təsərrüfatı istehsalçılarına kömək və dəstək mexanizmləri formalaşdırılmışdır.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə torpaq islahatlarının aparılması, kənd təsərrüfatı istehsalçılarına kömək mexanizminin yaradılması, ölkənin ərzaq təhlükəsizliyi proqramının təsdiqlənməsi ərzaq istehsalının artırılması yolunda ilk ciddi addımlardandır.

Ölkə prezidentinin qərarı ilə 2001-ci ildə "Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi Proqramı" təsdiq edildi. Bu proqram çərçivəsində aparılan işlər nəticəsində ərzaq və kənd təsərrüfatı məhsullarının istehsalı istiqamətləri müəyyənləşdirilmiş, istehsalın ümumi həcmi isə xeyli artırılmışdır [1].

Azərbaycanın sürətli iqtisadi inkişafı nəticəsində ərzaq təhlükəsizliyinin təmin olunması üçün aqrar sektorun inkişafı ilə bağlı tədbirlər də genişləndirilməkdə idi. Kənd təsərrüfatı sektorunun inkişafı Azərbaycan Prezidentinin iqtisadiyyatın şaxələndirilməsi strategiyasının əsas istiqamətlərindən biridir.

Ərzaq təhlükəsizliyinin təmin olunması üzrə dövlət siyasətinin əsas istiqaməti daxili ərzaq idxal bazarının maksimum azaldılmasına və ərzaq ehtiyatlarının yaradılması üçün kompleks tədbirlərin həyata keçirilməsinə yönəlib. 2008 -ci ilin may ayında ölkə Prezidenti tərəfindən əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair daha bir Dövlət Proqramı qəbul edildi. Bu proqram 2008-2015-ci illəri əhatə edir. Bu Dövlət Proqramı Azərbaycanda aqrar sektorun inkişafı və ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından ən vacib sənəd hesab olunur. Proqramın qəbulundan sonra 2009-cu ildə aqrar sektor üçün büdcə xərcləri əhəmiyyətli dərəcədə artaraq və proqramda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etmək üçün 388,2 milyon manata çatdırılmışdır. Bu yüksəliş tendensiyası sonrakı iləərdə də davam etdi [6].

Ölkənin iqtisadi və sosial sabitliyi üçün etibarlı ərzaq təminatı vacib məsələlərdən biridir. Bu baxımdan, Azərbaycan hökuməti əhalisinin etibarlı ərzaq təminatı ilə əhatələnməsi üçün müxtəlif tədbirlər həyata keçirir. Ərzaq təhlükəsizliyinin birbaşa asılı olduğu kənd təsərrüfatı sektorunun inkişafına yönəlmiş dövlət proqramları həyata keçirilir.

Müxtəlif vaxtlarda qəbul olunan ərzaq təhlükəsizliyinin təmin olunması ilə bağlı dövlət proqramları və layihələrinin əsas məqsəd və vəzifələri olaraq aşağıdakılar müəyyən edilmişdir:

- Ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün müxtəlif parametrlər üzrə ölkənin asılılığını azaldılması;
- Kənd əhalisi üçün əlverişli və cəlbedici yaşayış şəraitinin yaradılması;
- Kənd yerlərinin davamlı inkişafı etdirilməsi;
- Modernləşmə və yenilikçiliyə keçid aqrosənaye kompleksinin inkişaf modellərinin qurulması;
- Torpaqların və digər təbii vasitələrin çoxaldılması;
- Onların səmərəliliyinin artırılması mənbələrinin müəyyənləşdirilməsi;
- Kiçik və orta sahibkarlığın, qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi;
- Kənd təsərrüfatı istehsalçılarının ərzaq bazarına çıxışının təmin edilməsi.

Azərbaycan ərzaq təhlükəsizliyini təmin etmək üçün daxili potensialını daim inkişaf etdirir. Neft və neft məhsullarının qiymətlərində kəskin azalma şəraitində Azərbaycan həm qida sektorunun daxili inkişafına, həm də bu sahədə ixrac potensialının artırılmasına xüsusi diqqət yetirir. Qida sektorunda idxal olunan məhsulların əhəmiyyətli bir rol oynamasına baxmayaraq, eyni zamanda, ölkə daxilində inkişaf etdirilə biləcək məhsulların idxalını azaltmaq üçün əsas addımlar atılır. Bu sahənin inkişafı ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə yanaşı milli iqtisadi təhlükəsizliyin davamlı inkişafına müsbət təsir göstərən yeni iş yerlərinin açılmasını da təmin edir [3.s 398].

**Cədvəl 1.**

**Sənaye emalından keçmiş əsas növ ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi, faiz**

| | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| Təmizlənmiş düyü | 10,1 | 23,8 | 19,4 | 18,5 | 14,2 |
| Un (bütün növləri) | 96,1 | 96,0 | 95,9 | 95,6 | 95,4 |
| Yarmalar (bütün növləri) | 17,6 | 29,0 | 26,2 | 24,7 | 34,4 |
| Tərkibində sirop, yumurta, pendir və ya meyvə cemi olmayan təzə çörək | 99,99 | 99,99 | 99,99 | 99,99 | 99,98 |
| Tortlar və sirniyyat məmulatları, şirinləşdirici maddələr qatılmış sair çörək-bulka məmulatları | 81,6 | 86,1 | 78,0 | 75,9 | 76,8 |
| Bitki yağları | 36,9 | 37,1 | 34,3 | 33,6 | 34,8 |
| Marqarin | 105,7 | 101,5 | 98,8 | 98,2 | 98,6 |
| Meyvə və tərəvəz şirələri | 110,0 | 149,4 | 117,9 | 126,7 | 130,5 |
| Meyvə və tərəvəz konservləri | 92,9 | 92,5 | 90,4 | 90,4 | 90,9 |
| Kərə yağı | 75,6 | 71,0 | 71,3 | 69,5 | 62,7 |
| Bütün növ pendirlər | 88,3 | 89,8 | 87,9 | 87,7 | 88,1 |
| Qatıq, qaymaq, yoqurt və s. məhsullar | 95,2 | 96,5 | 94,7 | 94,7 | 94,5 |
| Şəkər | 114,4 | 60,6 | 81,7 | 75,0 | 69,4 |
| Çay | 44,9 | 47,7 | 44,6 | 43,7 | 45,5 |
| İnsan qidası üçün yararlı duz | 100,3 | 105,8 | 103,1 | 111,4 | 111,4 |
| Şirinləşdirilməmiş mineral və qazlı sular | 96,6 | 96,3 | 96,6 | 98,0 | 95,9 |
| Şirinləşdirilmiş mineral və qazlı sular | 81,5 | 77,2 | 77,8 | 91,5 | 90,6 |

*Mənbə: Azərbaycan Respublikasının Dövlət StatistikaKomitəsi. https://www.stat.gov.az/*

Ümumiyyətlə götürdükdə, ərzaq təhlükəsizliyinin tamamilə təmin olunmasına yönəlmiş siyasət əsas aşağıdakı istiqamətlər üzrə məqsədlərdə olmalıdır:

➢ Daxili bazarın idxal məhsulları ilə doyma həddinin aşmasını qarşısını almaq;

➢ Əhalinin səmərəli ərzaq məhsullarına tələbatının yuxarı səviyyədə olmasını təmin etmək;

➢ Aqrar ərzaq bazarında qiymət uyğunsuzluğuna yol verməmək;

➢ Bazar infrastrukturunu daim yüksək səviyyədə saxlamaq;

➢ İxtisaslı kadr çatışmazlığı problemini yerli peşəkar müəxəssislər hesabına təmin etmək;

➢ Aqrar sənaye bazarının monitorinqi və proqnozlaşdırılması sistemini inkişaf etdirmək.

Ölkəmizdə də ərzaq təhlükəsizliyinin təmin olunması sahibkarların üzərinə müəyyən məsuliyyəti qoymuş olur. Bununla belə, yeni texnologiyaların cəlb edilməsi, müasir kənd təsərrüfatı texnikasının alınması əhəmiyyətli vəsait tələb edir, ona görə də dövlətin dəstəyi olmadan bu sahədə dəyişiklik etmək mümkün olmazdı.

Azərbaycanda aparılan islahatlar yeni texnologiyaların və müasir avadanlıqların istifadəsi aqrar sektorun inkişafı, bilavasitə olaraq ərzaq təhlükəsizliyinin təmin olunması üçün çox vacibdir. Bu baxımdan 2004-cü ildə Azərbaycan Prezidenti tərəfindən "Aqrolizinq" Səhmdar Cəmiyyətinin yaradılması haqqında sərəncamın verilməsinin əhəmiyyəti böyükdür [6].

Aqrolizinq ASC-yə gübrə, pestisid, maşın, fidan, buğda toxumu, damazlıq heyvanların idxalı və istehsalçıların ölkəyə çatdırılması, habelə digər funksiyaların yerinə yetirilməsi tapşırılıb. Aqrolizinq ASC dövlət büdcəsindən satın alınan kənd təsərrüfatı texnikası və avadanlıqlarını fiziki və hüquqi şəxslərə, dəyərinin 20 faizi, qalan məbləği isə 10 ilədək müddətə (məbləğdən asılı olaraq) və lizinq satışına əsasən icarəyə verir. Bu günə qədər Aqrolizinq vasitəsilə 9452 fərqli marka kənd təsərrüfatı texnikası alınmışdır.

Azərbaycanın müstəqillik əldə etdikdən sonra iki böyük müharibə və onun illərlə davam edən və davam etmiş olacaq ağır nəticələri ilə üzləşməsinə baxmayaraq milli təhlükəsizliyin hər bir sahəsi üzrə inamlı addımlar atılmışdı. Ərzaq təhlükəsizliyinin təmin olunmasında əldə olunmuş nailiyyətlər ölkəmizin mövcud perspektivi haqqında əsaslı fikirlər formalaşdırır. Lakin bu qlobal problemin davamlı olmasını nəzərə alaraq atılacaq addımların hər zaman artırılması vacibdir.

Son illərdə ölkədə əsas ərzaq məhsullarının istehsal səviyyəsinin artırılması üçün ardıcıl tədbirlər həyata keçirilmişdir. Önümüzdəki illərdə kənd təsərrüfatının inkişafı üçün mövcud torpaq sahələrindən səmərəli istifadə olunmasında yeni texnologiyaların tətbiqi ilə yanaşı, böyük fermer təsərrüfatlarının və aqroparkların yaradılması ilə bağlı işlər intensivləşəcək [2, s. 25].

Eyni zamanda, əsas prioritetlərdən biri aqrar sahədə informasiya və məsləhət xidmətlərinin təşkili, mövcud elmi-tədqiqat müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi və bazar iqtisadiyyatına cəlb edilməsidir. Eyni zamanda, ixtisaslaşma səviyyəsi artarsa, qida standartları ilkin istehsalçıdan istehlakçıya qədər bütün mərhələlər üzrə yaxşılaşarsa, ixrac coğrafiyasını genişləndirmək üçün tədbirlər görülərsə, aqrar sektorun ixrac potensialı artırıla biləcəkdir. Yeni xarici bazarlara çıxış mümkün olacaqdır.

Yuxarıda göstərilənlərə əlavə olaraq demək olar ki, ölkədə kənd təsərrüfatı torpaqlarından səmərəli istifadə etmək üçün mövcud qanunvericilik sisteminin təkmilləşdirilməsi, kənd təsərrüfatı torpaqlarının modernləşdirilməsi və torpaq bazarının inkişafı mexanizmi, mühasibat və statistika sis-

teminin təkmilləşdirilməsi planlaşdırılır. Kənd təsərrüfatı sektoruna dövlət dəstəyi çərçivəsində vergi güzəştləri, subsidiyalar, güzəştli kreditlər, kənd təsərrüfatı lizinqi və kənd təsərrüfatı xidmətləri mexanizminin təkmilləşdirilməsi planlaşdırılır. Bundan əlavə, "elektron kənd təsərrüfatı" sisteminin yaradılması və tətbiqi aqrar sektorda gələcək dövlət dəstəyinin əsas prioritetinə çevriləcəkdir.

**Açar sözlər:** *qlobal problemin yaranma səbəbləri, ərzaq təhlükəsizliyi, dövlət proqramları və layihələri, Aqrolizing ASC, ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi.*

## ƏDƏBİYYAT SİYAHISI

1. *«Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı»nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 2 mart 2001-ci il.*

2. *Azər Qurbanzadə. Ərzaq kompleksinin modernizasiyası və dayanıqlı inkişaf problemləri. Bakı, "Kooperasiya" nəşriyyatı, 2017,. 192 səh.*

3. *Эюбов А.Дж. Продовольственная безопасность как одно из ключевых направлений учтойчивого экономического развития Азербайджанской Республики.*

4. *https://www.un.org/*

5. *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/*

6. *Heydər Əliyev Fondunun təşkilatçılığı yaradılan "Azərbaycan" portalının rəsmi internet resursu. https://azerbaijan.az/*

## ANALYSIS OF THE SITUATION TO ENSURE FOOD SECURITY AND REFORM IN AZERBAIJAN

### Summary

In recent years, a number of economic and political processes in the world continue to become more complex. The destabilization of financial, monetary and energy resources has led to a slowdown in development in developed countries and, in general, slows down economic growth at the international level.

Providing the population with sufficient food has become one of the main conditions for sustainable socio-economic stability. The urgency of the problem and the need for its effective solution demonstrate the urgency of strengthening measures taken to ensure food security at the global, regional and at the national level to fully meet the food needs of all members of society.

Food security is an essential element of national security. It reflects the state of well-being, in which the population of the country is fully provided, both physically and economically, with safe food, both quantitatively and qualitatively, sufficient to lead an active and healthy lifestyle at any time.

**Ключевые слова:** *причины глобальных проблем, продовольственная безопасность, государственные программы и проекты, ОАО «Агролизинг», уровень продовольственной самообеспеченности.*

## АНАЛИЗ СИТУАЦИИ ПО ОБЕСПЕЧЕНИЮ ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ И РЕФОРМЫ В АЗЕРБАЙДЖАНЕ

### Резюме

В последние годы ряд экономических и политических процессов в мире продолжают усложняться. Дестабилизация финансовых, валютных и энергетических ресурсов привела к замедлению развития в развитых странах и в целом замедляет экономический рост на международном уровне.

Обеспечение населения достаточным питанием стало одним из основных условий устойчивой социально-экономической стабильности. Актуальность проблемы и необходимость ее эффективного решения демонстрируют безотлагательность усиления мер, принимаемых для обеспечения продовольственной безопасности на глобальном, региональном и национальном уровне для полного удовлетворения потребностей в продовольствии всех членов общества.

Продовольственная безопасность - важнейший элемент национальной безопасности. Он отражает состояние благополучия, при котором население страны полностью обеспечено, как физически, так и экономически, безопасными продуктами питания, как количественно, так и качественно, достаточными для того, чтобы вести активный и здоровый образ жизни в любое время.

**Keywords:** *causes of global problems, food security, government programs and projects, Agroleasing OJSC, the level of food self-sufficiency.*

UOT 338.2

# İNNOVASİYA POTENSİALININ FİSKAL ASPEKTDƏN STİMULLAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

**ORXAN ŞÜKÜROV**
*Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı*

*E-mail: orxan@inbox.ru*

Azərbaycanda innovasiyaya meylli şirkətlərə dövlət dəstəyinin olması olduqca vacibdir. Müasir dövrün Azərbaycan iqtisadiyyatı qarşısına qoyduğu çox mühüm hədəflərdən biri real sektorun innovasiya yönümlü inkişafını stimullaşdırmaqdır. Bu siyasətin həyata keçirilməsində dövlətin rolu biznesin maraqları ilə cəmiyyətin ictimai maraqlarının balanslaşdırılmasından ibarətdir. İqtisadiyyatın davamlı inkişafının təmin edilməsində ənənəvi qeyri-neft sektorunun inkişafı ilə yanaşı, innovasiya xarakterli, elmtutumlu sahələrin inkişafı xüsusi əhəmiyyət kəsb edir. Prezident İlham Əliyev cənablarının sərəncamı ilə hazırlanan "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında deyilir: "Uzunmüddətli davamlı iqtisadi inkişafı təmin etmək, "bilik iqtisadiyyatı"nı formalaşdırmaq, elmtutumlu texnologiya, məhsul (işlər, xidmətlər) yaradılmasını sürətləndirmək məqsədi ilə innovasiya fəaliyyətinin genişləndirilməsi əsas istiqamətlərdən birini təşkil edəcəkdir". İndiyədək həyata keçirilən innovativ tədbirlər və müəyyənləşdirilən bu istiqamət onu deməyə əsas verir ki, Azərbaycan hökuməti innovasiya fəaliyyətinin inkişaf etdirilməsində maraqlıdır.

Xarici iqtisadçılar isə innovasiya sahibkarlığı ilə iri müəssisələrin məşğul olmasını məqsədəuyğun sayırlar. Buna səbəb bilavasitə, yuxarıda qeyd etdiyimiz kimi innovasiyanın mənimsənilməsinin yüksək xərc tələb etməsidir. Bu xərc isə əsasən qiymətli ixtiralar və yeni sınaq nümunələrinin hazırlanması işinin çoxsaylı əmək kollektivinin səyini və çox güclü maddi texniki baza tələb etməsindən irəli gəlir. Odur ki, yalniz yüksək maliyyə vəsaitinə malik olan iri firmalar innovasiya layihələrini başa çatdıra bilərlər.İri firmaların digər üstünlüyü orada çoxməqsədi tədqiqatların hazırlanmasıdır. Həm də bu firmalarda sınaq layihə və elmi tədqiqat işlərinin aparılması zamanı müxtəlif yanaşmalardan istifadə edilməsi də onların digər üstünlüyünü müəyyən edir.

Azərbaycanda sahibkarlıq təbəqəsi formalaşmış, iqtisadiyyatın inkişafında özəl bölmənin rolu əhəmiyyətli dərəcədə artmış, iqtisadi fəaliyyət sahələrində sahibkarlıq üçün münbit şərait yaradılmış qanunvericilik qaydaları liberallaşmış, maliyyə-kredit təminatı və onun tətbiqi mexanizmləri yaxşılaşmışdır. Bu maneələrin minimumlaşdırılması onu deməyə imkan verir ki, daha müasir biznes istiqamətləri də biz də inkişaf etsin. Lakin burası da bir reallıqdır ki, ölkə sənayesi texnoloji tərəqqinin dünya səviyyəsindən bəzi sahələrində çox-çox geri qalmaqdadır və bu texnoloji gerilik getdikcə artmaqdadır (neft sahəsini, tikinti və rabitə sahələrini istisna etməklə). Sənayedə əsas istehsal fondlarının mənəvi və fiziki aşınması 65%-dən artıqdır. Bu təhlükəli meyllərin qarşısını yalnız innovasiya tipli inkişaf ilə və innovasiya-investisiya fəaliyyətini genişləndirməklə almaq olar. Bu mənadaiqtisadi artımın dinamikliyini yalnız innovasiya tipli inkişafa keçməklə, istehsalda elmi nailiyyətlərdən istifadə etməklə, yeni texnologiyalarla təmin etmək olar. İnnovasiya tipli inkişafa keçid və mütərəqqi struktur dəyişikliklərin formalaşdırılması məsələləri hazırda müəyyən tədbirlərin görülməsini tələb etsə də, qısa müddətdə onlar həll oluna bilməzlər. Bu məsələlər yalnız yaxın orta müddətli və uzun müddətli perspektivdə prioritet istiqamətlər kimi qarşımıza hədəf olaraq qoyulması daha doğru addımdır. Lakin həmin illərə hazırlıq məhz indidən başlanmalıdır. Bu məqsədlə xüsusilə Regional İnnovasiya Zonaları fəaliyyətini yaratmaq lazımdır. Dünya təctübəsi göstərir ki, bu zonaların formalaşması üçün onun bir mexanizm olaraq elementlərini işlək hala gətirmək lazımdır. Buraya xüsusilə bu bir neçə elementi daxil etmək məqsədəmüvafiqdir. (ı) Əlverişli tənzimləmə mexanizmi, (ıı) cəlbedici stimullar, (ııı) şəffaflıq, (ıv) aşağı məsrəfli telekommunikasiya xidmətləri, (v) ən son texnoloji avadanlıq, (vı) rəqabətədavamlı işçi qüvvəsi, (vıı) dayanıqlı nəqliyyat əlaqələri, (ıx) cəlbedici daxili İnformasiya Kommunikasiya Texnologiyalar (İKT) bazarının inkişafı olduqca

vacibdir.

Bazar infrastrukturunun əsas komponentlərindən olan İKT bazarının inkişafı üçün bir neçə mühüm işlər görülmüşdür. Lakin bu da bizim qarşımıza qoyduğumuz hədəflərə tam uyğun deyil. Çünki, təhlillərimiz göstərir ki, bizdə İKT bazarının həcmi hələ kifayət qədər geniş deyildir. Hesablamalara görə, bu regionda İKT-nin dövriyyəsi 65 milyard dollar təşkil edir. Azərbaycan hətta bir neçə ildən sonra həmin texnologiyaların bazarını bir qədər də genişləndirməklə dövriyyəni 160 milyard dollara çatdırmağı planlaşdırır. Bu isə onu deməyə əsas verir ki, Azərbaycan tezliklə xammal ixrac edən ölkələr sırasını tərk edərək, innovasiya tutumlu məhsullar ixrac edən ölkəyə çevriləcək. Məhz elm-tutumlu sahələrin inkişaf etdirilməsi ölkədə innovativ sahibkarlığın daha böyük vüsətlə genişlənməsinə imkan yaradacaq. Çoxlu sayda araşdırma insitutları və mütəxəssis qruplarının gəldiyi qənaəti bundan ibarətdir ki, ölkədə innovativ sahibkarlığın stimullaşdırılması və inkişafı üçün ilk növbədə innovasiya prosesinin və milli innovasiya sisteminin formalaşdırılması olduqca zəruridir.

İnnovasiya bir elm sahəsi olaraq bir neçə göstəricilər üzrə formalaşır. İnformasiya kommunikasiya texnologiyaları, elm, təhsil, texnologiya, biliyə əsaslanan iqtisadiyyat, yenilikçilik, sənayeləşmə və qloballaşma kimi elementlər innovativ nailiyyətin əldə olunmasında əsasdır. Azərbaycan Respublikasında qeyd olunan elementlərə əsaslanan bir çox fəaliyyətlər təşkil olunmuş, qanunvericilikdə, normativ-hüquqi sənəd və aktlarda öz icrasını tapmışdır. Azərbaycanda innovativ düşüncənin formalaşdırılmasında, innovativ iqtisadiyyatın yaradılmasında və innovasiyanın hər bir sahəyə nüfuz etməsi üçün çeşidli təşəbbüslər göstərilməkdədir.

Ə.Məmmədov və İ. Seyfullayev: "Vergi və investisiya mühiti" əsərində innovasiya fəaliyyətinin tənzimlənməsi üçün hansı tədbirlərin həyata keçirilməsi ilə bağlı olduqca dolğum məzmun daşıyan məqamlara toxunmuşdur: "İnnovasiya fəaliyyətində mühüm rol oynayan ixtiralar, səneyə nümunələri və faydalı modellər kimi sənaye mülkiyyəti obyektlərinin - qeyri-maddi aktivlərin amortizasiya qaydalarında aşağıdakı dəyişikliklərin edilməsi məqsədə uyğun ola bilər: (ı) istismar müddəti məlum olmayan ixtiralar, sənaye nümunələri və faydalı modellər kimi qeyri-maddi aktivlərin amortizasiya normalarının əsaslı şəkildə artırılması; (ıı)qeyri-maddi aktivlərin amortizasiyasının xüsusi uçotunun aparılması və amortizasiya ayırmalarının aidiyyatı üzrə istifadəsindən asılı olaraq gəlirdən çıxılan xərclərə aid edilməsi;

Mənfəət vergisi üzrə vergitutma bazasının müəyyən edilməsi zamanı innovasiya fəaliyyəti ilə bağlı investisiyaların elmi-tədqiqat və layihə-konstuksiya xərcləri, qeyri-maddi aktivlərin yaradılması və istifadəsi xərcləri, yeni investisiyalarla bağlı zərərlərin növbəti illərə keçirilmiş məbləğlərinin və s. uçotunun aparılması və sahələr üzrə ümumiləşdirməsi bu istiqamətdə verilən vergi güzəştlərindən istifadə səviyyəsinin qiymətləndirilməsinə və müvafiq tənzimləmə tədbirlərinin işlənməsi məlumat bazasının hazırlanmasına imkan yarada bilər.

**Fiskal siyasət vasitəsilə innovativ fəaliyyətin stimullaşdırılması**

İnnovasiya sahələrinin inkişafının ən səmərəli yolu elmi və innovasiya tutumlu məhsulların qiymətindəki vergi payına təsir edən çevik mexanizmlərin yaradılmasından ibarətdir. İnnovasiya və elmtutumlu sahələri iqtisadiyyatın digər sahələrindən fərqləndirən ən əsas xüsusiyyət onun ixtisaslı elmi kadrlara və mütəxəssislərə olan tələbinin yüksək olmasıdır. Ona görə də bu müəssisələrdə əməkhaqqı fondu kifayət qədər yüksək olmalıdır. Əməkhaqqı fondunun yüksək olması isə innovasiya xarakterli müəssisələrdə fərqli stimullaşdırma siyasətinin aparılması zərurətini meydana çıxarır. Bu halda aşağıdakı stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi səmərəli hesab edilə bilər:

- innovasiya xarakterli sahələrdə əməkhaqqı fondunun yüksək olması nəzərə alınaraq, sosial vergilərə fərdi yanaşma;
- ölkəyə idxal olunan yüksək texnoloji parametrlərə malik innovasiya xarakterli avadanlıqların əlavə dəyər vergisindən azad edilməsi;
- vergilərin stimullaşdırıcı rolunu gücləndirmək məqsədilə elmi və innovasiya xarakterli təşkilatlara xüsusi vergi rejimlərinin tətbiq edilməsi.

Azərbaycan Respublikası Vergi Məcəlləsinin

164.2 maddəsinə əsasən, müasir texnologiyanı təmin edən avadanlıqların idxalı əlavə dəyər vergisindən azad edilə bilər. Bir çox ölkələrdə innovasiya məhsullarının maya dəyərinin aşağı salınması üçün bu məhsulları istehsal edən şirkətlərin əmlak vergisindən azad edilməsi də tətbiq edilir.

İnnovasiya sahələrinə investisiyaları stimullaşdıran vergitutma üzrə aşağıdakı təklifləri irəli sürmək olar.

- Yeniliklərin inkişafı üçün istehsalçılar üçün xüsusi iqtisadi rejim formalaşdırmaq lazımdır. Bunun üçün:

- Müəyyən dövr ərzində yeni texnolgiyaların və ya yeni malların təqdim edilməsindən əldə edilən mənfəətin vergidən azad edilməsi, vergi tətillərinin verilməsi və vergi dərəcələrinin azaldılması;
- Yenilikçi müəssisələrinin nizamnamə fondunda iştirakdan əldə edilən gəlirlərinin vergilərdən azad edilməsi;
- Yeni texnologiyanın yaradılmasında iştirak edən əsas vəsaitlərin alınması və qurulması, digər aktivlərin alınması ilə bağlı xərclərin ƏDV-dən azad edilməsi;
- Yeniliklər üçün istifadə olunan əsas vəsaitlərin sürətləndirilmiş amortizasiyası;
- Yeniliklər üçün istifadə olunan əmlakın (laboratoriya avadanlıqları, sınaq qurğuları, tədqiqat bölmələrinin yerləşdiyi binalar və s.) azad edilməsi;

Müasir dövrdə inkişaf etmiş əksər ölkələrdə innovasiya prosesinin dövlət müdafiəsi ilk növbədə ya kiçik ölçülü innovasiya müəssisələrinə, yaxud da yeni yaradılan firmalara göstərilir. İkinci halda dövlət yardımı və ya müdafiəsi elə müəssislərin innovativ ideyalarının həyata keçirilməsinə göstərilir ki, beynəlxalq tələblərə və standartlara cavab verir. Məhz bu tip innovativ ideyalar böyük və riskli vəsait tələb edir. Sahibkar isə bir çox hallarda bu riskə getmək istəmir.

Mütərəqqi yeniliklərin əksəriyyəti öz real təcəssümünü elmtutumlu və rəqabətqabiliyyətli məhsulların yaradılmasında tapır.Yeniliklərin yayılma diapazonu praktika əsasında genişlənir. Onların dəyəri insanla və onun tələbatı ilə kontaktda üzə çıxır. Dəyər münasibətləri bazar iqtisadiyyatında tənzimləmə amillərinin ayrıca bir qrupunu təşkil edir.Bu halda elm və texnika inkişaf etdikcə əmtəələrin dəyərində fiziki əməkdən daha çox intellektual əmək sərfinə əhəmiyyət verilir.

İnnovasiya prosesi müxtəlif resursların istehsal fəaliyyətinə cəlb edilməsilə bağlıdır. Əsas resurslar yeni məhsul istehsalının geniş miqyasda mənimsənilməsi ilə əlaqədar olan tədqiqatlar və araşdırmalar aparılmasına, layihə - texnoloji və başqa işlərin yerinə yetirilməsi üçün investisiyalar və vaxt sərf olunur. Bütövlükdə innovasiya fəaliyyəti sisteminə - elm, texnologiya, innovasiya və təhsil kimi tərkib hissələri daxildir. Bu komponentlərdən hər hansı birinin olmaması innovasiya fəaliyyəti sisteminin bütövlüyünün pozulmasına gətirib çıxarır.

Eyni qayda ilə, bütöv sistemin komponentlərindən birinin inkişafına lazımınca diqqət yetirilməməsi nəticəsində məhsulun rəqabətlilik qabiliyyəti aşağı düşəcəkdir, çünki bu halda məhsulun elmtutumluluğu azalır, yaxud təhsil sahəsinə lazımınca diqqət yetirilməməsi təkcə yeni məhsullar yaradan təşkilatlarda və elmi müəssisələrdə deyil, eyni zamanda iqtisadiyyatın müxtəlif sahələrində də kadr problemlərinin kəskinləşməsinə gətirib çıxarır.Bütövlükdə innovasiya fəaliyyəti sistemində yuxarıda nəzərdən keçirilən komponentlərin içərisində ən əsas ünsür insandır. Elm insanın tələbatına birbaşa və ya texnologiya, iqtisadiyyat və məişət vasitəsilə dolayı şəkildə təsir göstərir.

Məqsədlərin, ideyalların və maraqların dəyişməsi ictimai istehsalda hökmranlıq edən texnoloji uklada adekvat olan yeni dəyərlərin inkişafına şərait yaradır. Buna görə də elmin inkişafının bir mərhələsinə xas olan dəyərlər başqa, daha mütərəqqi mərhələdə öz əhəmiyyətini itirə bilər.

Bazar iqtisadiyyatı inkişaf etmiş ölkələrdə elmi-texniki tərəqinin inkişafı innovasiya sahibkarlığı ilə bağlıdır. Ümumiyyətlə, sahibkarlığın 2 formasını fərqləndirmək olar: onlardan biri yeniliklərin tapılması və reallaşdırılmasıdır ki, buna da innovasiya sahibkarlığı deyilir. Digəri isə xalis bazar sahibkarlığıdır. Buna da marketing deyilir.Elmi-texniki nəaliyyətlərin istehsala tətbiqi innovasiya adlanır.

Hal-hazırda yeni elmtutumlu texnologiyaları istehsalda mənimsəməyən müəssisələr dünya bazarlarında rəqabət apara bilməz. Deməli, müəssisələrin inkişaf strategiyasının işlənilməsində nəzərə alınacaq ən vacib şərt – elmi yeniliklərin və elmtutumlu texnologiyaların istehsala tətbiqi

olmalıdır. Yeri gəlmişkən onu da qeyd edək ki, strategiyanın seçimi çox riskli bir işdir. Bu sahədə buraxılan cüzi səhv çox böyük uğursuzluqlara səbəb ola bilər. Odur ki, alimlərin və mütəxəssislərin bu işlərə cəlb edilməsi zəruriyyəti yaranmışdır.

İnnovativ təhsil modelinin qurulmasında qlobal trendlər- 21-ci əsrdə hər bir sahə özü-özlüyündə yeniliyə və dəyişikliyə ehtiyac duyur. Artıq yeni dövrün tələbləri innovasiya və yenilik əsaslıdır. Dünya durmadan dəyişir. Dəyişən dünyamızda durmadan yeni ideyalar yaranır. Yeni ideyalar yeni ixtiralara, yeni ixtiralar yeni texnologiyalara və tendensiyalara çevrilir. Yeni texnologiyalar isə yeni tələblərin yaranmasına və yenidən yeni tələblər isə yeni fikirlərin yaranmasına səbəbiyyət verir. Bu halda inkişafın və tərəqqinin tələb olunduğu hər bir sahədə yeni fikirlərə və yeni texnologiyalara ehtiyac duyulur. Təhsil sistemində də öyrənmə metodlarını daha yaxşı qavramaq üçün, yeni bilik, elm və texnologiyaları anlamaq üçün yeniliyə və innovasiyaya ehtiyac həmişə vardır. Hal-hazırda dünya ölkələri təhsildə inkişafın və yaradıcılığın artırılması yönündə milli təhsil sistemindən kənara çıxıb yeni tendensiyaların yaradılmasında və tətbiqində maraqlıdırlar. Təbiiki, bir çox sahədə olduğu kimi təhsildə də yeniliklərə ehtiyac mövcud tələblərə və geniş araşdırmalara əsaslanmışdır.

**Açar sözlər:** *innovasiya, vergi sıyasəti, texnoloji inkişaf*

### ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycan Respublikası Vergi Məcəlləsi, .*

*2. Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası,*

*3. Ə.Məmmədov və İ. Seyfullayev: “Vergi və investisiya mühiti” (səh.359, Bakı – 2013)*

*4. Allahyar Niyaz oğlu Muradov İnnovasiyalı iqtisadi inkişafın vergi tənzimlənməsi. “Azərbaycanın davamlı inkişafında vergi siyasətinin rolu” Elmi-praktik konfransın materialları, Şamaxı 5 iyun 2015-ci il s. 103*

### SUMMARY

The introduction of a special tax regime in innovation and science-oriented areas can have a stimulating effect on development, considered the problems in these areas. These measures taking a comprehensive approach to the taxation of innovation-oriented areas to eliminate problems of tax administration conditions can be created. However, it should be noted that in addition to stimulating measures in the field of tax and customs policy to ensure the development of innovation, measures should be taken to protect the competitive environment.

**Key words:** *innovation, tax policy, technological development*

### РЕЗЮМЕ

Введение особого налогового режима в инновационной и наукоемкой сферах может оказать стимулирующее влияние на развитие, учитывая проблемы в этих сферах. Эти меры могут создать условия для преодоления проблем налогового администрирования за счет комплексного подхода к вопросам налогообложения инновационно-ориентированных сфер. Однако следует отметить, что для обеспечения развития инноваций наряду со стимулами в сфере налоговой и таможенной политики должны быть приняты меры по защите конкурентной среды.

**Ключевые слова:** *инновации, налоговая политика, технологическое развитие*

UOT: 334.021: 330.1

# QEYRİ-NEFT TƏMAYÜLLÜ İQTİSADİ İNKİŞAFIN MODELLƏŞDİRİLMƏSİNDƏ DÜNYA TƏCRÜBƏSİ

**ƏSLİ KAZIMOVA**
*İqtisad üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət İqtisad Universitetinin*
*baş müəllimi*

*E-mail: asli.kazimova@gmail.com*

Dünya təcrübəsində milli iqtisadiyyatların maksimum səmərəli modelləşdirilməsi və hazırkı şəraitdə qlobal təsirlərə qarşı dayanaqlılıq nümayiş etdirən iqtisadi inkişaf modelinin formalaşdırılması vacib məsələlərdəndir. 2008-ci ilin sonlarından başlayan dünya maliyyə böhranının mənfi təzahürləri hələ də davam etməkdədir. Digər tərəfdən, COVİD-19 koronovirus pandemiyasının təsirindən yaranan yeni şəraitdə milli iqtisadiyyatın mövcud mexanimlərinin təkmilləşdirilməsi yeni zərurət kimi ortaya çıxmışdır və dünya ölkələrində aktuallığı ilə diqqət mərkəzinə düşmüşdür. Belkə ki, dünya ölkələrinin milli iqtisadiyyatları qlobal təsir altına düşməklə bu problemlərin mənfi təsir altındadırlar və bu amillər hər bir ölkənin iqtisadi inkişaf prioritetlərinin reallaşdırılması və iqtisadi inkişaf modelinin tənzimlənməsini həyata keçirərkən dünya təcrübəsinə, dünya ölkələrinin ayrı-ayrı uğurlu nümunələrinə, iqtisadi inkişaf modellərinin xüsusiyyətlərinə, onların səmərəlilik səviyyələrinə xüsusi diqqət yetirilməsini şərtləndirir. Xüsusilə iqtisadiyyatın inkişafının şaxələndirilməsində daha təsirli və məhsuldar fəaliyyət istiqamətlərinin düzgün qiymətləndirilməsi və maliyyə mexanizmlərinin işləkliyinə nail olunması mühüm əhəmiyyət kəsb edir [1]. Bir çox ölkələrin, o cümlədən Azərbaycanın iqtisadi inkişaf prioritetlərindən yanaşsaq, qeyri-neft təmayüllü iqtisadiyyat sahələrinin inkişafının sürətləndirilməsi həlledici amil kimi dəyərləndirilir [2].

Qlobal təsirlərə immuniteti güclü olan iqtisadi inkişaf modellərinin formalaşdırılması proseslərində ölkənin hazırkı şəraitdə əsas hədəfləri və iqtisadi inkişafın konseptual yanaşmaları müəyyənləşdirilməli, bunlarla bağlı zəruri tədbirlər görülməlidir. Başqa sözlə, iqtisadi inkişafı təmin edən fəaliyyət modelləri və perspektivli iqtisadiyyat sektorları müəyyənləşdirilməli, işlək mexanizmlər hazırlanmalıdır [3]. Bu baxımdan, iqtisadi inkişaf modelinin formalaşdırılması və reallaşdırılması proseslərində önəmli məsələlərdən biri iqtisadi artımın təmin olunması və iqtisadiyyatın artım dinamikasının sabitliyinə şəraitin və potensialın obyektiv olaraq qiymətləndirilməsidir [4]. Eyni zamanda, iqtisadi inkişaf modellərinin mexanizmlərinin səmərəliliyinin ölkə iqtisadiyyatının inkişaf hədəfləri və əhalinin yaşayış səviyyəsi indikatorları ilə müqayisəli baxılması və proqnozlaşdırılması xüsusi diqqət mərkəzində saxlanılmalıdır [5]. Bunlarla bərabər, müasir dövrdə milli iqtisadiyyatların struktur dəyişiklikləri iqtisadi inkişafın modelləşdirilməsində və iqtisadi inkişafın sürətləndirilməsində vacib mexanizmlərindən biri olaraq ön plana çıxmışdır. Qlobal təsirlər nəticəsində dünya iqtisadi proseslərinə, ölkələrin makrosabitliyinə, iqtisadi inkişafın və iqtisadi artımın modelləşdirilməsinə təsirin müəyyənləşdirilməsi və proqnozlaşdırılması ciddi önəm kəsb edir [6]. Həmin proseslərdə iqtisadi inkişaf modelinə daxil edilən hər bir elementə strateji yanaşmanın təmin olunması həlledici xarakter daşıyır və dövlətin iqtisadi siyasətinin bütün işlək alətləri bu mühüm vəzifənin reallaşdırılması hədəflərinə adekvat səviyyədə olmalıdır [7]. Bir sıra dünya ölkələrinin təcrübəsindən yanaşsaq, postneft illərində əhalinin maddi rifah halını səciyyələndirən və real təsəvvür yaradan göstəricilərdə baş verən dəyişikliklərin qiymətləndirilməsi, əslində insanların həyata səviyyəsini və yaşayış keyfiyyətinin yaxşılaşdırılmasının əsas istiqamətlərinin müəyyən edilməsində və müvafiq sahələr üzrə dövlət proqramlarının işlənib hazırlanmasında müstəsna əhəmiyyətin daşıyacağını gözləmək olar [8]. Buna görə də, müasir qlobal problemlərin artdığı bir dövrdə iqtisadiyyatın neftdən asılılığın, ümumiyyətlə enerji resurslardan asılılığın minimuma endirilməsi və şaxələndirilmiş milli iqtisadiyyat strukturunun təşkil edilməsi zərurəti daha çox diqqət çəkir.

Bir qrup neft hasil edən dünya ölkələrinin təcrübəsinə və iqtisadi inkişaf proseslərinin

modelləşdirilməsi xüsusiyyətlərinə baxsaq, görmək mümkündür ki, hər bir neft ölkəsi özünün milli iqtisadiyyatını bütün vasitələrlə şaxələndirməyə səy göstərir və bunun üçün müxtəlif tədbirlər görür. Belə ki, dünyanın müxtəlif iqtisadi inkişaf xüsusiyyətlərinə, prinsip və meyarlarına, iqtisadi sistem fərqlərinə mənsub olan ölkələrin, eyni zamanda müxtəlif dünya regionlarında yerləşən ölkələrin təcrübəsinə, iqtisadi inkişaf modelinin təşkili və formalaşdırılması məsələlərinə diqqət yetirdikdə bunun şahidi olmaq mümkündür. Dünya neft hasilatının onun həcminə görə önündə gedən Səudiyyə Ərəbistanı milli iqtisadiyyatını ilk növbədə neft hasilatı və gəlirləri hesabına təşkil etmişdir. Bunun ifadəsi kimi, ölkə ÜDM-nin strukturunda neftin payı 45 %, dövlət büdcəsinin gəlirləridə isə neft gəlirləri 75 %, ixracda isə neft və neft məhsullarının payı 90 % təşkil edir [9]. Amma ölkədə qeyri-neft sahələrinin fəaliyyətinin genişləndirilməsi istiqamətində də əsaslandırılmış hədəflər və prioritetlər vardır. Məsələn, qeyri-neft sektorunun canlandırılmasında və inkişafında qaz xammalının səmərəli şəkildə emalı proseslərinin təşkili və bununla bağlı qaz emalı zavodlarının yaradılması təmin olunmuşdur. Ölkədə fəaliyyət göstərən nisbətən 5 iri qaz emalı zavodlarında gün ərzində 25 mln. tona yaxın təbii qaz emal olunur və yüksək gəlir mənbəyi formalaşdırılıb. Bundan başqa, ölkənin iki iri neftkimya şirkətlərinin - SABİC və Saudi Aramconun sayəsində böyük həcmdə investisiyalar yönəldilmiş və ümumilikdə neftkimya məhsullarının istehsalının orta illik həcmi 60-70 mln. tona qədər yüksəlmişdir [10]. Mühüm neftkimya məhsulları kimi karbohidrogen xammalları – neft və qaz xammalarının emalı nəticəsində alınan qiymətli məhsullar:1) polipropilen; 2) polikarbonat; 3) etilen; 4) propilen; 5) polietilen; 6) vinilxlorid, polivinilxlorid; 7) etan; 8) propan; 9) müxtəlif olefinlər və s. daha böyük üstünlük təşkil edirlər. Birləşmiş Ərəb Əmirliklərinin iqtisadi inkişaf proseslərinin xüsusiyyətlərindən baxsaq, görmək mümkündür ki, ölkənin əldə etdiyi nailiyyətləri baxımından iqtisadi inkişaf modelinin formalaşdırılması ilə bağlı yanaşmalarda qeyri-neft sektorunun diversifikasiyalaşdırılmasına böyük önəm verilməkdədir. Ölkə iqtisadiyyatı kifayət qədər çoxşaxəli inkişaf səviyyəsinə qalxmış və xüsusilə xidmət sahəsinin güclü inkişafı sayəsində Dubay şəhəri dünyanın əsas ticarət mərkəzlərindəın birinə çevrilmişdir. Belə ki, güclü inkişaf etmiş neft sahəsi ilə bərabər, dünya standartları səviyyəsində infrastruktur formalaşdırılmış, nəqliyyat kommunikasiyası təmin edilmiş, kifayət edəcək qədər mənzil fondu yaradılmış, təhsil və səhiyyə sistemi ən yüksək səviyyədə inkişaf etdirilmişdir. Ölkə iqtisadiyyatının neftdən asılılığının azaldılması istiqamətində görülən işlər nəticəsində bu məqsədə nail olunmuş və qeyri-neft sektoru sahələrində əhəmiyyətli nailiyyətlər qazanılmışdır [11]. İlkin növbədə, turizm və ticarət sektorunun əhəmiyyətli səviyyədə inkişaf etməsi nəticəsində ölkə iqtisadiyyatının neftdən və qazdan asılılığı ciddi şəkildə azaldılmışdı [12]. Neftkimya, alüminium, sement zavodları, mineral gübrə və yuyucu maddələr istehsal edən rəqabətqabiliyyətli müəssisələr şəbəkəsi yaradılmışdır. Bundan başqa, Birləşmiş Ərəb Əmirliklərində azad iqtisadi zonalardan səmərəli istifadə hesabına kimya, neftkimya, avtomobil kompaniyalarının külli miqdarda investisiyaların yatırılması, istehsal, emal və komplektləşdirici sahələrin yaradılması və məhsuldar istismarına imkan verən cəlbedici fəaliyyət mühiti formalaşmışdır [13].

Bir sıra postsovet respublikaları da öz milli iqtisadiyyatında neft-qaz resurslarından asılılığı azaltmaq üçün tədbirlər görməkdədir. Qeyri-neft sektoru üzrə Azərbaycanın əsas tərəfdaş ölkəsi olan Rusiyada iqtisadiyyatın strukturunda, və ölkə ÜDM-nin formalaşdırılmasında xidmət sektorunun payı hər il yüksəlməkdədir və artıq bu göstərici 70 %-ə çatmaqdadır. Hasilat və emal sənayesi sahələrinin payı isə 26 % səviyyəsindədir və kənd təsərrüfatının ölkə iqtisadiyyatınında payı isə 4 %-ə bərabərdir [14]. Hazırkı qlobal şəraitdə Rusiya onun qeyri-neft sektorunda strateji əhəmiyyət kəsb edən kimya və neftkimya kompleksinin modernləşdirilməsi, yüksək texnologiyaların tətbiqi hesabına məhsuldarlığın artırılması məsələlərinə ciddi yanaşmaqdadır. Əlavə istehsal zənciri üzrə ixracyönlü istehsal sahələrinin genişləndirilməsi və ixrac potensialının artırılması nöqteyi-nəzərindən Rusiyada kimya və neftkimya komleksinin potensialından səmərəli istifadə edilməsi üçün davamlı tədbirlər görülməkdədir. Qeyd olunan amillər baxımından Rusiya qaz və neftkimyanın inkişaf etdirilməsinə dair 2030-cu ilədək olan dövrü əhatə edən inkişaf strategiyasını reallaşdırmaqdadır [15]. Belə ki, 2030-cu ilədək olan dövrdə qaz emalı

və qaz-kimyası müəssisələrinin genişləndirilməsi hesabına alınacaq məhsulların, eyni zamanda əksəriyyəti ixracyönlü olan bu məhsulların orta illik həcminin 35 milyon tona qədər çatdırılması qarşıya əsas vəzifə kimi qoyulmuşdur. Rusiya növbəti 10-15 il ərzində neft-kimya kompleksinin ölkənin ən gəlirli və yüksək sürətlə inkişaf edən qeyri-neft sektoru sahələrindən birinə çevrilməsini əsas hədəf kimi qəbul etmişdir [16]. Digər bir postsovet respublikası olan Qazaxstanın qeyri-neft sektorunun inkişafı ilə bağlı təcrübəsi diqqət çəkir. Belə ki, Mərkəzi Asiyanın iqtisadi potensialının 60 %-dən çoxu Qazaxıstanın payına düşür [17]. Son 20 il ərzində Qazaxıstan neft hasilatını gücləndirmək istiqamətində davamlı tədbirlər görməkdədir və əldə olunan gəlirlərdən qeyri-neft sektorunun inkişafı istiqamətində geniş şəkildə istifadə edilir. Bu tədbirlərdə Qazaxistanın milli neft-qaz xarici şirkətlərinin rolu da hər il artmaqdadır. Belə ki, Qazaxıstanda ən iri neft hasilat edən şirkət "Tengiz Şevroil" yanaşı, milli şirkətlər olan "Karaçaqanak" neft operatoru, "Kazmnayqaz" neft kompaniyası və "Aktobeunayqaz" kompaniyası artıq dünya neft bazarında tanınmağa başlamışlar və bu kompaniyaların güclənməsi ölkənin qeyri-neft sektoru sahələrinə də müsbət mənada yaxşı təsir etmişdir. Qazaxıstanda milli iqtisadiyyatın diversifikasiyalaşdırılması və qeyri-neft sektoru sahələrinin inkişaf etdirilməsi hesabına milli iqtisadi inkişaf modelini qlobal şəraitdə gücləndirmək mümkün olmuşdur. Ölkədə qeyri-neft sektoru sahələrinin inkişaf etdirilməsinə davamlı şəkildə investisiyaların yatırılması və strateji münasibətlərin təmin edilməsi nəticəsində iqtisadi inkişaf modeli əhəmiyyətli səviyyədə dayanıqlılıq potensialı yaranmışdır. Məsələn, 2003-2015-ci illərdə həyata keçirilən "Yeni Sənaye İnkişaf Proqramı"nın hesabına qeyri-neft sektorunun sənaye sahələrinin modernləşdirilməsi və yüksək texnologiyalar əsasında inkişaf etdirilməsi reallaşdırılmışdır. Sənaye sahələri ilə bərabər, Qazaxistanda kənd təsərrüfatının inkişafında səmərəli fəaliyyət mexanizmlərinin tətbiqi təmin edilmişdir. Belə ki, güclü potensiala malik aqrar sahə formalaşdırılmış, sənayeləşdirilmiş və şaxələndirilmişdir [18]. Qeyri-neft sektoru sahələrinin inkişafında innovatik yanaşmaların təmin olunması, bu sahələrin innovasiyalaşdırılması proseslərinin sürətləndirilməsi və yüksək keyfiyyətli innovasiya məhsullarının alınması tədbirləri daha geniş formada diqqət mərkəzindədir [19]. Eyni zamanda, 2025-ci ilədək olan dövrdə Qazaxıstanın strateji inkişaf proqramında yaxın və uzunmüddətli hədəflər müəyyənləşdirilmiş və milli iqtisadiyyatın rəqabətqabiliyyətinin artırılması, bunun üçün qeyri-neft təmayüllü iqtisadiyyat sahələrinin inkişafının daha da intensivləşdirilməsi nəzərdə tutulmuşdur [20].

## YEKUN

Qeyri-neft sektorunun müasir dövrün tələbləri səviyyəsində formalaşdırılması, onun əsas fəaliyyət mexanzimlərinin təkmilləşdirilməsi istiqamətində Azərbaycan da regionun və dünyanın dinamik inkişaf edən ölkələrindən biri kimi özünəməxsus inkişaf modeli gücləndirməkdədir. Xüsusilə, regionların potensialından səmərəli istifadə olunması sayəsində qeyri-neft sektorunun inkişafının intensivləşdirilməsi mümkün olmuşdur. Hazırda qlobal təsirlərlə yanaşı, Böyük Qarabağ zəfərindən sonra bu sektorun inkişafı üçün obyektiv reallıqlar formalaşmışdır və bunlar nəzərə alınmaqla bir sıra amillərin nəzərə alınması vacibdir:

- qeyri-neft təmayüllü iqtisadi inkişaf modellərinin mütərəqqi və məhsuldar göstəricilərindən və xüsusiyyətlərindən yanaşmaqla, qlobal təsirlərə qarşı güclü immunitet nümayiş etdirən milli iqtisadiyyat strukturunun formalaşdırılması vacibdir;
- qeyri-neft sektoru sahələrinin inkişafı üzrə dünya təcrübəsindən istifadə proseslərin sürətləndirilməsinə ehtiyac duyulur;
- Azərbaycanın qeyri-neft sektoru sahələrinin inkişaf prioritetləri işğaldan azad olunmuş ərazilər nəzərə alınmaqla, yenidən baxılmalı və təkmilləşdirmələr aparılmalıdır və s.

**Açar sözlər:** *qeyri-neft sektoru, qeyri-neft sahələri, iqtisadi inkişaf, iqtisadi model, iqtisadi inkişafın modelləşdirilməsində dünya təcrübəsi, qeyri-nef sektorunun inkişaf perspektivləri.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Kazımova Ə.X. Qeyri-neft sektoru sahələrinin fəaliyyətinin və maliyyə mənbələrinin gücləndirilməsi problemləri və perspektivləri. // Jurnal "Geostrategiya", №1, 2017.-S.40-43.*

*2. Алиева Р.В. Проблемы совершенствования экономических механизмов устойчивого*

*развития ненефтяного сектора экономики Азербайджана. Автореферат д.ф.э. Гянджа, 2016.-26 с.*

*3. Əliyev Ü.Q. Milli inkişaf modelinin formalaşmasında iqtisadi prinsiplərin rolu. Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri, İl 3, Cilld 3, Yanvar-Mart, 2015, S. 4-13.*

*4. Sexla S.Y., Voloşin A.İ. Milli iqtisadiyyatda dövlət sektorunun tənzimləyici rolu və fəallığı. Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri, İl 1, Cilld 1, Oktyabr-Dekabr, 2013, S. 6-18.*

*5. Богатырева О.Н., Шмулевич Т.В. Теоретические основы экономического анализа. Санкт-Петербург, СПБГТУРП, 2011, 58 с.*

*6. Кязымова А.Х. Проблемы и механизмы регулирования деятельности ненефтяных сферы промышленности Азербайджана в контексте стратегические дорожные карты. // USA, Philadelphia. Technology and science. 30.12.2017, Year: 2017 Issue: 12 Volume: 56. Международный научный журнал ISJ Theoretical & Applied Science, p.157-164.*

*7. Воронцовский А.В. Современные подходы к моделированию экономического роста // Вестник СПбГУ. Серия 5: Экономика. 2010. №3., С.105-119.*

*8. Quliyev C. İqtisadi inkişaf və ictimai rifah // AMEA-nın Xəbərələri. İqtisadiyyat seriyası, 2019 (iyul-avqust), S. 11-17.*

*9. Madawi Al-Rasheed. A Most Masculine State: Gender, Politics and Religion in Saudi Arabia, 2013, 333 p.*

*10. Нефтехимия Саудовской Аравии покоряет новые горизонты. - https://e-plastic.ru/news/neftekhimiya-saudovskoi-aravii-pokoryaet-novye-gorizonty_12/.*

*11. Экономика Арабских Эмиратов: состояние и прогнозы. https://www.thefirstgroup.com/ru/news/ehkonomika-oaeh-v-2018-i-2019-gg/.*

*12. Экономика Объединенных Арабских Эмиратов. Роль ОАЭ в мировой экономике. - http://www.gecont.ru/articles/econ/oae.htm.*

*13. Əliyev Ş.T. Xüsusi iqtisadi zonaların tətbiqi problemləri. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elimin İnkişafi Fondu, 2012. -360 s.*

*14. Сударкина Е.С. Анализ структуры российской экономики на современном этапе и перспективы развития // Экономика и Управление, 2016 №1 с. 57-58.*

*15. Рынок полимеров в мире и России. Нефтехимия в России: выбор вектора развития. - https://www.ey.com.*

*16. Нефтехимия – одна из наиболее прибыльных и быстро развивающихся отраслей в мире. Россия должна ставить более амбициозные планы в этой сфере, чтобы не проиграть в усиливающейся конкуренции.- http://komitet2-13.km.duma.gov.ru/Novosti-Komiteta/item/15048569/.*

*17. Türk yurdları: Qazaxıstan haqda nə bilirik? http://strateq.az.*

*18. Экономика Казахстана – одна из самых быстрорастущих в СНГ. - https://camonitor.kz/33335-ekonomika-kazahstana-odna-iz-samyh-bystrorastuschih-v-sng.html.*

*19. Стратегии и программы РК. Стратегия «Казахстан- 2050».- http://www.akorda.kz/ru/official_documents/strategies_and_programs.*

*20. Альмерееков Н.А., Кашкимбаева К.Б. Экономика Казахстана: современное состояние, проблемы и пути решения // Экономика и бизнес: теория и практика. 2018. № 12-1, s. 27-32.*

**РЕЗЮМЕ**

**Мировой опыт моделирования экономического развития ненефтяных отраслей**

В статье исследован мировой опыт моделирования экономического развития ненефтяных отраслей. С этой целью раскрыта сущность и значимость моделирования развития ненефтяных сфер и диверсификации национальной экономики в условиях роста глобальных воздействий. Исследованы мировые подходы и механизмы эффективной организации и развития ненефтяных отраслей экономики страны. Рассмотрен прогрессивный опыт ряда стран мира - механизмы расширения деятельности ненефтяных секторов экономики. Подробно анализированы существующие подходы к развитию ненефтяных сфер в Саудовской Аравии, Объединённых Арабских Эмиратах, России и Казахстане, которые считаются нефтедобывающими странами. Отмечена важность глубокого изучения мирового опыта и обеспечения повышения

конкурентоспособности национальной экономики путём диверсификации ненефтяных отраслей. Подготовлены предложения и рекомендации по усилению роли ненефтяных секторов экономики с учётом минимизации негативных последствий пандемии COVID-19 и с учетом освобождённых от армянских захватчиков территорий.

**Ключевые слова:** *ненефтяной сектор, сфера ненефтяного сектора, экономическое развитие, экономическая модель, мировой опыт в моделировании экономического развития, перспектива развития ненефтяного сектора.*

**SUMMARY**

**World experience in modeling the economic development of non-oil industries**

The world experience in modeling the economic development of non-oil industries is investigated in the article. The essence and significance of modeling the development of non-oil spheres and the diversification of the national economy in the context of growing global impacts is analyzed for this purpose. World approaches and mechanisms of effective organization and development of non-oil sectors of the country's economy are studied then. The progressive experience of a number of countries of the world - mechanisms for expanding the activities of non-oil sectors of the economy is considered. Existing approaches to the development of non-oil spheres in Saudi Arabia, the United Arab Emirates, Russia and Kazakhstan, which are considered oil-producing countries, are analyzed in detail. The importance of studying the world experience and ensuring the competitiveness of the national economy by diversifying non-oil industries is noted. Proposals and recommendations to strengthen the role of non-oil sectors of the economy, taking into account the minimization of the negative consequences of the pandemic COVID-19 and taking into account the territories liberated from the Armenian invaders are given at the end of the article.

**Key words:** *non-oil sector, sphere of the non-oil sector, economic development, economic model, international experience in modeling of economic development, prospect of development of the non-oil sector.*

UOT 334.021:35

# ÖHDƏLİYİN İCRASININ ANLAYIŞI, PRİNSİPLƏRİ VƏ ÜSULLARI

**AYTAC ALLAHVERDİYEVA**
*Azərbaycan Respublikası Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının magistrantı*
*E-mail: aytac.allahverdiyevaa@gmail.com*

**SUQRA ABDULLAYEVA**
*Azərbaycan Respublkası Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının magistrantı*
*E-mail: suqraabdullayeva20@gmail.com*

## Giriş

Öhdəlik hüquq institutu daim mülki hüququn mərkəzi və dinamik surətdə inkişaf edən yarımsahələrindən sayılıb. Bütövlükdə öhdəliklərin icra olunmaması və lazımınca icra olunmaması ilə bağlı məsələlər həm ümumi hüquq nəzəriyyəsində, həm də sahəvi hüquq ədəbiyyatında mövcud olan mürəkkəb problemlərdən biri kimi çıxış edir.

İqtisadiyyatın sağlamlığının, dinamik iqtisadi münasibətlərin etibarlı təminatı mülki qanunvericilikdir və iqtisadi dövriyyənin inkişafı müqavilə münasibətlərindən, habelə digər əsaslardan yaranan öhdəlik hüquq münasibətlərinin dayanıqlığının nə dərəcədə təmin olunmasından asılıdır. Aydın məsələdir ki, mülki dövriyyənin normal inkişafı daha çox onun subyektlərinin öz öhdəliklərini icra etməsindən asılıdır. Bu həm müqavilə (nisbi) öhdəliklərinin, həm də müqavilədənkənar (mütləq) öhdəliklərin yerinə yetirilməsi ilə əlaqədardır. Mütləq və ya nisbi öhdəliklərin pozulması isə təkcə mülki hüquq münasibətlərinin kontragentlərinə zərər vurmur, həmçinin bütövlükdə mülki dövriyyənin, bazar-iqtisadi münasibətlərin inkişafına mənfi təsir göstərir. Son illərdə əsaslı dəyişikliyə məruz qalan ictimai münasibətləri tənzimləyən yeni mülki qanunvericiliyin qəbul edilməsi ilə əlaqədar ümumilikdə öhdəlik hüququ yarımsahəsində də köklü dəyişikliklərə rast gəlmək olar.

Araşdırmanın yeniliyi ondan ibarətdir ki, öhdəliklərin icra olunmaması ilə lazımınca icra olunmaması arasındakı sərhədlər dəqiq müəyyənləşdirilmiş, öhdəliklərin təmini üsulu kimi girov və ipoteka hüququnda mövcud problemlər diqqətə çatdırılmış, öhdəliklərin yerinə yetirilməsi ilə bağlı münasibətlərin effektiv və düzgün hüquqi tənzimlənməsi üçün bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi üçün bir sıra təkliflər irəli sürülmüşdür.

## Öhdəliyin icrasının anlayışı

Roma hüququnda hesab edilirdi ki, hər bir icra icra deyil, yalnız aşağıdakı şərtlərə cavab verən icra borclunu öhdəlikdə azad edirdi:

- icra (ödəmə) öz əmlakına sərəncam vermək qabiliyyətinə malik olan şəxs (Roma təbirincə, öz əmlak vəziyyətini pisləşdirmək, qabiliyyəti olan şəxs) tərəfindən edilmişdir. Yalnız məzmunu ciddi şəxsi xarakter daşıyan öhdəliklərin şəxsən borclu tərəfindən icra edilməsi tələb olunurdu (Məsələn, rəssamın şəkil çəkmək öhdəliyi);
- İcra onu qəbul etmək qabiliyyəti olan şəxsə həvalə edilməlidir. Belə qabiliyyətə malik olan şəxs kreditor (əgər onun öz əmlakı üzərində sərəncam vermək qabiliyyəti tanınırsa) və müqavilədə xüsusi göstərilmiş icranı qəbul etmək qabiliyyətinə malik olan vəkil edilmiş şəxs və ya onun nümayəndəsi ola bilərdi;
- İcra öhdəliyin məzmununa tam uyğun olmalı idi. Hər halda, kreditorun razılığı olmadan borclu öhdəliyi hissə-hissə icra etmək hüququna malik deyil. Tərəflərin razılığı ilə öhdəliyin predmetinin əvəzinə öhdəliyin ödənilməsi üçün hər hansı başqa əşya təqdim oluna bilərdi.
- Ticarətin inkişafı ilə əlaqədar müxtəlif yerlərdə satılan əmtəələrin qiyməti müxtəlif olduğu üçün icra yeri mühüm əhəmiyyət kəsb edirdi. Bir qayda olaraq, icra yeri həmin öhdəlikdən yaranan iddiaların tədim olunma yeri ilə müəyyən edilirdi, belə yer isə borclunun olduğu yer və ya (tərəflərdən birinin arzusuna görə) Roma hesab olunurdu.
- Öhdəlik müqavilədə nəzərdə tutulan və ya müqavilənin xarakterindən və bağlanma şəraitindən irəli gələn müddətdə icra olunmalı idi. Əgər nə

müavilənin məzmunu, nə də onun xarakteri ilə icranın müddəti müəyyən edilmirdisə, borclu öhdəliyi kreditorun ilk tələbi üzrə icra etməyə borclu idi. [7, s.168].

Qeyd edək ki, mülki hüquqların maneəsiz həyata keçirilməsi mülki dövriyyə iştirakçılarını qeyri-məhdud səlahiyyətlərlə təmin etmək demək deyildir. Qanunverici hüquqların həyata keçirilməsinin hədlərini müəyyən edir. Belə ki, Mülki Məcəllədə şəxsin malik olduğu subyektiv mülki hüquqlarından pis niyyətlə istifadəsinin qarşısını alan bir çox normalar nəzərdə tutulmuşdur. Həmin normalar subyektiv hüquqların bir-biri ilə əlaqəsinin müəyyən olunması, onların qarşılıqlı təsirinin qiymətləndirilməsi və bu hüquqların müdafiəsinin həyata keçirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Buradan da, mülki hüququn prinsiplərindən biri olan hüquqların həyata keçirilməsi hədlərinin müəyyən olunması prinsipi ortaya çıxır ki, bu prinsip birbaşa öhdəliklərin icra olunması zamanı mühüm əhəmiyyət kəsb edir, çünki bu prinsipin tələblərindən biri də tərəflərin vicdanlılığın tələb etdiyi tərzin əleyhinə hərəkət etməməni, yəni icranın qarşılıqlı hörmət və etimad əsasında, eyni zamanda işgüzar adətlərə müvafiq olaraq həyata keçirməsini nəzərdə tutur. Məsələn, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 425.1-ci maddəsində nəzərdə tutulur ki, öz hüquqlarını həyata keçirərkən və vəzifələrini icra edərkən tərəflərdən hər biri vicdanlılığın tələb etdiyi tərzdə, yəni şərtləşdirilmiş vaxtda və yerdə lazımi şəkildə, öhdəliyin şərtlərinə və Mülki Məcəllənin tələblərinə müvafiq surətdə, belə şərtlər və tələblər olmadıqda isə işgüzar adətlərə və ya adətən, irəli sürülən digər tələblərə müvafiq surətdə hərəkət etməlidir.

Konstitusiya Məhkəməsinin 24 dekabr 2014-cü il tarixli Plenum Qərarında da qeyd edilir ki, azad sahibkarlıq və bazar iqtisadiyyatı şəraitində əmlak və əmlakla bağlı qeyri-əmlak münasibətlərindən əmələ gələn öhdəliklərin icrasının böyük iqtisadi-sosial əhəmiyyəti vardır. Müqavilələrdən irəli gələn öhdəliklərin vicdanla yerinə yetirilməsi, ilk növbədə, tərəflərin qanuni maraqlarına və mülki dövriyyənin sabitliyinə xidmət edir. Eyni zamanda, kredit müqaviləsi üzrə öhdəliklərin vaxtında icra edilməsi göstərilən məqsədlərlə yanaşı, dövlətin iqtisadi-maliyyə vəziyyətinin stabilliyinə və inkişafına yönəlir, xüsusilə, banklara əmanətçilər tərəfindən göstərilən etimada müsbət təsir göstərməklə, ölkənin iqtisadi təhlükəsizliyinin qorunması və əhalinin daha da yüksək yaşayış səviyyəsinin təmin edilməsi ilə nəticələnir.

Əvvəldə də qeyd etdiyimiz kimi, öhdəlik borcun predmetinin nə olmasından asılı olmayaraq, hər zaman müəyyən bir hərəkətlə icra ediləcəkdir. Bu hərəkət isə 3 şəkildə təzahür edə bilər: 1) vermə, 2) etmə, 3) etməmə.

İqtisadi dövriyyənin normal fəaliyyət göstərməsi, sabitlik və dayanıqlılığın, müqavilə hüquq münasibətləri iştirakçılarının qarşılıqlı inam və etimadının təmin edilməsi üçün öhdəliklərin vicdanla icra edilməsi zəruridir. Öhdəliklərin icra edilməməsi, o cümlədən lazımınca icra edilməməsi riskinin azaldılması üçün Mülki Məcəllənin XXIV fəslində təminat üsulları nəzərdə tutulmuşdur. Məcəllənin 460.1-ci maddəsinə görə, öhdəliklərin icrası girov, dəbbə pulu, borclunun əmlakının saxlanması, zaminlik, qarantiya, beh ilə və bu Məcəllədə və ya müqavilədə nəzərdə tutulan digər üsullarla təmin edilə bilər [2]. Bəzi ədəbiyyatlarda öhdəliyin icrası dedikdə onun məqsədi başa düşülür. Hesab edilir ki, öhdəlik hüquq münasibətlərinə girməklə tərəflər müəyyən nəticəni əldə etmək məqsədi daşıyır. Təsadüfi deyildir ki, Yaponiya mülki hüquq elmində də öhdəliyin icrasına anlayış verilərkən "öhdəliyin məqsədi" ifadəsindən istifadə edilir. Qeyd edilir ki, öhdəliyin icrası dedikdə borclunun öhdəliyin məqsədinin həyata keçirilməsinə yönələn hərəkəti başa düşülür [8, s.327].

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 460.1-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair Konstitusiya Məhkəməsinin 14 iyul 2015-ci il tarixli Plenum Qərarında qeyd edilir ki, öhdəliklərin icrasının təmin edilməsi mülki hüququn tərkib hissəsi olan öhdəlik hüququnun ənənəvi institutlarından biridir. Beh, dəbbə pulu, zaminlik və girov kimi öhdəliyin icrasının təmin edilməsi üsulları hələ Roma hüququna bəlli idi. Onların istifadəsinin vacibliyi onunla izah olunurdu ki, kreditor öhdəliyin icra olunmasında və öhdəliyin icra olunmaması halında tələb etmək hüququ yaranan zərərin müəyyən edilməsində maraqlıdır. Nəhayət kreditor maraqlıdır ki, borclu, öhdəliklərin icra olunmaması və ya lazımınca icra olunmaması halında onun üçün əlverişli olmayan nəticələrə səbəb olma qorxusu ilə öhdəlikləri vaxtında icra etsin[3].

Ümumiyyətlə isə öhdəliklərin icrası ilə bağlı nəzərə çatdırmaq zəruridir ki, öhdəlik xarakterli münasibətlərdə iştirakçıların üzərinə işgüzar əməkdaşlıq və solidarlıq prinsipindən irəli gələn qaydalara riayət etmək tələbi qoyulur. Misal üçün, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 425.2-ci maddəsində göstərildiyi kimi, öhdəlikləri icra edərkən tərəflər müqavilənin yerinə yetirilməsinə zəmin yaratmaq üçün birgə hərəkət etməli və müqavilənin məqsədinə çatmağa maneəçilik törədə biləcək və ya öhdəliklərin icrasını təhlükəyə məruz qoya biləcək hər cür hərəkətlərdən çəkinməlidirlər.

Birgə öhdəlik və səlahiyyətlər isə Azərbaycan Respublikası Mülki Məcəlləsinin 493.2-ci və 500.2-ci maddələrində göstərildiyi kimi, qanuna, müqaviləyə və öhdəlik predmetinin bölünməzliyinə əsasən əmələ gəlir. Başqa sözlə, birgəlik ümumi qaydadan istisnadır. Məsələn, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 46-cı maddəsində nəzərdə tutulmuşdur ki, hüquqi şəxsin təsisçiləri hüquqi şəxsin dövlət qeydiyyatına alınmasına qədər əmələ gəlmiş, hüquqi şəxsin yaradılması ilə bağlı olan öhdəliklərin icra edilməsi üzrə birgə məsuliyyət daşıyırlar.

Subsidiar məsuliyyəti müəyyən edən normalara delikt öhdəliklərində də rast gəlmək olur. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1104.3-cü maddəsində göstərilir ki, əgər on dörd yaşından on səkkiz yaşınadək olan və himayəçiliyə ehtiyac duyan yetkinlik yaşına çatmayan müvafiq tərbiyə, müalicə müəssisəsində və ya qanuna görə onun himayəçisi olan digər oxşar müəssisədə olmuşdursa, həmin müəssisə, zərərin onun təqsiri üzündən yaranmadığını sübuta yetirməsə, zərərin hamısını və ya çatışmayan hissəsini ödəməyə borcludur.

Öhdəliyin icrasının prinsipləri və üsulları

İlk öncə qeyd edək ki, mülki hüququn prinsipləri dedikdə, mülki hüquq normalarında əksini tapan əsas ideyalar və rəhbər başlanğıclar başa düşülür. Bu əsas ideya və rəhbər başlanğıclar vasitəsilə əmlak və şəxsi-qeyri əmlak xarakterli ictimai münasibətlərin hüquqi tənzimlənməsi həyata keçirilir.

Öhdəliklərin icrası prinsipləri dedikdə, öhdəliklərin icrasını nizama salan rəhbər başlanğıclar və əsas ideyalar başa düşülür. Hüquq ədəbiyyatlarında öhdəlik hüququ yarımsahəsinin prinsipləri ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bəzi alimlər öhdəliklərin icrası prinsiplərinə aşağıdakıları aid edirlər:

1) öhdəliyin real icrası (naturada icra, 2) öhdəliyin lazımı icrası, 3) öhdəliyin icrasının sabitliyi.

Bəzi rus ədəbiyyatlarında isə öhdəliklərin icrası prinsiplərinin 2 növü qeyd olunur: 1) real icra prinsipi, 2) lazımı (düzgün) icra prinsipi.

Bir digər qrup alimlərin fikrinə görə isə, öhdəliklərin icrasının bu prinsipləri vardır: vicdanlılıq prinsipi, lazımı icra prinsipi, real icra prinsipi.

Görkəmli rus alimi Suxanov isə öhdəliyin icrasının aşağıdakı prinsiplərini göstərmişdir:

1) Öhdəliyin lazimi icrası (əsas prinsip), 2) Bir tərəfli qaydada öhdəliyin icrasından imtinanın yolverilməzliyi, 3) İcranın reallığı prinsipi (beynəlxalq təcrübədə müqavilələrin vacibliyi kimi tanınır "pacta sunt servanta").

O qeyd edirdi ki, öhdəliyin icrasının prinsiplərindən bəhs edərkən diqqətə çatdırmaq lazımdır ki, istənilən öhdəliyin icrası bəzi ümumi qaydalara tabedir ki, bu qaydalar öhdəliklərin icrasının ümumi prinsipləri kimi xarakterizə edilir. Onlar arasında yuxarıda da qeyd edilən lazımi qaydada icra prinsipi mühüm əhəmiyyət kəsb edir. Bu prinsip "müqavilə disiplini" adı altında konkretləşdirilərək özündə onu ehtiva edir ki, tərəflər müqavilənin şərtləri və qanunvericiliyin tələblərinə dəqiq riayət etməli, öhdəliklərini dəqiqliklə və vaxtında icra etməlidirlər.

Rusiya Mülki Məcəllləsinin 309-cu maddəsində qeyd edilir ki, "öhdəliklər qanunun şərtlərinə və digər hüquqi aktların tələblərinə uyğun olaraq, bu şərtlər və tələblər olmadıqda, işgüzar adətlərin qaydalarına və ya digər normativ tələblərə uyğun olaraq yerinə yetirilməlidir." Lazımi (düzgün) icra prinsipi nəzərdə tutur ki, öhdəlik müvafiq məsələ üzrə və lazımi qaydada, düzgün iştirakçılar tərəfindən, doğru zamanda, həyata keçirilməlidir. [9, s.108]. Bəzi alimlər hesab edir ki, real icra prinsipi özlüyündə müstəqil prinsip hesab edilə bilməz, o lazımi icra prinipinin tərkib hissəsi kimi nəzərdən keçirilməlidir. Lakin biz bu fikirlə razılaşmırıq, çünki bu prinsip öhdəliklər lazımınca icra edilmədiyi hal üçün də öz mövcudluğunu qoruyur. Real icra dedikdə, borclunun kreditorun hər hansı bir köməyi olmadan öz şəxsi qüvvə və səyi ilə öhdəliyi icra

etməsi başa düşülür. Məsələn, pul öhdəliyinin real icra olunması üçün gərəkdir ki, borclu müəyyən məbləğdə pulla gəlib, onu nəzərdə tutulan yerdə kreditora versin [8, s.230].

Qeyd etmək zəruridir ki, öhdəliyin icrası ağlabatanlıq və vicdanlılıq kimi ümumi prinsiplərə riayət edilməklə həyata keçirilməlidir. Məsələn, ağlabatanlıq prinsipindən irəli gələrək, öhdəliklər ağlabatan müddətdə icra edilməlidir (əgər onların icrasının dəqiq vaxtı nəzərdə tutulmamış və bu vaxtı müəyyən etmək mümkün deyildirsə) Podrat müqaviləsində podratçının materiallardan qənaət və hesab apararaq istifadə etməsi öhdəliyin vicdanlılıq prinsipinin tələblərinə riayət edilməklə yerinə yetirilməsinə misal ola bilər.

Öhdəliyin sabitliyi prinsipi özündə onu ehtiva edir ki, öhdəliyin məzmunu sabitdir, dəyişilməzdir və öhdəliyin icrasından birtərəfli imtinaya və onun şərtlərini birtərəfli dəyişdirməyə yol verilmir. Bu prinsip bir çox rus ədəbiyyatlarında öhdəliyin icrasından birtərəfli imtina prinsipi kimi xarakterizə edilir. Öhdəliyin icrasından birtərəfli imtina prinsipi – borclunun mövcud olan öhdəliklərin icrasından birtərəfli qaydada imtinasını nəzərdə tutur Qeyd edək ki, beynəlxalq ticarət dövriyyəsində bu prinsip "müqavilələrin məcburiliyi" kimi də xarakterizə edilir ("pacta sunt servanda" – "müqavilələrə riayət edilməlidir").

Öhdəliyin lazımi qaydada icrasının əsas şərtlərindən biri də onun icra üsuludur. Öhdəliklərin icra üsulu dedikdə, öhdəliyin icrası üzrə borclunun müvafiq hərəkətləri yerinə yetirmək qaydası, yerinə yetirmə forması anlaşılır ki, bu cür hərəkətlər onun icra etməli olduğu öhdəliyinin məzmununu özündə ehtiva edir. Daha da dəqiqləşdirsək, öhdəliklərin icra üsulu öhdəliklərin icrası prosesində öhdəliyin həyata keçirilmə formasıdır ki, bu da öz əksini qanunda və ya müqavilədə tapır

Öhdəliklərin icra üsullarından biri öhdəliyin predmetini kreditora tam halında verməkdən ibarətdir, yəni öhdəliyin tam şəkildə icra edilməsidir. Bu o zaman mümkün olur ki, öhdəliyin predmetini bölünməz əşyalar təşkil edir. Məsələn, yük avtomobili, mənzil. Predmetini bu kateqoriyaya aid olan öhdəliklərin təbiəti tələb edir ki, öhdəlik hissə-hissə icra edilməsin. Misal üçün, aydın məsələdir ki, mənzili və ya avtomobili hissə-hissə bölüb satmaq olmaz. Yəni, ümumi qayda budur ki, öhdəliklər tam icra üsulu ilə icra edilir, lakin danılmaz faktdır ki, ictimai həyatda öhdəliklərin hissə-hissə icra edilməsi halı da mövcuddur. Məsələn kredit müqaviləsinin mahiyyəti tələb edir ki, o hissə-hissə icra edilsin.

Öhdəliklərin qarşılıqlı icrası dedikdə isə o başa düşülür ki, müqaviləyə uyğun olaraq subyektlərdən birinin öhdəliyi icra etməsi digər tərəfin öz öhdəliklərini icra etməsilə şərtləndirilir və qarşılıqlı əlaqədədir. Elə müqavilələr vardır ki, həmin müqavilələrdən əmələ gələn öhdəliklər bu üsulla icra edilə bilmir. Misal üçün, əvəzli, lakin birtərəfli müqavilələrdən (əvəzli borc müqaviləsindən) yaranan öhdəliklərin göstərilən üsulla icra edilməsi istisnadır.

Nəticə etibarilə, öhdəliyin gələcəkdə icrasının və tərəflərin maraqlarının, mülki dövriyyənin inkişafının tam təminatı baxımından istər yuxarıda sadalanan, istərsə də tərəflərin arzusuna görə müəyyənləşdirdiyi icra üsullarının əvvəlcədən müqavilədə razılaşdırılması daha məqsədəmüvafiqdir.

**Açar sözlər:** *öhdəlik, müqavilə, mülki hüquq.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun, 2014*

*2. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 472.1 və 1306-cı maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" 04.06.2018-ci il tarixli Plenum Qərarı*

*3. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 460.1-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" 14.07.2015-ci il tarixli Plenum Qərarı*

*4. Azərbaycan Respublikasının Mülki Məcəlləsi*

*5. Dəmirçiyeva M.D. "Mülki hüquq – ümumi hissə"" (Dərslik) Bakı: Zərdabi LTD MMC, 2015, 696 səh*

*6. Göyüşov R.A "Mülki hüquq – ümumi hissə" (Mühazirələr toplusu) Bakı: Qanun, 2013, 492 səh.*

*7. Novitskiy İ.B. "Roma hüququ" Bakı: Qanun, 2009, 287 səh*

*8. Сакаэ Вагацума, Тору Ариидзуми. Гражданское право Японии. Книга 1. М., 1983, с. 458*

*9. Шершеневич Г. Ф. Учебник гражданского*

*права. - М.: Спарк, 1995. – С. 108.*

*10. Kemal Oğuzman "Borçlar hukuku" (Genel hükümler) İstanbul. 2013 696 səh.*

**РЕЗЮМЕ**

**Понятие, принципы, методы исполнения обязательства**

Нормальное развитие гражданского обращения больше зависит от выполнения взятых на себя обязательств. Это связано с выполнением как договорных (относительных) обязательств, так и внедоговорных (абсолютных) обязательств. В статье глубоко охарактеризованы понятия неисполнения и ненадлежащего исполнения обязательств, даны предложения по путям решения проблем в этой сфере, а также затронуты вопросы, эффективен ли вновь созданный Институт медиации в этой сфере.

**Ключевые слова:** *обязательство, соглашение, гражданские права.*

**SUMMARY**

**Concept, principles, methods of fulfillment of the obligation**

The normal development of civil circulation depends more on the fulfillment of its obligations. This is due to the fulfillment of both contractual(relative) obligations and non-contractual(absolute) obligations. The article deeply characterizes the concepts of non-fulfillment and improper fulfillment of obligations, gave suggestions on ways of solving problems in this sphere, and also touched upon the issues of whether the newly created Institute of mediation is effective in this area.

**Key words:** *obligation, agreement, civil law.*

UOT 33

# FACTORS AFFECTING OPEN END EQUITY FUNDS' PERFORMANCE

**NARMIN AGAYEVA**
*Azerbaijan State Economic University, master*

*E-mail: agayevanermin1996@gmail.com*

## INTRODUCTION

Open funds have some features that work in their favor from an investor perspective. One of the biggest advantages is availability. Open funds, such as closed funds, are also professionally managed. The burden of selecting the right investment to keep in the fund rests with the fund manager. All we have to do is determine which fund to invest in.

There are many advantages and disadvantages of open mutual funds. Mutual funds are divided into open or closed forms. Shares of the main fund are sold in the open market and have a certain number of shares.

If the open fund wants the investor to buy them back and the investor wants to buy back the shares when they want to sell, they will issue new shares based on the current net asset value of the fund.

Open funds always indicate the value of a net asset. Funds are actively managed by specialist money managers, and this important fact often eliminates the stress and time of analyzing financial statements for balances and investors.

When it comes to trading prices, these funds have an advantage because NAV is recalculated every day. This can facilitate trade in or out of the treasury by predicting prices and domestic revenues.

We show that there are divisions in terms of shares and bonds, but this is not the case in some organizational structures, such as fund families. That is, fraternal funds from the same stock family coordinate the retention of shares and bonds of the same firm; brotherhood fund managers share internal information to make more money and make investment decisions accordingly.

This cross-sectional data synergy is in line with the findings of Addoum and Murphy (2020).

Investors in the securities market indicate that they are not getting timely signals about the prices in the credit market and that they are making a lucrative trading strategy on the shares, using the information on the loan side.

Employment has always continued to grow, but at a different pace across countries. Where growth is highest, productivity declines and GDP dynamics are generally low (often weak). Where its growth is lowest, productivity usually (but not always) has a relatively good GDP performance (often at a high level). Between these two gaps, employment growth has adapted to another situation.

In many countries, employment continues the dynamics of short-term GDP, especially in times of sustained recession with declining employment, and a certain level of GDP growth through long-term growth due to increased productivity. In other countries, employment has been equally stable for only a few years, and the dynamics of GDP are reflected only in productivity. [8]

It is expected that "green jobs" in clean sectors of the environment will play an important role in overcoming the current crisis on climate change, and that innovative economic policies will maximize the combined benefits of employment and environmental protection.

**Business cycle behavior**

From the beginning of the recession period, overtime falls normally, and the average wage decreases because overtime is paid more than normal hours. After the onset of the internal recession, organizational regulations (such as contracts) and firms predict that the recession will be shorter, or more or less, employment will remain stable: people do not want to be fired because it is better to be in the same place soon , because they have the special skills required for the position required by the firm.

As the recession deepens, the prospects are dark and there are strategic decisions to rebuild: the number of impacts increases dramatically. Initially, the firm touches on weak employees according to the hierarchy, but then moves on to middle management.

Often, the decline in workers' consumption is not balanced by the increase in the consumption of other groups, as they are also facing recession. The recession is getting worse. This general poor situation allows for changes in the structure of the state and its policy, and it is likely that a package of measures is being implemented to increase these procedures.

With recovery, companies make better use of their production capacity and workers, so GDP can grow without new employees and machines ("jobless recovery"). When wages fall, profits rise, and a more equitable income distribution is restored, this leads to GDP growth, in particular, being driven by the purchase of high-quality goods by the rich. [3,281]

During development, employment begins to expand, as growth prospects strengthen, overtime begins to increase, and firms urgently need new investments and new employees (requiring new skills and expanding the number of people with the same skills).

At peaks in many areas of activity, staffing difficulties may be felt and the number of employees may be less than needed. Firms are becoming less selective in hiring, which is suitable for different cat-

egories. Minorities, youth, women and immigrants are dramatically increasing employment opportunities.

It is important for employers and companies to know the types of employment and the relationship between the employee, the employee and the manager in order to hire new employees.

**Social consequences of unemployment**

The main consequence of unemployment, which is often interpreted, is a significant increase in crime. However, a large-scale study of the issue has yielded mixed results. Kleck, Gary; Jackson, as Dylan points out. "What Types of Unemployment Affect Crime? Serious Investigation of National Property Crime." The study found that those who were unemployed for "socially unacceptable reasons" were "more likely" to commit theft and robbery.

The study also found that job-seekers are less likely to commit robberies than full-time employees. Significantly, however, the meters found that disabled individuals were less likely to "break into the house" but more likely to commit individual robberies than the general population.

The correlation between unemployment and property crime is high among young people. The study found that people between the ages of 18 and 29 were four times more likely to steal than those between the ages of 30 and older. [7]

**The Impact of Unemployment on the Economy**

Some of the effects of unemployment are direct and visible. As unemployment rises, both state and federal governments increase unemployment incomes. It's not incredible. Even in February 2017, when the unemployment rate was around 5 percent (5%) - unemployment benefits, including food and medical prices, amounted to $ 2.96 billion per month. [3, 145]

What is even more significant in the U.S. consumer economy is the chain of effects of this growing benefit, which the government either requires to borrow money to pay for these benefits, thereby diverting spending to the future or reducing spending in other areas. This is a compensation strategy, but the bad economic situation may worsen. A 1967 document by Yale economist Arthur Oku on the relationship between unemployment and economic productivity states that a 1 percent increase in unemployment reduces US GDP (Export Volume) by 2 percent, which is more than 100 percent effective. A 2017 document issued by the Fed on St. Louis under the Arrow Act found that this ratio was "realized 50 years later." [1]

**Employment relations**

Salaman (2000) described employment relationships as the development of more diverse employment patterns, the development of high-tech and commercial sectors, the weakening of the union, the management of all variables that affect work, management style, employee motivation, work environment, job security, company goals, and more. as the use of management strategies aimed at individualizing employment relationships. [5]

This shows that after World War II, many governments played a more active role in employment relations . [2]

Bamber et al. (2014) point out that there are many reasons to analyze different employment relationship systems and learn how they are managed (an international comparative approach is used). Basically, the study of comparative employment relationships can use this information to apply it to comparative purposes.

Trade unions are developed to protect the interests of their members. The ability of trade unions to exercise power and influence over their users depends on the relative demand for this service. Thus, when the demand for skilled labor is high, trade unions are relatively strong and can lower high prices (wages) for the use of that labor. As labor demand becomes tense and unemployment begins to rise, the influence of trade unions will diminish.

The state (all levels of government) plays a decisive role in employment relations, both directly and indirectly. The responsibilities of governments can be divided into five components, including the maintenance of safety standards:

1. to determine the rules for establishing mutual relations between the parties;
2. to ensure that the results of this interaction correspond to the clear needs of the economy;
3. consultation, agreement, arbitration and training;
4. service for labor and management;
5. Serving as a great employer

**FINAL**

The main measures on labor relations and employment are as follows:

• Measures to gradually bring the minimum wage to the minimum living standards and the norm established in European countries - 60 percent of the

average monthly salary, depending on the development of the economy, in order to ensure a decent standard of living for working citizens;

• Continuation of work to increase the share of wages in the total income of the population;

• Development of state programs to strengthen work in the field of ensuring safe and healthy working conditions of working citizens, labor protection and improvement of working conditions;

• Establishment of a national information system in the field of labor and employment, establishment of a system for monitoring and analysis of the situation in the labor market;

• Take serious measures to prevent informal employment;

• Continuation of international cooperation to improve the system of regulation of labor migration processes, ensuring the regulation of the sending of citizens of the country to foreign countries as labor migrants in accordance with international practice.

**Key words:** *employment, economy, state, labor, market, population, social.*

**REFERENCES:**

*1. Harris, R., & Silverstone, B. (2011). Testing for asymmetry in Okun's law: A cross-country comparison. Economics Bulletin, 5(2), 1-13. Retrieved from http://www.economicsbulletin.com/2001/volume5/EB-01E00001A.pdf*

*2. Marielle M. (2012). Education and Economic Growth: Endogenous Growth Theory Test. The French Case. Historical Social Research. 27. 93-107.*

*3. Stijns J.T. Natural resource abundance and economic growth revisited.*

*Development and Comparative Systems, 0103001, EconWPA, 2005.*

*4. Sögner L., Stiassny A. (2020). An Analysis on the Structural Stability of Okun's Law – A Cross-Country Study. Applied Economics. 34. 1775-87. 10.1080/00036840210124180.*

*5. Loginova V. A. Theoretical aspects of competitiveness economic systems. // Problems of the modern economy, 2019, № 1*

*6. Porter ME. Competitive advantage. How to achieve high result and ensure its sustainability, Trans. from English. Moscow 2015*

*7. Porter ME. International competition. - M .: "International Relations", 2013*

*8. Fatkhutdinov R.A. Competitiveness: economy, strategy,control. M .: INFRA-M, 2020*

**XÜLASƏ**
**MƏŞĞULLUQ SƏVİYYƏSİNİN İQTİSADİYYATA TƏSİRİNİN NƏZƏRİ ƏSASLARI**

Məqalədə qeyd olunur ki, hər bir ölkədə məşğulluğun təmin olunması sosial-iqtisadi siyasətin əsas tərkib hissələrindən biri olmaqla, əhalinin sosial təminatının yaxşılaşdırılmasında ən mühüm vasitədir. Eyni zamanda, məşğulluq, təkcə işləyən əhalinin deyil, həmçinin işləyərək sığorta sistemində iştirak edənlərin də bu əsasda pensiyaya çıxdıqdan sonra pensiya təminatında müsbət rol oynayır. Məşğulluq əlaqələri mal və xidmətlərin istehsalına yönəldilmiş iqtisadi əmək qabiliyyətli bir mübadilədir. Məşğulluq əlaqələrinin bütün aspektlərinin nəticələrini anlamaq çox vacibdir. İşçi qüvvəsi ilə idarəetmə arasında yüksək səviyyəli əməkdaşlıq istehsalın daha yüksək etibarlılığına və məhsulun keyfiyyətinə uyğunlaşması ehtimalı ilə bağlıdır ki, bu da təşkilatın bazar mövqeyini gücləndirəcəkdir. Belə ki, məşğulluq əlaqəsi investisiya yatırılmalı olan ən əhəmiyyətli sahələrdən biridir.

**Açar sözlər:** *məşğulluq, iqtisadiyyat, dövlət, əmək, bazar, əhali, sosial.*

**РЕЗЮМЕ**
**ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ ВЛИЯНИЯ УРОВНЯ ЗАНЯТОСТИ НА ЭКОНОМИКУ**

В статье отмечается, что занятость в каждой стране является одной из основных составляющих социально-экономической политики и важнейшим инструментом повышения социальной защищенности населения. При этом занятость играет положительную роль в пенсионном обеспечении не только работающего населения, но и тех, кто на этой основе работает и участвует в системе страхования после выхода на пенсию. Трудовые отношения представляют собой экономически жизнеспособный обмен для производства товаров и услуг. Важно понимать последствия всех аспектов трудовых отношений. Высокий уровень сотрудничества между персоналом и руководством связан с возможностью адаптации к более высокой надежности производства и качеству продукции, что усилит рыночные позиции организации. Таким образом, трудовые отношения - одна из самых важных сфер, в которую нужно инвестировать.

**Ключевые слова:** *занятость, экономика, государство, труд, рынок, население, социальное.*

UOT: 94(479.24), 930:314

# BAKI ƏHALİSİNİN YERLƏŞMƏSİ, SAY VƏ ETNİK TƏRKİBİ (XIX ƏSR)

**ASƏF HACIYEV**
*Bakı Dövlət Universiteti.*
*Tarix üzrə fəlsəfə doktoru*

*E-mail: asafhajiyev@rambler.ru*

Abşeron yarımadasının cənubunda, Xəzər dənizinin qərb sahilində, Avropa və Asiyanın kəsişməsində yerləşən Bakı şəhəri təkcə Azərbaycanın deyil, eləcə də bütün Yaxın Şərqin qədim şəhərlərindən, siyasi, iqtisadi və mədəniyyət mərkəzlərindən biri hesab edilir. Sahəsi 2130 kv. km, əhalisi isə 2020-ci ilin məlumatına görə 2.293.700 nəfər olan Bakı şəhərinin tərkibinə 12 inzibati rayon, o cümlədən 59 qəsəbə daxildir.

Məqalədə əsas məqsədimiz XIX əsrdə Bakı bölgəsi üzrə əhalinin yerləşməsi, say və etnik tərkibini araşdırmaq olsada, öncə şəhərin salınması barədə qısa da olsa məlumat verməyi vacib hesab etdik. Qeyd edək ki, Bakı yaşayış məntəqəsi və şəhər kimi nə vaxt meydana gəlməsi, onun arxeoloji baxımdan az öyrənilməsi və erkən tarixinə dair mənbələrin azlığı baxımından demək olar ki, öyrənilməmişdir.

Azərbaycanın bir sıra şəhərlərinin salınmasını Sasani şahlarının adına çıxan ərəb və fars coğrafiyaşünasları nədənsə Bakı haqqında məlumat verərkən onun yaranması haqqında heç nə demirlər. XVII əsr türk səyyahı Övliya Çələbi heç bir mənbəyə istinad etmədən Bakı şəhərinin təməlinin qoyulmasını Əhəməni şahı Daranın, XVIII əsrin sonu XIX əsrin əvvəllərində yaşamış (1780-1838) Azərbaycan səyyahı Zeynalabdin Şirvani isə Sasani şahı Ənuşirəvanın (VI əsr) adı ilə bağlayırlar [1, səh 27].

Lakin Bakının yaranma tarixinin aydınlaşmasında Abşeron yarımadasının qədim zamanlardakı həyat şəraiti və məskunlaşmasının, həmçinin arxeoloji materialların əhəmiyyəti böyük olmuşdur. Belə ki, Bayılda aşkara çıxarılan Tunc dövrünə aid qaya rəsmləri, İçəri şəhər ərazisində tapılmış tunc balıq fiquru, Şirvanşahlar sarayındakı qayada Qobustandakı oyuqlara bənzər oyuqlar və içərisinə saxsı qablar qoyulmuş qəbirlər olan islamaqədərki çoxtəbəqəli qəbirstanlıq Bakı ərazisində Tunc və antik dövrlərdə yaşayış məskəninin mövcud olduğunu göstərir. Içəri şəhərdə antik dövrün böyük şəhər binalarının sütun bazarlarına oxşayan iki altlığın tapılması da köhnə Bakı qalasını antik dövr şəhəri hesab etməyə və onun yaşını iki min ildən çox müəyyənləşdirməyə imkan verir [1, səh 28]. Lakin hesab edirəm ki, Bakının daha erkən yaranma tarixi var və bu tarixi dəqiqləşdirmək üçün isə bu ərazidə arxeoloji tədqiqatların davam etdirilməsi çox vacibdir.

Bakı şəhər əhalisinin demoqrafik problemlərinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri əhalinin yerləşməsinə aydınlıq gətirilməsidir. Müxtəlif millətlərin Bakıda necə və hansı formada məskunlaşması ilə yanaşı, şəhərin coğrafi mövqeyi də əhalinin yerləşməsində mühüm rol oynayır. Qeyd edək ki, Bakı 1806-cı ildə çar Rusiyası tərəfindən işğal edildikdən dərhal sonra rus komendantı tərəfindən idarə olunmağa başladı. XIX əsrin 40-cı illərindən etibarən isə şəhər qəza rəisliyinə tabe oldu. Bakı məhəllələrində polis nəzarəti sistemi tətbiq edildi. Şəhər məhəllələrini isə kəndxudalar idarə etməyə başladı. Kameral təsvirləri əks etdirən mənbələrdə Bakı qalasının əvvəl 4, sonra 5 hissədən ibarət olduğu barədə məlumat verilir. 1816-cı ildə Bakı şəhərində 4 hissədən ibarət olan Qala ərazisində erməni icması kiçik bir məhəllədə məskunlaşmışlar. Həmin məhəllə 41 evdən ibarət idi [2, səh. 51]. 1832-ci ildə ermənilərin sayının 69 ailədən ibarət olduğu qeyd edilir ki, həmin ailələr də 155 nəfər kişi və 154 nəfər qadından ibarət idi. Kameral təsvirə əsasən ermənilər qəti olaraq konkret bir hissədə yox, sadəcə 4-cü hissənin bir məhəlləsində yerləşmişdilər. 1849-cu ildəki kameral siyahıyaalmada 273 erməni kişinin hansı inzibati hissəyə aid olduğu isə göstərilməmişdir. [5, səh. 59]. Bu da ermənilərin Qalanın konkret olaraq bütöv bir hissəsində deyil, ayrıca kiçik bir məhəllədə yaşadığını göstərir.

1851-ci ildə Bakı şəhərinin forştatla birlikdə əhalisinin sayı 3.755 nəfər kişidən, 3.676 nəfər isə qadından ibarət idi. Bu dövrdə Bakıda yaşayan müsəlmanların sayı 3.340 nəfər kişi, 3.385 nəfər isə qadından ibarət olduğu qeyd edilir. Bakının quberniya mərkəzinə çevrilməsi onun əhəmiyyətini və nüfuzunu artırmaqla yanaşı, şəhərə əhali axınını da gücləndirdi. Bu axın nəticəsində Bakı şəhəri əhalisinin sayı 12.604 nəfərə bərabər oldu. Bəzi məlumatlara görə, 1863-cü ildə Bakı şəhəri əhalisinin sayı 14 000 nəfər olmuşdur. Əslində Bakı şəhər əhalisinin sayı 1863-cü ildə 14.203 nəfər idi [2, səh. 54].

Əhalinin artımı şəhərin ərazisinin böyüməsinə də öz təsirini göstərirdi. 1843-1850-ci illər ərzində Bakının ərazisi 3.500 kvadrat verstdən ibarət olmuşdur [3, səh. 75]. Sonralar Bakı aşağıdakı 9 rayona bölündü. 1.Çəmbərəkənd, 2. Şamaxinka və Təzəpir, 3. Kərpicxana və Qanlıtəpə, 4. Zavağzalnı, 5. Qaraşəhər, 6. Sahil, 7. Mərkəzi rayonlar, 8. İçəri şəhər, 9. Müsəlman və erməni məhəllələri.

1862-ci ildə Bakı quberniyası torpaqlarının ölçülməsi üzrə mütəxəssis Kravçenskinin planına əsasən, Bakı qalasının şimal hissəsində yerləşən yeni yaşayış məhəllələri 150 hektar sahəni əhatə edirdi. Bakının yeni məhəllələri kiçik və düzbucaqlı şəkildə olub düşərgəni xatırladırdı. 1865-ci ildə isə qala divarlarının sahil tərəfə baxan 3 darvazası da söküldü.

Neft sənayesinin inkişafı ilə əlaqədar Bakıya işləmək üçün gələnlər və sürgün olunanlar içərisində malokanlar da var idi. (Qeyd- Molokan bağının adı da buraya sürgün olunmuş molokanların adı ilə bağlı idi. Molokanlıq XVIII əsrdə Rusiyada meydana gəlmiş təriqət kimi dini, kilsəni, ayin və rüsumları inkar edirdi. İlk molokan ailəsi 1843-cü ildə Xızı rayonunun Altı-Ağac kəndində yerləşdirilmişdir - A.H.). 1861-ci ildə əhali köçürmələri üzrə yaradılmış Xüsusi Komitə 1862-ci il fevralın 27-də molokanların xəzinə kəndliləri hesab edilməsi haqqında qərar vermişdi. Bakıda molokanların əsas məşğuliyyəti arabaçılıq idi və onlar mal satmaq üçün "Molokan bağı" adlanan yerə yığışırdılar. Qeyd edək ki, xristian əhalinin sayının çoxalması Bakıda kilsələrin də tikilməsinə səbəb olurdu. İlk kilsə 1815-ci ildə qala divarları arasında tikilmişdi. Hətta 1821-ci ildə Bakı komendantının rəhbərliyi altında kilsə tikdirmək məqsədilə tikinti komitəsi də təşkil olunmuşdur. Kilsələrin tikintisi Rusiya hökuməti üçün böyük əhəmiyyət daşıyırdı, çünki tikilən kilsələr pravoslav kilsələri idi və bu da xristian əhalini katolik təriqətindən uzaqlaşdırmaq və bununlada Qərb dövlətlərinin Cənubi Qafqazda nüfuzunun qarşısını almaq məqsədini güdürdü. Beləliklə, göründüyü kimi əhalinin yerləşməsi, məhəllələr və məscidlərlə də əlaqəli idi. Aşağıdakı cədvəllərdə 1810-1860-cı illər üzrə azərbaycanlıların, ermənilərin və rusların Bakı şəhərində necə yerləşməsi göstərilmişdir (cədvəl 1, 2, 3, 4, 5.).

**Bakı şəhər əhalisinin yerləşməsi (1810-cu il) Cədvəl 1**

| | 1810-cu il | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Ümumi | | Azərbaycanlılar | | Ermənilər | | Ruslar | | Digərləri | |
| | Ailə sayı | kişi | Ailə sayı | kişi | Ailə sayı | Kişi | Ailə sayı | Kişi | Ailə sayı | Kişi |
| Vergi verənlər | 802 | 1892 | 770 | 1814 | 23 | 53 | - | - | 9 | 25 |
| Vergidən azad olunanlar | 129 | 343 | 127 | 340 | 1 | 2 | - | - | 1 | 1 |
| Bəylər | 25 | 98 | 25 | 98 | - | - | - | - | - | - |
| Ruhanilər | 89 | 202 | 87 | 199 | 1 | 2 | - | - | 1 | 1 |

**Bakı şəhər əhalisinin yerləşməsi (1816-cı il) Cədvəl 2**

| | 1816-cı il | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Ümumi | | Azərbaycanlılar | | Ermənilər | | Ruslar | | Digərləri | |
| | Ailə sayı | kişi | Ailə sayı | kişi | Ailə sayı | Kişi | Ailə sayı | Kişi | Ailə sayı | Kişi |
| Vergi verən əhali | 1005 | 2558 | 954 | 2432 | 51 | 126 | - | - | - | - |
| Vergi verməyən əhali | 118 | 254 | 116 | 294 | 2 | 5 | - | - | - | - |
| Bəylər | 33 | 93 | 33 | 93 | - | - | - | - | - | - |
| Ruhanilər | 50 | 126 | 48 | 121 | 2 | 5 | - | - | - | - |

**Bakı şəhər əhalisinin yerləşməsi (1832-ci il)** **Cədvəl 3**

| | 1832-ci il | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Ümumi | | Azərbaycanlılar | | Ermənilər | | Ruslar | | Digərləri | |
| | Ailə sayı | kişi | Ailə sayı | kişi | Ailə sayı | Kişi | Ailə sayı | Kişi | Ailə sayı | Kişi |
| Vergi verən əhali | 1073 | 3158 | 1028 | 3057 | 45 | 101 | - | - | - | - |
| Vergi verməyən əhali | 218 | 508 | 183 | 430 | 35 | 71 | - | - | - | 1 |
| Bəylər | - | - | - | - | - | - | - | - | - | - |
| Ruhanilər | - | - | - | - | - | - | - | - | - | - |

**Bakı şəhər əhalisinin yerləşməsi (1849-cu il)** **Cədvəl 4**

| | 1849-cu il | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Ümumi | | Azərbaycanlılar | | Ermənilər | | Ruslar | | Digərləri | |
| | Ailə sayı | kişi | Ailə sayı | kişi | Ailə sayı | Kişi | Ailə sayı | Kişi | Ailə sayı | Kişi |
| Vergi verən əhali | 1886 | 5034 | 1758 | 4754 | 121 | 273 | 7 | 7 | - | - |
| Vergi verməyən əhali | 152 | 431 | 113 | 314 | 12 | 33 | - | - | 27 | 84 |
| Bəylər | 71 | 187 | 67 | 176 | 4 | 11 | - | - | - | - |
| Ruhanilər | 54 | 160 | 46 | 138 | 8 | 22 | - | - | - | - |

**Bakı şəhər əhalisinin yerləşməsi (1860-cı il)** **Cədvəl 5**

| | 1860-cı il | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Ümumi | | Azərbaycanlılar | | Ermənilər | | Ruslar | | Digərləri | |
| | Ailə sayı | kişi | Ailə sayı | Kişi | Ailə sayı | Kişi | Ailə sayı | Kişi | Ailə sayı | Kişi |
| Vergi verən əhali | 2132 | 6362 | 1994 | 6029 | 124 | 315 | 14 | 18 | - | - |
| Vergi verməyən əhali | 134 | 380 | 119 | 337 | 15 | 43 | - | - | - | - |
| Bəylər | 65 | 200 | 64 | 197 | 1 | 3 | - | - | - | - |
| Ruhanilər | 38 | 112 | 27 | 82 | 11 | 30 | - | - | 1 | 1 |
| Məmurlar | 4 | 20 | 4 | 20 | - | - | - | - | - | - |

[10, səh. 44-45-46-47]

1806-cı ildə Bakı xanlığını Rusiyaya tabe edən çar hökuməti xalqı silah gücünə, məhkəmə gücünə idarə edir, əhalini dini, milli ayrı-seçkiliyə məruz qoyurdu. Bütün Azərbaycan ərazisində olduğu kimi, Bakıda da azərbaycanlı əhali müxtəlif bəhanələrlə şəhərdən qovulur, burada ermənilər və digər millətlərdən olanlar yerləşdirilirdi. General Yermolovun general-mayor fon Krabbeyə 1826-cı il noyabrın 15-də göndərdiyi məktubda Qalada yaşamağı arzu edən ermənilərə burada yaşamağa icazə verməyi məsləhət görürdü.

S.Bronevski qeyd edir ki, 1807-ci ildə Bakıda azərbaycanlılar, dağıstanlılar, ermənilər yaşayırdılar. Əhalinin əksər hissəsi şiə məzhəbinə mənsub idi və çox hissəsi Azərbaycan dilində danışırdı.

Həştərxan gömrüyünün direktoru İvanovun general Tormasova 1809-cu il tarixli məlumatında göstərilir ki, qalada 905 ailə və 4.570 nəfər əhali var idi. İvanovun bu məlumatında qaladakı azərbaycanlıların sayı 4.341 nəfər, ailənin sayı isə 861 göstərilmişdir.

General-leytenant Repin 1810-cu ildə tərtib etdiyi cədvəldə göstərir ki, Bakı şəhərində 1810-cu ildə 931 ev var idi və bu evlərin 897-si azərbaycanlılara, 34-ü ermənilərə, 10-u isə yəhudilərə məxsus idi [1. səh.280]. 1810-cu ildə Bakıda yaşayan 2.235 nəfər əhalinin 2.154 nəfəri azərbaycanlı, 55 nəfəri erməni, 26 nəfəri yəhudi idi. Göründüyü kimi, 1809-cu ildə Bakının ümumi əhalisi 4.370 nəfər göstərildiyi halda, 1810-cu ildə bu rəqəm kəskin azalaraq 2.235 nəfər göstərilmişdir ki, bu da azərbaycanlı qadınlarının siyahıyaalmadan kənarda qalması ilə əlaqədar idi. Lakin həm 1809-cu ildə, həm də 1810-cu ildə əhalinin ümumu sayının azərbaycanlı olması onu sübut edir ki, Azərbaycan türkləri Bakı qalasında böyük əksəriyyəti təşkil etmişlər. 1813-cü ilə olan məlumata görə isə, Bakı şəhəri və ətrafı ilə birlikdə əhalinin sayı 6.494 nəfərdən ibarət idi [1, səh. 283].

1816-cı ildə Bakı şəhəri 4 hissədən ibarət idi. 1816-cı il kameral siyahıyaalınmaya görə, 1-ci hissədə 256 ev, 2-ci hissədə 228 ev, 3-cü hissədə 203 ev, 4-cü hissədə isə 254 ev var idi. Beləliklə, qalada 941 evdən 890-nı azərbaycanlılara məxsus idi. Bakı qala əhalisinin ümumi sayı 4.472 nəfər idi. Əslində səhvən 48 nəfər forştatda yaşayan ermənini nəzərə almasaq onda Bakının əhalisi 4.424 nəfər idi ki, onların da 2.193 nəfəri kişilərdən, 2.231 nəfəri isə qadınlardan ibarət idi. Qalada olan 102 nəfər erməni kişi və 89 nəfər erməni qadını hesaba

almasaq, onda qalada 4.233 nəfər azərbaycanlı yaşayırdı. Forştatda olan 474 nəfər azərbaycanlı kişi və 457 nəfər qadını da nəzərə alsaq, onda azərbaycanlıların ümumi sayı 5.164 nəfər olur. Forştatda olan 192 ev azərbaycanlılara, 10 ev isə ermənilərə məxsus idi. Forştatın ümumi əhalisi 979 nəfər idi. Bunların da 931 nəfəri azərbaycanlı, 48 nəfəri (30 kişi, 18 qadın) isə ermənilərdən ibarət idi.

Əgər 1816-cı ildə Qalada yerləşən 4.424 nəfər əhalinin 4.233 nəfəri azərbaycanlı idisə, 1832-ci ildə qalada yaşayan 3.041 nəfər kişinin 2.869 nəfəri azərbaycanlı, 172 nəfəri isə erməni idi. 1832-ci ildə qalada 1-ci hissədə 325 evdə 903, 2-ci hissədə 211 evdə 655, 3-cü hissədə 242 evdə 696, 4-cü hissədə 188 evdə isə 615 nəfər azərbaycanlı kişi yaşayırdı. Beləliklə, qalada 966 evdə 2.869 nəfər azərbaycanlı kişinin yaşadığı aydın olur. Qalada 69 ev isə ermənilərə məxsus idi. Forştatda 235 evdə 610 nəfər azərbaycanlı kişi yaşayırdı. Müxtəlif yerlərdən müvəqqəti olaraq Bakıya gəlib 10 evdə yaşayan 14 nəfər azərbaycanlı və 11 evdə yaşayan 17 nəfər erməni kişi də nəzərə alınsa, burada cəmi 256 evdə 641 nəfər kişinin yaşadığı məlum olur. Beləliklə qalada cəmi 1.035 evdən 966 ev, forştatda isə 256 evdən 245-i azərbaycanlılara məxsus idi. Qala ilə forştatda cəmi 1.291 ev var idi. Onların 1.211-i azərbaycanlılara, 80-ni isə ermənilərə məxsus idi. Qala ilə forştatda yaşayan kişilərin sayı 3.665 nəfərə bərabər idi ki, onların da 3.493 nəfərini azərbaycanlı kişilər təşkil edirdi. H.Verdiyeva XIX əsrin I yarısında Bakı şəhər əhalisi haqqında məlumat verərkən burada 1831-ci ildə 1.358, 1843-cü ildə isə 1.196 ailə yaşadığını qeyd edir. 1832-1833-cü illərdə Bakı şəhər əhalisinin ümumi sayı 7.786 nəfər olduğu göstərilirdi [3, səh. 91].

1842-ci ildə Bakıda 6.834 nəfər əhali yaşayırdı. Bunların da 549 nəfəri xristian, 5.649 nəfəri isə müsəlmanlardan ibarət idi. Burada 636 nəfərin isə müvəqqəti olaraq Bakıya yaşamaq üçün gəlmiş insanlar olduğunu deməyə əsas verir. 1845-ci ildə Bakı şəhərində kişilərdən ibarət olan azərbaycanlıların sayı 4.012 nəfər idi [3, səh. 91].

1809-1860-cı illər ərzində Bakı şəhər əhalisi 2,5 dəfə (7.258 nəfər) artmışdı. Bu da Bakıda baş verən iqtisadi inkişafın və Rusiyanın köçürmə siyasətinin məntiqi nəticəsi idi. 1832-1849-cu illərdə keçirilən siyahıyaalmalarda köçənlərin Həştərxandan, Tiflis və Türkiyədən gəldiyi göstərilir ki, onlar da əsasən ermənilərdən ibarət idi.

Bakıda 1832-ci ildə aparılmış kameral siyahıyaalmaya əsasən 3.493 nəfər azərbaycanlı kişinin olduğu qeyd edilir. Lakin biz azərbaycanlı qadınların sayının təxminən kişilərin sayı qədər nəzərə alsaq, onda azərbaycanlıların sayı 7.300 nəfər təşkil edər.

1842-ci ildə Bakı şəhərində 6.834 nəfər əhalinin yaşaması qeyd edilir [5, səh. 58]. Əhali artdıqca qalada yeni hissə yaranırdı. Belə ki, 1849-cu ilə aid kameral təsvirə görə, Bakı qalası 5 hissədən ibarət oldu. 1-ci hissədə 455 evdə 1.192, 2-ci hissədə 299 evdə 662, 3-cü hissədə 334 evdə 997, 4-cü hissədə 311 evdə 865, 5-ci hissədə isə 281 evdə 854 nəfər azərbaycanlı kişi yaşayırdı. Beləliklə, qalada 1.680 evdə 4.570 nəfər azərbaycanlı kişi yaşayırdı. Şeyxlərə aid 90 ailədə 276, din xadimlərinə aid 35 ailədə 209, 68 bəy ailəsində 185, 27 iranlı ailəsində 72, 121 erməni ailəsində 273, 12 ərəb ailəsində 12 nəfər kişinin yaşadığını nəzərə alsaq, onda Bakıda ümumilikdə 2.033 ailədə 5.597 nəfər kişinin yaşadığı məlum olur [2, səh. 34]. Lakin başqa bir mənbədə 1849-cu ildə Bakı şəhər əhalisinin sayının 5.465 nəfər kişidən ibarət olduğu göstərilir [10, səh. 52].

Bakı qəza rəisi M. Dementyevin 1850-ci ildə Şamaxı quberniyasının vitse-qubernatoru V.Smittenə verdiyi məlumatda qeyd edilirdi ki, Bakı şəhərində 3.749 nəfər kişi, 3.678 nəfər qadın, ümumilikdə isə 7.427 nəfər əhali yaşayırdı.

1860-cı il siyahıyaalınmasında Bakı şəhərinin 5 hissədən ibarət olduğu göstərilir və azərbaycanlıların yalnız kişi cinsinə aid olanların adları çəkilir, qadınların isə ümumi sayı qeyd edilirdi. Qalanın 1-ci hissəsində 498 evdə 2.772, 2-ci hissəsində 295 evdə 1.796, 3-cü hissəsində 391 evdə 2.199, 4-cü hissəsində 331 evdə 1.894, 5-ci hissəsində isə 374 evdə 1897 nəfər azərbaycanlının yaşadığı məlum olur. İçəri şəhərdə yerləşən bu 1.899 evdə cəmi 10.558 nəfər azərbaycanlı yaşayırdı və onların 5.762 nəfəri kişi, 4.796 nəfəri qadın idi [2, səh. 35]. Qala ətrafı ilə birgə Bakı əhalisinin böyük əksəriyyətini azərbaycanlılar təşkil edirdi və onların ümumi sayı 12.989 nəfər idi. Onların 11.135 nəfəri (6.098 nəfəri kişi, 5.037 nəfəri qadın) əvvəl, 1.854 nəfəri isə sonradan qeydiyyata düşənlər idi. Azərbaycanlıların 7.318 nəfəri kişi, 5.671 nəfəri qadın idi.

Ümumiyyətlə 1860-cı ildə Bakıda 2.994 ev qeydə alınmışdı ki, bu 1810-cu illə müqayisədə təxminən üç dəfə çox idi. 1860-cı ildə Bakıda

artıq 14.203 nəfər yaşayırdı və onların 11.790 nəfəri əvvəl, 2.413 nəfəri isə sonradan qeydiyyata düşənlər idi (cədvəl 6).

**1810-1860-cı illərdə Bakı şəhəri əhalisinin sayı**

**Cədvəl 6**

| İllər | Əhalinin sayı | | | |
|---|---|---|---|---|
| | Bakı şəhəri üzrə | Qala | Forştat | Qala əhal. Ümumi saya nisbətən faizi |
| 1810 | 2.235 | - | - | - |
| 1816 | 5.508 | 4.539 | 969 | 82% |
| 1832 | 3.666 | 3.042 | 624 | 82,9% |
| 1849 | 5.465 | 4.456 | 1.009 | 81,5% |
| 1860 | 12.260 | 10.363 | 1.897 | 84,5% |

Cədvəldən aydın olur ki, 1810-1860-cı illərdə Bakı şəhər əhalisinin sayı 2.235 nəfərdən 12.260 nəfərə qədər artmışdır [10, səh. 44]. Qeyd edək ki, cədvəldə ancaq kişi cinsi qeyd edilib.

1859-cu ildən 1897-ci ilə qədər, yəni 38 il ərzində Bakı şəhər əhalisinin sayı 9 dəfə artmışdı [3, səh. 255-257]. 1897-ci ilə aid olan gəlmə əhalinin sayı Bakı şəhəri üzrə 71.597 nəfər göstərilmişdir ki, bu da şəhər əhalisinin 64%-ni təşkil edirdi. 1873-cü ildən 1897-ci ilə qədər olan müddət ərzində Bakı şəhərində əhalinin sayı 7,4 dəfə, yəni 15,1 mindən 111,9 minə qədər artmışdı. XIX əsrin sonunda Bakı şəhər əhalisinin sayı bütün Şimali Azərbaycan şəhərləri əhalisinin 41,7% -nə bərabər idi. Şəhər əhalisinin bu qədər artımı Bakıya işçi axınının olması ilə əlaqədar idi. Eyni zamanda, həmin vaxt Bakı quberniyasında, eləcədə Bakının özündə kişi cinsindən olan əhali artımının səbəbi də həmin işçi axını ilə bağlı idi. XIX əsrin 70-ci illərinin sonlarında Şimali Azərbaycana gələn rus köçkünlərinin sayı 27,5 min nəfərə bərabər idi ki, bu rəqəm də bütün əhalinin 2,2%-ni təşkil edirdi. 80-ci illərin ortalarında təbii artımın və yeni gələnlərin hesabına həmin rəqəm 11,3%-ə bərabər oldu. Bu artım özünü daha çox 1897-ci ildə biruzə vermişdi. Şimali Azərbaycanın rus əhalisinin 40,2%-i Bakıda yaşayırdı. 1897-ci ilə aid məlumatlarda neft sənayesinin inkişafı ilə əlaqədar bu dövrədək Bakı şəhərinə Avropa Rusiyasından 18.066 nəfər kişi, 14.217 nəfər qadın gəlmişdi. Rusiyanın Avropa hissəsi ilə birlikdə Asiya bölgəsindən, Uzaq Şərqdən gələnlərlə birlikdə onların sayı 37.821 nəfər kişidən, 20.162 nəfər isə qadından ibarət idi.

Avropa ölkələrindən də Bakıya gələnlər var idi. Məsələn, 1868-ci ildə Osmanlı vətəndaşı olan 1 yəhudi, 1885-ci ildə alman, 1888-ci ildə Avstriya, 1890-cı ildə Prussiya vətəndaşı, 1892-ci ildə 1 fransız təbəəsi Bakıda yaşamaq üçün Bakı Xəzinə Palatasına müraciət etmişdilər.

1886-cı il ailə siyahıyaalınmasında Bakı şəhərində azərbaycanlıların sayı 37.530 nəfər, 1897-ci ildə ümumi siyahıyaalma zamanı isə azərbaycanlıların sayı 40.341 nəfərə bərabər idi [9, səh. 3]. Məlumatları müqayisə etdikdə görürük ki, Bakı şəhərində azərbaycanlıların sayı artmışdır. Lakin bununla belə, 1886-ci ildə say etibarilə azərbaycanlılardan sonra ermənilər, 1897-ci ildə isə ruslar çoxluq təşkil edirdi. Bunu aşağıdakı cədvəldə daha aydın izləmək mümkündür (cədvəl 7).

**Bakı şəhər əhalisinin 1886-1897-ci illərdə sayı**

**Cədvəl 7**

| Millətlər | 1886 | 1897 |
|---|---|---|
| Azərbaycanlılar | 37.530 | 40.341 |
| Ruslar | 21.390 | 38.965 |
| Ermənilər | 24.490 | 19.099 |
| Yəhudilər | 391 | 1.905 |
| Tatlar | - | 1.072 |
| Gürcülər | - | 971 |
| Ləzgilər | - | 696 |
| Polyaklar | 1.093 | 835 |
| Almanlar | 1.717 | 2.466 |
| Cənubi azərbaycanlılar | - | 3.369 |
| **Ümumi say** | **86.611** | **111.904** |

[7, s. 34: 9, səh. 3].

1886-cı ildə Bakıda 86.611 nəfər yaşayırdı ki, onların da 54.823 nəfəri kişi, 31.788 nəfəri isə qadın idi. Başqa bir mənbədə isə 1886-cı ildə Bakı şəhərində 60.421 nəfərin yaşadığı göstərilmişdir [7, səh. 26]. 1888-ci ilin məlumatına görə, Bakı şəhəri

əhalisinin sayı 86.611 nəfər, 1889-cu ildə 92.601 nəfər, 1890-cı ildə 105.847 nəfər qeyd edilir. 1894-cü ildə Bakı şəhəri əhalisinin sayı 112.207 nəfər, 1895-ci ildə 121.777 nəfər, 1897-ci ildə isə 111.904 nəfər olduğu qeyd edilsədə, bəzi mənbələrdə 112.253 nəfər göstərilirdi [8, səh. 130].

1886-cı illə müqayisədə 1897-ci ildə rus, yəhudi, tat, ləzgi, gürcü və cənubi azərbaycanlıların sayında artım müşahidə olunurdusa, ermənilərin, polyakların və almanların sayında isə azalma müşahidə olunurdu.

Əhalinin belə fövqəladə artımı Bakını böyük bir sənaye şəhərinə çevirirdi. Əgər 1886-cı ildə Bakıda 86.611 nəfər əhali yaşayırdısa, 1897-ci ildə bu rəqəm 111.904 nəfərə çatmışdı.

1859- 1886-cı illərdə Bakı şəhəri əhalisinin artımı 23,9%, 1873-1897-ci illərdə isə əhalinin artımı 29,2% təşkil etmişdir. Həmin müddət əhalinin sayında 71.506 nəfər artım olmuşdur. 1897-ci il siyahıyaalınmasının məlumatına görə, Bakı şəhərinin 111.904 nəfər əhalisinin 77.597 nəfərini gəlmələr təşkil edirdi.

1810-cu ildə Bakı şəhərinin ümumi əhalisi 2.235 nəfər kişi, 1816-cı ildə 4.472 nəfər, 1845-ci ildə 6.834 nəfər, 1851-ci ildə 7.451nəfər, 1860-cı ildə 14.203 nəfər olmuşdur. 24 il ərzində (1807-1831) Bakı şəhəri əhalisinin 5,1 dəfə, 58 il ərzində (1831-1889) isə 6 dəfə artmışdır. Əgər 1859-cu ildə Bakı şəhərinin quberniya mərkəzinə çevrilməsi zamanı əhalinin sayı 12 min nəfər idisə, 1866-cı ildə 52.245 (27.295 nəfər kişi, 24.950 nəfər qadın) nəfər idi. 7 il ərzində, yəni 1859-1866-cı illərdə Bakı şəhərinin əhalisi 40.245 nəfər artmışdır. 1860-cı ildə Bakıda 14.203 nəfər, 1862-ci ildə 13.392 nəfər, 1864-cü ildə 13,2-13,5 min nəfər, 1867-ci ildə 12.383 nəfər, 1868-ci ildə 15.079 nəfər, 1874-cü ildə 14.577 nəfər, 1877-ci ildə 15.105 nəfər yaşayırdı. Bunların da 782 nəfəri rus, 747 nəfəri erməni, 50 nəfəri yəhudi, 13.526 nəfəri isə azərbaycanlı idi. Verilmiş məlumata diqqət etdikdə 1867-1870-ci illərdə Bakı şəhər əhalisinin sayında azalma və ya az artım müşahidə olunur ki, bu da vəba xəstəliyinin yayılması ilə əlaqədar olduğunu deməyə əsas verir. Beləliklə, Bakı şəhər əhalisinin sayı XIX əsrin ikinci yarısından etibarən daha sürətlə artmağa başladı. XIX əsrin birinci yarısında Bakı şəhərinin əhalisinin artımında əsasən köçürmələr idisə, XIX əsrin ikinci yarısında isə keçirilmiş burjua islahatları və Bakı sənayesinin sürətli inkişafı əsas amillərdən olmuşdur.

XIX əsrdə Bakıda 40-a yaxın millətin nümayəndələri yaşasada, əsasən üç millət: Azərbaycan türkləri, ruslar və ermənilər dominantlıq edirdilər. Yüz il ərzində Bakıda yerli əhali olan azərbaycanlı türklərin, gəlmə əhali olan rusların və ermənilərin artım dinamıkasına diqqət etsək Azərbaycan türklərinin 1809-cu ildə 4.341 nəfər, 1810-cu ildə 2.154 nəfər kişi, 1816-cı ildə 5.164 nəfər, 1832-ci ildə 3.493 nəfər kişi, 1849-cu ildə 5.597 nəfər kişi, 1860-cı ildə 12.989 nəfər, 1886-cı ildə 37.530 nəfər, 1897-ci ildə isə 40.341 nəfər təşkil etdiyini görərik.

Ermənilər 1810-cu ildə 55, 1816-cı ildə 239, 1832-ci ildə 333, 1849-cu ildə 273 erməni kişi, 1860-cı ildə 665, 1886-cı ildə 24.490, 1897-ci ildə isə 19.099 nəfər təşkil edirdi.

Ruslar 1860-cı ildə 541, 1886-cı ildə 21.390, 1897-ci ildə isə 38.965 nəfər təşkil etmişdir ki, bu məlumatı cədvəl 8-də də aydın görmək mümkündür (cədvəl 8).

**1810-1897-ci illərdə Bakı şəhər əhalisinin etnik tərkibi**

**Cədvəl 8**

| İllər | Azərbaycanlılar | Ermənilər | Ruslar |
|---|---|---|---|
| **1810** | 2.154 | 55 | - |
| **1816** | 5.164 | 239 | - |
| **1832** | 3.493 | 333 | - |
| **1849** | 5.597 | 273 | - |
| **1860** | 12.989 | 665 | 541 |
| **1886** | 37.530 | 24.490 | 21.390 |
| **1897** | 40.341 | 19.099 | 38.965 |

Beləliklə, 1810-cu ildən 1897-ci il də daxil olmaqla Azərbaycan türkləri 2.154 nəfərdən 40.341 nəfərədək, ermənilər 55 nəfərdən 19.099 nəfərədək, ruslar isə 1860-cı ildən 1897-ci ilə qədər 541 nəfərdən 38.965 nəfərədək artmışdır [7, səh. 26: 8, səh. 130: 9, səh.3]..

Fikirlərimizi yekunlaşdıraraq belə bir elmi nəticəyə gəlmək olar ki, Rusiya işğalından sonra bütün Şimali Azərbaycanda olduğu kimi, Bakı şəhərində də əhalinin demoqrafiyasında, xüsusilə də

etnik tərkibində ciddi dəyişikliklər baş vermişdir.

**Açar sözlər:** *Bakı, əhali, say dinamikası, etnik tərkib, siyahıyaalma.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Aşurbəyli S. Baki şəhərinin tarixi (orta əsrlər dövrü). Bakı. Azərnəşr, 1998, 356 s.*

*2. Sadıqova H.F. XIX-XX əsrin əvvəllərində Bakı şəhəri əhalisinin etnik və ictimai tərkibi. Bakı, Elm və təhsil, 2017, 232 s.*

*3. Verdiyeva H.Y. XIX əsrin birinci yarısında Şimali Azərbaycan əhalisi. Bakı, 1993,133 s.*

*4. Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджан (XIX- начале XX вв). Баку, Алтай, 1999, 298 с.*

*5. Исмаил-заде Д.И. Население городов Закавказского края в XIX- начале XX в. Москва, Наука, 1991, 256 с.*

*6. Мурадалиева Э.Б. Города Северного Азербайджана во второй половине XIX века. Баку, Издательство БГУ, 1991, 172 с.*

*7. Обзор Бакинской губернии за 1886 год. Баку, 1887, 51 с.*

*8. Обзор Бакинской губернии за 1897 год. Баку, 1898, 130 с.*

*9. Первая всеобщая перепис население Российской Империи в 1897 г. Бакинская губерния, Санкт-Петербург,1905, 167 с.*

*10. Тагиев.Ф.А. История города Баку в первой половине XIX века (1806-1859). Баку, Элм, 1999, 195 с.*

## РЕЗЮМЕ

В 1806 году сразу после оккупации со стороны России город Баку перешел под управление русского коменданта. С 40-х же годов XIX века город вошел в подчинение уездного начальства. В бакинских дворах была внедрена система полицейского контроля. Царское правительство, подчинившее Бакинское ханство России сдерживал народ за счет оружия, судебной тяжбы, подвергал население религиозной, национальной дискриминации. В Баку, как и на всей территории Азербайджана, азербайджанское население под различными предлогами изгонялось и заселялось армянами и представителями других национальностей.

Таким образом, с 1810 года по 1897-ый год включительно, число азербайджанских тюрков с 2.154 человек возросло до 40. 341, армян с 55 человек возросло до 19.099, а русских с 541 человек увеличилось до 38.965 человек. Данные факты свидетельствуют о том, что после российской оккупации в городе Баку, как и во всем Северном Азербайджане произошли серьезные изменения в демографии населения, динамике численности, особенно этническом составе. Это еще раз доказывает, что царская Россия все это делало с целью укрепления своего этно-социального оплота.

**Ключевые слова:** *Баку, население, динамика численности, этнический состав, перепис.*

## SUMMARY

After the occupation in 1806 Baku was immediately ruled by a Russian commandant. From the 40s of the nineteenth century it was subordinated to the city district administration. In Baku estates there was applied police control system. Subordinating the Baku Khanate to Russia the tsarist government ruled the people by force of arms and judiciary and exposed inhabitants religious and national discrimination.In Baku azerbaijani population were expelled from the city under various pretexts as it was in the whole territory of Azerbaijan, and armenians, and people of different nationalities were accommodated here.

Thus, since 1810 till 1897 azerbaijani turks were increased from 2.154 to 40.341 people, armenians from 55 to 19.099 people and russians since 1860 till 1897 from 541 to 38.965 people. All these ndicate a significant change in the dynamics of the population in Baku, especially in the ethnic composition after Russian occupation, as in all Northern Azerbaijan. All these prove once again that tsarist Russia aimed to create a political and ethnic base for itself.

**Key words:** *Baku, population, quantitative dynamics, ethnic composition, census.*

UOT 94(479.24)

# QARABAĞ XANLIĞINDA İNZİBATİ BÖLGÜ VƏ BƏZİ MAHALLARIN "MƏLİKLİK" ADLANDIRILMASI HAQQINDA

**QORXMAZ MUSTAFAYEV**
*Azərbaycan Dillər Universitetinin dosenti, tarix üzrə fəlsəfə doktoru*

*E-mail: qorxmaz_m@mail.ru*

Qarabağ xanlığı yarananda Əfşarlar sülaləsinin idarə etdiyi Qızılbaş dövləti son illərini yaşayırdı. Mərkəzi hakimiyyət uğrunda mübarizə keçmiş imperiyanın bir-birinə düşmən olan qüvvələrini müxtəlif cəbhələrdə birləşdirmişdi. Belə qarışıq bir zamanda Pənah xan keçmiş Qarabağ (Gəncə) bəylərbəyiliyinin bir hissəsində kiçik feodal dövlət olan xanlığını yaratdı. Ölkənin xanlıqlara parçalanması təqdirəlayiq hal deyil, ancaq tarixi reallıq belə idi.

Nadir şahın hakimiyyətindən əvvəl mövcud olan Qarabağ (Gəncə) bəylərbəyiliyinin keçmiş inzibati quruluşu haqqında Osmanlı mənbələri məlumat verir. 1725-ci ildən sonra Qarabağ (Gəncə) bəylərbəyiliyi Osmanlı qoşunları tərəfindən tutulanda, bəylərbəyiliyin Qarabağ ərazisinə düşən aşağıdakı mahallar qeyd edilmişdir: Şütürbasan nahiyəsi, Bərdə nahiyəsi, İncərud nahiyəsi, Sir nahiyəsi, Bayad nahiyəsi, Xaçın nahiyəsi, Çələbiyurd nahiyəsi, Keştək nahiyəsi, Vərəndə nahiyəsi, Dizaq nahiyəsi, Köçəz nahiyəsi, Zarıs nahiyəsi, Keştasf nahiyəsi, Həkəri nahiyəsi, Bərgüşad nahiyəsi, Çuləndər nahiyəsi, Arasbar qəzası, Talış nahiyəsi, Gülüstan nahiyəsi, Yevlaq Qaramanlı nahiyəsi [2]. Eyni zamanda bu qəza və nahiyələrdə Cavanşir, Otuziki tayfasının oymaqları, Kəbirli, Kəngərli, Ətyeməzli, Püsyan və Qaraçorlu camaatı yaylayıb qışlayırdı [2].

Nadir şahın hakimiyyəti illərində keçmiş Qarabağ (Gəncə) bəylərbəyiliyinə tabe olan mahalların bəziləri ləğv edilmiş, bəziləri isə bəylərbəyilik daxil, birbaşa Təbrizə, Azərbaycan bəylərbəyiliyinə tabe etdirilmişdi. Tarixçi tədqiqatçıların da qeyd etdikləri kimi Muğan qurultayından sonra " Nadir şah İbrahim xanı Azərbaycan bəylərbəyi və Azərbaycan sipəhsaları elan etdi" [5, 650]. Göründüyü kimi Qızılbaş dövlətinin ən vacib və bərəkətli bölgəsini qardaşına həvalə edən Nadir şah Azərbaycana böyük önəm vermişdir. Artıq keçmiş Azərbaycan bəylərbəylikləri, Kartli-Kaxet xanlığı (çarlığı) bir bəylərbəylikdə, yaxud vilayətdə birləşdirilir: "bütün Cənubi Qafqaz və İran Azərbaycanı onun hakimiyyəti altına verildi" [5,650].

Qarabağ xanlığı eyniadlı bəylərbəyiliyin əsas hissəsində yarandı, digər hissəsində isə Gəncə xanlığı yaranmışdı. Pənah bəy xanlığı quranda Qarabağ ərazisində əvvəlki idarəçilik hökm sürürdü. Bu xanlığın digər xanlıqlardan fərqi o idi ki, həm mərkəzi şəhəri yox idi, həm də idarəçilik institutuna malik deyildi.

Azərbaycan tarixşünaslığında Qarabağ xanlığı yaranan zaman Pənah xana müqavimət göstərən qüvvələri əsasən "məlik"lər, "məliklik əhalisi" kimi göstərilir. Ancaq həmin dövrün hadisələrini qeyd edən M.Adığözəl bəy "Qarabağnamə" əsərində yazır: "Cavanşir və Otuz-iki əhalisinin ürəklərində ədavət alovu şöləländi və beyinlərinə kin havası hücum etdi. Onlar həmişə bu dövlətin yox olması uğrunda son dərəcədə səy və qeyrət edirdilər" [3,34]. Bu məlumatlardan görünür ki, Pənah xana qarşı müxalif olanlar, mərkəzi hakimiyyətə "sədaqət"ini qoruyub saxlayan qüvvələrlə bərabər, əsasən yerli Cavanşir və Otuziki tayfası və onlara bağlı elatlar olmuşdur. Xristian əhalinin yaşadığı mahalların əhalisini isə adı çəkilən tayfalar özlərinə həmrəy etmişdilər, əslində mahalın xristian türkləri Cavanşirlərlə, Otuzikilərlə birgə fəaliyyət göstərirdilər. "Qarabağnamə"dən də göründüyü kimi "onlar Xəmsə məliklərini də özlərinə həmməslək və müttəfiq etmişdilər" [3,34]. Azsaylı xristian əhali ayrılıqda müqavimət göstərmək gücündə deyildi, onlar Qarabağın Pənahəli xana müxalif tayfalarına, Şəki xanlığına və Gəncə xanlığına arxalanırdılar. Qarabağdakı xristian türklərin gücünü şişirtmək, onları "erməni" kimi qələmə vermək çar dövrü və sovet dövrü Rusiya tarixşünaslığında qırmızı xətlə keçmiş, eyni fikirlər Azərbaycan tarixşünaslığında da təkrar olunubdur. M. Adıgözəl bəy əsərində bir daha Pənah xanın dilindən "Cavanşir və Otuz-iki elatı yağı, Xəmsə məlikləri də mənə düşməndir" deyə ona müxalif

olan daxili qüvvələri bir daha xatırladır [3,35].

Nadir şahın sui-qəsd nəticəsində öldürülməsindən sonra ölkədə yaranmış hərc-mərclikdən hərə bir şəkildə istifadə edirdi. Pənah bəy xanlıq yaradıb xan olmuş, Nadir şahın əmrilə Azərbaycan (Təbriz) əyalətinə tabe olan mahal naibləri itaətdən çıxmağa meyllənmişdilər. Bəs Pənah xan hansı tayfalara arxalanırdı və hansı əraziləri öz dövlətinə daxil etmişdir? M.Adıgözəl bəy Qarabağ vilayətinin əsl əhalisi haqqında yazır: "Qarabağ vilayətinin əsl elatı, kənd əhalisindən başqa, Cavanşir, Otuz-iki və Kəbirlilərdir." Demək "kənd əhalisi" yerli əhali sayılırdı, ancaq mənbələrin araşdırılması onların da bəzilərinin gəlmə olduqlarını göstərir. Pənah xan elata, əsasən Kəbirli elatına daha çox arxalanırdı. Bu elat Qarabağın "əsl elatı" sayılırdı. Qarabağın əsl elatları içərisində Cavanşir və Otuz-iki elatlarına etibar etməyən Pənah xan digər vilayətlərdən də elatları dəvət etmiş, yaxud onlar "xanın ədalət, şövkət və təntənəsinin sədasını eşidərək" onun "dövlətinə pənah gətirmişdilər" [3,36]. Bu elatlara Kəngərli, Dəmirçi Həsənli elləri, Cinni tayfası daxil idi. Pənah xanın qurduğu dövlətin ərazisi, əvvəllər mərkəzi Gəncə şəhəri olan Qarabağ (Gəncə) bəylərbəyiliyinin ərazisi idi. İlk növbədə bu ərazilərə sahiblənmək üçün addımlar atıldı. Gəncə hakimlərinə aid "Xüdafərin körpüsündən Kürək çayına qədər olan yerləri" öz əlinə keçirən Pənah xan dövlətinin sərhədlərini genişləndirməkdə davam edirdi [3,36]. Mənbələrdə hansı mahalın, hansı ərazilərin daha tez Qarabağ xanlığına qatıldığı qeyd edilməsə də, M.Adıgözəl bəyin sıralamasına istinad etdikdə belə başa düşmək olar ki, ilk olaraq "Mehri, Güney mahalları" Qaradağ xanından, sonra "Tatef və Sisyan mahalları" Naxçıvan xanından, "Zəngəzur və Qapan mahallarını Təbriz bəylərbəyisindən", "Kolanıların məskəni olub, Uşacıq kəndindən Göyçə sərhəddinə qədər uzanan Tərtər çayı sahilindəki yerləri İrəvan" xanından almışdır. Araz çayından Kürək çayına qədər olan ərazilərin ələ keçirilməsi ən sonda qeyd edilsə də, həmin ərazilərin böyük hissəsinin ilk olaraq ələ keçirilməsi xanlığı tarixində də görünür. Çünki xanlıq ilk olaraq Araz-Tərtər çayları arasında qurulub, sonradan ərazisi genişləndirilib. A.Bakıxanov yazır: "Pənah bəy İbrahim Xəlil oğlu Cavanşir ... əvvəlcə Bayat və daha sonra Tərnaut qalasını bina etdi" [1,184]. O, M.Adığözəl bəyin qeydlərini təkrarlayır: "Xüdafərin körpüsündən başlayaraq Kürək çayına və Bərgüşad mahalına qədər yerləri ələ" keçirən Pənah xan Qaradağ hakimlərinin əlində olan Mehri və Güney mahallarını, "Naxçıvana aid Tatif və Sisyanı, İrəvana aid Tərtər Kolanını və Təbrizə aid olan Zəngəzur və Qapanı tutdu" [1,184]. Buradan da görünür ki, xanlıq Qarabağın düzən və dağətəyi zonalarında yaranmış, sonra da Pənahabad qalasının tikilərək Şuşa şəhərinin salınması ilə xanlığın ərazisi dağlara doğru genişləndirilmişdir.

Xanlığın tərkibinə daxil olan yaşayış məskənlərində yaşayan əhali əsasən müsəlman türklərdən ibarət idi, ancaq dağətəyi ərazilərdə azsaylı xristian türklər və Şirvandan gəlmə udinlər də yaşamışdır. Bu xristian əhali Ağa Məhəmməd şah Qacarın yürüşləri ərəfəsində və Rusiyanın işğalından sonra qaçıb dağıldı, əksəriyyəti İslam dinini qəbul etdi. Qarışıqlıq zamanında qaçıb dağılmış və İslam dinini qəbul etmiş xristian türklərin kəndlərinə Qacar və Osmanlı dövlətlərindən erməni haylar köçürüldülər. XIX yüzilliyə qədər əksər hallarda dini mənsubiyyəti bildirən "erməni" sözünü haylar etnik ad kimi mənimsədilər. Bununla da qədimdən burada yaşayan, uzun əsrlər boyu tədricən xristianlıqdan müsəlmanlığa keçən türk əhalisinin mədəni dəyərləri oğurlandı. Bölgəyə yad olan ünsürlər oğuz və qıpçaq türklərinin xristianlıq dövrünə aid olan mədəniyyətə sahibləndilər. Məqsədli şəkildə Rusiyada və Avropa dövlətlərində çap olunan əsərlərdə buranın xristian mənsəbli köklü əhalisini "erməni" adlandırdılar. Rusiya dövləti tərəfindən mahalların xristian əhalisini etnik "erməni" kimi qələmə verdilər, XIX yüzillik tarixçilərimiz bu fikirləri əsərlərində "sənədləşdirdilər" [1,184].

Mxitaristlərin "redaktəsi" ilə çap olunan çamçiyanların əsərlərindən geniş şəkildə istifadə edən A.Bakıxanov da "Gülüstani-İrəm" kimi qiymətli əsərində ermənilərlə bağlı məsələlərdə həmin əsərlərin təsiri altında olduğu görünür [1]. Əlavə araşdırmalar aparmadan məliklik əhalisini "erməni" adlandıran XIX yüzillik tarixçilərimiz bizə miras qoyduqları əsərlərindəki təhriflərilə yanlış araşdırmalarımıza səbəb oldular. Biz də onların ardıcılları kimi gəlmə erməni haylarla, "erməni" adlandırılan alban türklərini bir-birindən ayırmadıq və təbliğatımızda onlara "yardımçı" olduq.

M.Adıgözəl bəy qismən, yaxud əsasən əhalisi xristian məzhəbli olan mahalların naibləri haqqında dolğun məlumat verir. "Qarabağnamə"də Dizaq mahalının naibi məlik Yeqanın Loridən qaçıb gəldiyi və Nadir şah tərəfindən mahal naibi təyin edildiyi qeyd edilir [3,36]. Vərəndə naibi olan məlik Şahnəzərlilərin isə Göyçədən gəlmə olduqları, xanın yanında "etibar sahibi" olduqları göstərilir [3,36]. Xaçın mahalının naibləri Həsən Cəlal övladlarından olmuş və "bu ailə məliklik mənsəbindən məhrum olduqdan sonra" Pənah xana sədaqəti ilə fərqlənən xınzırıstanlı Mirzəxan məlik təyin edilmişdir. Ondan sonra isə növbə ilə oğlu Allahverdi və nəvəsi Qəhrəman məlik təyin edilmişdir [3,36-37]. Çələbiyurd (Çiləbörd) mahalının naibi Allahqulunun nəsli isə Mağavizdən gəlmə olmuşdur. Allahqulu Qızılbaşlar tərəfindən "Osmanlı sərəskəri Köprülü oğlu Abdullah paşa"ya qarşı müharibədə "sücaət" göstərdiyi üçün Nadir şah ona "sultanlıq" rütbəsi vermişdir [3,37]. Talış mahalının naibi Usubun əsli Şirvandan gəlmə olub, "Talış kəndində sakin olmuş"dular. Məlik Usub "Gülüstan qalasını zəbt" edəndən sonra orada məskunlaşmışdır [3,37].

Çavanşir və Otuz-iki elatının Pənah xana qarşı düşmənçiliyində elat tərəfi tutanlardan biri olan Yeqan övladlarından Dizaq mahalının məliyi xana qarşı çıxmış və məğlub edilmişdir [3,37]. Vərəndə məliyi Şahnəzər Pənah xanla qohum olmuş, qızını onun oğlu İbrahim bəyə ərə vermişdir. Pənah xan, sonra da İbrahim xan Şahnəzər və onun oğlu Cəmşidə hörmətlə yanaşmışdır [3,38]. Ancaq Şahnəzərin nəvəsi Ulubab "Xaçında müxtəlif kəndlərdən və ayrı-ayrı qəsəbələrdən qoşun adı ilə dələduzları cəm edib" Ballıqayada üsyan qaldırmışdı [3,38]. Pənah xan onları məğlub edib özünə tabe etmişdir.

Pənah xanın hakimiyyətinin ilk illərində Qızılbaş dövlətində mərkəzi hakimiyyət uğrunda mübarizədə qalib müəyyən edilmədiyindən bəzi mahal və elatlar yeni xanın hakimiyyətini tanımaq istəmirdilər. Keçmiş hakimiyyət tərəfindən "təltif edilmiş" bəzi naiblərin hərəkətində meydan oxuma hiss olunurdu. Belə təəssürat yaradanlardan biri Allahqulu sultan olmuşdur. Məlumatlardan görünür ki, Nadir şah tərəfindən "sultan" tituluna layiq görülən Çiləbörd məliyi Allahqulu sultan Ağoğlanda olduğu zaman Pənah xanla görüşmüş və onun hərəkətləri xanda şübhə yaratmışdır. Pənah xan, "Naxçıvan hakimi Heydərqulu xan"ın məsləhəti ilə "Allahqulu sultanı öldürt"müşdür [3,38]. Allahqulunun ölümündən sonra qardaşı Hətəm Çələbiyurd məliyi olmuş, Pənah xana itaətdən boyun qaçırmışdır. O, talışlı Usuba əmisinin öldürüb məlik olmasında yardım etmiş, sonra da birlikdə "Çermux qalası"na çəkilib düşmənçilik etmişdilər [3,38]. Əslində isə Gəncə və Şəki xanına arxalanan Məlik Hətəm və məlik Usub 4 il Pənah xana qarşı müqavimət göstərmiş, ona qarşı vuruşan qüvvələrə yol göstərmişdir [3,38]. Artıq bütün qonşu xanlar da Pənah xanın hakimiyyətini tanımağa məcbur olandan sonra Gəncə mahalına qaçan məliklər əhalisi ilə birlikdə 7 il Şəmkir tərəflərdə "zillət"lə yaşamışdılar [3,39].

Yuxarıda da qeyd etdiyimiz kimi, Rusiya və Avropa dövlətlərində çap olunan tarixi ədəbiyyatlarda məqsədli şəkildə Azərbaycanın yerli xristian əhalisini "erməni" adlandırıblar. Qarabağın xristian alban türklərinin "erməni" kimi qələmə verilməsi Eçmiədzin katolikosluğunun fəaliyyəti ilə başlamış, sonralar İsrail Ori və həmfikirlərinin yazışmalarında intensiv xarakter alır. Azərbaycandakı qeyri-müsəlman əhali haqqında məlumat verən əksər mənbələrin tərcüməsində "xristian", "məsihi" sözləri "erməni" kimi tərcümə edilmiş, tədqiqatçıları da çaşqınlığa salmışdır. Mənbələrdə Qarabağda yaşayan xristian əhali haqqında məlumat verilərkən onlar "erməni" kimi qeyd olunmur, "qeyri-müsəlman", yaxud "xristian" əhali kimi xatırlanırlar. Çünki buradakı xristian əhali elat türkləri kimi yaylağa-qışlağa gedir, müharibə olarsa hər evə bir əsgər verir, öz aralarında türkcə danışırdılar. Yəni burada yaşayan xristian əhalinin ermənicə danışması haqqında heç bir məlumat yoxdur, kilsələrdə erməni əlifbası ilə ermənicə yazılan saxta məktublardan xalqın əksəriyyəti xəbərsiz idi. Qarabağın xristian əhalisinin türkcə danışmasını sübut edən amillərdən biri də yer-yurd adlarıdır. Qeyd etdiyimiz kimi Qarabağa gəlmə erməniləri çıxmaq şərti ilə yerli xristian alban (ağvan) türkləri digər müsəlman türklərdən dilləri və adət-ənənələri ilə (dini baxışlarını, xristianlıq ənənələrini çıxmaq şərtilə) fərqlənmirdilər. XIX yüzillikdə Rusiya tərəfindən Azərbaycanın şimal torpaqları işğal olunduqdan sonra xristian əhalini qeydsiz-şərtsiz "erməni" kimi qeyd etdilər və əvvəlki qeyri-müsəlman əhalinin yerinə köçürülən ermənilər "qədimlik statusu"nu əldə etdilər. XIX əsr sayım sənədlərində bəzi xristian türk elatının əhalisinin

"erməni elatı" kimi qeyd edilməsinə rast gəlirik. 1823-cü il sayımında Kolanı mahalına aid sayı 9 ailədən ibarət Aqmaxi (Ağmahi) əhalisini buna misal göstərmək olar [7, 238].

Qarabağdakı xristian türklərin naibləri, yaxud məlikləri özlərini əvvəlki hakimiyyətə sadiq kimi göstərirdilər. Onların yeni hakimiyyət quran Pənah xana qarşı çıxmaları öz gücləri və iradələri hesabına deyildi, "Qarabağnamə"də də deyildiyi kimi müxalif "Cavanşir, Otuz-iki" və mərkəzi hakimiyyətin güclənəcəyinə inamı olan qüvvələrlə həmrəyliyinin nəticəsi idi [3,33]. Bir çox tayfaların Pənah xanın hakimiyyətini qəbul etməsindən sonra, düşmənçilikdə çox irəli getmiş və təkləndiklərini görən Çələbiyurd məliyi Hətəm və Gülüstan (Talış) məliyi Usub qorxusundan tabeçiliyindəki əhalinin də müəyyən hissəsini götürüb başqa vilayətə, Gəncə xanının hakimiyyətinə sığınmışdılar. Məliklərinin səbatsızlığı səbəbilə yurdlarından olan xristian türklərin böyük hissəsi qaçqınçılıqda İslam dinini qəbul edir və sonrakı yaşam tərzlərində müsəlman türklərdən heç nə ilə fərqlənmirdilər. Bəzilərinin də səhv anladığı kimi yenicə müsəlman olan əhali etnik erməni deyil türk əhali idi, sadəcə olaraq dinlərini dəyişmişdilər.

Osmanlı dövləti tərəfindən 1725-1727-ci illərdə "vergiləri nizamlamaq məqsədilə" tərtib olunan "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ndəki qeydlər yuxarıda qeyd etdiklərimizə şahidlik edir [2,4]. Hesab edirəm ki, əhalisinin siyahıya alınmasında bəzi qeydlərə əhəmiyyət verməmiş, onları düzgün təhlil etməmişik. Siyahıyaalmalarda "qeyri-müsəlman" yazılan əhalini də "erməni", "erməni mənşəli" şəklində oxucuya çatdırmış, məsələni daha da qəlizləşdirmişik. İnzibati ərazilər, onların sərhədləri, əhalisi haqqında məlumat verən bu sayım sənədini bir daha təhlil edən zaman görürük ki, bir çox yaşayış məskənlərində İslam dinini qəbul etmiş türklərlə, hələ də xristianlığını qoruyub saxlayan türklər bir arada yaşayır. Əsarət altında olduğumuz çar və sovet hakimiyyəti illərində xristian əhalinin ancaq ermənilərdən ibarət olması fikri beynimizə elə doldurulub ki, hələ də onun təsiri altından çıxa bilmirik. Ancaq sənədlər maraqlı faktları ortalığa çıxardır. "Müfəssəl dəftər"də əksər nahiyələrin qeyri-müsəlman əhalisinin etnik mənsubiyyəti açıq izah olunmamış, "xristian"lıq "erməni"liklə qarışdırılmışdır. Dağətəyi kəndlərdə islamlaşma zəif getsə də düzən ərazilərdə artıq əhalinin əksəriyyəti islam dinini qəbul etmiş və sonuncu xristian ailələr də keçid dövrünü yaşayırdılar. "Müfəssəl dəftər"də Yevlax Qaramanlı nahiyəsinin Bük kəndində vergi verən əhali içərisində 16 nəfər müsəlman, 3 qeyri-müsəlman, Qumlaq kəndində 50 müsəlman, 3 qeyri-müsəlman yaşadığı qeyd edilir [2,180-181]. Əhalinin İslama keçidi bəzi kəndlərdə sürətli olsa da, bəzi kəndlərdə zəif gedirdi. Bərdə nahiyəsində "Sarı çayının kənarında" yaşayan camaatın bir hissəsi İslamı qəbul edib "Kiçik Sarı..." adlı kənd yaratmış, digər hissəsi isə "Sarıbəy" adı ilə hələ də xristianlığı saxlayırdı [2,284-285]. Qaramanlı oymağının Bıçaqlı camaatı içərisində 4 nəfər qeyri-müsəlman qeydə alınmışdır [2,288-289]. Bu siyahılarda müsəlman etiqadlı əhli içərisində qeyd etdiyimiz qeyri-müsəlmanlar nökər, xidmətçi qismində də ola bilərdilər, ancaq əksəriyyətinin İslam dininə keçmiş həmkəndlilərinə aid olduqları verdikləri "ispəncə" vergisindən də aydın olur. Yəni "ispəncə" vergisi də "bennak və subay vergisi" kimi kəndlərin vergi vermək qabiliyyəti olan sakinlərindən alınırdı. Mövsümi işçilər olan nökər və xidmətçilərdən vergi alınması haqqında "müfəssəl dəftər"də məlumatlar verilmir. Bərdə nahiyəsinə aid Adəmabad kəndinin siyahısı dediklərimizi bir daha təsdiqləyir. Bu kəndin sakinlərindən "Allahverdi Avak oğlu, (Allahverdinin) qardaşı Ağalı, Arakel Akop oğlu, Arakelin oğlu Yaqub"un İslam dininə yenicə keçdikləri onların ödədiyi "bennak və subay" vergisindən də görünür [2,297-298]. Bərdə nahiyəsinə aid olub, Tərtər çayı sahilində olan Gücnü kəndində 4 müsəlman, 7 qeyri-müsəlman olmuş, kənd İslam etiqadına keçid mərhələsində idi [2,301]. Kəndin müsəlman olan sakinlərindən vergilərin alınmamasını şirnikləndirmə, yaxud o zamanın şərtlərinə aid olduğunu tam deyə bilmirik, ancaq son nəticənin müsəlmançılığı qəbul etmək olduğunu söyləyə bilərik. "Müfəssəl dəftər" qeydə alındığı illərdə Bərdənin Zümürxaç kəndində yaşamış xristian türklərin artıq İslam dininə keçdiyini görürük. Kəndin 3 vergi verən sakininin "bennak və subay" vergisi verdiyini, ancaq adlarının hələ də xristian mənşəli (Makar, Sarkis Haqnəzər oğlu, Xacum) olduğu dediklərimizi sübut edir [2,302]. Bu siyahını uzatmaq da olar, ancaq əsas məqsədimiz odur ki, qeyd etdiyimiz XVIII yüzillikdə İslama keçid prosesinin davam etdiyini diqqətə çatdıraq.

Bu dövrdə Qarabağın xristian türklərin yaşadığı kəndlərdə müsəlmanlaşma prosesini Rusiyanın işğalçılıq siyasəti də sürətləndirdi. Qızılbaşlarla bir çərgədə Rusiyaya qarşı vuruşan yerli xristian türklər imperiyanın təzyiqlərindən qaçıb dağıldılar və islamı qəbul etmələri sürətləndi.

Qeyd etdiyimiz kimi bölgənin xristian əhalisinin əsas hissəsi türklərdən ibarət idi. Yəni onlar xristian etiqadlı olub türk dilində danışırdılar. General Yermolovun Mədətovla yazışmalarında Qaladərəsi kəndi ilə bağlı deyilənlər buna misal ola bilər [4]. Çar məmurlarının yazışmalarından aydın olur ki, yerli xristian əhali Qızılbaşlarla birlikdə ruslara qarşı vuruşmuşdur. Yermolov sərəncam verir ki, "bizə qarşı vuruşan" və "qızılbaşlara kömək" etdikləri üçün Qaladərəsi kəndini xəzinəyə daxil etmək lazımdır [6,870]. Mənbələrdən də göründüyü kimi Qaladərəsi kəndi Xan ailəsinə mənsub olduğu üçün 1823-cü il sayımları zamanı xəzinəyə daxil edilməmişdir. Ancaq bütün xristian əhalinin yaşadığı kəndlər kimi rus məmurları tərəfindən "erməni kəndi" kimi qeyd edilmişdir [8,20]. Yermolovun və Mədətovun göstərişilə kəndin köklü xristian mənşəli türk əhalisi didərgin salındı və yerində köçürmə ermənilər yerləşdirildi. Hətta vəziyyət elə gətirmişdi ki, Mədətov müsəlman mahallarının bəylərini, yaxud naiblərini köçürüb gətirdikləri erməni haylardan seçirdi [6,867-869].

Beləliklə XVIII yüzillikdə Qarabağdakı xristian əhalinin müsəlmanlaşması sürətləndi və Rusiya imperiyasının işğalı ərəfəsində demək olar ki, yekunlaşdı. Qaçıb dağılmış və İslamı qəbul etmiş xristian türklərin əvvəlki məskənlərində yeni köçürülən ermənilər məskunlaşdırıldılar. Dinini etnik mənsubiyyətindən vacib sayıb İslamı qəbul etməyən, öz əvvəlki kəndlərinə qayıdan tək-tük xristian ailələri isə kütləvi şəkildə köçürülən erməni hayların içərisində əridi, yaxud Gürcüstana və ya Rusiyaya getdilər. Köçkün erməni haylar isə artıq türklərin ibadət etmədikləri vənglərin böyük əksəriyyətinə sahibləndilər, özlərini bölgənin qədim sakinləri kimi qələmə verməyə başladılar. Əslində isə onların buna heç bir haqqı yoxdur, çünki XVIII yüzilliyin əvvəllərinə aid siyahıyaalınmalarda qeyd olunan bölgənin xristian etiqadlı əhalisinin 95-97 faizi müsəlmanlaşmış, 3-5 faizi isə qaçıb xaricə getmiş, yaxud erməniləşmişdir. Son mərhələdə İslamı qəbul etmiş 95-97 faiz əhali Qarabağda yaşamış və onlar bölgənin əsas əhalisini təşkil ediblər. Bölgənin aborigen əhalisi aranlı-dağlı Qarabağda, qismən Göyçə-Zəngəzurda yaşayan türk əhalisidir ki, onların İslama keçid dövrü VII-VIII yüzillikdən başlamış və XVIII-XIX yüzillikdə də başa çatmışdır.

**Açar sözlər:** *Qarabağ xanlığı, mahal, məlik, naib.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Bakıxanov A. Gülüstani-İrəm, Bakı: "Xatun Plyus", 2010.*

*2. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Bakı: "Şuşa" nəşriyyatı, 2000.*

*3. Qarabağnamələr. Bakı: Yazıçı, 1989.*

*4. Mustafayev Ə. Tarixi yalan və Qarabağ faciəsi // "Qarabağ dünən, bu gün və sabah" 10-cu elmi-əməli konfransının materialları. Bakı, 2011, səh.67*

*5. Süleymanov Mehman. Nadir şah. Tehran, 2010.*

*6. Акты, собранные Кавказской археографической комиссией. В 12-и тт. / Под ред. А. Берже. Т.VI, Тифлис: Типография Глав. Управ. Наместника Кавказа, 1874.*

*7. Описание Карабагской провинции, составленное в 1823 году, по распоряжению главноуправлявшаго в Грузии Ермолова, действительным статским советником Могилевским и полковником Ермоловым 2-м, Тифлис-1866.*

*8. Описание Карабагской провинции. Тифлис,1866. Переиздан. Баку, 2003.*

## Administrative division at Karabakh khanate and about some mahals which were called "melikdoms"

**Gorkhmaz Mustafayev**
***Associate professor of Azerbaijan University of Languages, PhD in History***
***qorxmaz_m@mail.ru***

## SUMMARY

The article re-examines some points in the process of establishment of the Karabakh khanate. Approached from a different point of view to the political and administrative situation, transition from old political-administrative structure to the new, reorganization of mahals, forces that do not want to obey the newly formed khanate in the early

period of the khanate.
Special attention was paid to mahals' naibs of Mahals in which Christian people lived whom named "maliks". It was noted that Christian turk and udin of the region known as "albanian" was unfairly portrayed as "armenian".

**Keywords:** *Karabakh khanate, mahal, melik, naib.*

**Об административном делении Карабахского ханства и именовании некоторых махалов на "меликства"**

**Горхмаз Мустафаев,**
***доктор философии по истории, доцент***
***Азербайджанский Университет Языков***
***qorxmaz_m@mail.ru***

**РЕЗЮМЕ**

В статье рассматриваются некоторые аспекты становления Карабахского ханства. В начальный период ханства политическая и административная ситуация, переход от старого политико-административного устройства к новому, реорганизация махалов, деятельность сил, не желающих подчиняться новому ханству, рассматривались по -разному.

Особое внимание было уделено деятельности так называемых махалских наибов, проживающих в махалах населенных христианами. Было отмечено, что турки-христиане и удины, известные как "албанское" население региона, несправедливо записаны как "армяне".

**Ключевые слова:** *Карабахское ханство, магалы, мелики, наибы.*

UOT 94(479.24)

# “ÇALDIRAN DÖYÜŞÜ” PALERMODA MİRTO SARAYINDA

**AYNUR ORUCOVA**
*Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun dissertantı*

*E-mail: aynur.orucova1995@gmail.com*

Azərbaycan tarixinin mühüm mərhələlərindən birini təşkil edən Səfəvilər imperiyası dövrü ən şanlı tarixi səhifələrimizdəndir. Bütün Azərbaycan torpaqlarının vahid mərkəzləşmiş dövlət sərhədləri çərçivəsində birləşməsi və onun gələcəkdə dövlət idarəçiliyində, dövlətçiliyimizin inkişafındakı mühüm rolu Azərbaycan xalqının tarixində əvəzolunmaz əhəmiyyətə malikdir. Səfəvilər dövlətinin tarixi Azərbaycan xalqının istər dövlət idarəçiliyi tarixində, istərsə də diplomatiya tarixində mühüm dövrü özündə ehtiva edir. Səfəvilər imperiyası zamanında ölkənin həm sosial-iqtisadi həyatında, həm də siyasi-diplomatik məsələlərində yüksəliş, tərəqqi müşahidə olunmuş və bu da hər bir sahəyə öz təsirini göstərmişdi.

Səfəvilər dövləti, ümumilikdə, Avropa-Şərq əlaqələrində, Qərblə Şərqin kəsişməsində fəal müstəsna rola malik idi. Səfəvi dövləti dövrün mühüm siyasi hadisələrində, həm Avropanın Şərq siyasətində, həm də Şərq dövlətləri ilə qarşılıqlı əlaqələrdə xüsusi rol oynamışdı. Heç təsadüfi deyil ki, dövrün ən böyük imperiyalarından sayılan Osmanlı imperiyasının şərq sərhədlərində onun üçün təhlükə törədəcək böyük hərbi-siyasi qüvvə formalaşmışdı.

Səfəvilər dövrü tarixi Azərbaycan xalqının tarixi keçmişinin önəmli dövrlərindən olduğundan bu dövrlə bağlı müxtəlif rəsm əsərləri mövcuddur ki, bu rəsm əsərləri Səfəvilər dövrünün fərqli hadisələri ilə əlaqədar qiymətli məlumatları özündə ehtiva etməklə bizlərə dəyərli informasiyalar verirlər. Azərbaycan tarixi üçün önəm daşıyan həmin rəsm əsərlərindən biri də məhz İtaliyanın Siciliya bölgəsinin mərkəzi şəhəri sayılan Palermoda sərgilənir. Bu rəsm əsəri XVI əsrin ən böyük hadisələrindən sayılan Çaldıran döyüşü ilə bağlıdır.

Bu rəsm əsəri öz orijinallığına görə nəinki dünyada, həmçinin İtaliyada, eyni zamanda Azərbaycan üçün də unikallığına görə həddən çox dəyərlidir. Bu əsər “Çaldıran döyüşü 1514” adı altında Siciliyada zadəgan ailələrinin birinin sarayının divarında sərgilənir. Mirto Sarayı Regional muzeyinin binası daxilində yerləşən bu rəsm əsəri Azərbaycan tarixi üçün çox mühüm bir hadisənin detallı şəkildə rəssam fırçası ilə əksidir. Qeyd etdiyim kimi bu əsər unikallığına görə həqiqətən Avropada nadir və bəlkə də misilsizdir, dünyada yeganədir [16].

Bu zamana qədər rəsm əsəri tədqiqatçıların diqqətini cəlb etməmiş və əsər barədə ciddi elmi araşdırma aparılmamışdır. Bu səbəbdən elmi ədəbiyyatda rəsm əsəri barədə konkret fikirlər mövcud deyil. Lakin onu da qeyd etmək lazımdır ki, sərgiləndiyi Mirto sarayı XX əsrə qədər şəxsi mülk sayılırdı. Yalnız XX əsrin 80-ci illərindən bu saray muzey kimi fəaliyyət göstərməyə başlamışdır. Belə ki, 1983-cü ildə Mirto sarayının sonuncu sahibəsi şahzadə Mariya Konçetta Filanceri qardaşı Stefanonun sonuncu arzusuna uyğun olaraq ata mülkünü dövlətə bağışladı və 80-ci illərdən bu saray xalqa açıq elan olundu [17].

Mirto sarayında sərgilənən bu rəsm əsəri ilk dəfə tədqiqatçı M.Galetti tərəfindən aşkar edilmiş və tədqiqata cəlb edilmişdir. Lakin tədqiqatçı araşdırmaları zamanı bu rəsm əsəri ilə bağlı, demək olar ki, məlumat qıtlığı ilə qarşılaşmışdı.

Rəsm əsəri barədə tədqiqatçı Mirella Galletti qeyd edir: “1997-ci ildə Palermonun şəhər mərkəzində yerləşən Palazzo Mirtoya (Mirto sarayına) gələrkən Çaldıran döyüşünü əks etdirən böyük bir rəsm gördüm. Siciliyada erməni-kürd (Çaldıran bölgəsinin erməni-kürdlərin yaşadığı ərazi kimi təqdim olunması absurddur- A.O.) bölgəsində baş vermiş döyüşü kim xatırlatmaqda maraqlı ola bilər? Bu barədə dərhal rəy almadım və Palazzo Mirtodakı (Mirto sarayında) eyni nəşrlərdə rəsm barədə heç bir məlumat əldə edə bilmədim. Sonrakı səfərim zamanı rəsmilərlə əlaqə qura bildim, fotoşəkillər çəkdim, insanlarla və Palazzo Mirto ilə, ətraf mühitlə əlaqələr qurdum. Bildiyimə görə, binaya sahib olan zadəgan ailənin heç bir üzvü və ya Mədəni İrs Nəzarətinin rəsmiləri rəsm mövzusunun vacibliyini qeyd etməyiblər” [7, 24].

Bəs bu rəsm əsəri niyə bu vaxta qədər diqqəti cəlb etməmişdi? Bu rəsm əsərinin müəllifi kimdir və nə zaman çəkilmişdir? Rəsm əsərinin sifarişçisi kimdir? Nə səbəbə Şərq tarixinə aid bir hadisəyə belə bir rəsmin çəkilməsi istənilmişdir? Niyə məhz Osmanlı və Səfəvi tarixi üçün önəm daşıyan belə bir hadisə barədə çəkilmiş rəsm əsəri Palermoda hələ də açıqlanmayan səbəblərdən bir zadəgan mülkündə yerləşir? Bəs nəyə görə o zamanlar Osmanlı sultanının nüfuzunu ucaltmaqda kimin marağı ola bilərdi və hansı səbəblərdən ola bilərdi? Necə oldu ki, bu əsər Mirto sarayına gəlib çıxdı? Palermonun ən soylu ailələrinin (Spukkes, Filanceri, Lanca) arxivlərində bu barədə heç bir məlumat əks olunmamışdır. Bu sualların hər birinin cavabları qeyri-müəyyənliklərlə doludur.

Rəsm əsəri barədə bütün fərziyyələr hələ də aktivdir. Rəsm əsəri hadisənin baş verdiyi əsrdəmi rəsm edilmişdir yoxsa bir əsr sonramı? Rəsm əsəri hansı zadəgan ailəsinin zamanında saraya daxil olmuşdu və kimin mülkiyyətinə aiddir?

Rəsm Mirto sarayının binasının “çəhrayı qonaq otağı” nın sağ divarında, birinci mərtəbədə sərgilənir. Qırmızı taxta çərçivədə 3,50 metrdən 2,30 metrədək bir düzbucaqlı şəkildə rəsmdir. Müharibə səhnəsinin təsvirinin altında kətan üzərində döyüş mərhələlərini və Osmanlı ordusunun formalaşmasını təsvir edən bir kitabə (yazı) var. Hələ də məlum olmayan səbəblər üzündən Palermoda zadəgan sarayında yerləşən və Səfəvi-Osmanlı tarixində əsas bir hadisənin İtaliyada və həmçinin Avropada bəlkə də bənzərsiz nadir şahidi beləcə sərgilənir.

Rəsm əsərinin müəllifi və tarixi barədə heç bir məlumat yoxdur. Güman edilir ki, rəsm əsəri XVI əsr və ya XVII əsrin birinci yarısı rəsm edilmişdir. Rəssam, yəqin ki, Orta Avropadan, bəlkə də Almaniyadandır. Tədqiqatçı Mirella Gallettiya görə rəsm yerli rəssama deyil də, xüsusilə skandinav əsilli, ola bilsin ki, alman ərazisindən gələn bir rəssama aiddir. Çünki bu dövrdə Palermoda freskalarla işləməkdə ixtisaslaşmış rəssam və sənətkarlardan ibarət yerli işçilərə dərslər verən Alp dağları ərazisindən gəlmiş işçilər vardı[7,24].

Rəsm əsərinin sərgiləndiyi Mirto sarayının arxivlərində tərtib olunan inventarlarda bu şəkillə bağlı heç bir qeyd öz əksini tapmamışdır. Belə ki, 1623-cü il 29 oktyabrda Palermo notariusu Francesco Maringonun hüzurunda oğlu Cüzeppe (Giuseppe) tərəfindən qeyd edilən Françesko Mariya Filincerinin mal-mülkünün siyahısına daxil edilməmişdir. Rəsm əsəri Filancerilərin sonuncu varisi Vittoria Filancerinin əri Sommatinolu İnyaçio Lanca Brançifotinin mal varlıqlarının 1837-ci ildəki inventarında da görünmür. Güman edilir ki, şəkil XVII əsrin ilk onilliklərində sarayda olmayıb, həmçinin mümkündür ki, ailənin başqa əmlaklarında olduğu üçün irsi mal varlıqlarında yazılmamış olsun. Çünki bundan əlavə sa-rayda olan çoxlu digər qədim əşyalar da var ki, onlar da mal varlıqları siyahısında göstərilməyib[16].

O zamanlarda kübar mühitdə erkən dul qalmaq tez-tez olurdu, belə ki, ailənin qadın-ları bir neçə dəfə evlənirdilər. Ola bilsin ki, rəsm əsərinin bir kənar yerdən saraya gəlməsi ehtimalı da mümkündür. Binadakı əşyaların tam inventarı yoxdur və əskikdir. Ailələrin mənşəyi və onların mülkləri olan əldə ediləcək arxivlər isə müxtəlif Siciliya bələdiyyələrinə səpələnmiş haldadılar:

Mirto sarayı öz dövrünün ən zəngin interyerinə sahib olan saraylarından idi və qə-buledilləndir ki, sarayda olan bütün əşyaların hamısı bir-birindən dəyərlidir. Lakin Azərbaycan tarixinin mühüm bir dövrünün hadisəsinin əks olunduğu bu rəsm əsəri xüsusilə cəlbedicidir.

Şəklin möhtəşəmliyi rənglərin, təsvirlərinin dəqiqliyi ona baxan hər kəsi heyran edir. Lakin tarixçi üçün ən əsası rəsmin altında latın qrafikası ilə yazılan başlıq məqsədli yazıdır. Bu yazı italyancadır, ancaq İtaliyanın mərkəz-cənub ərazisinin tipik xüsusiyyətlərinə malikdir. Təxminən XIX və XX əsrdə həyata keçirilən şəklin bərpasında oxunula bilməyən və deşifrə edilməyən hərflərin üzərində “x” və “o” yazılıb. Bu dəyişikliklər mətnin tarixini təyin etmək üçün çox vacib idi. Rəsmin alt qismində kətan üzərində latın qrafikası ilə qeyd olunmuş başlıq mətnində yazılır:

*“1514-cü il 1 martda osmanlı sultanı Səlim İrana qarşı hərəkətə başladı və Çaldırana çatdı ki, bu ərazi Dəclə çayından 2 günlük məsafədədir. Şah İsmayıl ordusunun bir hissəsi ilə gəlib çatdı, çünki ordusunun bir hissəsi Schemarchant (Səmərqənd) şəhərinin mühasirəsində tatarlarla mübarizədə idi. Şah topçuların hərəkətinə imkan vermək üçün iki qanadda açılan türklərlə savaşmaq üçün yükləri (yemək və alətlərin taşındığı böyük yüklər) buraxaraq bütün ordusu ilə bir dərənin üzərinə çıxdı. Farslar (qızılbaşlar- A.O.) da topa qarşı iki qanad*

*açdılar. Şah ordusunun yarısı ilə soldan hücuma keçdi və sağdan hücum edən Məhəmməd bəy cəsarətlə vuruşaraq artilleriyanı keçməyi bacardı. Ancaq yeddi saat davam edən döyüşdən sonra farslara (qızılbaşlara- A.O.) dağlara çəkilmək əmri verildi.*

*Osmanlı ordusunun təşkili belə idi:*

*Sultan üç yüz sulachi (solaq) və iki min silahlı olan on min adamdan ibarət mühafizəçiləri ilə əhatə olunmuşdu. Digərləri hazır silahlara sahibdi və iyirmi min spacolani (sipahi oğlanı) atlı adamla əhatə olunmuşdular. Sultan Səlimin əmri ilə on min nəfər Anadolu bəylərbəyinin başçılığı ilə sağda, on min nəfər solda, iyirmi min piyada (azap) qoşulmuş, cəmi yetmiş min üç yüz türk. Səlim gözətçilərindən yalnız bir neçəsi hər hansı bir toxunma pannier ilə təchiz olunmuşdu. Bunlar zirehli süvarilər idilər. Ordunun düzülüşü səylə və çalışqanlıqla hazırlanmışdı."*

Başlığa nəzər yetirəndə burada əks olunan detalların zənginliyi, Osmanlı ordusunun qüvvələrinin sayı və tərkibinin təsvirinin dəqiqliyi onu düşünməyə vadar edir ki, ya bu məlumatlar birbaşa mənbədən götürülüb, ya da ki döyüşü birbaşa özü görən şahid tərəfindən yazılıb.

Covanni Antonio Menavino qeyd edir ki, "Böyük Türk bütün adamları ilə həm piyada, həm süvari olmaqla 300 minlik ordu ilə Fərat çayına gəlib çatanda gördülər ki, Murad körpünü dağıdıb; 90 min nəfərlə bütün yardımlar ilə bir dağın üzərində möhkəmləndi; onlardan 20 mininin hər birinin 2 atı vardı" [7,34]. Osmanlı mənbələrində döyüşdə iştirak edən Osmanlı qüvvələrinin sayı barədə tam dəqiq məlumat yoxdur. Belə ki, fərqli ədədlər mövcuddur. Tarixi mənbələr zaman-zaman yüz iyirmi min, yüz qırx min, iki yüz min, üç yüz min nəfər kimi Osmanlı ordusunu qiymətləndirir. Türkiyə tarixçiləri arasında da Çaldıran döyüşündə iştirak edən Osmanlı və qızılbaş qoşunlarının sayı barədə fərqli rəqəmlər qeyd olunur. Z.Danişmənd, T.Gökbilgin və R.Kılıç Osmanlı ordusunun 100 min nəfər, qızılbaşların isə 80 min nəfər olduğunu, S.Tanel və Y.Öztuna isə Səfəvi ordusunda süvarilərin sayının 100 min olduğunu qeyd edirlər. O.Əfəndiyev İdris Bitlisinin məlumatına əsaslanaraq Osmanlı ordusunda 100 min, qızılbaş ordusunda isə 40 min nəfər döyüşçünün olduğunu göstərir[12, 48].

Lakin rəsm əsərinin müəllifi Osmanlı ordusunun həm sayını fərqli şəkildə qeyd edir, həm də düzülüşünü təsvir edir. Rəsm əsərinin müəllifi 70 min 300 yüz əsgəri bu şəkildə bölünmüş göstərir: 300 sulachi (sulaki), 10 min əsgər, onlardan 2 min silahlı, 20 min "spacolani", 10 min döyüşçü Anadolu bəylərbəyinin başçılığı ilə, 10 min Rumeli bəylərbəyinin rəhbərliyi ilə və 20 min piyada (azab). [7, 27]

Rəsm döyüşün müxtəlif mərhələlərini vahid bir baxışda cəmləşdirərək hadisələrin xülasəsini əks etdirir. Meydanda düzülmüş yeniçəri piyadalarının sultanı əhatə etdiyi və onu qoruduğu Osmanlı mərkəzini görmək mümkündür. Qızılbaşların sağ tərəfdən hücumunu dəf etmək üçün süvarilər, porta sipahiləri Səlimə yaxın olan Qapıqulu süvariləri meydandan uzaqlaşırlar. Təəssüf ki, döyüşün gedişatını izah edən hissə, rəsmin altındakı yazıdan əskikdir. Ancaq İsmayılın ordunun başında solda yerləşməsi oxunur. Belə ki, bu yazı da Covionun yazdığını təkrarlayır[13, 39-40-41]. Lakin " Çaldıran meydan müharibəsi 1514" kitabının müəllifləri, eyni zamanda digər türk tarixçilər tərəfindən Şah İsmayılın ordunun sağ cinahına rəhbərlik etdiyi qeyd olunur. T.Gökbilgin və Ə.Uğur Səfəvi ordusunun sağ cinahında yerləşən 20 minlik süvari qoşununa Şah İsmayılın rəhbərlik etdiyini qeyd edirlər[12, 49]. İranlı müəllif N. Fəlsəfi isə qeyd edir ki, İsmayıl qızıl-başların seçilmiş hissəsi olan bir qrup zirehli süvarilər ilə birlikdə ordunun əsas ürəyi sayılan yerdə mövqe tutmuşdu və ordunun düşmənlərin hücumuna məruz qalan hissəsinə kömək etmək üçün müdaxilə etməyə hazır idi [7, 32].

İ.Uzunçarşılı döyüş başlamamışdan qabaq hər iki tərəfin ordusunun düzülüşünü qeyd edərkən Şah İsmayılın mühafizləri ilə birlikdə ehtiyatda qaldığını göstərir. İ.Uzunçarşılı qızılbaş qoşununun sağ qoluna Durmuş xan Şamlı və Nur Əli Xəlifənin, sol qola isə Diyarbəkir bəylərbəyi Məhəmməd xan Ustaclının rəhbərlik etdiyini qeyd edir. Eyni zamanda tədqiqatçı Osmanlı ordusunun quruluşunu təsvir edərkən Səlimin mərkəzdə yeniçəri, topçu, cebeci və Qapıqulu süvariləri ilə birlikdə yerləşdiyini də qeyd edir[14, 255-256].

Rəsmin aşağı hissəsində Osmanlı piyada və atlılarına qarşı döyüşən Səfəvilərin sol qanadının süvari qoşunlarını görə bilərik. M.Galetti qeyd edir

ki, farsların (qızılbaşların- A.O.) lideri (bütün farslar kimi dəbilqəli, sağ əlində dəyənək, solunda qalxan, qırmızı bığ və saqqallı bir adam) yaralanır. Qırmızı saqqallı kişinin eynilə Şah İsmayıl olduğu, solaxay, yalnız bığlı və saqqalsız, eyni zamanda qırmızı saçlı olduğu fərziyyəsi ağlabatandır"[7,31].

"Bu Sofi gözəl, sarışın və çox yaraşıqlıdır və o qədər də hündür deyil, lakin zərif və gözəl bir simaya sahibdir: arıqdan çox kökdür və çiyinlərində genişdir. Qırmızı saçı, saqqalı var, ancaq yalnız mostacchi taxır; sağının əvəzinə sol əlindən istifadə edir və maral qədər güclüdür və baronlarının hamısından daha güclüdür ..." M.Galetti Covioya istinadən qeyd edir ki "Covionun dediyi kimi bir piyadanın nizəsindən yaralanmış kimi görünür" [7,31].

M.Galetti yazır: "Topçu bizə yalnız mərkəzi meydanın qarşısında yerləşdirilmiş kimi görünür və önündə yıxılan farslar (qızılbaşlar-A.O.), eyni zamanda osmanlılar da var. Covioya görə sağ qalan azapla birlikdə mərkəzə doğru itələdikdən sonra məhv edilən farsın (qızılbaş-A.O.) sol qanadı olmalıdır. Yazıdan təxmin edildiyinə görə bəzi farslar (qızılbaşlar-A.O.) "bir sel" keçərək qaçırlar.

Osmanlı yerləşməsinin sol qanadında, qızılbaş süvarilərinin osmanlıların müştərək qüvvələri tərəfindən qarşısı alındığı görünür. Yeniçərilərin meydanının Qapıqulunun döyüşçülərinin çıxması üçün açıldığı görünür. Qəribə bir şəkildə, savaşın son mərhələsi burada, realda olduğu kimi osmanlının solunda təmsil edilir. Yüklü atları və dəvələri olan osmanlı mühafizlərinin də piyadalar tərəfindən qorunduğu görünür " [7,32].

Məsələ burasındadır ki, dövrün, demək olar ki, bütün mənbələri Fərat çayına istinad edir, yəni ki, onlar bu çaya Çaldırandan elə də uzaq axmayan və Amasyadan gələn Osmanlı ordusunun onu keçməyə məcbur qaldığı bir çay kimi istinad edirlər. Əksinə bu rəsm əsərinin başlığında Dəclə çayı Çaldıranın cənubunda qalan və döyüş ərazisinin daha yaxınlığında olaraq qeyd edilir. Realda Çaldıran yaxınlığından axan su yolu Van gölünə tökülən Bəndimahidir. Bu çay döyüş zamanı vacib idi və rəsmdə təbiətdə olduğundan daha güclü şəkildə təmsil olunur. Qeyd edim ki, Bəndimahi çayı Van gölünə tökülən ən böyük axarsudur. Təndürək dağı və Aladağ ətəklərində yaranan qaynaqlar Çaldıran ovalığında birləşərək Bəndimahi çayını yaradır.

Qeyd etmək lazımdır ki, Çaldıran döyüşünün əks olunduğu rəsm əsərində son dövrdə yenidən 2006-cı ilin yazından 2007-ci ilin payızına kimi Mauro Sebastianellinin başçılığı altında restavrasiya işləri aparılmışdır. Rəsm üzərində aparılan diaqnostik araşdırmalarla bu şəkildə nəticəyə gəlinir. "Sabit tip çərçivə, ola bilsin ki, orijinal deyil və küknar ağacından teğetsel kəsimlə 4 perimetral qaydaları (təxminən 10 x 3 sm dördbucaqlı hissə) ilə hazırlanmışdır. Kətan lifləri ilə hazırlanmış orijinal kətan, üfüqi birləşdirilmiş iki təbəqədən ibarətdir. 23/19 lifli sıx bir azalma ilə şaquli atkı (şaquli xətt) və üfüqi yönlü cizgi (üfüqi düz xətt) ilə üfüqi düzbucaqlı forması var. Bu səbəbdən, on altıncı əsrdə Venesiya parçalarının işlənməsində əldə edilənə bənzər bir incəliyə malik incə və nizamlı parçadır.

Çox incə hazırlıq təbəqəsi fırça ilə tək bir təbəqədə tətbiq olunur. Otaq işığında müşahidə, təxminən 10 sm eni olan düz bir fırça ilə əldə edilən açıq oxra rəngli bir maye və yığcam birləşmənin çarpaz bir tətbiqini vurğulayır. Rəssam tarixi mətnin arxa planı üçün bir əsas xətt kimi (bir rəhbər kimi) karbon qara istifadə edərək məcazi mənzərələrin və kartuşun çox dəqiq bir rəsmini yaradıb. Daha sonra, çok seyrəldilmiş qəhvəyi rəng tərkibində piqment olan bir fırça ucuyla tək-tək şəkillər çəkilib"[2].

Siciliyada Palermo şəhərində Mirto sarayında "Çaldıran döyüşü 1514" başlığı altında sərgilənən bu rəsm əsəri Azərbaycan tarixi üçün mühüm əhəmiyyətə malik ilkin mənbədir. İstər təsvir olunan səhnələr, istərsə də rəsmin açıqlama qismindəki yazı özünün orijinallığına görə əvəzedilməz hesab olunur.

**Açar sözlər:** *Çaldıran döyüşü, Siciliya, Mirto Sarayı, 1514*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Azərbaycan tarixi 7 cilddə. III cild. Bakı, 2007.592 s.*

*2. Amadori M. L., Barcelli S., Campani E., Casoli A., Mazzeo R., Prati S., Sebastianelli M. "La battaglia di Cialdiran" nel museo regionale di Palazzo Mirto a Palermo: diagnostica e restauro. XII Congresso Nazionale di Chimica dell'Ambiente e dei Beni Culturali. Taormina, 26-30 Settembre 2010*

*3.Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 2007. 344 s.*

*4.Frappi C. Azerbaigian crocevia del Caucaso. Roma, 2012. 147 p.*

*5.Fərzəliyev Ş. Azərbaycan XV-XVI əsrlərdə.*

*Bakı, 1983.*
*6.Fərzəliyev Ş. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər). Bakı, 1995.*
*7.Galetti M. Un dipinto della battaglia di Cialdiran in Sicilia. Kervan – Rivista Internazionale di studii afroasiatici n. 2, luglio 2005. p.23-53*
*8.Mahmudov Y. M. Azərbaycan diplomatiyası. Bakı, 2006. 416 s.*
*9.Mahmudov Y. M. Seçilmiş əsərləri. II cild // Toplularda və dövri mətbuatda dərc olunmuş elmi məqalələr/ Xətai və Avropa. "Azərbaycan" ədəbi-bədii jurnal// Bakı, 2011. 616 s.*
*10.Mahmudov Y. M. Seçilmiş əsərləri. IV cild// Dövri mətbuatda və toplularda dərc olunmuş məqalələr. Azərbaycan diplomatiyası: Səfəvilər və Avropa / Kommunist - 16 fevral 1991// Bakı, 2011. 544 s.*
*11.Natalizia G., Vincelli D.P. Azerbaigian. Una lunga storia. Firenze, 2012.177 p*
*12.Nəcəfli T. Azərbaycan Səfəvilər dövlətinin xarici siyasəti(Türkiyə tarixşünaslığında) Bakı, 2020. 520 s.*
*13. Paolo Giovio. "Pavlo Giovio, Vescovo di Nocera, à Carlo Quinto Imperatore Avgvsto", in Commentarii delle cose de Tvrchi, di Pavlo Giovio, et Andrea Gambini [sic!], con gli fatti, et la vita di Scanderbeg, in Vinegia, in casa de' figlivoli di Aldo, 1541.*
*14.Uzunçarşılı İ. H. Osmanlı tarihi. II cilt. Ankara, 1988. 808 s.*
*15.Tekindağ Ş. Yeni kaynaklar ve vesikalar ışığı altında Yavuz Sultan Selimin İran seferi. İÜEF Tarih dergisi, c. VIII, sayı 22, İstanbul 1968. S. 50-79.*
*16.https://ricerca.repubblica.it/repubblica/archivio/repubblica/2007/12/28/palazzo-mirto-espone-un-dipinto-del-seicento.html*
*17.http://www.regione.sicilia.it/beniculturali/palazzomirto/storia.html*
*18. https://www.accademiadipalermo.it/wp/wp-content/uploads/palazzo-Mirto.pdf*

## SUMMARY

This article is about the Battle of Chaldiran , an important event in the history of Azerbaijan. This battle took place between the Safavids and the Ottomans and resulted as the victory of the Ottomans. The battle of Chaldiran is reported in both eastern and western sources. One of these sources is in Italian. In the article is told about painting depicting the Battle of Chaldiran, which is exhibited in Palazzo Mirto Regional Museum in Sicily.

**Key words:** *Battle of Chaldiran, Sicily, Palazzo Mirto, 1514*

## РЕЗЮМЕ

Эта статья о Чалдыранской битве, важном событии в истории Азербайджана. Эта битва произошла между Сефевидами и Османами и закончилась победой Османов. Информация о битве при Чалдыране есть как в восточных, так и в западных источниках. Один из этих источников на итальянском языке. В статье рассказывается о картине, изображающей битву при Чалдыране, которая выставлена в Региональном Музее Палаццо Мирто на Сицилии.

**Ключевые слова:** *Чалдыранская битва, Сицилия, Палаццо Мирто, 1514*

UOT 930:314, 94 (479.24)

# 1823-Cİ İL SİYAHIYAALMA MATERİALLARINA ƏSASƏN ŞİMAL AZƏRBAYCAN ƏHALİSİNİN DEMOQRAFİK VƏZİYYƏTİ

**ŞƏFAYƏT FƏRƏCOV**
*BDU-nun Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası nəzdində "Dünya Azərbaycanlıları: tarixi-demoqrafiya" ETL-nin aparıcı elmi işçisi t.ü.f.d.*
*E-mail: sh.faracov@bsu.edu.az*

**Giriş.** Azərbaycan dünyada ən çox miqrasiyaya prosesinin yaşandığı ərazilərdən biridir. Miqrasiya latın dilində miqratio-köçmək deməkdir. Köçmələr bir ərazidən digər əraziyə, bir dövlətdən digər dövlətə həmişəlik və ya uzun müddətə insanların kütləvi yerdəyişmələrdir. Miqrasiyalar əsas etibarılə müharibələrin, siyasi çevrilişlərin, iqtisadi, sosial və dini münaqişələrin təsiri nəticəsində baş verir [2, 35].

Qafqaz regionu, o cümlədən də Şimali Azərbaycan kütləvi miqrasiya prosslərinin yaşandığı ərazilərdəndir. Bu onunla izah olunur ki, Azərbaycan Şərqlə Qərbin, Asiya ilə Avropanın qovuşduğu mühüm strateji ərazidə yerləşir. Bu səbəbdən də tarixi zaman çərçivəsində baş vermiş müharibələr, siyasi hadislər ərazidə baş verən miqrasiyalarda böyük rol oynamışlar. İnkişaf etmiş dünya dövlətləri, əsasən də qonşu dövlətlər öz siyasi və iqtisadi məqsədlərini həyata keçirmək üçün Azərbaycan ərazisindən istifadə etmişlər.

Şimal qonşumuz olan Rusiya Azərbaycanın münbit təbiətini, sərvətini, ticarət yollarının kəsişdiyi strateji ərazidə yerləşməsini nəzərə alaraq ərazilərimizi öz nəzarəti altına almaq, regionda möhkəmlənmək üçün XVI əsrdən başlayaraq öz siyasətini həyata keçirməyə başladı. Bu siyasətin nəticəsində XVI əsrin ikinci yarısında Rus və Səfəvi dövlətləri arasında ticarət və diplomatik əlaqələr canlanmağa başlayır. İki dövlət arasında əlaqəlrin genişlənməsi əsasən su yolu, Volqa çayı vasitəsilə olduğuna görə Rus çarı IV İvan 1552-ci ildə Qazan, 1556-cı ildə Həştərxan xanlıqlarını işğal etdikdən sonra iki dövlət arasında əlaqələr geniş vüsət almağa başlayır. Osmanlı imperiyasının Səfəvilərə qarşı ekspansiyası nəticəsində Qara dənizə çıxan yollardan məhrum olan Səfəvilər Rus dövləti ilə ticarət əlaqələrinin genişləndirilməsinə xüsusi maraq göstərirdilər. Ticarət yollarının genişlənməsi nəticəsində rus tacirləri Orta Asiya, Hindistan və Çin dövləti ilə əlaqələrini genişləndirmək imkanını əldə etdilər. Ticarətlə başlayan əlaqələr sonradan müharibələr yolu ilə ərazilərimizin işğal olunmasına gətirib çıxardı. Adətən dünyanın hər yerində olduğu kimi, rus tacirləri səfər zamanı getdikləri ərazilərin yolboyu qeydlərini edir, olduqları ölkələrin iqtisadi və siyasi vəziyyətləri, həmin ölkələrin məsafə, çəki ölçülərini, pul vahidlərini, kömrük vergilərini, sərvətlərini, flora və faunasını, əhalinin etnik tərkibini, dini görüşlərini, təsərrüfatını, məişətini, adət-ənənəsini, silahlı qüvvələri haqda geniş məlumat xarekterli qeydlər edirdilər. Öz dövlətləri üçün vacib sayılan belə məlumatların bəziləri bu günə kimi gəlib çatmış və etnoqrafik mənbə kimi böyük əhəmiyyətə malikdir. Azərbaycanda olan səyyah, tacirlərdən olan rus Afanasi Nikitin XV əsrdə yaşamışdır. O, azərbaycanca bilirdi və Azərbaycanda iki dəfə olmuşdur. Onun yazdığı "Üç dəniz arxasında səyahət" bizim tariximiz üçün qiymətli mənbədir.

Bu səpgidə olan mənbələrdən biri Fyodor Afanasyeviç Kotovun yazdığı "Gündəlikdir". "Gündəliyin" məzmunu 1623-1624-cü illərdə Rus çarı Mixayıl Fyodoroviçin göstərişi ilə Səfəvi dövlətinə getmiş səyyahın səfəvilərin iqtisadi,siyasi, mədəni, dini və hərbi həyatı haqqında yazdığı geniş məlumatdır. Bu məlumatların böyük əhəmiyyəti ondan ibarətdir ki, müəllif yazdığı bütün məlumatların canlı şahidi olmuşdur.

Bu dövrdə və sonrakı dövrlərdə genişlənən ticarət əlaqələri sonucda Rusiya İmperiyasının məkrli siyasətini, imperiya tərəfindən Azərbaycan torpaqlarının işğal edilməsi prosesini sürətləndirdi.

1813-cü il oktyabr ayının 12-də İranla Rusiya arasında bağlanan Gülüstan sülh müqaviləsinə əsasən tarixdə ilk dəfə Şimali Azərbaycanda yerləşən 8 xanlığın ərazisi Rusiya İmperiyası ərazisinə rəsmən daxil edildi. Əslində bu xanlıqların əraziləri 1804-1813-cü illər ərzində Rusiya tərəfindən işğal olunmuşdur. 1804-1813-cü illər

ərzində bağlanan müqavilələrə əsasən Rusiya İmperiyası əyalətləri statusunu alan xanlıqların ərazilərində dərhal Azərbaycanda ilk dəfə əhalinin siyahıyaalınması başladı. I Pyotrun dövründən Azərbaycanı ilhaq edib onun təbii sərvətlərinə sahib durmaq siyasətini həyata keçirən Rusiya çarizmi əyalətlərdə əhali və mülki sərvətlərin kameral qeydiyyatına dərhal başladı. İlk qeydiyyat nəticəsində 8 xanlıq ərazisində yaşayan əhali və mülki sərvətlər haqda məlumatlar meydana gəldi. Siyahıyaalmanın dərhal aparılmsının əsas məqsədi o idi ki, Rusiya xəzinəsinə veriləcək verginin dəqiq miqdarı və vergi ödəyən əhalinin sayı öyrənilsin. Aparılan bu əməliyyatlar onunla nəticələndi ki, siyahıyaalmalar zamanı yerli xanlar, bəylər, ağalar sıxışdırılaraq aradan çıxarıldı. İmtiyazları əlindən alınmış, sıxışdırılmış yerli bəylər, xanlar və varlılar məcbur olub digər ərazilərə, İrana və Tükiyəyə köçdülər.

10 fevral 1828 ci ildə bağlanmış Türkmənçay müqaviləsindən sonra Rusiya İmperiyası ərazisinə tam ilhaq olan Azərbaycanın digər əraziləri olan İrəvan və Naxçıvan xanlıqlarındada eyni hal baş verdi.

Onuda qeyd etmək lazımdr ki, bu siyahıyalmalarda bir dənə də olsun aərbaycanlı şəxs kiçik vəzifədə belə iştirak etmirdi.

Siyahıyaalmaları həyata keçirən rus məmurları erməni köməkçilərinin fəal köməyi nəticəsində rəqəmləri istədikləri kimi qeydə alır, alınan nəticəəri qəsdən azaldır, köçəri-maldar azərbaycanlıları qeydə almır, dağlıq yerlərdə yaşayan əhalini yollar çətin olduğuna görə qeydə almırdılar. Ruslar əsasən Bakı, İrəvan, Yelisavetpol Dərbənd və digər iri yaşayış məskənlərində siyahıyaalmalar həyata keçirirdilər. Siyahıyaalmaların nəticələrinə görə ölkə əhalisinin tam əksəriyyəti azərbaycanlılardı.

İstər 1897-ci ildə keçirilən siyahıyaalma, istərsədə ondan əvvəlki siyahıyaalmalar haqda azərbaycanlılar tərəfindən verilən şikyətlər məhkəmələr tərəfindən barmaqarası baxılırdı və onların əlehinə qərarlar verilirdi.

1823-ci il siyahıyaalmasına görə Azərbaycanda əhalinin bölgələr üzrə yerləşməsi. 1897-ci il siyahıyaalmasındakı nəticələri müqayisə etmək üçün ondan əvvəl keçirilən siyahıyaalmaları nəzərdən keçirməyi məqsədə uyğun sayırıq. Belə siyaalmalardan biri Semyon Bronevskinin rəhbərliyirəhi altında Cənubi Qafqazda ilk dəfə olarq nisbətən geniş əhalinin siyahıyaalması olmuşdur. Siyahıyaalmanın nəticələri Semyon Bronevskinin 1823-cu ildə Moskvada çapdan çıxan 352 səhifəlik, iki hissədən ibarət, «Новейшия Географическия и историческия известия о Кавкзе» adlı əsərində çap olunmuşdur [1]. Müəllif 57-ci səhifəsində yazır ki, Qafqazın heç yerində bu günə qədər əhali və həyət (tüstü) haqda dəqiq məlumat verməmişdi. Biz çalışırdıq ki, əhali və həyətlər barədə məlumatları müxtəlif mənbələrdən, istər şifahi, istərsədə yazılı surətdə, mötəbər mənbələrdən alaq. Bu mənbələr əsasında əhalinin və həyətlərin sayı barədə cədvəllər tərtib edək.

Göstərilən mənbədə Azərbaycana aid məlumatları təqdim edirik.

**Cədvəl 1**

**Azərbaycan vilayətlərində əhalinin, həyətlərin və ailələrin sayı [1, 59]**

| Hansı ölkədən asılıdır | Vilayətin adı | əhalinin sayı | Həyətlərin və ailələrin sayı |
|---|---|---|---|
| **Şirvan bölgəsi** | | | |
| **Rusiya** | **Quba** | 23 147 | 7964 |
| **Rusiya** | **Şamaxı** | ____ | 25 000 |
| **Rusiya** | **Bakı** | ____ | 1000 |
| **Rusiya** | **Salyan** | ____ | 2000 |
| **Rusiya** | **Şəki_** | ____ | 20 000 |
| **Araz-Kürarası** | | | |
| **İran** | **Naxçıvan** | ____ | 12 000 |
| **Rusiya** | **Yelizavetpol (Gəncə)** | ____ | 7000 |
| **Rusiya** | **Qarabağ** | ____ | 5000 |
| **İran** | **İrəvan** | ____ | 18 0000 |

Cədvəldə verilən statistik məlumatda Azrbaycanın bütün əyalətləri təsvir olunmasa da Şirvan və Araz və Kürarası əyalətlərimiz haqda məlumat verilmişdir. Şirvan vilayətində yaşayan əhalinin ümumi sayı 279 820 nəfər, həyətlərin sayı isə 55 964-dür. Araz-Kürarası vilayətlrində yaşayan əhalinin ümumi sayı 210 000 nəfər, həyətlərin sayı 42 000 –dir. Müəllif qeyd edir ki, hər ailənin tərkibini Qafqaz xalqlarının mentalitetinə uyğun olaraq 5 nəfərdən hesablamışıq. Avropa standartına uyğun isə hər ailənin tərkibini 4 nəfərdən hesablanır.

**Cədvəl 2**

**Yelizavetpol Quberniysı üzrə əhalinin yerləşməsi və etnik tərkibi [1, 67]**

| Elizavetpol quberniyasının qəzaları | Əhalinin üumi sayı | Azrbaycanlılar (nəfər, %) | Ermənilər (nəfər, %) | Azərbaycanlı imtiyazlı əhali | Erməni imtiyazlı əhali |
|---|---|---|---|---|---|
| Elizavetpol qzası və Elizavetpol şəhəri | 162.788 | 103.970 (63,7%) | 43.040 (26,4%) | 2831 | 518 |
| Araş qəzası və Ağdam | 67.277 | 47.133 (70,3%) | 13.822 (20.6%) | --- | ---- |
| Cəbrayıl qəzası və Cəbrayıl | 66.360 | 49.189 (74.5%) | 15.746 (23.8%) | ---- | ---- |
| Cavanşir qəzası və Tərtər | 72.719 | 52.041 (71.3%) | 19.551 (26.7%) | ---- | ----- |
| Zəngəzur qəzası və Gorus | 137.871 | 71.216 (52.3%) | 63.622 (46.4%) | 4911 | 904 |
| Qazax qəzası və Qazax | 112.074 | 64.101 (57.2%) | 43.555 (38.8%) | ---- | ---- |
| Nuxa qəzası və Nuxa | 170.555 | 83.578 (69.1%) | 18.899 (15.6%) | ------ | ------ |
| Şuşa qəzası və Şuşa | 138.771 | 62.868 (45.3%) | 73.953 (53.1%) | 5033 | 1987 |
| Bütünlüklə Quberniyada | 878.415 | 534.086 (60.8%) | 229.188 (26.1%) | ------ | |

**Cədvəl 3**

**İrəvan Quberniyası üzrə əhalinin yerləşməsi və etnik tərkib [1,73]**

| İrəvan quberniyasının qəzaları | Əhalinin ümumi sayı | Azrbaycanlılar (nəfər, %) | Ermənilər (nəfər, %) | Azərbaycanlı imtiyazlı əhali | Erməni imtiyazlı əhali |
|---|---|---|---|---|---|
| İrəvan qzası və İrəvan şəhəri | 150.879 | 77.516 (51.37%) | 58.148 (38.54%) | 1501 | 306 |
| Aleksandropol qəzası və Aleksandropol şəhəri | 165.503 | 8.104 (4.77%) | 141.522 (85.5%) | 114 | 99 |
| Naxçıvan qəzası Naxçıvan və Ordubad şəhəri | 100.771 | 64.151 (63.7%) | 34.672 (34.4%) | 1267 | 67 |
| Novobəyazit qəzası və Novobəyazit şəhəri | 122.573 | 34.726 (28.3%) | 81.285 (66.3%) | 155 | 32 |
| Sürməli qəzası və İqdır şəhəri | 89.055 | 41.424 (46.5%) | 27.075 (30.4%) | 558 | 16 |
| Şərur-Dərələyəz qəzası və Baş Noraşen kəndi | 76.538 | 51.564 (67.4%) | 20.726 (27.8%) | 1262 | 29 |
| Eçmiadzin qəzası və Vaqarşabat kəndi | 124.237 | 36.008 (29%) | 77.572 (62.4%) | 1.011 | 49 |
| Quberniya üzrə cəmi | 829.556 | 313.493 (37.8%) | 441.000 (53.1%) | 5.868 | 618 |

Cədvəllərdə verilən statistik məlumatlarda maraqlı bir faktı qeyd etmək istərdik. Belə ki, Azərbaycan ərazisinə köçürülən ermənilər bəzi bölgələrimizdə sayca üstünlük təşkil etməsinə baxmayaraq həmin bölgələrdə imtiyazlı azərbaycanlı əhalinin, bəylərin, mülkədarların, zədaganların sayı ermənilərin eyni zümrədən olan əhalisinin sayından qat-qat üstündür. Bu da onların İran, Türkiyə və digər ərazilərdən köçürülmə olduqlarını bir daha sübut edir. Tarixdən məlumdur ki, imtiyazlı təbəqənin üzvləri silki xarakterli olub əsasən yerli xalqın nümayəndələrinə şamil edilir.

Nəticə və elmi yenilik. 1897-ci ildə Rusiya imperiyasında həyata keçirilmiş əhalinin siyahıyaalınması materialları əhalinin milli tərkibi, cinsi, savadlılıq dərəcəsi, Quberniyalar üzrə yerləşmələri, əhali miqrasiyasının öyrənilməsi və s. üçün mühüm əhəmiyyətə malikdir. Araşdırmalar zamanı məlum oldu ki, 1926-cı ildə SSRİ-də aparılan siyahıyaalmada 1897-ci il siyahıyaalınmasındakı təcrübə saxlanılmışdır.

Azərbaycan ərazisində XIX əsrin birinci yarısndan aparılan siyahıyaalmaları 1897-ci ildə aparılan siyahıyaalmalarla müqayisə edərək belə nəticəyə gəlirik ki, XIX əsrin sonunda Bakı və Gəncə şəhərinin əhalisi xeyli artmış, Şamaxı şəhərinin əhalisi isə xeyli azlmışdır. Bu da sənayenin inkişafı ilə əlaqədar idi. 1867-ci illə müqayisədə 1897-ci ildə Bakı əhalisi on dəfə artaraq 270 min nəfərə çatmışdır. Həmn dövrdə Gəncə əhalisi 33,6 min nəfərdən iki dəfə çoxalaraq 67 min nəfəri keçmişdir.

XIX əsrin sonunda Bakı şəhərndə yaşayan əhali Azərbaycanın bütün əhalisinin 14,5 faizini, quberiya əhalisinn isə 20 faizini təşkil edirdi [3, 85].

**Açar sözlər:** *əhali, inzibati-ərazi bölgüsü, milli, qəza, dairə, bələdiyyə, qəsəbə, kənd, kənd soveti, şəhər, şəhər soveti, inzibati mərkəz, əhalinin siyahıyaalınması.*

## ƏDƏBİYYAT SİYAHISI


*1. Семйон Броневкий. Новейшия Географическия и историческия известия о Кавкзе. Москва, 1823. 352ст.*

*2. Переведенцев В. И. Методы изучения миграции и населения. Москва, Наука, 1975. 259 ст.*

*3. Первая Всеобщая перепись населения Российской империи 1897 года. Т.Т.1-89. СПб:1903-1905.*

## DEMOGRAPHIC SITUATION OF THE POPULATION OF NORTHERN AZERBAIJAN ACCORDING TO THE 1823 CENSUS

**SHAFAYET FARACOV**

**Summary**

The article is deciated to the structural changes in the ethnic areas of northern Azerbaijan in the XIX and XX th centuries. During this period, the migration processes in our territories as a result of the Russian occupation, the fundamental yuio changes in the ethno-political and ethno-demographic situation due to foreigners resettled in Azerbaijan during the Russian rule, the process of changing ethnic areas, the ethnic composition of the population.

**Keywords:** *administrative-territorial division, national, municipality, township, village, village council, the city, the city council, the administrative center.*

## ДЕМОГРАФИЧЕСКИЙ ПОЛОЖЕНИЕ НАСЕЛЕНИЕ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНЕ ПО МАТЕРИАЛАМ ПЕРЕПИСИ 1823 ГОДА

**ФАРАДЖОВ ШАФАЯТ ФАРАДЖ ОГЛЫ**

**Резюме**

Статья посвящена обзору эволюции этнотерриториальной структуры Кавказа в связи с миграционными процессами в период русского завоевания. Кавказ является убежищем этносов, ареал расселения которых сформировался в Раннем Средневековье. Расположенный между Передней Азией и Великой степью Кавказ с древних времен испытывал влияние государств соседних регионов За последние двести лет русского владычества кардинальные этнополитические и этно-демографические изменения значительно повлияли на этнотерриториальную динамику и этнический состав населения Кавказа.

**Ключевые слова:** *населения, административно-территориальное деление, национальный состав, уезд, округ, муниципалитет, поселка, село, сельский совет, город, городской совет, административный центр, перепись населения.*

UOT 94(479.24)

# AZƏRBAYCAN XALQININ MÜSTƏQİL DÖVLƏTÇİLİK, KONSTİTUSİYALI AZAD VƏTƏNDAŞ CƏMİYYƏTİNİ YARATMAQ İDEYASI VƏ MÜSTƏMLƏKƏÇİLİK ƏLEYHİNƏ MÜBARİZƏSİ "FÜYUZAT"IN SƏHİFƏLƏRİNDƏ

**ŞÖVKƏT PƏNAHOVA**
*Azərbaycan Milli Elmlər Akademiyası, Tarix İnstitutunun "Yeni tarixi" şöbəsinin dissertantı*

*E-mail: shovket.penahova.70@mail.ru*

XX əsrin əvvəllərində Azərbaycan xalqının Çar Rusiyasının müstəmləkə siyasətinə qarşı mübarizəsi müstəqil dövlətçilik və konstitusiyası olan azad vətəndaş cəmiyyəti yaratmaq ideyalarını doğurdu. Bu ideyaların yaranıb inkişaf etməsində heç şübhəsiz Əli bəy Hüseynzadənin baş redaktoru olduğu "Füyuzat" jurnalının da rolu əvəzsizdir. Rəfiq Zəka Xəndan Əli bəy Hüseynzadə şəxsiyyətini hələ 1990-cı ildə qələmə aldığı məqaləsində çox gözəl təsvir edir: *"bütün türk dünyasında türkçülük ideyalarının banisi... Əli bəy Hüseynzadə fövqəladə təfəkkürlü bir şəxsiyyət olmuşdur. Ziya Göyalp, Yusif Akçura, Əhməd Ağaoğlu, Məmməd Əmin Rəsulzadə, Nəsib bəy Yusifbəyli, Mirzə Cəlil, Məhəmməd Hadi, Sabir, Hüseyn Cavid, Mikayıl Müşfiq kimi ölməz oğullarımızın mənəvi atası, böyük filosof, ustad şair, mahir rəssam, incə musiqiçi, dərin mütəfəkkir, əvəzsiz həkim, kamil natiq, alovlu publisist, orijinal tərcüməçi Əli bəy Hüseynzadə (1864-1940) dünyanın saysız ölkələrinin ensiklopediyalarına düşmüş, millətimizin adını dünyaya yaymış dahi yurddaşımızdır"* [1.s55]. Bu gün başımızın üstündə dalğalanan bayrağa nəzər salmaq yetərlidir ki, Əli bəy Hüseynzadənin əsas məqsəd və amalının nə olduğunu başa düşək. Azər Turanın "Əli bəy Hüseynzadə" kitabında yazdığı kimi: *"Üçrəngli, ay-ulduzlu bayraq Əli bəyin düşüncələrini ehtiva edən rənglərə və mənalara bürünüb və müstəqil dövlətimizin bayrağı Əli bəy düşüncələrinin doğurduğu "xoşbəxt əsas"ın (Yusif Akçuraoğlu)- türkləşmək, islamlaşmaq, müasirləşmək triadasının zəfərini yansıtmaqdadır"* [1,s.130]. Həqiqətən də Füyuzat jurnalı Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasına aparan maarifləndirmə işinin əsas memarlarından biri oldu.

Bu jurnala bütövlükdə nəzər saldıqda Əli bəy Hüseynzadənin "Füyuzat"la yaratdığı ədəbi, siyasi hərəkatın bütöv mənzərəsini izləmək mümkün olur. Jurnalın ilk sayında "Həyat və meyli-füyuzat" sərlövhəli yazıda füyuzat səadəti- mənəviyə adlandırılır və millətin ona çatmasının tədricən və addım-addım mümkün olması qeyd edilir. Maarifləndirmə prosesinə millətin dərk etmə qabiliyyətinə görə aşağı təbəqədən başlamağı daha münasib görən füyuzatçılar əsl mücahidə, yəni azadlıq uğrunda mübarizə meydanının da məhz bu təbəqələrdən olacağına ümidli idilər [2,s.2-3]. Bu minvalla "Füyuzat" məcmuəsi həm əhalinin elmlə bağlı məlumatlarını genişləndirməyi, həm adət və əxlaqını tərbiyə etməyi, həm ədəbiyyatımızı saflaşdırmağı, həm də türk dilimizi islah etməyi qarşısına məqsəd qoyurdu. Yalnız belə olan halda əsas nəticənin əldə olunacağı qənaətinə gəlinirdi: *"Bu surətlə yer kürəsini öküzün buynuzundan bəşəriyyəti hərb əjdahasının atəşfəşanından, milləti mütləqiyyət divinin zülm pəncəsindən, hər bir fərdi mənəm-mənəmlik ifritindən və cəhalətin əsarət kəməndindən xilas etmək olur..."* [3,s.3]. Füyuzatın bütün amalı millətin tərəqqisi, kamala yetməsi, maariflənməsidir. Çünki maariflənmiş bir toplum azadlığın necə şirin bir nəsnə olduğunu daha tez başa düşər və sağlam mübarizə apara bilər. Bu səbəbdən də Füyuzatda əsas istək, arzu yalnız millət üçündür. Məhəmməd Hadinin "Amali-tərəqqi" şerində də ifadə etdiyi kimi:

*"Həqiqi arzumuz intizami-hali-millətdir,*
*Məsaimiz bütün məsrufi-istikmali-millətdir,*
*Əsasi-fikrimiz təmini-istiqbali-millətdir,*
*Ürəkdə bəslənən amalımız iqbali-millətdir,*
*Yeganə nöqteyi-mətlub... millətdir."*

Burada əsas fikir, şair ürəyində bəslənən, qorlanan yeganə mətləb, niyyət, amal millətinin xoş iqbalı və istiqlallı olmasıdır. Təbii ki, bunun üçün də yurd, Vətən keşiyi vacibdir. Vətən keşiyi, millət azadlığı isə müstəqillik və demokratiya uğrunda mübarizədən başlayır [1,s.5]. Məhəmməd Hadi bu beş bənddən ibarət müxəmməsi azadlıq, istiqlal və maarifin təbliği niyyəti ilə yazmışdır [2,s.15]. Eynilə Əli bəy Hüseynzadə də "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" başlıqlı məqaləsində Qarabəy

Qarabəyova istinadən yazdığı kimi: *"Bizim özümüzə məxsus daha layiq, daha şanlı bir vəzifeyi-mücahidəmiz vardır ki, o vəzifə də zülməti-qəflətdə bulunan külliyyəti-əvam arasında nuri-məarifi əkməkdir" diyoruz"* [3,s.68]. Bu işdə də Əli bəy Hüseynzadənin də etiraf etdiyi kimi maarifləndirmə işində əldə edilən və ediləcək inkişafın səbəbi qəzetlər, mətbəələr, kitablar, mədrəsələr, sənətlər, cəmiyyətlər, şirkətlər, təşkilatlar, teatrlardır [4,s.69].

Füyuzatın 1-ci nömrəsində "İcmal" başlıqlı yazıda Çarizmin müstəmləkə siyasətinə diqqət çəkilərək belə qeyd olunur: *"Hər nə hal isə bir tərəfdən hürriyyət naminə islahat icra olunuyor, digər tərəfdən hürriyyəti-kəlamə hüriyyəti-ittifaqə müğayir (uyğun olmayan – Ş.P.) hərəkətlər göstərilib bir çox cəmiyyətlər tağıdılıyor, qəzetələr bağlanıyor, bəzi darülfünun qapanıyor... inqilabçılar qüvvətlərini, hökumət isə niyyətlərini gizləməyə qeyrət ediyorlar... həftə keçmiyor ki, bir neçə adam dar ağacına asılmasun, ya quruşuna dizülüb güllələnməsin"* [5,s.5]. Füyuzatda qeyd olunan bu məlumat çarizmin mənfur müstəmləkə siyasətini açıq-aşkar nümayiş etdirir və əslində Çar Rusiyasının siyasətindəki "Dövlət Dumasının çağırılması" kimi yumşalmanın təzadlı olduğunu diqqətə çatdırır. Bu səbəbdən də jurnalın 4-cü nömrəsində Midhət paşaya həsr olunan məqalədə belə qeyd olunur: *"Bütün Rusiya birinci Dövlət Dumasına intixab etdiyi məbusları "yer və azadlıq!" nidaları ilə təşyi ediyordu. Duma isə axirüləmr "yer və azadlıq" fəryadları içində bağlandı"* [6,s.62]. İkinci Dövlət Duması ilə bağlı da Əli bəy Hüseynzadə Füyuzatda maraqlı məqalə [7,s.162-164] ilə çıxış etmişdir. Bu məqalədə o Birinci Duma ilə müqayisədə ikincini daha əhəmiyyətli hesab edir. Çünki İkinci Dumada daha sola meylli bir heyət formalaşdı. Çünki *"hürriyyət və Qanuni-Əsasi uğrunda ciddən şövq və həvəslə mücahidə edənlər ancaq sollar"* [1,s.163] idi. Nəzərə alaq ki, Füyuzata görə, Dumanın bu dəfə seçilən 485 nümayəndəsindən (əslində 518) [2] 304-ü sollar idi [3,s.146]. Bu solların içərisində də əsas hissəni kadetlər (75 nəfər) və sosial-demokratlar (52 nəfər) təşkil edirdi. Azərbaycanı təmsil edən nümayəndələr içərisində bitərəf İsmayıl bəy Tağıyev, sosial-demokrat Zeynal Zeynalov, kadet - Mustafa Mahmudov, Fətəli xan Xoyski və Xəlil bəy Xasməmmədov var idi [1,s.147]. Məhəmməd Ağa Şahtaxtınski də Azərbaycanı təmsil edən nümayəndələr içərisində olsa da [1] nədənsə Füyuzatda onun adını xatırlatmaq yaddan çıxıb.

Füyuzat jurnalında diqqəti çəkən bir başqa yazı mütərcim imzalı müəllifin qələmindən çıxan "Vətənin övladına nidası" adlı məqalədir [2,s.89]. Bu məqalədə müəllif vətənin dilindən insanları yatdıqları qəflət yuxusundan oyatmağa çalışır. Məqalədə Vətənin əcnəbilər əlində əsir və əl-qolu bağlı olması, insanların zülmə necə razı olması, vətən övladlarının inkişafdan geri qalması, vətən sərvətlərinin əcnəbilər tərəfindən qarət edilməsi kimi məqamlara diqqət çəkilir [3,s.79]. Məqalə müəllifi vətən övladlarını çıxış yolu kimi ittihad etməyə, qəflət yuxusundan oyanmağa çağırır. Hətta *"xətiblər, ədiblər, mühərrirlər bol-bol söylədilər, yazdılar... Səy və cəhd qılmanızı təkrar-təkrar tövsiyə qıldılar və lakin qulaqlar eşitməkdən kar və gözlər görməkdən kor olduğundan o gözəl sözlər səmərbəxş olmadı..."* [4,s.80]. deyə bəyan etdiklərində belə yenə də ümidlidirlər. Təsadüfi deyil ki, bu cür problemləri diqqətə çatdırdıqdan sonra belə "son nəsihətim budur" deyə bəyan edirlər: *"Övladi-əzizlərim, yetər qəflət. Aləmdən bir ibrət alın. Məni və nəfsinizi bu təhlükədən xilas edin. Anda sizin nəsibiniz olu-ram: Siz də bəlalardan rəhyabi-nicat olursunuz"* [5,s.80]. Burdan çıxan nəticə bundan ibarətdir ki, millət maariflənərsə, öz haqq-hüququnu öyrənib və tələb edərsə vətəninə də sahib olmağı öyrənər və vətəndaş olar. Əks təqdirdə, vətəni əsir, vətəninin maddi nemətləri özgələr üçün xammal, özü isə kölə olar. Füyuzatçıların müstəmləkəçilik əleyhinə bu cür çağırışları, nidaları həqiqətən də təqdirəlayiqdir. Çünki onlar yorulmadan vətənə sahib çıxmağa çağırırlar. Həsən Səbri Ayvazov "Həyati-əqvam" adlı məqaləsində də elmin, təhsilin rolu və hansı formada təşkili, bunun millətə, vətənə nə kimi faydalar gətirəcəyi barədə maraqlı məqamlara toxunur. Həmin məqalənin əsas məzmunu belə başa düşülür ki, bir millətdə maarifin inkişafı ilk öncə həmin milləti təşkil edən fərdlərin milli dildə oxuyub yazması, yazdığını oxuya bilməsi, oxuduğunu başa düşməsi ilə bağlıdır. İkincisi isə müxtəlif növ elm və fənlərlə bağlı olanların millətin ehtiyacına və ölkəyə görə yetərincə olmasına ehtiyac duyulur. Üçüncüsü isə məşhur alimlərin, tanınan ədiblərin, iqtidar əshabının, ixtisas ərbabının saysız-hesabsız olması ilə bağlıdır. Dördüncüsü mətbuatın, beşincisi isə müxtəlif səviyyədə məktəblərin, universitetlərin, kitabxanaların, elm və təhsil cəmiyyətlərinin

çoxluğu ilə əlaqəlidir. Təhsilin ibtidai, orta və ali səviyyəsini fərqləndirən və hər bir təhsil səviyyəsini təmsil edən elm ocaqlarının yaradılmasını və təhsilin ilk iki mərhələsinin hər kəs üçün məcburi olmasını təklif edir. Ali təhsildən isə *"millətə, məmləkətə mükəmməl əfəndilər yetişir"* deyə qeyd edərək *"millət və məmləkət rifah və səadəti, tərəqqiyyari-maddiyyə və mənəviyyəyi ancaq bu zatlardan bəkləyə bilir"* [1,s.108] deyə vurğulayır. Çünki Həsən Səbri Ayvazov da daxil olmaqla Füyuzatçılar başa düşürdülər ki, millətin ayılması təhsildən başlayır və bu oyanış həm özünüdərkə, həm də müstəmləkə zülmünün fəsadlarını düzgün başa düşüb nəticə çıxarmağa səbəb olacaqdır. Təsadüfi deyil ki, Məhəmməd Hadi "Təraneyi-milli" başlıqlı şerində [2,s.46] milləti hüququnu anlamağa, bunun üçün təhsilini kamil etməyə, əsarətdən usanmağa səsləyir [3,s.108-109]. Eyni məqama biz Əhməd Kamalın Füyuzatda çap olunan "Avropada" məqaləsində daha yüksək səslə çağırış eşidirik. Məsələn Avropada təhsilə verilən dəyəri Əhməd Kamal belə ifadə edir: *"Avropada ...rəisi-cümhurdan arabaçılara qədər bütün əhalinin ağzında bir zərb-məsəl vardır: "Yaşamaq istəyən oxumalı!... Oxumayan məhv olmalı və olacaqdır!..."* [4,s.450]. Yaxud da Füyuzata qədər ayrı-ayrı mətbu orqanlarımızın bağlanmasına münasibətlə Əhməd Kamal belə yazır: *"Əvət 30 milyonluq "Aləmi-islam" ki, hənuz "Əsri-cədid" – intibahında "Rəhbər"ini – "İrşad"ını qaib edər, səsini çıxarmaz! "Dəbistan"ı başına yıxılır; xəbəri belə olmaz! Hər dürlü əsbabi- "Təkamül" və "Bürhani-tərəqqi" əlindən çıxar, heç bir əsəri – "Həmiyyət" izhar etməz! Və əl-hasil şu dövri – "Azad"ın bütün vəsaili-vacibati-"Tərəqqi"sindən heç birilə "Fikir"i "Ülfət"ə qabiliyyət göstərəməz!"* [5,s.451]. Bəs Əhməd bəyin qeyd etdiyi bu hadisələrin kökü nədədir və niyə aləmi-islam mətbuata sahib çıxmır? Yaxud da mətbuat millətə nə verə bilər və millət niyə ona sahib çıxmalıdır? Bu suallara da Əhməd Kamal çox aydın cavab verir: *"Bir millətin mətbuatı o millətin lisanı deməkdir. Mətbuatdan məhrum olan millətin lal bir adamdan fərqi yoxdur. Dilsiz bir adam amal və hüququnu ifadə və müdafiədən nasıl aciz isə mətbuatı olmayan bir millət də amal və hüququnu təcavüzi-əğyardan öyləcə məsun bulunduramaz... Mətbuat bir millətin ...beyni deməkdir. Mətbuatsız millət söyləyəməz, eşidəməz, görəməz!... Həyat onlar üçün bir bari-girandır... İştə böylə olduğu üçündür ki, "oxumayan məhv olmalı və olacaqdır" diyorlar"* [1,s.147]. Məhəmməd Hadi Füyuzatın 16-cı nömrəsində çap olunan "Facieyi-həyatımızdan" adlı şeirində [1] də oxumağa, mütaliəyə, maariflənəməyə biganəliyini nəticəsi kimi millətin "naxələf övlad kimi" yaşadığı zülmə, əsarətə qarşı haqq səsini qaldırır və fikirlərini belə nəzmə çəkir:

*"Biz olduq naxələf övlad, çıxdı dəst sərvətdən.*
*Ərazimiz, vətənimiz, mülkümüz mal oldu əğyarə.*
*Ayıl, ey milləti-məzlumə, bu xabi-bətalətdən! .*
*Gəlib azad eylə milləti-Fironi zülmətdən...*
*Xilas et qövmünü bu bari-taqətsuzə xidmətdən..."*
[1,s.250-251]

Əhməd Kamalın "Avropada" məqaləsinə bir daha qayıdaraq onun Namiq Kamala istinadən dediyi fikirləri və "çarə nədədir?" sualına cavabına baxaq: *"Adəm heyvaniyyəti yeməklə, insaniyyəti oxumaqla qaimdir" diyor. Biz əlhəmdülillah gündə iki, bəlkə üç, bəlkə dörd dəfə yiyoruz. Bir dəfə oxursaq vəzifeyi-insaniyyətimizi də əda etməgə çalışmış oluruz. Əvət mətbuat olmazsa nərədən analayacağız ki, Avropa... sülhi-ümumiyi atəşin, parlaq-parlaq nitqlərlə təqdir və elan edərkən digər tərəfdən binayi-islamı baltalarla parçalamağa çalışır... Daha nələr, nələr olur, övlani-islam qanlar, atəşlər içində qalır, kimsə aldırmaz. Nə üçün?... Çünki islamlar kordur, sağırdır, dilsizdir! Onlarda mətbuat yox ki, bir-birinin əhvalından xəbərdar olsunlar. "Ağlamayan çocuğa məmə verməzlər!" sözü türkcə zərb-məsəldir ki, doğrudur. Bir millət də ancaq mətbuatilə ağlar"* [3,s.455].Yəni mətbuat millətin həm səsi, həm silahı, həm də oxuyub qəflət yuxusundan oyanacağı qaynağı olmalıdır.

Füyuzatda 7-ci sayında çap edilən "Facieyi-həyatımızdan" şeirində İrəvan xanlarının sarayının təsvirinin [4,s.109] verilməsi belə əslində müstəmləkə rejiminə qarşı mübarizəyə bir çağırışdır. Çünki İrəvan xanlığı çar Rusiyasına qarşı direniş göstərmiş, hətta bu dirənişin qarşılığı olaraq xanlıq ləğv edildikdən sonra ərazisinin etnik tərkibinin dəyişdirilməsi və tarixinin yaddaşlardan silinməsi üçün bu tarixi Azərbaycan torpağının başına Çar Rusiyası tərəfindən min cür oyunlar açılmışdır. Füyuzatın 8-ci sayında Şeyx Şamilin təsvirinin verilməsi və onun Dağıstan istiqlal mücahidlərindən olmasının qeyd edilməsi [1,s.119], 9-cu sayında Şeyx Şamil və oğlanlarının təsvirinin verilməsi,

9 və 10-cu sayında "Şeyx Şamil və Həfidi" adlı məqalələrin [1,s.132-136,168-170] çap edilməsi də Füyuzatda müstəmləkə rejimi əleyhinə mübarizənin bir formasıdır. Şair Naimin "Vəlvələ və Zümzümə" məqaləsinə diqqət edək. Bu məqalədə şair 4 qafiyə - əsarət, zülmət, ricət və qəflət əsasında belə bir qitə qələmə alır:

*"Bizim yerlərdə hürriyyət əsarətdən ibarətdir,*
*Maarif nuru yoxdur, nur zülmətdən ibarətdir,*
*Tərəqqi eyləmək maziyə ricətdən ibarətdir,*
*Bütün əşarımız asari-qəflətdən ibarətdir."*
[2,s.131]

Şair yazır ki, ikinci qitəni qələmə almağa başlayıram ki, otağıma *"bir polis nəfəri daxil olub bütün kağızlarımı, kitablarımı "ədəbiyyati-inqilabiyyə" deyə zəbt edib apardı"* [3,s.131]. Şair Naimin qələmə aldığı bu bir bəndlik qitə və kiçik səhnə əslində müstəmləkə rejimi altında inləyən xalqların vəziyyətini, hansı şəraitdə mübarizə apardıqlarını çox aydın və dəqiq ifadə edir.

Həsən Səbri Ayvazovun uşaqların təlim və tərbiyə məsələlərinə həsr etdiyi "Təlimi-ətfal məsələsi" adlı məqaləsində milli təhsil, müstəmləkə rejiminin yaratdığı problemlərə çox aydın izah verilir: *"Övladımı nə yolda təlim edəlim?" sualı hər gün yüzlərcə zehinlərə təbadür ediyor isə də bu suala heç bir cavabi-qəti verəmiyor. Əgər müstəqil bir idarəmiz olsaydı, bəlkə bu məsələnin həllində o dərəcə müşkülat çəkməz idik, halbuki biz Rusiya təbəəsi, lisani-ümumi və rəsmi də rus dilidir... Əgər lisani-ədəbiyi-millimizi və ehkam-diniyyəmizi həqqilə ögrənəlim fikrinə düşər isək, edadiyyəyə (orta təhsil verən məktəb – red.) girəmiyoruz... Yox, təlimin milli cəhətinə əhəmiyyət verməyib də çocuğumuzu haman... edadiyyəyə atar isək... bir qanadlı quş hökmündə qalacaqdır... Bu təlimi-milli məhrumiyyətdəndir ki, bugünkü darülfünunçuların əksəri birər gözlü, qulaqlı, birər qanadlı, yarım fikirli qalmışlardır!"* [4,s.201] Bu hissədən də göründüyü kimi müstəmləkə rejiminin doğurduğu fəsadlara diqqət çəkilir və bu fəsadların aradan qaldırılması üçün yollar axtarılır. Məqsəd təbii ki vətənin azadlığı naminə milli ruhu, milli şüuru yaşatmaq, cəmiyyət üçün sağlam ruhlu, sağlam bədənli vətəndaş yetişdirilməsidir. [2,s.52] Həsən Səbri Ayvazovun fikri təkcə mənsub olduğu Krım tatarları üçün deyil, bütövlükdə Çar Rusiyasının müstəmləkə rejimi altında inləyən cümlə müsəlmanlar üçün haqq və hüquqları uğrunda mübarizəyə çağırışdır. Əbəs yerə o millətin gələcəyi olan uşaqların tərbiyəsində milli ruhu aşılmağı valideynin məsuliyyəti olduğunu yazmır. O tövsiyə edir ki, övladını məktəbə göndərən valideynlər təlim və tərbiyəni sadəcə məktəb müəlliminin öhdəsinə buraxmamalı, islamın hikmətli əhkamı, mənsub olduğumuz türk qövmünün milli adət-ənənələrini də övladına aşılamalı, yaxud da bunun üçün xüsusi müəllim tutmalıdır [1,s.201].

Azadlıq uğrunda mübarizədə şəxslərin roluna da önəm verən "Füyuzat" jurnalında bu istiqamətdə Avropanın görkəmli simalarından biri, İtaliyanın milli qəhrəmanı Cüzeppe Qaribaldi ilə bağlı bir məqalə diqqəti cəlb etməyə bilməz. Bu məqalənin sonunda müəllif Şərq tarixində *"Qaribaldiyə misal aranırsa, osmanlılardan Xeyrəddin Barbaros və İran türklərindən Nadir şahı göstərə biliriz"* qeyd edir. Təbii ki Şərq tarixinin bu görkəmli simaları Cüzeppe Qaribaldi ilə müqayisədə daha yüksəkdə dayanır. Lakin məqalə müəllifi əslində diqqəti ən mühüm məsələyə - kütlənin, yəni millətin könlünü qazanmağa yönəltməyə çalışır. Hər bir böyük dəyişikliklər, inqilablar liderin şəxsi keyfiyyətlərindən asılı olaraq xalqın rəğbətini qazanması ilə uğurla nəticələ bilir. Məhz buna görə Füyuzatda Cüzeppe Qaribaldi ilə bağlı Viktor Hüqoya istinadən belə bir sual-cavab edilir: "Qaribaldi nədir? İnsandır... Hürriyyət insandır... Əskəri varmı idi? Yox!.. Mühümmatı varmı idi? Yox!.. Barutı varmı idi? ... Düşməndən aldıqlarından ibarət idi. O halda qüvvəti nə idi? Kəndisinə müzəffəriyyətlər qazandıran nə idi? Tərəfdarı kimi idi? Millətlərin könlü!" [2,s.347]. Bu məqalənin ardınca Füyuzatın 22-ci nömrəsində Məhəmməd Hadinin Tövhid şeirinin verilməsi əslində füyuzatçıların nəyi uğruna çalışdıqlarını açıq-aşkar bəyan edir və bir daha xalqı əsarətə, öz hüquqları uğrunda mübarizəyə, birliyə, bu birliyi də təmin etmək üçün maariflənməyə səsləyir [3,s.348]. Təsadüfi deyil ki, Əli bəy Hüseynzadə də "İntiqad ediyoruz, intiqad olunuyoruz" adlı məqaləsində haqsızlığa, əsarətə qarşı həm mübarizəyə çağırır, həm də bu mübarizəni apara biləcək fədailər axtarışına çıxırdı: *"Çirkablara daş atmalıdır, həm də doluncaya, yox edilincəyə, ortadan vücudları qaldırılıncaya qədər daş atmalıdır... ta ki, üfunətindən... bir əsər qalmasın! Fədai lazımdır,*

*fədai! Yuxarı sıçrayan murdarlıqdan qorxmayan fədai! Türk qanlı, müsəlman etiqadlı, firəng fikirli, Avropa qiyafəli fədai!"* [4,s.5].

Füyuzatın səhifələrində müstəmləkə əleyhinə mübarizə ruhu aşılanmaqla yanaşı konstitusiyalı azad vətəndaş cəmiyyətinin necə qurulması barədə də maraqlı məqamlara rast gəlirik. Belə ki, Füyuzatda bu ideya ilə bağlı jurnalın ilk nömrəsindəcə - Midhət paşaya həsr edilən yazıda [1,s.11-12] təsadüf edirik. Bu məqalədə Midhət paşa "qanuni-əsası qəhrəmanı" kimi təqdim olunur və onun haqqında oğlu Əliheydər Midhət bəy əfəndi tərəfindən qələmə alınan əsərə istinadən belə qeyd olunur: *"...hürriyyəti-şəxsiyyə, kəlamiyyə, vicdaniyyə, ictimaiyyə, siyasiyyə bəxtiyarlıqları, hər növ ədalət və müsavat ümidləri bu qanuni-əsasi kəlməsinə bağlıdır"* [2,s.11]. Yazılanlardan aydın olur ki, şəxs azadlığı, söz, vicdan, ictimai, siyasi azadlıq, hər cür ədalət və bərabərçilik ümidləri qanuni-əsasi, yəni konstitusiya ifadəsi ilə bağlıdır. Bildiyimiz kimi, Konstitusiya dövlət və cəmiyyətin təşkilini, şəxsiyyətin hüququ statusunu, yeri idarəetmə və özünüidarəetmənin əsaslarını tənzimləyir [3,s.22-23]. "Midhət paşa" məqaləsində konstitusiyanın mahiyyəti belə izah olunur: *"Gərək paytaxtda camaatin, bütün məmləkət xalqının həqiqi vəkillərindən, məbuslarından mürəkkəb daimi bir məclis ola və o məclisin qarşısında da hökümətin vasiteyi-icraiyyəsi olan heyəti-vüzəra və məmurin məsul tutula..."* [4,s.12]. Bu məlumatdan da aydın olduğu ki, füyuzatçılar demokratik cəmiyyətin qurulmasının məhz konstitusiyalı idarəçilik və insan hüquqlarının qorunması prinsipinə söykənərək mümkün ola biləcəyinə inanırdılar. Başda Əli bəy Hüseynzadə olmaqla füyuzatçıların fikrincə xalqın iradəsini təmsil edəcək və həqiqi millət vəkillərindən təşkil olunacaq müəssisələr məclisi təşkil olunmalı və bu məclis qarşısında icraedici hakimiyyət nümayəndələri olan nazirlər heyəti və məmurlar məsuliyyət daşımalı idi. Bu səbəbdən də "Konstitusiya əsasən nədir?" sualına məqalədə belə cavab verilir: *"... qanuni-əsasi sadə qanunun mafövqündə (sadə qanundan üstün – Ş.P.) bir şeydir. Yəni andan böyük, andan mətin, andan möhkəm, andan müqəddəsdir! ... bir qanunə əsasi denilmək üçün o qanun gərək əvvəli-əmrdə kimsənin ona əli yetişməyəcək dərəcədə dərin olsun... anın üzərinə bina olunmayan heç bir qanuna qanun nəzərilə baxılmamalıdır... fəzayi kainatda səyyaratın (planetlərin – Ş.P.) nizami-hərəkəti layətəğəyyər (sabit – Ş.P.) olduğu kibi qanuni-əsasi də dəxi, anı hər növ təsadüfi təğyiratdan (dəyişiklikdən – Ş.P.) mühafizə edəcək bir sifət, daha dürüstü bir cövhər olmalıdır, yəni qanuni-əsasi dürcində (qutusunda – Ş.P.) bir cövhəri-fail bulunmalıdır ki, qəvaninin-sairə və müəssisati hökümətin kaffəsini (hamısını – Ş.P.) o vəz və inşa edə bilsün..."* [1,s.12]. Məqalə müəllifinin açmaq istədiyi əsas məqam odur ki, konstitusiya elə bir ali statusa malik olmalıdır ki, onu nə tez-tez dəyişmək, ona müdaxilə etmək mümkün olsun, nə də digər qanunları, hökümət müəssisələrinin bütövlükdə təsis və inşa edə etməkdə hər hansı bir çətinlik yaransın. Lakin sadəcə konstitusiya qəbulu ilə işin bitmədiyini, bunun üçün maarif və təşkilatlar vasitəsi ilə millətin müxtəlif siniflərində olan qüvvənin ortaya çıxarılmasına zərurət olması da məqalədə etiraf edilir. Yəni maarifləndirmə işi düzgün təşkil olunmalıdır ki, millət ilk öncə azadlığın, hüququn nə olduğunu başa düşsün ki, onun uğrunda daha şövqlə mübarizə apara bilsin. Yoxsa məqalənin sonunda da qeyd olunduğu kimi *"bu gün Rusiyaları on-on iki darülfünun, bunca məkatibi-aliyyə və edadiyyə, əzəmətli-əzəmətli sinif, ya firqə ittifaqları, orqanizasiyalı bulunduğu halda yenə camaət qanlar içində çabalayub turuyor!"* [1,s.12].

Füyuzatın ikinci nömrəsində "Vəqayei-aləmə bir nəzər" başlıqlı məqalədə Qacarlar İranın vəziyyətinə nəzər salınarkən hakimiyyətdən narazı bir qrup ruhani heyəti ilə bir qism əhalinin ingilis səfirliyinə müraciəti və iki həftə orada qalmasını şərh edilərkən bu addımın yanlışlığı və əslində həll yolunun yalnız qanuni-əsasidə olması bir daha vurğulanır. Lakin Əli bəy Hüseynzadə bunun üçün daha ağıllı addımlar atılmasına ehtiyac duyulduğunu, ingilis səfirliyi qarşısına axışıb müftə qarnını doyurub iqtisadiyyatına zərbə vurmaqla düzgün nəticə hasil olmayacağını qeyd edir və bu insanları qoyun sürüsünə bənzədir: *"Məmləkətdə hürriyyət, ədalət, nizam hökmfərma ola idi, biz də bu hərəkəti təkdir edər idik... İngiltərənin əlində əcəmləri təhrik etmək üçün bir vasitə var. İştə bu vasitəyi qanuni-əsasi almağı alət ittixaz ediyor. Əcəm hökümətinin başqa yolda nicat bulmasının imkanı yox...Hürriyyəti hiss edərək, istehsalına qiyam edən 16000 kişinin qoyun sürüsü kibi bilavüquat səfarətxanaya iltica etməsi inanılır qərabətlərdən olmasa gərək."* [2,s.17-20] Əli bəy Hüseynzadənin də qeyd et-

diyi kimi *“iranlıların ingilis səfarətində yığılıb hürriyyət və qanuni-əsasidən dəm uracaqlarına, ...Kərbəla üçün mərsiyələr oxuyub ağlamaları”* heç bir qəlibə sığmır və əslində*“hərəkati-inqilabiyyəni bir müvəffəqiyyətlə əncamə yetirmək üçün, cəmaət üçün “orqanizasiya” denilən bir intizam-təşəkkül lazımdır”* [3,s.21].

Əli bəy Hüseynzadə qanuni-əsasi ilə bağlı fikirlərinin Füyuzatın 3-cü nömrəsində çap olunan “Şüunat” məqaləsində daha da inkişaf etdirir. Xüsusilə Dövlət Duması ərəfəsində qələmə alınmış bu məqalədə seçki ərəfəsi mövcud vəziyyət təsvir olunur və Rusiya imperiyası daxilində böyük bir titrəyiş müşahidə olunduğu qeyd olunur. Bu titrəyişə səbəb ya inkişafa, ya da ki uçuruma aparacaq seçkilərin nəticələrinin necə olacağıdır. Hər bir halda Ə.Hüseynzadənin fikrincə Çar Rusiyasında konstitusiyanın qəbul olmasından qeyri bir çıxış yolu yoxdur və o, bu istiqamətdə aparılan mübarizəni belə izah edir: *“Bundan qurtuluş yoxdur, lakin hər kəs vaxt qazanmaq və qazanacağı vaxtdan bilistifadə ortadan az bir zərər və ziyan ilə qurtulmaq istiyor: böyük məvaciblərə alışmış bürokratlar, hüquqi-mümtazə ilə yaşamış əsilzadələr, vase-vase ərazinin mədaxili ilə keçinməgə ögrənmiş mülkədarlar, əmələ və fələni üsarəsini istədikləri qədər əmüb sormuş sərmayadarlar, lisan və məzhəblərindən bir boyunduruq qayırub hər kəsin boynuna taxub öküz kibi o yan bu yana çəkməkdən zövq almış rus ortodoks misyonerləri əsrlərdən bəri nail olduqları maddi və nəfsani nemətlərdən asanlıqla əl çəkmək və çəkilmək istəmiyorlar, çəkilsələr də heç olmasa özlərinə bəzi mənafe təmin edüb öylə çəkilmək istiyorlar... Mübarizənin bu qədər davam edüp sürməsi həp bu yüzdəndir”* [1,s.34]. Qeyd olunan səbəblərə nəzər salıdqda Əli bəy Hüseynzadənin mübarizənin əslində kimlərlə aparılacağına diqqət çəkməsi aydın olur. Lakin məqalə müəllifinin qeyd etdiyi kimi bu mübarizə heç də asan başa gəlməyəcəkdi, çünki uzun zamandır mövcud olan bir sistemin dəyişdirilməsindən söhbət gedir. Gedilən yolun enişli yoxuşlu olmasına Ə.Hüseynzadə də diqqət çəkərək keçilən yollarda müxtəlif növ tətillər, açıq küçə və meydan üsyanları, millətlərarası qarşıdurmalar, qarətlər, yanğınlar gördüyünü qeyd edir [2,s.34]. Lakin bunu düzgün mübarizə metodları olaraq görmür. Ona görə yazır ki, *“bəşəriyyət əqlini top, tüfəng, barıt, dinamit, roborit kibi heyvanlıq asarı icad edəcəyinə, əqlini ziraət və sənaətin, iqtisadın tərəqqisinə həsr edə idi, bu gün ac və biəlac qalmaz idi... əvam olan külliyyət, ya əksəriyyət öz mənfəətini anlamış olsaydı, mübarizə qayət asanlıqla hüsni-əncama irib onun mənafei intixabatın nəticəsində gözəlcə təmin edilmiş olurdu”* [3,s.35]. Bunun üçün də düzgün maariflənmək lazım idi ki, xalqı gözəl vədlərlə aldadıb onu lehinə rəy verməyə inandıranlar istəklərinə müvəffəq olmasınlar. Füyuzatçılar da bu düzgün maarifləndirmə işinin təşkilinə çalışır və var qüvvələrini bu istiqamətdə səfərbər edirdilər. Aldanmamaq üçün çıxış yolu kimi bitərəflərə deyil, ilk öncə firqə proqramını açıq şəkildə bəyan edənlərə diqqət yetirməyi və eyni zamanda bu proqramların mətnindən də xəbərdar olmağı məsləhət görürdülər [1,s.36].

Əli bəy Hüseynzadə Füyuzatın 4-cü sayının “İcmal” başlıqlı məqaləsində [2,s.49-51] “Konstitusiya”, Konstitusyonalizma” terminlərindən yola çıxaraq “parlamentarizma” terminınə geniş şərh verirdi. O, bu terminlərin Osmanlı şivəsində olan “Qanuni-əsasi” və “Məşrutiyyət” sözləri ilə eyni məna daşıdığını qeyd edir. Əli bəy Hüseynzadə Çar Rusiyasını bürüyən terror dalğasının Stolıpinin təklif etdiyi kimi *“əvvəl cəbr və şiddət sayəsində asayiş və sükunət, sonra nizami-məşrutiyyət və hürriyyət” məqsədinin hasil olması düzgün yol olmadığını yazırdı. O, əksini təklif edirdi: “Əvvəl nizami-məşrutiyyət və həm də “parlamentarizma” qaydası ilə məşrutiyyət və hürriyyət təqərrür edərsə, sonra asayiş və sükunət özü-özünə peyda olur...”* [3,s.50] Bəs “parlamentarizm nədir?” sualına cavab olaraq yazırdı ki, parlamentarizm dövlət duması heyəti önündə nazirlər heyətini təşkil edən bütün nazirlərin əsas vəzifələrində məclis üzvlərinin əksəriyyətinin fikrinə tabe olmaları, olmadıqları halda istefa verib yerlərinə milləti təmsil edən vəkillərdən seçilib nazir məqamına təyin edilməsini şərt qoyan konstitusiya üsuludur. Bir başqa sözlə bu istilahı “üsuli-idareyi-məbusiyyə”, yəni millət vəkilliyi idarə üsulu kimi ifadə etmək olar [4,s.50]. Əli bəy Hüseynzadənin təbirincə desək *“Parlament qaydası elə bir təşkilatdır ki, əcnəbilər arasında dövlətin etibarını mühafizə edib məmləkəti pərişan vəziyyətdən xilas edər”* [5,s.51]. Əks təqdirdə parlament qaydası bərqərar olunmadığı halda isə *“dəhşətli çətinliklər baş göstərib bizi təhdid edəcək və ehtimal yeni bir müharibəyə məcbur eyləyəcək”* [6,s.51] Bu ehtimallar hadisələrin sonrakı inkişafından da gördüyümüz

ki, bütün dünyanı öz cənginə alan Birinci Dünya Müharibəsinin baş verməsi ilə nəticələndi. Çünki bütün Avropa da başdan-başa bir təlaş və narahatçılıq içində idi. Şərq də bu narahatçılıqlardan kənarda deyildi. Dünyada mövcud müstəmləkə rejimi ilk çöküşünü yaşayırdı. Bu çöküşün nəticəsində yaranacaq parlamentli hökumətlər Şərqdə də qısa müddətli də olsa böyük bir təcrübə yaşamış oldu. Bu təcrübənin də yaşanmasının memarları sırasında sözsüz ki Füyuzatçıları unutmaq olmaz.

Əli bəy Hüseynzadə qanuni-əsasi ilə bağlı Füyuzatın 14-cü nömrəsində çap olunan "Cilvəgahi-hüquq" məqaləsində mühüm məsələlərdən birinə - millətin büdcəyə nəzarət və təftiş edə bilmək hüququna malik olmasına toxunur. Onun məqalədəki fikirləri demokratiya və mütləqiyyət arasındakı fərqi daha yaxşı başa düşməyə, həqiqi qanuni-əsasinin necə olmasını dərk etməyə imkan verir. O yazır: *"Məşrutiyyət və Qanuni-əsasinin ən mühüm şərtlərindən biri millətin büdcəyi kontrol ilə, yəni təftiş və müraqibə ilə təsdiq edib-etməmək haqqını haiz bulunmasıdır. Şərq və islam məmləkətlərində cari olan mütləqiyyət və üsuli-idareyi-keyfiyyə, büdcəni daim əhalidən gizli tutub vergi və rüsumat şəklində cəamaətdən, millətdən yığdığı pulları istədiyi kibi sərf eylər. Lakin məşrutiyyət və vəkaləti-milliyyə üsulu ilə idarə olunan məmləkətlərdə hökümət aldığı pulların qəpiyinə qədər cəmaətə haqq-hesab göstərməyə borcludur. Büdcə nədir? Büdcə dövlətin bir sənəlik varidat və məsarifatının, yəni mədaxil və məxaricinin dəftəri-müvazinəsidir"* [1,s.212].

Həsən Səbri Ayvazovun Füyuzatın 29-cu nömrəsində çap olunan "Həyati-əqvam" adlı məqaləsində dövlətin idarəçilik formaları barədə qısaca arayış verilir və ən məqbul idarəçilik forması olaraq idareyi-məşrutəyə üstünlük verilir. Çünki məhz belə bir idarəçilik millətin mənafeyini, səlamət və səaəditin, hal və istiqbalını təmin etməyə qadirdir [2,s.457].

Ümumiyyətlə qeyd edək ki, "Füyuzat" jurnalı və onun redaksiya heyəti XX əsrin əvvəllərində ictimai-siyasi fikrin təşkili və tənzimlənməsində, informasiya mühitinin formalaşmasında milli mətbuat nümunələri əhəmiyyətli rol oynayıb [3,s.5]. Çünki onlar yalnız bir jurnal nümunəsi nəşr etməklə məhdudlaşmadılar, füyuzatçılıq xətti-hərəkatını, "Füyuzat" jurnalistikası məktəbini yaratmaqla tarix səhifələrinə öz imzalarını həkk etdilər. "Füyuzat" jurnalı əsasında nəzərdən keçirdiyimiz fikirləri yekunlaşdıraraq belə qənaətə gələ bilərik ki, "Füyuzat"lıq sadəcə islam etiqadlı, firəng fikirli, Avropa qiyafətli olmaq deyil, "Füyuzat"lıq həm də müstəmləkə zülmünə qarşı mübarizədir, azadlığın, demokratiyanın carçısı olmaqdır, xalqın haqqını tələb etməkdir və bu yolda onu düzgün formada maarifləndirməkdir. Füyuzatın Azərbaycan xalqı qarşısında tarixi rolu və xidmətlərindən ən mühümləri məhz bunlardır. Bu xidmətlərin nəticəsində həm milli mətbuatın inkişafı daha da sürətləndi, həm müstəmləkə boyunduruğu altında inləyən xalqa əsarət zəncirini necə qırmaq, dövlətinə sahib çıxıb onu ən doğru şəkildə necə idarə etmək aşılanmış oldu ki, bunun nəticələrinə 23 aylıq Cümhuriyyət dövründə bir daha şahidlik etdik.

**Açar sözlər:** *mətbuat, jurnal ,Füyuzat, türkçülük, müasirləşmək, yer və azadlıq.*

## ƏDƏBİYYAT SİYAHISI

*1.Dövlət dumaları haqqında: [Elektron resurs] / Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi - http://www.archive.gov.az/en-opennews/160.html#.YQm9kz9R270*

*2.Əsgərov Z.A. Konstitusiya hüququ. Dərslik. Bakı: Bakı Universiteti nəşriyyatı, 2011, s.22-23*

*3. Füyuzat (1906-1907),s.3-450*

*4.Füyuzat (1906-1907) // Transliterasiya edən, çapa hazırlayan və ön sözün müəllifi: O. Bayramlı; Red.: B.Nəbiyev, T.Kərimli; ARMEA, Nizami adına Ədəbiyyat İnstitutu. Bakı: Çaşıoğlu, 2006, s.2-3.*

*5.Xəndan, R.Z. Unudulmuş dahi // – Bakı: Qobustan, – 1990. № 4, – s.55.*

*6.Quliyev, Vilayət. "Füyuzat"ın iki yazarı. Bakı: Elm və təhsil, 2017, s.52*

*7.Məhəmməd Hadi (Ağaməhəmməd Hacı Əbdülsəlim oğlu Əbdülsəlimzadə): biblioqrafiya / Tərt. ed.: M.Vəliyeva, G.Əfəndiyeva, G.Misirova; elmi red. K.Tahirov; red. M.Cəfərova. –Bakı, 2020, s. 89*

*8.Məhəmməd Hadi. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005, s.59-61*

*9.Turan, Azər. Əli bəy Hüseynzadə: həyatı, mübarizəsi yaradıcılığı və şəcərəsi. Moskva: Salam press, 2008, s. 130*

*10.Vəliyev, Şamil. Əli bəy Hüseynzadə və füyuzatçılıq // "525-ci qəzet".-2014.-17 aprel.-№ 65.- s. 5.*

**Идея азербайджанского народа о создании независимой государственности, конституционного свободного гражданского общества и борьба с колониализмом. На страницах журнала "фуюзат"**

**РЕЗЮМЕ**

Данная статья посвящена значению прессы в развитии общественно-культурного возрождения азербайджанских тюрков. В статье освещаются вопросы важности органов печати в жизни азербайджанских тюрков. Предметом исследования являются средства массовой информации, проложившие путь идеалам республики, сохранив солидарность и национальную идентичность тюрко-мусульманского населения. Исследование базируется на данных газетных изданий 1905–1907г., являющихся главной движущей силой национально-освободительного движения в Азербайджане. Основывается на информации журнала «Фуюзат».

**Ключевые слова:** *пресса, журнал, Фуюзат, тюркизм,развитие, пространство и свобода.*

**THE IDEA OF THE PEOPLE OF AZERBAIJAN TO ESTABLISH AN INDEPENDENT STATE, CONSTITUTIONAL FREE CIVIL SOCIETY AND THE FIGHT AGAINST COLONIALISM"**

**SUMMARY**

This article is dedicated to the importance of the press in the social and cultural revival of Azerbaijani Turks. The article emphasizes the importance of the media in the life of Azerbaijani Turks. The subject of the study is the media, which leads to the ideals of the republic, while preserving the solidarity and national identity of the Turkish-Muslim population. The research is based on the publications of 1905-1907, which were the main driving force of the national liberation movement in Azerbaijan, especially the magazine "Füyuzat".

**Keywords:** *press, magazine, Füyuzat, Turkism, modernization, space and freedom.*

UOT 94(479.24)

# QARABAĞIN DİZAQ MƏLİKLİYİ

**AYSEL SADİQOVA**
*Azərbaycan Milli Elmlər Akademiyası, Tarix İnstitutunun "Xanlıqlar dövrü və Qarabağ tarixi" şöbəsinin dissertantı*

*E-mail: aysel_sadiqova-1985@mail.ru*

Azərbaycan Səfəvi hökmdarları dövründə Qarabağ vilayətinin Dizaq, Vərəndə, Xaçın, Çiləbörd, Talışdan ibarət olan Xəmsə mahalları və elləri Nadir şah zamanına qədər Gəncə bəylərbəyinin hökmünə tabe olmuşdur [10, 109]. Nadir şah dövründə Qarabağın Xəmsə mahalındakı Dizaq mahalına da məlik təyin edilmiş və digər məliklər kimi ona da birbaşa şaha tabe olmaq tapşırılmışdı. Buna görə də Gəncə xanlarının səlahiyyətləri əllərindən alınmış və get-gedə onlar zəifləmişdilər [11, 11]. Ümumiyyətlə, məliklərin hakimiyyəti irsi idi: atanın ölümündən sonra idarəçilik və "məlik" titulu böyük oğula keçirdi, digər qardaşlar isə bəy adlanırdı. Məlikliklərin idarəçiliyində qanunun əvəzinə hakimin iradəsi və xalq adətləri mühüm rol oynayırdı. Məliklər tabeçiliyində olan ərazilərdə mühakimə etmək, cəza vermək, hətta edam etmək səlahiyyətinə malik idilər. Məliklər bir-biri ilə istər siyasi maraqlar baxımdan, istərsə də qohumluq əlaqələrinə görə bağlı idi [18, 17]. Dizaq məlikliyi daha çox Vərəndə ilə sıx qohumluq əlaqələrinə malik idi. Belə ki, Dizaq məliyi Avan xanın bacısı Anna xatun Vərəndə məliyi Hüseynin həyat yoldaşıydı [18, 37]. Vərəndə məliyi II Şahnəzərin həyat yoldaşı Sona xanım isə Dizaq məliyi Yesainin qızı idi [18, 48].

Qarabağın xəmsə məlikliklərindən Dizaq mahalının tarixi xüsusi maraq doğurur. Məlum olduğu kimi Qarabağ xanlığı 21, bəzi mənbələrə görə 25 mahaldan təşkil olunmuşdu [12, 96; 1, 6]. Tofiq Mustafazadə Qarabağda Dizaq adlı 3 mahalı – Dizaq, Xırdapara Dizaq və Dizaq Cavanşiri (Cavanşir-Dizaq – A.S.) qeyd edir [12, 96]. Ənvər Çingizoğlu isə 4 Dizaq adlı mahal sadalayır: Cavanşir-Dizaq, Xırdapara-Dizaq, Dizaq, Dizaq-Cəbrayıllı [1, 4]. Cavanşir-Dizaq mahalı Qarabağ xanlığının tarixində xüsusi yer tutur. Çünki həm Qarabağ xanları əslən bu mahaldan idi, həm də Pənahəli xana qarşı ilk üsyan da məhz bu mahalda baş vermişdir [1, 3]. Cavanşir-Dizaq mahalı xanlıqlara iki vəzir bəxş edib. Biri İbrahimxəlil xan və Mehdiqulu xanının vəziri olmuş Mirzə Camal bəy Cavanşir, digəri isə Lənkəran xanı Mir Mustafa xanın (1787-1814) divanxanasında katib, münşi, daha sonra baş vəzir olmuş Mirzə Xudaverdi Zərgərdir [1, 3]. Cavanşir-Dizaq mahalı keçmiş Arazbar qəzası ərazisinin əksər hissəsini əhatə edirdi. Bu ərazi də ta qədimdən Cavanşir elinin yurdu idi [1, 7]. Bu mahalın mərkəzi Hacılı (Türkman) obası idi. Qərbdən Xırdapara-Dizaq mahalı, şimaldan Vərəndə mahalı, şərqdən Dəmirçihəsənli mahalı, cənubdan Ərdəbil xanlığı ilə hüdudlanırdı [1, 34]. Qarabağ xanları əslən bu mahaldan olduqlarına görə camaatına xüsusi qayğı göstərirdilər. Tarixçi Mirzə Camal Cavanşir Qarabaği yazır: "Mərhum Pənah xanın əsil-nəsəbi də Dizaqın Cavanşir elindəndir. Bu el qədim zamanlarda Türküstandan gəlmiş Bəhmənli elinin bir qolu olan Sarıcalı oymağındadır. Bunların ata-babaları Cavanşir eli arasında məşhur, adlı-sanlı, çörəkli, mal-dövlət və ehsan sahibi olmuş adamlar idi" [10, 110]. Digər Dizaq adlı mahal Xırdapara-Dizaq adlanır. Bu mahalın mərkəzi əvvəlcə Pirəhmədli, daha sonra Saracıq kəndləri olub. Qərbdən Dizaq-Cəbrayıllı mahalı, şimaldan Dizaq mahalı, şərqdən Cavanşir-Dizaq mahalı, cənubdan Qaradağ xanlığı ilə hüdudlanırdı. Xırdapara Dizaq mahalı 12 kənddən ibarət idi və burada 218 [129-u vergi ödəyən, 89-u ödəməyən] ailə yaşayırdı. Mahal minbaşı Məlik Həsən tərəfindən idarə olunurdu [12, 106; 17, 139-145]. Dizaq nahiyəsi və Arazbar qəzası əraziləri hesabına yaradılan bu mahal ərazisində qeyri-müsəlman yaşamırdı. 1822-ci ildə ləğv edilərək Dizaq mahalının tərkibinə daxil edilib [4, 89-95]. Dizaq Cəbrayıllı mahalı isə Qərbdən Bərgüşad mahalı, şimaldan Dizaq mahalı, şərqdən Xırdapara-Dizaq mahalı, cənubdan Qaradağ xanlığı ilə hüdudlanırdı. Mərkəzi Cəbrayıllı kəndi idi və mahal öz adını Cəbrayıllı elindən alıb. Dizaq Cəbrayıllı mahalı da 1822-ci ildə ləğv edilmiş və Dizaq mahalına birləşdirilmişdir [2, 48-57].

Mərkəzi Tuğ kəndi olan 4-cü mahal isə Dizaq adlanırdı. Qərbdən Bərgüşad, şimaldan Vərəndə, şərqdən Cavanşir-Dizaq, cənubdan Xırdapara-Dizaq mahalları ilə hüdudlanırdı. Dizaq məlikliyi məhz bu mahalın ərazisini əhatə edirdi [3, 48-57]. Mirzə Yusif Qarabağinin verdiyi məlumata görə, Dizaq mahalının uzunu Əkərə (Həkəri – A.S.) çayı və Kültəpədən başlayaraq, Maltəpəyə kimi, eni isə Araz çayından Xurat dağına kimi əraziləri əhatə edir. Bu mahalın torpağı çox məhsuldardır. Burada yaxşı pambıq, çəltik, ipək və taxıl yetişdirilir. Araz çayı boyunca bir neçə böyük şəhər var idi. Həmin şəhərlər dağılmış və indi onların ancaq xarabalıqları qalmışdır. Onların məlikləri keçmişdə Rumdan gəlmişdir. Bunlardan Məlik Yegan adlı bir şəxs Nadir şahın yanında böyük hörmətə və ehtirama malik olmuşdur və onu babalıq şah adlandırmışdılar [11, 12]. Nadir şah ona xan titulu da vermiş və bundan sonra Məlik Avan xan adlanmışdır [18, 40]. Məlik Avanın Dizaqda 1726-cı ildə qaldırdığı üsyan ilə bağlı Osmanlı sənədlərində də məlumat verilir və təəssüf ki Avan erməni kimi təqdim edilir: “Gəncə ilə Təbriz arasında Qaradağ sərhədinə bitişik olan Dizak adı verilən yerdə toplanaraq üsyan halında olan bir qrup erməninin, Karaçorlu, Pesyan və Şirvanşahlu ilə digər kürd qulduru və Bərgüşad hakimi Fətəli ilə ittifaq edərək hər keçən gün qüvvələrini artırdıqları xəbər alındığından Təbriz Səraskəri Əli Paşa ilə xəbərləşilib quldurun dəf edilməsi üçün Gəncə və Şirvan Səraskəri Mustafa Paşaya xitabən yazılan hökm” [13, 64]. Gəncə və Şirvan tərəfləri səraskəri olan Vəzir Mustafa Paşaya ünvanlanan hökmdə belə qeyd olunub: “Qaradağ hüduduna muttasıl olan Dizak adlı məhəllə karib Sığnakda hələ üsyan üzrə olan Avan adlı Erməni həvasına tabe Eramine quldurundan vafir Erməni ilə tahassun edib ətrafda da Karaçorlu və Pesyan və Şirvanşahlu və sair Ekrad və qulduru şəkavətnihad yanında təməzzüb ü təcəmmu’ və ətrafında vaqe Bərgüşad əhalisi və hakimi Fətəli Sultan məzburlar [ilə] ittifaq ittihad və yevmən fe-yevmən ədəd u udəd cəhətindən qüvvələri müzdad olub ətraf ü əknafa isalı xəsarətdən halı olmadıqları düsturu mükərrəm müşiri mufahham nizamü’l-aləm hələ Təbriz tərəfi səraskəri vəzirim Əli Paşa ədamallahu Təala iclalehu tərəfindən qaiməsiylə dəri dövlət-medarıma ilam və vəchi məşruh üzrə olduğun müş’ir Abdürrəzzaq Paşanın özünə gələn kaiməsini də irsal etməklə məsrurların bir gün əvvəl tədarükü görülmək lazimei haldan olub və sığnakı mərkum Gəncə ilə Təbriz beynində olmağın vəziri müşarünileyh ilə xəbərləşib taifei mərkumənin dəfi fəsadları əsbabına təşəbbüs və bir gün mukaddəm tədarükləri görülüb iktizasına görə hərəkət ilə dəf və rəfi ga-ile-i məkr və fəsadlarına çox ihtimamı diqqət etməyin babında fərmanı alişanım sadır olmuşdur. Buyurdum ki... Fi əvaxiri R., il 1139 [Dekabr, 1726], C.DH, 14204” [13, 64-65]. Qeyd edək ki, Osmanlı dəftərlərində təsadüf edilən maraqlı bir məqam əraminə adı yalnız ermənilərin deyil, yunan, süryani, ərəb və hətta türk və kürd mənşəli qeyri-müsəlmanlara da şamil edilirdi [7, 49]. Məsələyə bu baxımdan yanaşıldıqda erməni anlayışını etnik ifadə olaraq qəbul etməmək lazımdır. Qeyd edək ki, Məlik Avan Rusiya imperiyasından böyük ehtiram görmüşdü. O, Anna İvanovnanın hakimiyyəti illərində (1730-1740), daha dəqiq desək 1734-cü ildə öz heyəti ilə Rusiya imperiyasına səfər etmişdir. Çariça onu I Pyotrun Səfəvilər dövlətinə yürüşləri vaxtı göstərdiyi xidmətə görə mükafatlandırmış, ona general-mayor rütbəsi və müxtəlif ordenlər vermişdir. Onu müşaiyət edən heyət də orden, rütbə və təqaüdlə mükafatlandırılmışdı. Yelizaveta Petrovnanın hakimiyyəti dövründə də (1741-1762) Məlik Avan-xan yenidən Rusiyaya səfər etmiş və ailəsini də özü ilə aparmışdır. Bu dəfə də ordenlərlə təltif olunmuş və başqa yüksək mükafatlara layiq görülmüşdür. Sankt-Peterburqda çariça tərəfindən qəbul edilən Məlik Avanı və ailəsini Qraf Minix və Qraf Razumovski imperatriçaya təqdim etmişdilər. Dizaqa qayıtdıqdan sonra Məlik Avan xan çox yaşamadı və 1744-cü ildə vəfat etdi. Tuğ qalasındakı kilsənin qəbristanlığında dəfn edildi. Onun böyük oğlu Arram atasından sonra cəmi 1 il hakimlik etdi, ondan sonra məliklik kiçik oğul Məlik Yesaiyə keçdi [18, 41-42].

Məlum olduğu kimi sonradan bu mahalın hüdudlarında meydana gələn Dizaq məlikliyinin başında duran Məlik Yeganın əcdadı da bir versiyaya görə Səfəvilər dövlətinin içərilərindən köçüb gəlmişdi. Bu versiyanı Paruyra Arutyunyan İrəvanda yerləşən Matenadaran qədim əlyazmalar İnstitutunun arxivinə istinadən [14, 61] irəli sürür. Lakin ən çox qəbul edilən versiya Dizaq məliklərinin Qarabağa Loridən qaçıb gəlmələridir. Əlavə olaraq qeyd edək ki, Qarabağ xanlığının Dizaq mahalına müasir Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının bir sıra kəndləri vaxtilə

Qarabağ xanlığının Dizaq mahalının ərazisinə uyğun gəlir. Dizaq toponiminin fars dilində "-diz" yəni "qala" sözü ilə əlaqəsi yoxdur. Dizaq mahalının dağlıq və dağətəyi relyefi onun adının yerli türk boyları tərəfindən yaranmasına səbəb olmuşdur. Dizaq toponimi qədim türkcədə "tiz" sözündən qaynaqlanır və mənası "yüksək yer" deməkdir [8, 344-10; 9, 123-16, 123-18]. Dizaq məlikləri 1535-ci ildə Loridən köçüb burada məskunlaşmış Avanın törəmələri idi [12, 108]. Raffi yazır ki, Məlik Avan (Yegan) Lorinin Artu kəndindən olub vardapet Qukasın oğlu idi. Məlik Avan onun əcdadlarına xas olan Pəmbək vadisi və Lorinin bir hissəsini ondan alan qohumu məlik Elizbarla fasiləsiz müharibə aparmışdır. Düşmənini məğlub edə bilməyən Məlik Avan atası vardapet Qukas və tabeliyində olan əhali ilə Dizağın Tuğ kəndinə köç edib məskunlaşmışdı. Burada atası Ktiş monastrını bərpa edərək orada qərar tutmuşdu. Məlik Avan da Tuğ kəndində möhtəşəm kilsə tikərək tikilini keçilməz divarlarla möhkəmləndirdi. O, saray da inşa etmişdi [18, 25]. Burada maraqlı bir məqama da diqqət yetirmək lazımdır. Belə ki, Pənahəli xanın əsil-nəsəbi olan Cavanşir elinin Qarabağa gəlişi barədə birbaşqa versiya Loridən gəlməsidir. Bu barədə Mir Mehdi Xəzani məlumat verir [11, 105]. O yazır ki, "guya belə nisbət veriblər ki, dudmani-Çingiziyyənin dövlət və səltənətləri münqəriz olandan sonra o nəsildən birisi fərar edib gəlib əvvəl Gürcüstanın Lori qalasında məxfi və mütəvari olub, sonra xavanini-Gəncənin işləri tərəqqidə olan zamanda gəlib Gəncədə onlara xidmət edərmiş. Sonra ali olan hümməti şöylə xanlara xidmət-güzar olmağı özünə ar bilib, oradan Qarabağa gəlib Cavanşir içində bəxti-cavani-yarılıt qılıb, çox dövlət və mal və həşəm üz verib və bir fərzəndi-ərcüməndi və bir mövludi-səadətməndi dəxi təvəllüd edib ki, hüsni-vəcahəti və camali-bilətafəti həddən ziyad imiş" [11, 105]. Qarabağın yeganə yerli məliyi olan Xaçının knyazlarının da Lori və XII-XIII əsrlərdə Lorini idarə edən nəsillərin qıpçaq türkləri ilə bağlılığı [5, 2587], Sarıcalı oymağının Səfəvilər dövründə Xaçın nahiyəsində məskunlaşan qıpçaq tayfaları sırasında qeyd edilməsi [5, 2583-2584] olduqca maraqlı nüansdır. Bu nüans öz-özlüyündə Dizaq məliklərinin Xaçın məlikləri ilə müəyyən əlaqələrinin olmasına, hər iki məlikliyin də türk soyu ilə bağlı olmasına dəlalət edir. Raffi qeyd edir ki, Dizaq məliyi Məlik Yeganın bacısı, Məlik Hüseyn I Məlik Şahnəzərin arvadı da Anna xatun adlanırdı [18, 37]. Bu problem ayrıca araşdırılmanın mövzusudur. XVIII əsrdə Dizaqın əhalisinin 49,2%-ni türk əhalisi təşkil edirdi. Bu azlıq da əsasən Gəncə-Qarabağ əyalətinin müsəlman əhalisinin başqa yerlərə köçməsi və köçürülməsi, xristian əhalinin isə əsasən, öz yerində qalması ilə bağlı idi. Bunun nəticəsində də türk əhalisinin sayında süni şəkildə azalma müşahidə olunur [12, 101; 6, 16]. Bununla belə Şah I Abbas dövründə Dizaq vilayətindən İsfahan istiqamətində bəzi köçlər olmuşdu. Arakel Təbrizli bu barədə belə yazır: "Ağvan (Albaniya – A.S.) ölkəsindən ...Dizaq məliyi Sucum... köç etdi... Dizaq vilayətinin daha 4 kəndinin sakinləri Persiyaya (Səfəvilər dövlətinə - A.Q.) köç etdilər. Şah onları İsfahan şəhərində məskunlaşdırdı" [14, 56; 15, 46-47]. Arakel Təbrizli bu köçə səbəb kimi erməni kimi təqdim etdiyi alban xristian əhali üzərinə qoyulan ağır vergiləri qeyd etsə də, əslində bu həqiqəti əks etdirmir. Çünki Şah I Abbas dövründə Azərbaycan torpaqlarından İsfahan ətrafına köçürülən yerli xristian əhaliyə hər cür şərait yaradılmış və üstəlik Yeni Culfa kimi bir şəhər salınmışdı. Erməni tədqiqatçı Filipp Ekozyantsın da qeyd etdiyi kimi Şah I Abbasın saldırdığı Yeni Culfa şəhəri XIX əsrin ikinci yarısına qədər o qədər inkişaf etmiş və şəhərin xristian icması da elə bir nüfuz qazanmışdı ki, xirsitianların hər hansı bir təqibindən, incidilməsindən söhbət belə gedə bilməzdi [19, 11].

"Müfəssəl dəftər"ə görə Dizaq nahiyəsi birbaşa Gəncə-Qarabağ bəylərbəyinə tabe idi. Nahiyənin ən böyük kəndləri 79 qeyri-müsəlman kişinin qeydə alındığı Tağan, 73 qeyri-müsəlman kişinin qeydə alındığı Tuğ, 62 müsəlman vergi ödəyicisinin yaşadığı Cəbrayıllı, 88 qeyri-müsəlman kişinin qeydə alındığı Hadefud, 30 nəfər müsəlman kişinin yaşadığı Maralyan kəndi idi. Nahiyənin Əyri, Kənan, Kürzandi, Dövlətyar, Xəlifəşah, Məzrəə, Bulataq, Oxçu, Xırdaxağ, Namxoş, Həkərim, Xırmançı, Makladərə, Nurkişi, Zimmi, Goyçay, Vəng, Manin, Nureşin, Məlikcan və Çimənək kəndlərində heç kim yaşamır, tarlalarında qonşu kəndlərin sakinləri dənli bitkilər əkirdilər. Nahiyə sakinləri buğda, arpa, çəltik, darı yetişdirir, maldarlıqla məşğul olurdular. Bəzi kəndlərdə [məsələn Maralyan] ipəkçilik və pambıqçılıqla da məşğul olurdular [12, 110-111; 6, 336-341]. Dizaq nahiyəsinin xristian əhalisinin sayına diqqət yetirmək lazımdır. Belə ki, əksər erməni tədqiqatçılarının Qarabağın xristian məlikliklərinin az qala ordu sahibi olması

kimi əsassız iddiaları mövcuddur. Məsələn, P.T.Arutyunyan yazır: "Y.Lalayanın məlumatlarına görə dinc vaxtı məliyin daimi olaraq saxladığı təxminən 300 döyüşçüsü var idi. Dizaq məliyi Məlik-Yeganın oğlu Yesainin hərbi əməliyyatlar vaxtı təxminən 3000 nəfərlik qoşunu var idi. Yalnız bu məliyin deyil, digər iri məliklərin də öz qoşunları var idi" [14, 65-66]. Halbuki Qarabağın xristian məliklərinin, o cümlədən də Dizaq məlikliyinin heç o qədər əhalisi yox idi, qaldı ki 3000 ordusu olsun. Məsələn, 1823-cü ildə tərtib edilən Qarabağ əyalətinin təsvirinə görə Talış mahalında 215, Xaçın mahalında 230, Çiləbört mahalında 201, Vərəndə mahalında 625, Dizax mahalında 288 ailə olmaqla cəmi 1559 ailə var idi. Bu ailələrin də hamısı erməni deyildi. Erməni kəndi kimi qələmə verilməyən kəndlərdə 239 ailə yaşayırdı. Qeyd edək ki, xristian albanlar da erməni kəndi kimi qeydə alınmışdı [16, 220-235, 242-245, 310-337].

Nadir şaha müticəsinə itaət etdiyinə görə Dizaqda Məlik Yegana 1744-cü ildə məliklik verilmişdir [10, 3; 12, 108]. Onun mərkəzi Tuğ kəndində Ktişvəng monastrı ətrafında yerləşirdi [18, 17]. O, Nadir şah dövründə Qarabağın başqa məliklərinə nisbətən vəzifə etibarilə böyük hörmətə malik olmuşdu. O bəzi vaxtlar isə bütün mahalların vəkilliyini də aparmışdır [11, 12]. Pənahəli xanın hakimiyyətinin ilk dövrlərində Məlik Yegan övladından olan Dizaq məliki ona düşmən olmuş və Qarabağ xanlığına qarşı üsyan etmişdi. Lakin Pənahəli xan onun müqavimətini qıraraq məlikliyi özünə tabe etmişdi. Bu barədə Mirzə Adıgözəl bəy belə yazır: "Mərhum Pənah xanın ilk hakimiyyət dövrlərində Məlik Yegan övladından olan Dizaq məliki ona düşmən oldu və Allah vergisi olan o dövlətə qarşı üsyan etdi. Uzun zaman müharibə oldu və qırğın alovu aralarında şöləndi. Axırda, Allahın tövfiqi və pərvərdigarın köməyilə, mərhum Pənah xan qalib gəlib o nəsildən bir neçə nəfərini öldürdü... Onların qol-qanadları sındı və pərişan oldular" [10, 37]. Əhməd bəy Cavanşir məlikliyin tabe edilməsi ilə yanaşı islamı da qəbul etməsini qeyd edir: "Qonşu vilayətlərdən toplanmış xəzinə pullarını saxlayan Tuğ və ya Dizaq məliki Yeqan öz oğulları və qohumları ilə birlikdə kəskin müqavimət göstərdikdən sonra, onların bir hissəsi isə islam dinini qəbul etmişdi" [10, 159-160].

İbrahimxəlil xanın hakimiyyəti dövründə Dizaq məliyi İsay idi. İbrahimxəlil xan özünə tərəfdar olan Vərəndə və Xaçın məliklərinin qüvvələri ilə birlikdə Dizaq məliki Yesai Tuğ qalasında mühasirəyə aldı. Uzun mühasirəyə dözməyən Yesai təslim oldu. Onu tutub həbsxanaya saldılar və orada öldü. Raffi yazır ki, Yesainin ölümündən sonra Məlik Avan xanın nəslindən olanlar təqiblərə məruz qalaraq Qarabağı tərk etdilər. Yesainin dul qadını Gövhər xanım övladları ilə birlikdə Astraxana, ordan da Qızılyara köç etdi. Sonralar Avan xanın və qardaşının nəslindən olan knyaz Sumbatyanlar, knyaz Məlikovlar, knyaz Ayrapetyanlar Astraxanda, Sankt-Peterburqda və Moskvada yüksək vəzifələr tutdular [18, 42]. Hakimiyyət Yesainin qardaşı oğlu Vahtama keçdi [18, 64]. Ancaq, çox keçməmiş Vahtam da İbrahimxəlil xana qarşı mübarizəyə başladı [12, 126].

Bütövlükdə, Dizaq məlikliyinin fəaliyyəti və Qarabağ xanlığına qarşı tutduğu mövqeyə nəzər saldıqda məlum olur ki, kənar təsir – xüsusilə də Rusiya amili, Qafqazda hələ yeni-yeni peyda olmağa çalışan erməni amili bir çox hallarda həlledici rol oynamışdır. Belə ki, xristian təəssübkeşliyi Qarabağın xristian məliklərindən, o cümlədən də Dizaqdan Qarabağ xanlığına qarşı çirkli niyyətlər üçün istifadəyə şərait yaratmışdır.

**Açar sözlər:** *Qarabağ xanlığı, Dizaq, Pənahəli xan, Xəmsə məlikləri, alban, erməni.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Çingizoğlu, Ə. Cavanşir-Dizaq mahalı. Bakı: Mütərcim, 2012, 216 s.*

*2. Çingizoğlu, Ə. Cəbrayıllı eli, "Soy" dərgisi, 2 (5), 2005, s. 48-57*

*3. Çingizoğlu, Ə. Dizaq mahalı, "Soy" dərgisi, 12 (24), 2009, s. 48-57.*

*4. Çingizoğlu, Ə. Xırdapara-Dizaq mahalı, "Soy" dərgisi, 8 (16), 2008, s.89-95.*

*5. Əlizadə, R., Nəciyev, E. Qarabağın Alban-Qıpçaq tarixinə dair // Akademik Tarih ve Düşünce Dergisi, 2020, Cilt 7, Sayı 4, s. 2578-2593*

*6. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi H.Məmmədov [Qaramanlı]. Bakı: Şuşa, 2000, 576 s.*

*7. İlhan, M.M. Mufassal Tahrir Defterlerindeki Adların Önemine Dair Bazı Örnekler, "Tarih Araştırmaları Dergisi", 2006, Cilt 25, Sayı 40, s.41-58*

*8. Kâşgarlı, M. Divanü Lûgat-it-Türk. Çeviren: B. Atalay. Ankara, Türk Tarih Kurumu Basımevi, 2006, Cilt: II, 366 s.*

*9. Kâşgarlı, M. Divanü Lûgat-it-Türk. Çeviren:*

*B. Atalay. Ankara, Türk Tarih Kurumu Basımevi, 2006, Cilt: III, 530 s.*

*10. Qarabağnamələr. I kitab. Bakı: Yazıçı, 1989, s. 192 s.*

*11. Qarabağnamələr. II kitab. Bakı: Yazıçı, 1989, 450 s.*

*12. Mustafazadə, T. Qarabağ xanlığı. Bakı: Sabah, 2010, 333 s.*

*13. Osmanlı sənədlərində Qarabağ. Bakı: Şərq-Qərb Nəşriyyat evi, 2011, 616 s.*

*14. Арутюнян, П.Т. Освободительное движение армянского народа в первой четверти XVIII века. Ответственные ред. Б. Н. Заходер, А. З. Ионисиани. М.: Издательство Академии Наук СССР, 1954, 304 с.*

*15. Давриджеци, А. Книга историй. Перевод с армянского. Главная редакция восточной литературы издательства. Москва: Наука, 1978, с.46-47*

*16. Описание Карабагской провинции (составленное в 1823 году, по распоряжению главноуправлявщаго в Грузии Ермолова, действительным статским советником Могилевским и полковником Ермоловым П-м. Тифлис: В типографии управления наместника Кавказского, 1866, 415 с.*

*17. Описание Карабахской провинции, составленное в 1823 году. Тифлис, 1866 // ARDTA, F.24, iş 141, 142, 143, v. 139-145*

*18. Раффи. Меликства Хамсы (1600–1827) (Перевод с армянского Л. М. Казаряна). Ереван: Издательство Наири, 1991, 239 [1] с.*

*19. Экозьянц, Ф.В. Исраэл Ори. Ларец Пандоры. Книга 1: Персия. М.: Издатель Воробьёв А.В., 2020, 192 с.*

## ДИЗАГСКОЕ МЕЛИКСТВО КАРАБАХА

### РЕЗЮМЕ

В статье проанализированы один из важнейших этапов Карабахской истории – истории Меликства Хамсы. В работе на основании архивных документов, лапидарных надписей и историографической литературы исследованы вопросы, связанные с правами и обязанностями меликов Дизака. Здесь четко показана непрерывность албано-кыпчакского владычества в Нагорном Карабахе, вплоть до завоевания Карабахского ханства Российской империей. Как известно, Карабах является неотъемлемой частью Азербайджана и древней тюркской землёй. В истории этого края кипчаки, одно из самых активных тюркских племен в средние века, оставили глубокий след. Эти следы встречаются как в исторических памятниках, сохранившихся в регионе, так и в разноязычных источниках по истории исследуемого нами периода, как в названиях местностей, так и в народной памяти.

**Ключевые слова:** *Карабахское ханство, Дизак, Панахали хан, Меликства Хамсы, албаны, армяне.*

## DIZAK MELIKDOM OF KARABAKH

### SUMMARY

The article analyzes one of the most important stages of the Karabakh history - the history of Khamsa Melikdoms. In this work, on the basis of archival documents, lapidary inscriptions and historiographic literature, issues related to the rights and obligations of the meliks of Dizak are investigated. It clearly shows the continuity of the Albanian-Kypchak dominion in Nagorno-Karabakh, right up to the conquest of the Karabakh Khanate by the Russian Empire. As you know, Karabakh is an integral part of Azerbaijan and an ancient Turkic land. The Kipchaks, one of the most active Turkic tribes in the Middle Ages, left a deep mark in the history of this land. These traces are found both in historical monuments preserved in the region, and in multilingual sources on the history of the period we are examining, both in the names of localities and in national memory.

**Key words:** *Karabakh Khanate, Dizak, Panahali Khan, Khamsa Melikdoms, Albanians, Armenians.*

# Fəlsəfə və Sosiologiya

UOT 1

## NİZAMİ GƏNCƏVİNİN FƏLSƏFİ-ESTETİK GÖRÜŞLƏRİNDƏ BƏZİ MƏQAMLAR

**SEVİNC ŞAXHÜSEYNOVA**
*Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent.*
*ADMİU*
*E-mail: sevinj.shah@gmail.com*

Azərbaycan mədəniyyəti tarixində olduqca mühüm yer tutan Nizami Gəncəvinin fəth etməyə müvəffəq olduğu zirvə - öz parlaqlığı ilə bugünədək bütün bəşəriyyəti nura qərq etməkdədir. Bu zirvəyə gedən yollardakı çətinlikləri dəf edə bilməyin səbəblərindən biri - şairin öz yaradıcılığında incəsənət üçün vacib olan tələblərə riayət etməsi, əsərlərinin incəsənətə xas başlıca funksiyaları yerinə yetirmək gücünə malik olmasıdır. İncəsənətin əsas komponenti gözəllik olduğundan, sənət əsəri özü də ilk növbədə gözəl olmalı, insanlara estetik təsir bağışlamalıdır, yəni, bədii əsərdə estetik funksiya əsas, idraki və tərbiyəvi funksiyalar isə köməkçi rol oynamalıdır. Bunun əksi baş verdiyi halda, əsərin bədiiliyi arxa plana keçir. Lakin incəsənət əsərinin yalnız bir funksiyadan ibarət olması da mümkün deyil. Yəni bədii əsər yalnız estetik funksiyadan da ibarət ola bilməz. Əsərdə tərbiyəvi və idraki funksiyaların, yaxud bunlardan birinin iştirakı zamanı da estetik funksiya həmişə öndə getməlidir. Dahi azərbaycan şairi Nizami Gəncəvinin də yaradıçılığından yan keçməyən, onu daha da cazibədar edən bu məziyyətlər, həmçinin şairin poetik dili, zəngin bədii təxəyyülü, intellektual dünyagörüşü, əsərlərindəki məzmun və forma vəhdəti, idraki və tərbiyəvi təsir imkanları, mövzu palitrası, obrazlar koloriti, digər bədii-estetik üstünlükləri və bir çox başqa xüsusiyyətləri ona məşhurluq qazandırmış, əsrlər aşaraq, adını günümüzə çatdırmışdır. Dünya şöhrətli Nizami Gəncəvinin bədii irsi məhz bu cəhətlərilə, o cümlədən, estetik, tərbiyəvi və idraki təsirinin güclü olması ilə indiyədək aktuallıq kəsb edir. Dahi Nizaminin əsərlərindəki estetiklik insanı elə ilk oxunuşdan valeh edir, dərinlərə baş vurduqca isə daha çox cəzb edərək ovsunlayır. Poeziyanın gözəlliyi yalnız mövzu və məna dərinliyi, qafiyə, ritm və digər komponentlərlə məhdudlaşmadığı üçün, məzmunun tərbiyəvi və idraki xarakter daşıyan hissələrinin təqdimetmə forması da şairin əsərlərinin estetik təsirini gücləndirir. Nizami yaradıcılığının tərbiyəvi əhəmiyyəti nəinki bütövlükdə "Xəmsədən", hətta gənc nəslin formalaşmasında mühüm rol oynayan "Qarı və Sultan Səncər dastanı", "Kərpickəsən qocanın bir cavanla hekayəti", "Fitnə" və s. kimi bura daxil olan konkret nümunələrdən də bəllidir. Bədii əsərin dili ilə tərbiyə etməyi bacarmaq üçün ağıl, nüfuz, müdriklik, həyat təcrübəsi və s. tələb edilir. Bunun öhdəsindən bacarıqla gələn dahi mütəfəkkirin əsərləri, tərbiyəvi funksiya ilə yanaşı, idraki funksiya da daşıyaraq, bir sıra təbiət elmlərini əhatə edən nəzəri bilgilərlə də zəngindir. Ensiklopedik biliyə malik olan Nizami Gəncəvi antik dövrün filosofları Fales, Anaksimandr, Anaksimen, Heraklit, Demokrit, sofistlər, Sokrat, Platon, Aristotel və digərləri kimi zamanının təbiət elmlərinə yaxşı bələd olmuş, səma cisimləri, planetlər, onların hərəkəti və Yer kürəsi ətrafında fırlanması barədə maraqlı fikirlər söyləmişdir. Nizaminin astronomiya, riyaziyyat, təbabət, biologiya, tarix və digər elmlərə aid mülahizələri yaradıcılığı boyu diqqəti cəlb edir. O da, özündən əvvəlki dövrlərin filosofları kimi, təbiət elmlərinin nailiyyətlərinə, mühüm təbi-elmi kəşflərə istinad etmiş, onlardan bəhrələnmişdir. Nəticədə, şairin fəlsəfi dünyabaxışı formalaşmışdır. Fəlsəfi suallara cavab tapmaq missiyası daşıyan ən dahi filosoflar da məhz bu yolla getmişlər. Bütün bunlar dərin fəlsəfi duyuma malik olan Nizami Gəncəvi yaradıcılığının elmi-fəlsəfi məna kəsb edə bilməsinə səbəb olmuş və onu dünya şöhrətli etmişdir.

Nizami Gəncəvinin dünya mütəfəkkirləri, xüsusən də antik filosofların yaradıclılğına yaxından bələd olması, onun fəlsəfi baxışlarının daha çox əks olunduğu "İskəndərnamə" əsərindən bəlli olur. Şair "İqbalnamədə" Sokrat, Platon (Əflatun) və Aristotelin (Ərəstun) adlarını çəkir, xüsusi başlıqlarla onlardan bəhs edir, müxtəlif hekayələr danışır, məsələn, "Əflatunun çalğı aləti qayırması","Əflatunun keçmişdən hekayə söyləməsi", "İskəndərlə Sokratın əhvalatı", "Ərəstunun dedikləri", "Sokratın dedikləri", "Əflatunun dedikləri", "Ərəstunun nəsihətnaməsi",

"Əflatunun nəsihətnaməsi", "Sokratın nəsihətnaməsi", "Ərəstunun ruzgarının sonu", "Əflatunun ruzgarının sonu", "Sokratın ruzgarının sonu" və s.

Bir sıra dilləri, o cümlədən ərəb dilini mükəmməl bilən Nizami Gəncəvi, antik fəlsəfə və mifologiyanı da o dövrdə din və elm dili olan məhz ərəb dili vasitəsilə öyrənmişdi. Avropanın islam dinini bugünədək gözdən salmağa doğru yönəlmiş cəhdlərinə baxmayaraq, orta əsrlərdə məhz islamın yayıldığı ölkələrdə alimlərin müxtəlif elmlərlə yanaşı, həmçinin fəlsəfəyə maraq göstərmələri, antik filosofların, xüsusən Platon və Aristotelin əsərlərini öz dillərinə tərcümə etmələri antik fəlsəfənin bugünədək yaşamasını təmin etmiş, onun təbliğinə və digər xalqlar arasında geniş yayılmasına əvəzsiz xidmət göstərmişdir. Məlumdur ki, fəlsəfənin meydana gəlməsinin əsas səbəbi - insanların dünyanın nədən yaranmasını öyrənmək istəkləri olub. Müxtəlif filosoflar bu suala anladığı və bacardığı şəkildə cavab verməyə çalışaraq, Dünyanın başlanğıcında duran ilk əsası - substansiyanı tapmağa çalışmışlar. Yalnız şair deyil, həmçinin filosof olan Nizami Gəncəvi də öz növbəsində bu problemlərə maraq göstərmiş, varlığın əsasında hansı substansiyanın dayandığını öyrənməyə çalışmışdır. Fəlsəfənin "ontologiya" adlanan sahəsi, həmçinin, fəlsəfənin əsas məsələsinin "ontoloji" adlanan 1-ci tərəfi də məhz elə bu sualı araşdıraraq, fəlsəfədə bir-birinə əks və qlobal qarşıdurma şəraitində mövcud olan 2 həlledici cərəyanın - materializm və idealizmin varlıq haqqında fundamental prinsiplərinin həllinə istiqamətlənmişdir. Substansiyanın maddi olduğunu, təbiətin əzəldən mövcudluğunu və heç bir qüvvə tərəfindən yaradılmadığını söyləyən materialistlərdən fərqli olaraq, idealistlər üçün maddi Dünyada olan hər bir şey, insan şüurunun qavraya bilmədiyi bir qüvvə tərəfindən, qeyri-maddidən yaradılıb ki, bu da son nəticədə "Allah" anlayışına gətirib çıxarır. Nizami Gəncəvinin materialist, yoxsa idealist olduğunu nəzərdən keçirməzdən əvvəl, materializm və idealizmin müxtəlif formalarını xatırlamaq zəruridir. Materializmin Nizamiyəqədərki forması yalnız sadəlövh materializm idi, digər formalar olan mexaniki, metafizik materializm, vulqar materializm, dialektik materializm və s. isə Nizamidən sonra meydana gəlmişdir. İdealizmin də 2 formasından biri - subyektiv idealizm Nizamidən sonra yaranmış, digər növü olan obyektiv idealizmin tarixi isə fəlsəfə yaranan vaxtdan mövcud olmuşdur.

Materialist mövqe tutan qədim dövr filosoflarının əksəriyyəti substansiya qismində həyat üçün ən zəruri elementlər olan hava, torpaq, su və odu görürdü. Bu yanaşma hələ qədim hind fəlsəfəsində də mövcud idi. Qədim Çin fəlsəfəsində isə bu elementlərin sayı 5-ə çatmışdı: torpaq, su, od, ağac, metal. Antik filosoflar arasında da Dünyanı yaradan substansiyanın 4 ünsürdən nəinki biri, hətta bir neçəsi və ya hamısının eyni zamanda olmasını düşünənlər var idi. Bu 4 elementin hamısı maddi olduğu üçün onları substansiya hesab edən filosoflar materialist sayıla bilər. Lakin antik dövrün materializmi hələlik yalnız sadəlövh materializm olaraq qalırdı. Nizaminin əsərlərində, konkret olaraq, "İqbalnamədə" 4 ünsürün nəinki adı çəkilir, hətta substansiya olmasından da danışılır. Lakin bu heç də Nizaminin materialist olması demək deyil. Nizami Gəncəvi qədim dövr filosoflarından fərqli olaraq, substansiyanın bu 4 elementdən ibarət olmasını deməklə kifayətlənmir. O, həmin alimlərdən bir qədər də irəli gedərək, bu 4 ünsürün özünün də Allah tərəfindən yaradılması nəticəsinə gəlir və "dörd ünsür yaratdı o pərvərdigar"("İqb.101) deyir:

*"Dörd ünsür yaratdı o pərvərdigar,*
*Hərə öz yerində oldu bərqərar.*
*Qatdı bir-birinə onları həyat,*
*Yaratdı bunlardan bitki, nəbatat.*
*Bitki də başqa cür artdı, dirçəldi,*
*Cürbəcür heyvanlar vücuda gəldi"* (3,.səh.101).

Deməli, substansiyanın maddi olduğunu söyləyən və 4 ünsürü substansiya hesab edən, həyatın məhz bunlardan yarandığına inanan materialist filosoflardan fərqli olaraq, Nizaminin ontoloji görüşləri onun idealizm mövqeyində dayandığını və fəlsəfənin əsas məsələsini idealistcəsinə izah etdiyini, yəni Dünyanın Allah tərəfindən yarandığına inandığını göstərir. Antik dövrün sadəlövh materializmindən seçilən Nizami bu və digər məsələlərdə obyektiv idealizm mövqeyi tutur.

Bununla bərabər, Nizaminin fəlsəfi dünyagörüşünə dualizm (dünyanın bir deyil, iki - həm maddi, həm də qeyri-maddi başlanğıcdan yarandığını iddia edənlər) və panteizm (Allahla təbiəti eyniləşdirənlər) düşnüncələri də xasdır.

Dini yönümlü, mərkəzində xristian dini daya-

nan Orta əsr Avropa fəlsəfəsinin nümayəndələri kimi, Nizami Gəncəvinin də idealist baxışlarının mənbəyinin islam dini olması şübhəsizdir. Şairin əsərlərində Allahın adının çəkilməsi, ona yönələn xitablar da bunu sübut edir.

Fəlsəfənin varlıq, məkan, zaman, hərəkət, inkişaf, idrak və bir sıra digər problemlərini öz əsərərində səsləndirən Nizaminin varlıq haqqında fikirlərinin də mərkəzində Allah və dünyaya münasibət dayanır. Onun dialektika (inkişaf və əlaqələr haqqında təlim), qnoseologiya (idrak haqqında təlim), ontologiya (varlıq haqqında təlim) və digər təlimlərdən xəbərdar olduğu əsərlərindən bəllidir.

Qnoseologiya ilə bağlı problemlərə toxunaraq, Nizami, insan ağlına yüksək qiymət verir, lakin idrakın sonsuz olmadığını söyləyir:

"Bu qədər dərk edir ağıl hikməti,
Uzağa getməyə yoxdur qüdrəti!" (3, səh.101).

Son sətir heç də aqnostisizm deyil, çünki burada, aqnostiklərdən fərqli olaraq, dünyanı dərk etməyin mümkünlüyü tamamilə inkar edilmir. Hər halda, "ağılın hikməti dərk etməsi", üstəlik də, "bu qədər dərk etməsi" qeyd olunur. "Uzaq" sözünün nisbi anlayış olduğunu nəzərə alsaq, insan ağlının çata biləcəyi nöqtənin də nə zaman və harada qoyulacağını təsəvvür edə bilmərik. Məsələn, qədim dövr üçün telefon və radionun kəşfi, orta əsrlər dövrü üçün isə kompüter və internetin kəşfi "uzaq" məsafə olsa da, bu kəşflər əvvəl-axır baş verdi. Hansısa uzaq gələcəkdə bizim təsəvvür edə bilməyəcəyimiz yeni kəşflərin də olması labüddür. Əgər insan ağlının hansısa uzağa məhz bu gün getməyə qüdrəti yoxdursa, nə vaxtsa gedə biləcəyini də heç kəs inkar edə bilməz. Bunu Nizami də inkar etmir, çünki əgər, şairin sözü ilə desək, "ağıl hikməti bu qədər dərk edibsə", deməli, bir qədər də dərk edə bilər, sadəcə, bu gün "uzağa gedə bilmir". "Uzağa getməyə yoxdur qüdrəti" bir də o demək ola bilər ki, insanın nəyi nə vaxt dərk edəcəyini Allah müəyyənləşdirir. Çünki, dinə görə, "Allahın rizası olmadan bir yarpağın da yerə düşə bilməməsi" məlumdur. Belə olan halda, Allahın izni yoxdursa, insan ağlı da hələik indikindən uzağa getməyə qadir deyil.

Adətən, fəlsəfə ilə incəsənəti müqayisə edib, onların qarşılıqlı təsirindən danışarkən, bəzi fəlsəfi əsərlərin gözəl yazılması səbəbindən onların bədii əsər kimi oxuna bilməsi, bəzi bədii əsərlərin isə fəlsəfi məzmuna malik olması və ya personajların dili ilə hər hansı fəlsəfi fikir irəli sürülməsi qeyd edilir. Hətta bəzən əsərin fəlsəfi və ya bədii olmasını ayırd etmək də asan olmur. Məsələn, Platonun traktatları sırf fəlsəfi əsərlər olsalar da, sadə və anlaşıqlı dildə, xüsusən də dialoq formasında yazıldığı üçün bədii əsər təsiri bağışlayır. D.Didronun "Ramonun qardaşı oğlu", M.F.Axundovun "Kəmalüddövlə məktubları" və s. əsərlər isə əslində bədii hesab edilsələr də, daha çox fəlsəfi əsərlər kimi dəyərləndirilir. Bu baxımdan, dərin mənaya, rəngarəng mövzu seçiminə, gözəl üsluba malik bədii irsi olan Nizami Gəncəvinin yaradıcılığında, hətta lirik janrda olan əsərlərində belə fəlsəfi məzmun müşahidə edilir.

Nizami Gəncəvinin əsərlərində fəlsəfənin əzəli sahələri olan ontologiya, qnoseologiya, dialektika və s. ilə yanaşı, fəlsəfi elmlər olan etika, estetika, din fəlsəfəsi, siyasi fəlsəfə, antropologiya, sosial fəlsəfə, yəni cəmiyyət fəlsəfəsi və s. kimi sahələrə də aid mövzulara toxunulur. Belə mövzular sırasında insan problemi mərkəzdə dayanınr. Ümumbəşəri mövzulara biganə olmayan, insan mövzusuna sadiq qalan Nizami Gəncəvi məşhur "Xəmsə"nin ilk poeması olan "Sirlər xəzinəsi"ni bütünlüklə humanizm ideyalarına bürüyərək, məzlumların keşiyində durur. Fəlsəfi-etik novellalar toplusu sayıla bilən bu poemada, həmçinin, insanın yaradılması, ədalət, tale məsələlərindən danışılır.

Özündən əvvəlki filosoflar kimi, Nizami Gəncəvi insan problemi ilə yanaşı, həmçinin, cəmiyyət problemləri barədə də düşünmüşdür. İnsanların həyatının yaxşılaşdırılması, ədalətin bərqərar olması şairin arzularından və müraciət etdiyi mövzulardan olmuşdur. Məsələn, "İqbalnamə"də İskəndər "dünyada mövcud olmayan xəyali xoşbəxtlər ölkəsinə gəlib çıxır. Nizami ədalətli dövlət haqqında fikirlər irəli sürür" (5, s.116).

Sosial-fəlsəfi mövzular, xüsusən, ədalətli hökmdar problemi, əmək və əxlaq tərbiyəsi Nizami yaradıcılığında xüsusi yer tutmuşdur. "Sirlər xəzinəsi"ndə "Qarı və Sultan Səncər dastanı", "Zalım şahla düz danışan qocanın hekayəti", "Hökmdarın xalqa qayğısı və ədaləti", "Nuşirəvanla vəziri və bayquşların söhbəti", "Ədalətli və insaflı olmaq haqqında şaha nəsihət", "Ümidsiz şahın günahının bağışlanması", "Bəhram şaha xitab və təzim", "Davud oğlu Məlik Fəxrəddin Bəhram şahın şəninə", "Süleyman və qoca əkinçi", "Kərpickəsən

qocanın bir cavanla hekayəti", "Vicdansızlardan şikayət", "İkiüzlüləri məzəmmət", "Heysiyyəti qorumaq", "Paxılları məzəmmət", "Haqsızlıq və doğruluq", "Müdriklik və alicənablıq" və s. kimi nümunələr buna misaldır.

Bütün bunlar Nizami dünyagörüşünün hüdudlarını müəyyənləşdirərək, bir daha onun nəinki Azərbaycan, həm də dünya mədəniyyətinin tanınmış simalarından olmasını təsdiqləyir.

## ƏDƏBİYYAT SİYAHISI

*1. Quluzadə Zümrüd. Nizami Gəncəvinin fəlsəfi görüşləri.*

*2. Məmmədov Zakir. Azərbaycan fəlsəfəsi tarixi. B.,2006*

*3. Nizami Gəncəvi. İskəndərnamə. İqbalnamə. B.,2004.*

*4. Nizami Gəncəvi. "Sirlər xəzinəsi" B., 2004.*

*5. Rüstəmov Y. Fəlsəfənin əsasları. B., 2004.*

*6. Şahhüseynova S.Fəlsəfə. Dərs vəsaiti. B.,2020.*

## SUMMARY

The article "Some moments in philosophical and aesthetic views of Nizami Ganjavi" pays attention to the artistic, aesthetic and educational features in the works of the great Azerbaijani poet, philosopher and scientist Nizami Ganjavi. The article also examines the source of the poet's conclusions regarding such problems as substance, being, matter, movement, time, space, cognition, consciousness, etc., in particular, the influence of ancient philosophy.

**Key words:** *Nizami Ganjavi, beauty, functions of art, aesthetic influence of art, substance, knowledge, ancient philosophy, the main question of philosophy.*

## РЕЗЮМЕ

В статье "Некоторые моменты в филос/офско-эстетических воззрений Низами Гянджеви" уделяется внимание на художественно-эстетические и познавательно-воспитательные особенности в произведениях великого азербайджанского поэта, философа и учёного Низами Гянджеви. В статье, также рассматривается источник выводов поэта по поводу таких проблем, как субстанция, бытие, материя, движение, время, пространство, познание, сознание и т. д., в частности, влияние античной философии.

**Ключевые слова:** *Низами Гянджеви, прекрасное, функции искусства, эстетическое влияние искусства, субстанция, познание, античная философия, основной вопрос философии.*

UOT 1

# MİRZƏ FƏTƏLİ AXUNDZADƏNİN AKSİOLOJİ SİSTEMİNDƏ FƏLSƏFƏNİN YERİ

**SABİR BEHBUDOV**
*Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun dissertantı*
*E-mail: sabir_behbud@mail.ru*

Azərbaycan maarifçiliyinin dəyərlər paradiqması yeni ictimai-siyasi, mədəni proseslər, ideoloji təmayüllər şəraitində formalaşır. Maarifçilik cəmiyyətdə müxtəlif təmayüllərin qarşıdurmasının tarixi yekunu kimi çıxış edir. XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Azərbaycan tarixinin ictimai-sosial, mədəni ziddiyyətlərinə baxmayaraq, yeni dəyərlər cəmiyyətdə tədricən bərqərar olur. Cəmiyyətdə yeni dini-mədəni dəyərlərin formalaşdırılması maarifçiliyin aktual problemlərindən biri olur. Məhz yeni mədəni dəyərlər Şərqin, sosial inkişafını müəyyənləşdirə bilərdi. Belə gərəkli mədəni dəyərlərdən – aksioloji diskurslardan biri də fəlsəfə idi, məhz Avropa fəlsəfəsi idi. Azərbaycan maarifçiləri demokratik dünyagörüşünün, milli özünüdərkin formalaşmasında fəlsəfənin əhəmiyyətini yaxşı anlayırdılar. Onlar cəmiyyətdə elmi-təfəkkürün təşəkkülünü və inkişafını fəlsəfə elminin inkişafı ilə əlaqələndirirdilər. “Bircə şeyi nəzərə almaq lazımdır ki, bu gün Avropada aşkar şəkildə etiraf olunsa da, olunmasa da, onların qazandığı nailiyyətlərdə fəlsəfi düşüncə tərzinin rolu böyük olmuşdur... Bütövlükdə sivilizasiya fəlsəfi düşüncə üzərində qərar tutmuşdur.

Avropanın ikinci inkişaf dövrü Renessansda fəlsəfi düşüncəyə qayıdışdan başlayır. Yeni dövrün bütün siyasi-hüquqi və mədəni-mənəvi dəyərlər sistemi də, demokratiya, insan haqları, beynəlxalq hüquq normaları da fransız maarifçi filosoflarından, Con Lokkdan, Kantdan qidalanır” (8, 325).

Mirzə Fətəli Axundzadə də rus dili vasitəsilə Qərb filosoflarının əsərləri ilə yaxından və daha ciddi surətdə tanış idi və toplumun inkişafı üçün fəlsəfə elminin vacibliyini vurğulayırdı. Qərb (Avropa) cəmiyyətinin tərəqqi etməsinin səbəbini onlar da filosofların olması ilə izah edirdi. O, fəlsəfəyə, yaxud fəlsəfi əsərlər cəmiyyət üçün “faydalılıq əmsalına” görə qiymətləndirirdi. “Belə isə, həqiqət bu ali rütbəli həzrətlərin əsərlərində işlətdikləri üslubda deyildir. Onlar filosofluğun mənasını çox yaxşı anlamışlar. Lakin qorxaqlıq və cəsarətsizlik üzündən fəlsəfənin mənasını bütün xalqa və bütün bəşəriyyətə söyləyə bilməmişlər. Bunun nəticəsidir ki, onların əsl məqsədləri bu günə qədər kəşf edilməmiş qalmışdır. Onların əsərlərindən heç kəs fayda görə bilməmişdir. Halbuki ingilis Bakl, fransız Valter və başqa Avropa filosofları da həmin fəlsəfəni o cənablar kimi anlamışlar. Lakin cəsarətlə, qorxusuz, pərdəsiz və açıqdan-açığa onun mənasını özlərinin dərk etdikləri, bütün insanlara, bütün xalqa başa salmışlar və bunun nəticəsində, bütün dünyada ad qazanmışlar və Avropanın bu günkü mədəniyyətinə bais olmuşlar” (2, 221).

Mirzə Fətəli inanırdı ki, dini xurafata və fanatizmə, zalımların zülmünə qarşı mübarizə, xalqın maariflənməsi fəlsəfə elmi ilə ciddi məşğul olmasından keçir və fikrinin təsdiqi üçün Volteri, Münteskyönü, Russonu və başqa “söhban təbiətli filosofların” (2, 119) adlarını və fəaliyyətini örnək gətirirdi. Onun fikrincə, Şərq (müsəlman) cəmiyyətinin gerclikdən, barbarlıqdan, vəhşiyyət və cəhalətdən qurtulma yolu Avropa filisoflarının sözünə qulaq asmaqdır (2, 295-299). Mirzə Yusif xana 29 mart 1871-ci il tarixli məktubunda bu zərurəti qeyd edir: ...“bu ölkələrin Bakl və Renan kimi başqa filosofların yazılarından xəbərdar olmalısınız ki, bu sözün həqiqət olması sizə sübut olsun və siz mənim dediklərimə inanasınız ki, moizə və nəsihətin insan təbiətində, onun uşaqlıq və ilk gənclik dövrü keçdikdən sonra heç bir faydası və təsiri ola bilməz” (2, 253-254).

Araşdırmalar göstərir ki, böyük ədib fəlsəfənin (Qərb fəlsəfəsinin) anlayışlar sistemini anlamağa, mühüm fəlsəfi kateqoriyaları izah etməyə çalışır. Məsələn, “səbəb-nəticə” kateqoriyasının izahı üçün XVIII əsr ingilis filosofu D.Yuma müraciət edir: “Miladi 1768 tarixində Yum adlı bir ingilis həkimi Hind və Bombey müsəlman alimlərindən bir fəlsəfi məsələni soruşmuş və onlardan cavab istəmişdir. Lakin bu vaxta qədər islam alimləri tərəfindən bu məsələyə aid qaneedici bir cavab verilməmişdir. Məsələ budur: hər varlığa bir səbəb lazımdır, çünki hər bir varlıq öz-özünə vücuda gələ bilməz. O halda

bir varlıq olan bu kainat da var ola bilmək üçün bir səbəbə möhtacdır ki, bu səbəb onun yaradanıdır. Bu bir əqidədir ki, hər millətin şəriətçiləri, filosoflara qarşı ülühiyyətin isbatı üçün dəlil gətirirlər. Bu əqidənin rəddinə filosoflar cavab verirlər: Bu halda səbəb də özü-özlüyündə bir varlıqdır, buna da başqa bir səbəb lazım gəlməlidir; o başqa səbəb də eyni surətdə nəticədə nihayətsizdir. Bu keyfiyyət isə ağlabatan deyildir. Çünki ağlın hökmünə görə səbəblərin silsiləsi bir yerdə dayanmalıdır, yoxsa silsilələnmə lazım gəlir. O halda ağlın hökmünə görə varlığa bir səbəb olması xüsusda şəriətçilərin gətirdikləri dəlillər yanlışdır" (5, 167).

M.F.Axundzadə müsyö Nikolaiyə ünvanladığı məktubda "Kəmalüddözlə məktubları"nı filosof kimi yazdığını qeyd edir. ("...İranın hazırkı vəziyyəti və islam dininin təsiri barədə hikmət və filosofluq haqqında yazmış olduğum "Kəmalüddövlə" əsərimi də sizə göndərməyi arzu edirəm...") (4, 214).

M.F.Axundzadə inanırdı ki, bu əsər fransız dilinə tərcümə olunarsa, fəlsəfə elminə yüksək hörmət qoyulan Avropada hörmət qazanacaqdır: "Lakin mənim zənnimcə, əgər bu əsər fransız dilinə tərcümə edilərsə, Avropa oxucularının nəzərində Renanın əsərləri kimi şöhrət qazanacaqdır" (3, 220). Təsadüfi deyil ki, bu əsəri "bədiilikdən ayırıb, tamam elmi – fəlsəfi janra yaxınlaşdırmaq və bu cür təhlil etmək ənənəsi daha geniş yayılmışdır. Onunla ən çox filosoflar məşğul olmuşlar" (13,237).

"Kəmalüddövlə məktubalrı"nın müqəddiməsindən göründüyü kimi, Mirzə Fətəli bu əsəri bir yazıçı kimi deyil, məhz filosof olaraq qələmə almışdır (14, 240) və ədib əsərlərin ideya – məzmununa toxunarkən Volter, Reno, Mollayi-Rumi, Şeyx Mahmud Şəbüstəri, Əbdürrəhman Caminin adlarına istinad edir, onlar filosof kimi dəyərləndirmişdir. "Onlar filosofluğun mənasını çox yaxşı anlamışlar. Lakin qorxaqlıq və cəsarətsizlik üzündən fəlsəfənin mənasını bütün xalqa və bütün bəşəriyyətə söyləyə bilməmişlər" (6, 135).

Azərbaycan ictimai fikrində fəlsəfi refleksiyanın ən mübahisəli və ziddiy-yətli nümunəsi olan "Kəmalüddövlə məktubları"nda XVIII əsr fransız maarifçilərinin ehtiraslı düşüncə üslubu və ruhu, xüsusən XVIII əsr fransız ateist məktəbinin ideyalarının əks-sədası duyulmaqdadır. Axundovşünasların qənaətinə görə, "Kəmalüddövlə məktubları"nda Volter ironiyasının və sarkazmının izləri aydın görünür. Dinə, dini sxolastikaya qarşı bu qədər kəskin, barışmaz münasibət XIX əsr müsəlman cəmiyyətində təhlükəli hadisə idi. Hardasa ateizm düşüncəsi ilə barışma fransız maarifçilik mühitindən fərqli olaraq, Şərq (Azərbaycan) mühiti üçün qutsal obrazlara və kitablara qarşı belə açıq müxalifət qorxulu idi. Y.Qarayev bu haqda yazır: "Dini risalələrdə Peyğəmbərin həyatındakı ayrı-ayrı epizodlara verilən şərhlərə Kəmalüd-dövlənin təfsirləri realist parodiyalar təsiri bağışlayır və islam müqəddəslərinin Volter tərəfindən dramaturgiyada yaradılan satirik surətini (Volterin "Məhəmməd" əsəri) M.F.Axundov bədii publisistikada, pamfletdə yaradır" (9, 140). Digər görkəmli ədəbiyyatşünasımız Ə.Mirəhmədov yazır ki, "fransız filo-sofunun (Volneyin – S.B.) dinə və feodal monarxizminə qarşə çevrilmiş "Xəra-bələr" əsərini oxuyarkən bu əsərdə "Kəmalüddövlə məktubları arasında gah aşkar, qüvvətli, gah da epizodik yaxınlıq hiss olunur" (12, 16). Axundovşünasların artıq yekdil fikri belədir ki, Mirzə Fətəli fransız mənbələrini ya orijinalda öyrənmiş, ya da dolayısı ilə Qafqaza sürgün edilmiş rus demokratlarının əsərlərindən bəhrələnmişdir (7, 62).

Belə güman etmək olar ki, Mirzə Fətəlinin XVIII əsr fransız ictimai-fəlsəfi fikri ilə tanışlığı rus və ya türk tərcümələri ilə tanışlığı əsasındada baş tuta bilərdi. "Bu tanışlığın Axundov zamanındakı türk mətbuatı, bəlkə də Volneydən türkcəyə tərcümələr sayəsində mümkün olduğunu ehtimal etmək olar". (...) Lakin Volneyin bu yaxınlarda əlimizə keçmiş başqa bir əsəri göstərir ki, M.F.Axundov kimi o da, şərqşünaslıq fəaliyyətində ərəb əlifbasının izahı məsələlərinə ciddi əhəmiyyət vermişdir. Deməli, Volneyin elmi irsində Axundovu maraqlandıran yalnız ateizm və feodal istibdadı əleyhinə mübarizə motivləri deyil" (12, 293-294).

Sovetlər dönəmində Mirzə Fətəli Axundzadədə fəlsəfə diskursunun formalaşmasında ideya-mövzu qaynaqları sırasında rus ictimai-siyasi fikrinin təsirini də göstərirdilər: "Öz yaradıcılığında o (M.F.Axundzadə – S.B.) nəinki rus xalqının qabaqcıl ictimai-siyasi və fəlsəfi fikrinə əsaslanmış, habelə, Qərbi Avropanın mütərəqqi mütəfəkkirlərinin nəzəriyyəsini öyrənmiş, tənqidi formada istifadə etmişdir. Onun materiya, zaman və məkan, din, fanatizm və xurafatı tənqid barədə mülahizələri, fikirləri fransız materialistlərinin, hər şeydən əvvəl, Holbaxın görüşləri ilə səsləşir" (10, 38-39).

Mirzə Fətəlinin əsərlərində Volney, Holbax kimi filosofların adlarının yer alması, bir tərəfdən, Azərbaycan maarifçiliyinin ideya axtarışlarının səviyyəsini göstərirdisə, digər tərəfdən, fəlsəfi

fikrimizin antroponimlərin assosiativ zonasında mif – obrazlar kimi mövcud olurdu. “Sən özün insaf elə, heç rəvadır ki, Volter, Monteskye, Russo, Düma, Humbolt, Luvrie, Uatt, Fenelon, Bakl, Şekspir, Volney, Bayron və Avropadakı bu kimi tanınmış folosofları, yazıçıları, şairləri, tarixçiləri və ixtisasçıları həşərat qismindən bayılsın, amma Süruş adlı faydasız, müzür bir şəxs və onun kimilər insanlar arasına alınsınlar” (1, 242).

Şübhəsiz, maarifçilik ideyalarının Azərbaycanda geniş ilk növbədə fransız fəlsəfəsinin Avropaya, Rusiyaya yayılması ilə bağlı idi. Bu təsir, məsələn, XVIII əsr Rusiya siyasi, mədəni elitasında daha çox fransız hadisəsi idisə, intellektual dairələrdə fransız dəbi idi. Mirzə Fətəlinin adlarını sadaladığı, müraciət etdiyi filosoflar içərisində fransızların üstünlüyübu səbəbdəndir.

Mirzə Fətəli Axundzadə fəlsəfəsinin XVIII əsr fransız maarifçiliyinə fokuslanmasının bir səbəbi düşüncə üslubunun yaxınlığı idisə, digər səbəbi fransız müəlliflərinin Rusiyada, Türkiyədə müəyyən qədər dəbdə olması ilə bağlı idi. “M.F.Axundov ədəbi-fəlsəfi fəaliyyət üçün bir nümunə axtarırkən Balzak XIX əsrini yox, müasiri olan Qoqol tənqidi realizmini yox, XVIII əsrin fransız maarifçiliyini, Volteri, Monteskyonu seçdi. Çünki Axundovun XIX əsrinə fransız Avropasının XVIII əsri daha uyğun gəlirdi. Hələ XVIII əsrdə Volterin işini görmək lazım idi ki, Balzak və Qoqol işinə ehtiyac əmələ gəlsin. (Qoqol hələ sonra lazım olacaqdı, Mirzə Cəlilə, Sabirə lazım olacaqdı” (9, 68).

Görkəmli Azərbaycan maarifçisi Məhəmməd ağa Şahtaxtinski böyük mütəfəkkirin əsərlərində fransız maarifçilərinin adlarını çəkməsini, onların fəlsəfi irsinə müraciət etməsini “geniş diapozonlu fəaliyyəti ilə əlaqələndirmişdir”, “ədibin müsbət keyfiyyəti kimi göstərmiş, dar yaradıcılıq çərçivəsində qalmamasını alqışlamışdır” (7, 142).

Mirzə Fətəli Axundzadə fəlsəfəni dinin antitezi kimi qəbul edir. O, “din-elm”, “din-fəlsəfə” semiotik qarşıdurmasında fəlsəfənin, elmintərəfindəçıxış edir. Mütəfəkkirin inamına görə, “Avropanın başqa millətləri, xüsusən İngiltərə, Fransa və Amerika millətləri dini etiqadların qeydindən azad olaraq, əql və fəlsəfəyə tabe olduqlarından elm və sənayedə günbəgün, saatbasaat tərəqqi etməkdədirlər” (1, 288).

Mirzə Fətəli moizə, nəsihət, didaktika yolu ilə insanların tərbiyə olunmasının mümkünlüyünü qəbul etmirdi və qətiyyətlə tənqidin gərəkli olduğunu bildirirdi: “İnsanlar pis əməllərə adət etdiyi bir halda, tənqid vasitəsilə olmayıb, moizə, nəsihət və ata məhəbbəti tərzində yazılan bir əsərin bəşər təbiətinə heç bir təsiri olmayacaqdır” (11, 44).

M.F.Axundzadə üçün xurafat və mövhümata qarşı yeganə kəsərli silah fəlsəfə idi. Ortodoks dinə, molla xurafatına, orta əsrlər cəhalətinə qarşı ən səmərəli ideoloji mübarizə üsulu kimi Qərb fəlsəfəsinin epistolyar janrına üstünlük verir, “Kəmalüddövlə”nin güclü ifşa ritorikasının insanların tərbiyəsində əhəmiyyətli rol oynayacağına inanırdı. “...Əgər inşallah, “Kəmalüddövlənin məktubları” nəşr edilərsə, mənim xalqım da tərbiyə və mərifət meydanına qədər qoyar” (11, 15). Məhz “Avropa filosoflarının gözü ilə” baxış Azərbaycan maarifçiliyini iki yerə - inqilabi-demokratik maarifçiliyə və islam maarifçiliyinə ayırır. Maarifçilikdə müasirlərə bizim tarixi varlığımızı və kimliyimizi daim tənqidi yanaşmağa dəvət edən fəlsəfi etosu təklif olunur.

Xüsusən, “Kəmalüddövlə məktubları”nın çoxəsrlik dini-sxolastika ənənəsinin dərin nüfuza malik olduğu İranda təsiri partlayışa səbəb olur. Əlyazmanın üzünü köçürüb surətini çoxaldırdılar. Böyük mütəfəkkir məktublarının birində bunu etiraf edir: “Tehranın arif adamları içərisində Kəmalüddövlə təsirəgəlməz bir həyəcan yaratmışdır. Tehran ariflərinin hamısı onun surətini görmüşlər” (3, 191-192).

Böyük mütəfəkkirin Avropa fəlsəfə kursunun anlayışlarını (sivilizasiya, patriot, propres, filosof və s.) cəsarətlə dilimizə gətirir, bu anlayışların mənasını izah edirdi. Məsələn, “patriot” sözünün lüğəvi mənasını Şərq (müsəlman) oxucusuna belə açıqlayırdı: “Patriot” – ibarətdir o kimsə nədən ki, vətən təəsübü üçün və millətin məhəbbəti üçün can və malına müqayisə etməyə və öz vətəninin və millətinin mənfəəti və azadiyyəti üçün can və cəfakeş ola. Bu halət və xasiyyət həmişə qeyrətmənd şəxslərdə biruzə edər. O cümlədən, bizim peyğəmbərdir ki, öz vətəni Ərəbistanın və bilxüsus Məkkənin ki, öz əşirəsi Güreyş onda lakin idi, səadəti üçün ümuru-əziməyə və şaqqəyə iqdam etdi” (3, 75).

Mirzə Fətəli Axundzadə xüsusən “Kamələddövlə məktubları”nda əsərin janrına və məzmununa ideyasına uyğun olaraq fəlsəfi ( eləcə də hüquqi, ictimai-siyasi) terminlərdən geniş istifadə edir. Digər tərəfdən, “M.F.Axundzadənin elmi-siyasi dövriyyəyə gətirdiyi terminlər də onun demokratik cəmiyyət haqqındakı düşüncələrini kifayət qədər əks etdirə bilir” (14, 136).

**Açar sözlər:** *M.F.Axundzadə, fəlsəfə, maarifçilik, cəmiyyət, milli özünüdərk, diskurs.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Axundov M.F. Bədii və fəlsəfi əsərləri. Bakı, "Yazıçı", 1987, 368 s.*

*2. Axundov M.F. Əsərləri: ( 3 cilddə). Bakı, Azərbaycan EA nəşriyyatı, 1962.-568 s*

*3. Axundzadə M.F. Əsərləri, 3 cilddə, II c., Bakı: Elm, 1988. 388 s.*

*4. Axundzadə M.F. Əsərləri, 3 cilddə, III c., Bakı: Elm, 1988. 388 s.*

*5. Atayeva Ş.Y. Mirzə Fətəli Axundzadə ingilisdilli ədəbiyyatşünaslıqda. Fil.elm. nam.diss. Bakı, 2005*

*6. Bunyadzadə K. İslam fəlsəfəsi: tarix və müasirlik. Bakı: Çaşıoğlu, 2010, 154 s.*

*7. Əliyev Ə. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan-Fransa ədəbi əlaqələri (Məhəmməd ağa Şahtaxtinski yaradıcılığında). Fil. elm. nam. dis. Bakı, 1998.*

*8. Xəlilov S. Mənəviyyat fəlsəfəsi. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 2007, 520 s.*

*9. Qarayev Y. Realizm: sənət və həqiqət // Qarayev Y. Seçilmiş əsərləri. 5 cilddə. III cild. Bakı: Elm, 2015, s.5-370.*

*10. Məmmədov X. "Əkinçi"dən "Molla Nəsrəddin"ə qədər. Bakı: "Yazıçı", 1987, 270 s.*

*11. Məmmədov M. Azərbaycan ədəbi tənqidi. Müntəxəbat. Bakı: "Tural-Ə" NPM, 2002.*

*12. Mirəhmədov Ə. M.F.Axundov və K.Volney // Azərbaycan-Avropa ədəbiyyatının qarşılıqlı əlaqəsi. Bakı: Elm, 1986.*

*13. Osmanoğlu M. Əvvəlinci qəzetimiz // "Ədəbiyyat qəzeti", 11 iyul 2015.*

*14. Şamıoğlu (Musayev) Ş. Mirzə Fətəli Axundzadə (dövrü, elmi biblioqrafiyası və müasirləşmə konsepsiyası). – Bakı: "Elm və təhsil", 2016. -184 s.*

## Место философии в аксиологической системы М.Ф.Ахундзаде

## РЕЗЮМЕ

В статье рассматривается роль европейских ценностей в формировании идеологии просвещения на основе философских взглядов Мирзы Фатали Ахундзаде.

Подавляющее большинство просветителей принимали исламские ценности как основу национальной системы ценностей. Просветители в первую очередь интересовались вопросами религии и убеждений в связи с общественной моралью. По их мнению, философия определяет целостность общества, защищает его от вредного вмешательства и сохраняет национальную идентичность.

М.Ф.Ахундзаде считал, что мы должны учиться у Европы свободе мысли как опыту идей. Это также возможно благодаря развитию науки и философии. Людей порабощают ложные религиозные идеи. Мыслитель продемонстрировал живой пример свободы мысли и слова на высоком уровне в своих полемиках. Его взгляды на свободную прессу и критику совпадают.

**Ключевые слова:** *М.Ф.Ахундзаде, философия, просвещение, общество, национальное самосознание, дискурс.*

## The place of philosophy in the axiological system of M.F. Akhundzade

## SUMMARY

The article considers the role of European values in shaping the ideology of enlightenment on the basis of philosophical views of Mirza Fatali Akhundzadeh.

The overwhelming majority of educators adopted Islamic values as the basis of the national value system. Enlighteners were primarily interested in religion and persuasion in relation to public morality. In their opinion, philosophy that determines the integrity of society, protects it from harmful interference and preserves national identity.

M.F.Akhundzadeh believed that we should study in Europe freedom of thought as an experience of ideas. It is also possible thanks to the development of science and philosophy. People are enslaved by false religious ideas. The thinker demonstrated a living example of freedom of thought and words at a high level in their controversies. His views fall on the free press and criticism.

**Keywords:** *M.F.Akhundzade, philosophy, enlightenment, society, national self-consciousness, discourse.*

UOT 2:14

# AMEA-NIN M. FÜZULİ ADINA ƏLYAZMALAR İSTİTUTUNDA SAXLANILAN "MƏSABIH-ƏS-SÜNNƏ" ƏSƏRİNİN ƏLYAZMASI NÜSXƏLƏRİNİN ARAŞDIRILMASI

**GÜLAĞA İSMAYILOV**
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun doktorantı*

*E-mail: ismayilov.gulaga@mail.ru*

Məlumdur ki, dinlə əlaqədar mövzuların tədqiqi keçmişdən günümüzə qədər hər zaman diqqət mərkəzində olmuşdur. Çünki din insan həyatının ayrılmaz bir hissəsidir, insan dünya və axirətin səadət yollarını onunla tapır. Buna görə də İslam alimləri yaşadıqları dövrdə həməsrlərinə mövzuların təqdim edilməsi zamanı uğurlu nəticə əldə etmək üçün dini mövzuları diqqətlə araşdırmış və təhlil etmişlər. Digər tərəfdən hər əsrdə din və dünyanı əlaqələndirmək üçün dinə və onun problemlərinə münasibətimizi inkişaf etdirməliyik. Çünki din, xüsusən də İslam dini insan həyatının bütün tələblərinə, o cümlədən bütün müasir elmi inkişaflara cavab verməyə qadirdir. Müasir dövrdə dinin araşdırılması və öyrənilməsi metodları genişdir. Lakin biz bu məsələyə əlyazma əsərlərinin tədqiqatı yolu ilə toxunmaq istərdik. Şübhəsiz ki, qədim əlyazmalar orijinal miras hesab olunaraq bütün mövzuların mənbəyi sayılır. Məşhur elm adamlarının öz yaradıcılıqlarında ilk orjinal mənbədən məlumat almağa can atmaları və onları istinad mənbəsi kimi göstərmələri məsələnin əhəmiyyətini bir daha təsdiqləyir.

Təsadüfi deyil ki, dünya miqyasında əlyazma əsərləri hər zaman xüsusi diqqət mərkəzində olmuş, bu istiqamətdə xüsusi tədqiqatçılar cəlb edilmiş və onlar əlyazma əsrlərini təhqiq edərək işıq üzünə çıxarmışlar.

Tədqiqatın əhəmiyyətini bir daha gücləndirən amillərdən biri də dünya kitabxanalarında İslam əlyazmalarının böyük önəm kəsb etməsidir. Şübhə yoxdur ki, əlyazmaların araşdırılması, bu irsin dirçəldilməsində və yayılmasında zəruridir.

Bir çox məsələlər və biliklər var ki, onları ana qaynaqlara və irs kitablarının orijinal mənbələrinə qaytarmaqla düzgün başa düşmək mümkündür. Buna yalnız orjinal mənbələri və ana qaynaqları təhqiq edərək işıq üzünə çıxarmaqla nail olmaq olar.

Qeyd olunmalıdır ki, dünya kitabxanalarında saxlanılan dəyərli əlyazma əsərlərindən biri də dissetrtassiya mövzum olaraq tədqiqata cəlb edilmiş İmam Bağavinin Azərbaycan Milli Elmlər akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar institutunda mövcud olan "Məsabih əs-sünnə" əsərinin qədimi əlyazmasıdır. Ən nüfuzlu kitabxanalarda yer alan bu əsərin AMEA-nın Məhəmməd Fiziuli adına əlyazmalar institutunda bir neçə fərqli nüsxələri mövcuddur. Onların hər biri xəttatlıq, forma, şərh və izah, qruluş, əlyazma xəttinin müəllifləri və yazılma tarixi baxımından bir-birindən fərqlənir. Bu əlyazmaların bəzisi 1269-cu ildə Əbdürrəhim ibn Mövla Yasinin, bəzisi 1333-cü ildə Hacı Mustafa Əfəndinin, bəzisi isə 1612-cı ildə Əbul-Xeyr bin Mənsurun dəsti-xətti ilə qələmə alınmışdır.

1222-ildə yaşamış Məhəmməd Hüseyn bin Məsud əl-Bağavinin "Məsabih əs-sünnə" adlı əsərinin AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda 7 ayrı-ayrı nüsxəsi vardır. Onlar ayrı-ayrı nüsxələr olmaqla yanaşı eyni zamanda hər biri ayrı-ayrılıqda əsərin tam versiyasını təşkil etməkdədir. Yəni Məsabih əs-sünnənin əhatə etdihi bütün mövzuları olduğu kimi özlərində ehtiva edirlər. Hər bir əlyazmasını ayrı-ayrılıqda tədqiq edərək əsər üzərində araşdırma aparılmışdır. Həmin əlyazma nüsxələrini aşağıdakı kimi qruplaşdırmaq olar:

1) Məsabih əs-sünnənin digər bir nüsxəsi isə C-763/9716 kodlu əlyazması nüsxəsidir. Bu əlyazmasının üz qabığı, eləcə də əsərin ilk səhifələri yoxdur. Bu əsərdə bir neçə kitab və bablar mövcud deyil. Buna görə də "babul-itrət" və "babu səlatil-xusuf" başlıqları ilə başlanır. (1, giriş) Kitabın səhifələrinin kənarında qısa haşiyələr müşahidə olunur. Əsər "babu camiu-mənaqib" mövzusu ilə başa çatır. Digər orijinal variantlarla müqayisə etdikdə görürük ki, bu kitabda sonuncu iki bab "babu zikril-Yəmən və Şam", "babu səvabi hazihil-ummət" yoxdur. Əsərin həm ilk, həm də son səhifələri olmadığı üçün kim tərəfindən, neçənçi ildə yazıldığı məlum deyil. Əsərin kağızları sarımtıl şərq kağızlarıdır. Hərfləri isə xırda həcmli qara rənglə yazılmışdır. 135-ci vərəqdən 256-cı vərəqə qədər səhifələrin ətəkləri qopmuş halda olsa da əsas mətnə zərər

dəyməmişdir. Lakin 256-cı səhifədən sona qədər səhifələrin ətəyindən qopuntular bəzi mətnlərə (hədislərə) də xələl gətirmişdir. Ümumilikdə bu əlyazma 256 vərəqdən ibarətdir. Bu əlyazmanın əvvəlindən "kitabul-iman", "kitabul-elm" və "kitabus-səlat" naqisdir. Lakin "kitabus-səlat"ın sonuncu babları "babul-atirə", "babu səlatil-xusuf", "fəslu sucudi-şükr" və "babul-istisqa" mövcuddur. İlk səhifə "kitabus-səlatin" babı ilə başlayır. Bu da onu göstərir ki, bu əlyazmanın əvvəlində üç kitabı əhatə edən vərəqlər itmişdir. Bu əlyazmanın nə üz qabığı, nə də titul vərəqi vardır. Əsərin sətirlərinin sayı 27-dir. Vərəqdəki mətnin əhatə etdiyi uzunluq ölçüsü 20 sm, eni isə 11.5 sm-dir. Əsər şərq pagenasiyası əsasında səhifələnmişdir. Lakin əksər səhifələrdə keçidi bildirən sözlər silinmişdir. Əsərdə "qalə", "yərvi" və "rəva" qara, qalın və qabarıq xətlə, bab və fəsillərin başlıqları isə iri qırmızı hərflərlə yazılmışdır. Sonuncu səhifədə üçbucaq möhür vurulmuş, lakin daxilindəki yazı oxunumur. Möhürün sol küncündə C-763, altında 29501, onun altında "ИНВ 1971" ştampı vurulmuşdur. Düzbucaq ştamp əsərin ilk səhifəsində də əks olunmuşdur.

2) "Məsabih əs-sünnə" əsərinin tam versiyasını təşkil etməyən C-762/9715 kodu altında saxlanılan diğər bir əlyazması nüsxəsidə mövcuddur. Əsərin əlyazmasının üz qabığı da yoxdur. İlk səhifədən kağızın çox köhnə olması və ya digər səbəblərdən hədislər silinmişdir. Hədislərin həmin səhifədən silinməsini səhifə kənarındakı haşiyələrinin qalmasından təsbit edə bildik. Elə həmin səhifənin ortasından "Kitabul-uləmail-amilin (əməl edən alimlərin kitabı)" sözü iri yazılarla əsərə sanki bir ad olaraq yazılmışdır. Əsərin ilk və son səhifələrinin itməsi səbəbindən müəlllifin kimliyi naməlum olaraq qalır. Əsərin ikinci vərəqi isə "babu zikrillahi təala və siati rahmətih (Allah Təalanın zikri və rəhmətinin genişliyi)" babı ilə başlayır.

Tədqiqat nəticəsində məlum oldu ki, bu əsər təkcə İmam Bağavinin "Məsabihus-sünnə" əsərinin əlyazması deyil. Burada müxtəlif hədis mənbələrindən seçilmiş hədislər, eyni zamanda "Məsabih" əsərindən də bəzi kitab və bablar yer almışdır. Əsərin nə üz qabığı, nə də titul vərəqi vardır. Əsərin ilk mövzusu "babu zikrillahi təala və siati rəhmətih"-dir. Əsər on birinci vərəqədək digər hədis mənbələrindən seçilmiş hədisləri müəyyən bab başlıqları altında verilmişdir. Bu babları belə sıralamaq olar:

1.Babu zikrillah
2. Babu fi fəzailiş-şəhadət
3. Babu ma caə fi zikrillahi təala
4. Babu ma fi xaufillahi təala
5. Babu ma caə fi məhəbbətillah
6. Babu ma caə fil-elm və tələbihi
7. Babu ma caə fil-uləma
8. Babu ma caə fi məzəmmətil-cəhl
9. Babu ma caə fi birril-valideyn
10. Babu ma caə fil-aulad
11. Babu ma caə fiz-zavc vəz-zavcti
12. Babu ma caə fil-ciyran
13. Babu ma caə fil-ehsan
14. Babu ma caə fi sələvatil-məktubat (2. s.1-22)

On birinci vərəqdən "Məsabihus-sünnə" əsərindən aşağıdakı seçilmiş bablar yazılıb:

Babu əzabil-qəbr; Babun-nəfx; Babul-həşr; Babul-hesab vəl qisas vəl-mizan (3. s.23)

On yeddinci vərəqdən yenidən "Məsabih"dən deyil, digər mənbələrdən seçilmiş aşağıdakı bab başlıqları altında hədislər gəlmişdir:

Babul-buka vəl-xauf; Babuz-zulm; Babul-hubb (4, s.40)

İyirminci vərəqdən yenidən "Məsabih"in hədislərinin yer alması aşağıdakı kimi davam edir:

Babu sifatin-nar və əhliha; Babu xəlqil-cənnəti vən-nar; Babul-qiraət; Babu dəfnil-meyyit; Babul-buka aləl-meyyit; Babul-xouf vəş-şəfaət; Babu sifətil-cənnəti və əhliha; Babu ğuslul-meyyit və dəfnihi; Babul-məşy bil-cənazə vəs-salati aleyha; Babu salatid-duha; Babu salatit-təsbih; Babu ziyarətil-qubur; Babul-cinayə iyadətil-mərid və savabil-mərda; Babu vucubil-Cuma; Babut-tənzif vət-təkbir; Babu salatid-duha; Babu ma yuqalu ində hadratil-mout; Babut-təmənni əl-mout və zikrihi; Babu royətullahi təala; Babul-iman bil-qədər; Babu zikrillahi Təala (5, s.115)

Əsər 58 vərəqdən ibarətdir. Əəsərin kağızının uzunluğ ölçüsü 28 s.m, eni isə 20 s.m dir. Mətnin uzunluğu 19 s.m, eni isə 15 s.m dir. Sərtrlərinin sayına gəlincə isə əksər səhifələrdə 13, bəzilərində isə 14,15,16 sətr olmaqla dəyişir.

3) Dissertassiya mövzumuz olan bu əsərin fərqli digər bir nsxəsidə İnstitutun kitabxanasında C-536\9489-23841 kodu altında qorunub saxlanılan nüsxəsidir. Bu əlyazması əsəri qalın, qəhvəyi rəngli karton üzərinə çəkilmiş dəri cilddən ibarətdir. Kənarları qoşa xətlə haşiyələnmişdir. Əsərin nə titul vərəqi nədə ki, mündəricatı vardır. Əlyazması iki ayrı-ayrı cilddən ibarətdir. Birinci cildin ilk səhifəsi müəllifin sözləri ilə başlamaqdadır. (6, s.2) Əd-duca min mişkatin-nübüvvət mimmə əvrədəha əl-əimmətu fi kutubihim... Növbəti səhifə

isə "Kitabul-İman"-la başlayır. Bab başlıqları bəzən qalın qırmızı, bəzən isə yaşıl rəngli xətlə yazılmışdır. Ətəklərdə çox nadir hallarda şərhlər verilib. Sətrlərin sayı 17-dir. Vərəqlərin hündürlük ölçüsü 30 s.m, eni isə 20 sm.-dir. Sətrlərin əhatə etdiyi hündürlük 22 s.m, eni isə 14 s.m dir. Əlyazması ümumilikdə 110 vərəqdir. (7, s.248) Sonuncu babı "Babul-xuli vət-təlaq" dır. Kağızın növü şərq kağızı, xətti isə nəsx xəttidir. Əlyazmasının kolifonu yoxdur bu səbəbdən də, nasix vəya sifarişçi, həmçinin yazılma tarixi haqqında heç bir məlumat əldə edə bilmədik. Səhifələr şərq pagenasiyası əsasında sıralanıb. Bu əlyazmasının ikinci cildi c-535\9488-şifri altında saxlanılır. (8, s.40) Bu cildin 115-ci vərəqindən sonra vərəqlərin ətəkləri cırılmış, eyni zamanda rəngi qaralmış haldadır. Lakin bu iki cilddən ibarət əlyazması "Məsabih əs-Sünnə" əsərinin bütün bablarını əhatə edir. İkinci cild "Babul-İstibra" ilə başlayıb, "Babu savabi hazihil-ümmət" ilə bitir. Bu cilddə də kolifon yoxdur. 124 vərəqdən ibarətdir. Xəttin növü və üslubu hər iki cilddə eynilik təşkil edir lakin ikinci cilddə heç bir haşiyə yoxdur. (9, s.115)

**Açar sözlər:** *Hədis, Bağavi, Azərbaycan, "Məsabih əs-sünnə", islam, məzhəb, kitab, Quran, sünnə*

## ƏDƏBİYYAT SİYAHISI

*1. "Məsabih-əs-sünnə", Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, Nüsxə: C-102\9056, s.1, h.1177, 20-Şəvval, Katib: Əbdürrəhim bin Məhəmmədəmin əz-Zaxudi)*

*2. "Məsabih-əs-sünnə", Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, nüsxə: C-608\9561-23460, giriş)*

*3. "Məsabih-əs-sünnə", Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, nüsxə: C-538\9491, Katib: Hacı Mustafa əfəndi, 1333.m)*

*4. "Məsabih-əs-sünnə", Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, nüsxə: C-538\9491, Katib: Hacı Mustafa əfəndi, 1333.m)*

*5. "Məsabih-əs-sünnə", Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, nüsxə: C-373\9326-16854, Katib: Əfəndi Nəmir ibni Saleh, 990.h*

*6. "Məsabih-əs-sünnə", Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, nüsxə: C-763/9716*

*7. "Məsabih-əs-sünnə", Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, nüsxə: C-762/9715*

*8. "Məsabih-əs-sünnə", Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, nüsxə: C-536\9489-23841*

*9. "Məsabih-əs-sünnə", Məhəmməd Hüseyn bin Məsud Əl-Fərra, Əl-Bağavi, AMEA-nın M.F. adına Əlyazmalar İnstitutunun kitabxanası, nüsxə: c-535\9488*

*Çapa tövsiyə etdi: f.e.d. professor Kamandar Şərifov.*

## SUMMARY

### The difference between the copies of Masabih As-sunnah work

It is known that the study of religious topics from past till nowadays has always been in the spotlight. Because religion is not apart from human-life, he finds the ways of happiness using religious knowledge. This is why islamic scientists very carefully reserched and analised islamic trends to be successful while presenting islamic topics to their conteporaries. From other side need to develope relationship between religion and life to keep dealing with occured concerns. Because religion and specially Islam has fhe power to meet demands of the life and all modern scientic developments. There is a wide range of methods to research and study islamic topcis in modern age. However we would like to touch this issue through the study manuscript works. Certainly, ancient manuscripts being considered as original heritage are considered as the source of all themes. Endeavors of famous people to use information from firsthand original sources in their creativity and presenting the manuscripts as the rerefernce shows again the importance of this concern.

It is no coincidence that manuscripts have always been in the spotlight, and special researchers have been involved in this work, and they have reserched and published manuscripts.

One of the factors that reinforces the importance of research is the existance of Islamic manuscripts in world libraries. There is no doubt that the study of manuscripts is necessary in the reproduction and

dissemination of this heritage.

There are many issues and knowledge that can be properly understood by returning to the original sources of the heritage books. This can only be achieved by exploring original sources

It should be noted that one of the valuable manuscripts stored in world libraries is the ancient manuscript of Imam Baghavi's "Masabih As-sunnah" at the Institute of Manuscripts named after Muhammad Fuzuli of the Azerbaijan National Academy of Sciences. The work in the most prestigious libraries has several different copies at the Institute of Manuscripts of the Academy of Sciences of Azerbaijan. Each of them differs in terms of calligraphy, form, interpretation and comments, structure, authors of the handwriting line and the history of writing. Some of these manuscripts were written in 1269 by Abdurrahim ibn Mawla Yasin, some in 1333 by Haji Mustafa Efendi and some in 1612 by Abul-Hayr bin Mansour calligraphy.

**Keywords:** *Hadith, Baghawi, Azerbaijan, "Masabih al-Sunnah", islam, sectarianism, hadith, book, Quran, sunnah.*

## РЕЗЮМЕ

### Разница между копиями произведения Масабих Ас-сунна

Как известно, изучения, связанные с религиозными темами с прошлых времен по сей день, всегда были в центре внимания. Потому что, религия является неразделимой частью жизни с помощью которого человек находит пути счастья в этой и последующей жизнях. Именно поэтому исламские ученные тщательно изучали и анализировали религиозные темы для успешного представления их своим современникам. С другой стороны, чтобы связать религию с современной жизнью нужно развивать отношения к решению возникающих проблем. Так как религия, а в точности Ислам способен ответить на все требования жизни, как и на все современные научные развития. В нашем веке есть широкие возможности методов религиозных исследований и их изучения. Но мы бы хотели коснуться этого вопроса путем исследования рукописей. Нет сомнений в том что, старинные рукописи, считаясь оригинальным наследием, являются источником всех тем. Стремление известных ученных к получению информации из первых источников и указывая на них как на источник ссылки еще раз доказывают важность этого вопроса.

Не случайно рукописи во всем мире всегда были в центре внимания, в этом направлении привлекаются специализированные исследователи и после их исследования выпускаются в свет.

Другим фактором, который еще больше усиливает важность исследований, является ценность исламских рукописей в мировых библиотеках. Нет сомнений, что исследования рукописей, необходимо для оживления и распространения этого наследия.

Есть очень много вопросов и знаний, которые можно будет правильно понять ссылаясь на его оригинальные источники книг наследия. Этого можно добиться только путем исследований оригинальных источников и их распространения.

Следует отметить, что одна из ценных рукописей, хранящихся в мировых библиотеках, которая также является темой моей диссертации для её подробного изучения эта древняя рукопись Имама Багави «Масабих Ас-сунна» хранящаяся в Институте Рукописей имени Мухаммада Физули Национальной Академии Наук Азербайджана. Занимающее место в самых престижных библиотеках это произведение хранится в Институте Рукописей имени Мухаммада Физули НАНА в нескольких копиях. Они отличаются между собой каллиграфией, формой, комментариями и разъяснением, структурой и авторами почерка, а также историей письма. Некоторые из них написаны в 1269-ом году Абдуррахимом Ибн Мавла Ясином, некоторые со стороны Хаджи Мустафы Эфенди в 1333-ем году а некоторые в 1612-ом году были написаны каллиграфией Абул-Хейр Мансура.

**Ключевые слова:** *Хадис, Багави, Азербайджан, "Масабих ас-Сунна", ислам, сектантство, книга, Коран, сунна.*

UOT 2:14

# ELMİ VƏ DİNİ DÜNYAGÖRÜŞÜ: QARŞILIQLI TƏSİRLƏRİN ZİDDİYYƏTLƏRİ VƏ DİALEKTİKASI

**MƏMMƏDTAĞI RZAYEV**
*Bakı Slavyan Universitetinin baş müəllimi*

*E-mail: m.rzayev@hotmail.com*

Dünyagörüşü insanın bütövlükdə dünyaya, özünün ondakı yerinə, öz fəaliyyətinin mənasını və bəşəriyyətin taleyini anlamağa və qiymətləndirməyə olan ümumiləşmiş baxışlar sistemi, elmi, fəlsəfi, siyasi, hüquqi, mənəvi, estetik, dini inamların və ideallarin məcmusudur. Fəlsəfə tarixində əsasən, kosmo-sentrizm, teosentrizm, antroposentrizm, eqosentrizm, ekssentrizm və başqa dünyagörüşü növləri müəyyənləşdirilmişdir. Müxtəlif fəlsəfi sistemlərdə dünyagörüşü məsələləri fərqli həll edilir. Dini dünyagörüşü insan dünyasının fövqəltəbii varlıqlarla əlaqə vasitəsi ilə izah edır. Dinin əsas əlaməti fövqəltəbiiliyə inamdır. Fəlsəfə mifologiya və dinə alternativ olaraq yaranmışdır. İlk filosoflar fövqəltəbii qüvvələrin qəbul edilməsindən imtina və dünyanı onun özündən çıxış edərək izah etməyə çalışırdılar.

İdraki fəaliyyətin əsas forması elmdir. Elm insanların təbiət, cəmiyyət və idrakın özü haqqında biliklər istehsal etməyə yönəlmiş mənəvi fəaliyyət formasıdır. Elmin birbaşa məqsədi həqiqətin dərk edilməsi və obyektiv qanunların kəşfidir. Bütün varlığı elmi yolla təhlil etməyin mümkünlüyü və sübutu yoxdur.

Elmlə din biri-birinə qarşılıqlı təsir edərək inkişaf etmiş və bu qarşılıqlı təsir bu gün də davam etməkdədir. Məsələn, Ç. Darvin nəzəriyyəsinin ateist ruhda başa düşülə biləcəyini görərək buna qarşı çıxmışdı. V.Solovyov təkamül nəzəriyyəsinin dinə düşmən olmadığını göstərirdi. İndi heç kəs Müqəddəs Kitablarda kimya və ya geologiyanın suallarına cavab axtarmır. Öz növbəsində din daim dəyişən elmi təsəvvürlərdən özünü asılı vəziyyətə salmır. Bu gün dini dünyagörüşün bütöv mənzərəsinə təbiətşünaslığın elementləri daxil edilir. Ancaq onu da demək gərəkdir ki, din üçün bu elementlər nəsə əhəmiyyətli və vazkeçilməz deyildir. Elmin prinsipləri dəyişdikcə bu elementlər də dəyişirlər.

Elmlə dinin əsas mübahisəsi eksperimental tədqiqatın sərhədlərindən kənardadır və dünyanın başlanğıcı və yaranması probleminə aiddir. Kainatın zaman və məkanca sonsuz olduğunu deməklə elm dini kökündən vurmaq istəyir. Müasir astronomiya və fizika da başlanğıc haqqındakı sualı açıq qoyur, ancaq onlar Kainatın hansısa çıxış nöqtəsi olan təkamülündən danışırlar.

Təbiətşünaslıq nə qədər çox inkişaf edirsə, daha aydın olur ki, dünyanın özünün əsaslarının dərki hələlik elmin imkanları xaricindədir. H.Şepli yazır ki: “Kainat niyə mövcuddur?, sualına biz yalnız “Bir Allah bilir!- deyib ah çəkirik” [12, s.203] - deyə cavab verir. Buna yaxın məna daşıyan fikirləri Maks Plank və Ceyms Cins kimi mütəfəkkirlər də söyləmişlər.

Dinlə elmi dünyagörüşün münasibətlərinin tarixən dəyişdiyi və hətta bəzən ən böyük alimlərin belə dinə rəğbət bəslədiyi hallar çoxdur. Bu isə dini dünyagörüşü ilə elmi dünyagörüşü arasında “düşmənçilik” olduğunu deyənlərin, bunu təkzib edən bəzi məqamları da nəzərə almalarına işarədir. Bəziləri bundan belə nəticə çıxarırlar ki, yalnız daxili ruhani təcrübə yox, həm də elmin inkişafı, zəka yolu Allaha doğru aparır. Elmlə dinin əlaqələri tarixi, əslində, çox dərindir. XIII əsrdə Foma Akvinski zəkanın avtonomiyası ideyası ilə dünyanı dərk etmənin mümkünlüyünü ifadə etmiş oldu. F.Akvinski fəlsəfəsinin əsas prinsipi inam və zəkanın harmoniyasıdır. O hesab edirdi ki, zəka Allahın varlığını rasional sübut etmək iqtidarındadır. Bütün mövcud olanlar Allahın yaratdığı ierarxik nizama aiddir.

Qərbdə XIV əsrdən XVI əsrə qədər davam edən İntibah dövründə,əsasən, iki istiqamət toqquşur. Biri elmi istiqamətdir ki, kilsə onu qəbul etmir, ikincisi isə dinidir ki, elmi qətiyyən qəbul etmək istəmir. Bu mübarizənin sonrakı tarixi mərhələlərində də maraqlı ideyalar meydana çıxır. Bütün hallarda isə onlardan hər hansı birinin digəri üzərində mütləq qələbəsi baş vermir. Müasir elmi və dini dünyagörüşün münasibətləri prizmasında isə daha çox bir-biri ilə qarşılıqlı əlaqə özünü göstərir. Dinlə elmin dünyagörüş olaraq bir-birində əriməsi ehtimalının olmadığını deyə bilərik. Ancaq indi bəşəriyyət elə bir seçim qarşısında qalmışdır ki, onların düşmənçilik etməsi də insanlığa çox baha

başa gələ bilər. Hələlik dini və elmi dünyagörüşün sintezinin konkret cizgiləri məlum deyil, bunun tam baş tutacağına inam da çox azdır. Buna baxmayaraq, onların, xüsusilə mənəvi-əxlaqi aspektlərdə daha sıx əlaqədə olması zərurəti dərk edilməkdədir. Elmi fəaliyyətin nəticələrinin mənəvi dəyərləndirilməsi elmi meyarlardan birinə çevrilməkdədir. Dini dünyagörüşü ilə elmi dünyagörüşü dünyanın ümumi mahiyyəti məsələsində mövqelərini yeniləşdirirlər. Onlar bəzi hallarda ortaq mövqeyə gələn kimi görünürlər. Aydındır ki, artıq Allahı Orta Əsrlərin təklif etdiyi “yolla axtarmırlar”. Rene Dekartın rasionalizmi xristianlığın ətraf mühit haqqındakı bütün təsəvvürlərini dəyişməyə başladı.

Tarixən dinlə elm arasındakı münaqişələrin izahının daha çox yayılmış tendensiyası toqquşmaların günahkarlarının hər iki tərəfin olması ilə əlaqəlidir. “Alman katolik ilahiyyatçıları E.Fer və O.Şpilbek, Avstraliya protestant ilahiyyatçı N.Yanq və başqalarının nöqteyi-nəzərincə, dinlə elm arasındakı münaqişənin səbəbləri tərəflərin öz tədqiqat sərhədlərini aşması və kompitent olmadıqları sahələrdə fikir bildirməsi ilə bağlıdır” [8, s.312]. Onların hər ikisi çox şeyə iddialıdırlar. İlahiyyatçılar alimlərdən tələb edirdilər ki, onların aldıqları nəticələr dünya haqqındakı dini təsəvvürlərlə uyğunlaşdırılsın, alimlər isə israr edirdilər ki, onların aldıqları nəticələr Allahın mövcudluğu haqqındakı təsəvvürlərin yanlış olduğunu təsdiqləyir. Bəzi ilahiyyatçılar qeyd edirlər ki, bu gün müşahidə edilən qarşıdurmanın nəticələri acınacaqlıdır. Çünki bu gün alimlər təbiəti öyrənərkən dinin yardımından bəhrələnmirlər. Uzun müddət ilahiyyatda belə bir nöqteyi-nəzər vardı ki, din və elmə insan fəaliyyətinin müstəqil sahələri kimi baxılsa, onlar arasındakı toqquşmalara son qoymaq olar. Əsas vurğu onlar arasındakı fundamental fərqlərə edilir. Tanınmış ABŞ fizik və ilahiyyatçısı İ.Barbur qeyd edir ki, təbiət get-gedə öz dini əhəmiyyətini itirməkdədir. Bundan başqa, İ.Barbur kimi fikirləşən digər ilahiyyatçılar hesab edirlər ki, dünyanın mənzərəsini Allaha “istinad” etmədən qurmaq mümkündürsə, aydındır ki, onda belə Allah Yaradıcı-Tanrı ola bilməz. Deməli, ona əxlaq mənbəyi kimi də inanmaq olmaz.

Amerikan alimi və ilahiyyatçısı H.Rolston qeyd edir ki: “elm bilik axtarır, din isə müdriklik, onlar bir-birini istisna etmirlər, bəzi məqamlarda üst-üstə düşürlər”; “elm izah edir və informasiya verir, din isə kəşf edir və islah edir” [14,s.29]. Din və elmin dialoqu zəruridir, belə ki, biz “həyatı separat hissələrə bölünən kimi yox, bütöv və qarşılıqlı əlaqədə olan kimi yaşayırıq” [14,s.36]. İnsan elmi olaraq dünyanı dərk etdikcə, Allahı dərk etməyi də dərinləşdirir və burada dinlə elmin ittifaqı vardır.

Dinlə elmin sintezini bu kimi məqamlar üzrə yaratmağa çalışan ilahiyyatçılar mədəniyyətin bu sahələrinin oxşar xüsusiyyətlərinin üzə çıxarılmasına ayrıca diqqət yetirirlər. Hətta bəzi din adamları oxşarlıqda o dərəcədə uzağa gedirlər ki, elmi xüsusi növ din adlandırırlar. Onların fikrincə, elm ilahiyyat kimi birbaşa müşahidə edilənlərin sərhədi xaricində olan transendent obyektlərlə məşğuldur. Onlar ona işarə edirlər ki, din və elm tədqiqatçıların təfəkkürlərinin məhsulu olan anlayışlar konstruksiyasının köməyi ilə gerçəkliyi dərk etməyə çalışır.

İlahiyyatçıların dedidyinə görə, “görünməməsi səbəbi ilə Allaha inanmamaq, eyni səbəbdən elementar hissəciklərin varlığına inanmamaqdan elə də fərqlənmir”. Bir sıra ilahiyyatçının fikrincə, elm və dində aparıcı nəzəri paradiqmalardan istifadə olunur. Elmdə, məsələn, Ptolemey, Nyuton, Eynşteyn paradiqmaları var. Dində də Allahın Sevgi, İnam, Mərhəmət olduğunu qəbul edən və digər paradiqmaların olduğunu qəbul etmək olar. Elmdə olduğu kimi, dində də indi tam atılmış paradiqmalar var. Məsələn, dünyanın 6 gündə yaradılması və s. Dini paradiqmalar elmi paradiqmalardan daha dayanıqlıdır, ancaq onlar da yaranış və məhv olma mərhələlərini keçirlər. İlahiyyatçılar həm də elm və dində obyektiv və subyektiv olanların münasibətini aktiv surətdə müzakirə edirlər. Onların hər ikisi can atırlar ki, informasiyaları obyektiv olsun, ancaq subyektivlik elementləri hər ikisində mövcuddur. İnandırıcı idrak insanın reallığa müəyyən münasibətidir və ona görə də idrak prosesində subyektiv faktor əhəmiyyətli rol oynayır. Dində subyektivlik elementi, əlbəttə, elmdə olandan daha dərinə nüfuz edir.

İndi elmi idrak da getdikcə daha subyektiv olur. Elmdə tədqiqatçının statusu dəyişir və o sadə tamaşaçıdan aktiv iştirakçıya çevrilir ki, onu müşahidə etdiyi obyektdən ayırmaq olmur. Məsələn, H.Rolston hesab edir ki, faktlar müəyyən dərəcədə alimin nəzəri önqaydalarının məhsuludur – onlar heç zaman öz-özlüyündə, “çılpaqcasına” gəlmirlər, həmişə nəzəri konstruksiyalardan “süzülürlər”. “... Biz belə hesab edirik ki, təbiətin bütövlüyünü və məziyyətlərini dərk etməyən və ona hörmət etməyən heç bir insan mənəvi, əxlaqi keyfiyyəti olan insan hesab edilə bilməz. Alim sanki ov etdiyini tor

edir və onun ovçuluğu bu torun müəyyən dərəcədə funksiyasıdır" [9, s 238].

Bir sıra ilahiyyatçılar bu gün belə bir məqamın üzərində israr edirlər ki, gerçəkliyin tam adekvat dərk edilməsi dini və elmi dərketmə üsullarının birləşməsi şərti ilə mümkündür. Yəni, elmlə din bir-biri ilə ziddiyyətdə yox, harmoniyada inkişaf etməlidirlər. Bu mümkünlüyü əsaslandırmaq üşün N. Borun məşhur tamamlılıq prinsipindən istifadə edirlər. Həmin əsasda da elm, din və fəlsəfənin sintezinə nail olmaqla dünyanın vahid bütöv mənzərəsini yaratmağın mümkünlüyü etiraf olunur. Bu məqsədə çatmaq üçün ifratçılıqdan qaçmaq gərəkdir – nə mütləq oxşarlıq, nə də mütləq fərqlər üzərində dayanmaq olmaz. Onu da qeyd edək ki, fəlsəfə tarxində buna bənzər cəhdlər çox olmuşdur.

Məsələn, V.Solovyovun fikrincə, elm və fəlsəfənin tərəqqisi ona gətirib çıxarıb ki, xristianlığın mövcud olduğu forma məzmununa uyğun gəlməməyə başlayıb. Həqiqi xristianlığı bərpa etmək gərəkdir: "Xristianlığın əbədi məzmununu yeni, uyğun formaya daxil etməli...Ancaq xristianlığın bu praktiki həyata keçməsi üçün hələ çox vaxt var. İndi nəzəri tərəflə, ilahiyyatçı inam üzərində daha çox çalışmaq gərəkdir. Bu mənim əsas işimdir" [10, s.148]. V.Solovyova görə, bəşəriyyət vahid orqanizmdir və hər bir xalq onun ayrı-ayrı hissələridir. Deməli, bu hissələri birləşdirmək lazımdır. Bunun üçün o, xristianlığı əsas ideya kimi qəbul edirdi və inanırdı ki, uyğun şərtlər daxilində bu dini təlim dünyanı birləşdirə bilər. V.Solovyov dini, fəlsəfi və elmi yanaşmaların sintezini tapmağı qarşısına məqsəd qoymuşdu. Ancaq onun konkret yollarını göstərə bilmədi, çünki özünün baxışlarında real sintezdən çox, xristianlığın hegemonluğunu ifadə edən məqamlar az deyildi.

Dini və elmi dünyagörüşün müqayisəsi cəmiyyət haqqındakı təsəvvürlər müstəvisində də maraqlı görünür. Hər bir dünyagörüş sistemi ictimai hadisələrin dərk edilməsi prinsiplərini formalaşdırır. Dini dünyagörüşün müxtəlif növləri, həmçinin cəmiyyət haqqında biliklər sisteminə malikdir.

Qədim Hindistanda insanların təbəqələrə, kasıblara və varlılara bölünməsi həmin təbəqənin əcdadlarının Allah qarşısında xidməti və ya günahı ilə izah edilirdi. İudaizm və Xristianlıqda təbəqələrə bölünmə uzun müddət Nuhun oğulları haqqındakı rəvayətə istinadla izah edilirdi. Dini mənbələrdə hüquqi normalara sakral xarakter verilirdi, onlara Allahın iradəsinin təzahürü kimi baxılırdı.

Orta Əsrlərdə xristian Avropasında və İslamın yayıldığı ölkələrdə belə bir fikir hökm sürürdü ki, Kitabda ictimai nizama, hakimiyyətin quruluşu və xarakterinə, ağa ilə xidmətçinin münasibətlərinə, ailə münasibətlərinə və s. aid bütün konkret ehkamlar vardır. Başqa sözlə, yalnız təbiət deyil, həm də hakimiyyətin, dövlətin konkret formaları, hüquqi normalar Müqəddəs Kitablardan çıxarılırdı. Cəmiyyətin sekulyarlaşması prosesi cəmiyyətə başqa baxışları tətbiq etdi. Bu baxışlara görə, ictimai quruluşa insanların özlərinin fəaliyyəti kimi baxırdı. Sekulyarilaşma prosesi nəticəsində dini mənbələrə cəmiyyətin konkret quruluşu üzrə vəsait kimi baxılmasına son qoyuldu. İqtisadi münasibətlər, dövlət strukturlarının qurulması, siyasət, hüquq normaları insanların özlərinin sosial aktivliyinin təzahürünün sferası kimi qəbul edildi. Onlar birbaşa dindən çıxarılmadı. Bu heç də o demək deyil ki, toplumun problemləri dini dünyagörüşdə əhəmiyyətli yer tutmamağa başladı, sadəcə, əsas diqqət ictimai hadisələrin, ictimai dəyişikliklərin izah prinsiplərinə aid olan məxsusi dünyagörüş problemlərinə yönəldi. Böyük rus mütəfəkkiri N.A.Berdyayevin cəmiyyətin təşkili ilə bağlı fikirləri dini prinsiplərə əsaslanırdı. O yazırdı:"Dövlət hakimiyyəti dini təmələ və dini mənbəyə malikdir...Hakimiyyətin ontologiyası Allahdan qaynaqlanır. ...İnsan cəmiyyətinin əsası İlahi dünya nizamındadır. Allah və insan hüququ deklarasiyaları elə bir deklarasiyadır" [5,s.288]. Daha sonra Berdyayev vurğulayır ki: "cəmiyyətin insan üzərində hakimiyyət sərhəddini müəyyən erdərkən reallıqda insan hüququnun ayrılmaz hissəsi təbiətə yox, ruha dayanır. Bu ruhun hüquqlarıdır, təbii hüquqlar deyil, təbiət heç bir hüquq müəyyən etmir" [4, s. 307]. Bu o deməkdir ki, dini dünyaanlamanın prinsipləri və xüsusiyyətləri kreatsionizm, ilahiyyat eyni zamanda cəmiyyəti izah etmənin və fəaliyyətinin prinsipləri kimi çıxış edir.

İslama görə, Allah bütün dünyanı və insanı yaratmışdır. Cəmiyyət Allahın əbədi planlarının təsiri altındadır. Cəmiyyətin özünə, onda baş verən hadisələrə isə yuxarıdan verilən yoldan azan ayrı-ayrı insan iradələrinin toqquşması kimi baxılır. Cəmiyyətin quruluşu, ictimai münasibətlər, xalqların və təbəqələrin münasibətləri, tarixi hadisələr və dəyişikliklər Allahın fikirlərinin reallaşması kimi çıxış edirlər. Providensializm, (Allahın planları) onu ifadə edir ki, Allah yalnız dünyanı və insan cəmiyyətini yaratmayıb, həm də daimi burada ictimai hadisələri istiqamətləndirərək iştirak edir. Providensializm Orta Əsrlərdə tarixi izah etmənin əsas prinsipi idi. Müasir teologiya bu yanaşmaya tənqidi qiymət

verir. Tanınmış ilahiyyatçı B.Lonerqan yazır: "Köhnə doqmatik ilahiyyat tarixi başa düşmürdü...o, təkamül və inkişaf anlayışları ilə düşünmürdü, universallıq və dəyişməzlik anlayışları ilə düşünürdü"[7,s.121]. Müasir ilahiyyat cəmiyyətin tarixinə tarix elminin faktoloji materiallarını nəzərə almaqla yanaşır, müasir dünyanın münaqişə və problemlərini real əks etdirməyə çalışır. Ancaq böyük ölçüdə providensializm saxlanılır. Həm də günah məsələsi indi müəyyən sosial strukturlara da şamil edilir. Cəmiyyətin providensial anlamı ilə dini dünyagörüşün digər prinsipləri olan teleologiya və esxatalogiya sıx bağlıdır.

İslam esxatalogiyası dedikdə - müsəlmanların qiyamət günü və axirət həyatı haqqında olan təsəvvürləri nəzərdə tutulur: "O gün neçə-neçə üzlər sevinib güləcək"; "Öz Rəbbinə baxacaqlar! " [3, 75: 22-23, s.594].

Providensializmin ifrat ifadəsi fatalizmə aparıb çıxarır. İctimai qanunauyğunluğun qəbul edilməsi bir çox hallarda insan azadlığını inkar edən mütləq determinizmə yol açır. Providensializm artıq dinin cəmiyyətdə mövcud olan bütün nizamlılığa haqq qazandırması kimi başa düşülmür, öz vəzifəsini o, dini əxlaqi prinsiplərin təsdiq olunmasında, insanın ləyaqətli həyat keçirməsinə mane olan bütün şeylərin ittiham olunmasında görür. Cəmiyyət və insanın real problemləri son onilliklərdə dünyagörüş sistemlərində, o cümlədən dini dünyagörüşündə getdikcə daha çox əks olunurlar. "İnteqral humanizm" tərəfdarları insanların istənilən dünyagörüşü mövqeyini seçməsi hüququna malik olmasını müdafiə edirlər, müxtəlif dini inanc nümayəndələri və ateistlərlə dialoqa çağırırlar. İnteqral humanizim prinsipləinə uyğun olaraq J.Mariten qeyd edir ki:"Allahın yoxluğunda insan öz ruhunu itirir və bu hal F. Nitsşe və Ekvizstensializm fəlsəfəsində olduğu kimi absurd və ümudsizlik nəzəriyyətlərinin yaranmasına səbəb olur" [13, s.68].

Bütün bunlara rəğmən, elmi dünyagörüşü fərqləndirən elə məqamlar var ki, dinin ora nüfuz etmək imkanının olması sual doğurur. Bu məqamlar elmdə məntiqi sübutun vazkeçilməz bir şərt kimi qəbul edilməsi ilə bağlıdır. Elm bütün forma və variantlarında məntiqi sübut tələb edir. Elmi biliyin məzmununda həmin özəllik aparıcı yer tutur.

İndi elmin tamamilə yeni bir mərhələsinin başladığı barədə fikirlər irəli sürülür. Bu mərhələnin nəzəriyyələri klassik elmi nəzəriyyələrlə uyğunlaşmır. Müasir elmi idrakın təkamül tendensiyasının fəlsəfi təhlili göstərir ki, insan fəaliyyətinin bütün aspektləri arasında sıx bağlılıq getdikcə daha da genişlənir. Üstəlik, mənəvi fəaliyyət daha aktual şəkildə özünü göstərir. Bütövlükdə, cəmiyyətin taleyində mənəvi dəyərlərin əhəmiyyəti yüksəlir. İndi təbiətşünaslar hər hansı böyük elmi tədqiqat layihəsini həyata keçirməyə başlamazdan öncə onun mənəvi, ekoloji, ontoloji, dünyagörüşü nəticələrinin təhlilinə ehtiyac duyurlar. Təbiətşünaslıqda olunan yeni kəşflərə də məhz bu prizmadan dəyər verirlər. Deyək ki, klonlaşdırma məsələsi elmidən çox mənəvi-əxlaqi və insan taleyinin fundamental qatlarına təsir edən faktor olaraq nəzərdən keçirilməkdədir. Bu istiqamətdə tədqiqatların rəsmən dayandırılması ilə bağlı olan təşəbbüslər unudulmamışdır.

İnsanın könüllü olaraq özünü öldürməsi (eftanaziya) üçün xüsusi tibbi üsulların maneəsiz tətbiqinə çağıran bəzi alimlərə də ictimai münasibət birmənalı deyil. Bütün bunlarla yanaşı, elmi fəaliyyətin qlobal miqyasda doğura biləcəyi nəticələr barədə ciddi elmi-fəlsəfi və sosioloji tədqiqatların aparıldığı məlum faktdır. Bu tədqiqatlarda elmi nəticələrin bütünlükdə bəşəriyyətin taleyinə necə təsir edə biləcəyi məsələsi ciddiliklə qoyulur.

Qloballaşmanın mümkün nəticələri haqqında deyilən fikirlər də bu sıradandır. Maraqlıdır ki, son illər elm adamlarının özləri qlobal fəlakətlər sırasına yeni texnologiyaların tətbiqinin verə biləcəyi nəticələri daha böyük miqyasda daxil etməkdədirlər. Qərbdə aparılan elmi araşdırmalar göstərir ki, bu məsələ heç də sadə deyildir. Məsələn, "fəlsəfi zombi" deyilən bir əlamətə diqqət yetirirlər. Belə ki, Devid Çalmers ilk dəfə olaraq "şüurun çətin problemi" haqqında ideyanı şərh etdi. Onun tədqiqatının əsasını bir tərəfdən beyinin bioloji fəaliyyəti ilə davranış arasındakı fərqliliyi digər tərəfdən davranışdan fərqli olaraq baxılan mental təcrübəni müəyyən etmək təşkil edirdi. D. Çalmersin 1996-cı ildə nəşr edilən "Dərkedən ağıl" əsəri elm aləmində böyük rezonans yaratdı [11]."Fəlsəfi zombi" yeni texnologiyaların yüksək səviyyəli tətbiqi nəticəsində insanların canlı təmaslarının payının azalması halında insanın daxili emosional dünyasının transformasiyaları ilə bağlıdır. Belə təxmin edilir ki, həmin tendensiya davam etsə, insan surətə daha çox üstünlük verəcək və insanın mənəvi dünyası arxa plana keçəcək. Misal olaraq teleekranda gördüyümüz insanı necə duyuruqsa, həyatda da analoji duyğuları yaşayacağıq. Bu da insanın dəyərini azaltmaq deməkdir, onu canlı varlıq olaraq duymaq qabiliyyətindən məhrum etməkdir. Bu baxımdan elmi tədqiqatların yüksək texnologiyalara getdikcə daha böyük ölçüdə üstün-

lük verməsinin mümkün nəticələri üzərində daha dərindən düşünmək təklif olunur.

Bütün bunlar elmi dünyagörüşün getdikcə daha geniş və dərin məsələlərdə dini dünyagörüş ilə qarşılıqlı əlaqədə olması zərurətinin yetişdiyini təsdiq edir. Lakin onlar metod və məzmun baxımından fərqli səviyyələr olduğundan hansı konkret məqamlarda sintezin mümkün ola biləcəyi hələ aydın deyil. Deməli, bu məsələnin özü də fəlsəfi təhlilin obyekti olmalıdır. Daha geniş və dərin miqyasda problem öyrənilməli və insan fəaliyyətinin bütün aspektləri arasında optimal harmoniyanın formalaşmasının nəzəri, ideoloji, elmi, dini və sosial-siyasi meyarları aydınlaşmalıdır. Sivilizasiyalararası dialoqun səmərəli təşkili, qlobal ekoloji problemlərin həlli, bəşəriyyətin xilası kimi problemlər baxımından bu məqamların diqqətə alınması çox vacibdir.

**Açar sözlər:** *din, elm, dunyagörüşü,islam,xristianlıq, iudaizm, cəmiyyət, əxlaq.*

## ƏDƏBİYYAT SİYAHISI

*1. Bünyadov Z. Dinlər, təriqətlər, məzhəblər. Bakı, Azərbaycan, 1997, 287 s.*

*2. Xəlilov S. S. Fəlsəfə: tarix və müasirlik (fəlsəfi komparativistika). Bakı, "Azərbaycan Universiteti" nəşriyyatı, 2006, 420 s.*

*3. Qurani-Kərim /ərəb dilindən tərcümə edənlər: Z.Bünyadov və V.Məmmədəliyev. Bakı, "Çıraq", 2005, 636 s.*

*4. Бердяев Н. А. О рабстве и свободе человека. Опыт персоналистической философии // Бердяев Н. А. Царство Духа и царство Кесаря. М.,1995,375с.*

*5. Бердяев Н. А. Самопознание. М.: Книга, 1991, 446 с.*

*6. Григоренко А. Эсхатология, милленаризм, адвентизм. Санкт-Петербург, 2004, 262 с.*

*7. Лонерган Б. Метод в теологии. Изд. Инс. философии и истории, 2010,400 с.*

*8. Основы религиоведения. Ю. Ф. Борунков, И. Н. Яблоков, М. П. Новиков, и др. Уч. издание под ред. И.Н. Яблокова. М.: Высшая школа,1994, 368 с.*

*9. Ролстон Х. Новая экологическая этика: для следующего тысячелетия жизни на Земле // Известия Самарского научного центра Российской академии наук. 2013. Т. 15, № 3(7), 2382.*

*10. Соловьев В.С. Оправдание добра. Отв. ред. О. А. Платонов. М.: Академический проект, 2010, 671 с.*

*11. Чалмерс Д. Сознающий ум: в поисках фундаментальной теории. Пер. с анг. Изд. 2. URSS, 2015, 512 с.*

*12. Цвелик А. Жизнь в невозможном мире. Краткий курс физики для лириков. М., Издательство Ивана Лимбаха, 2012, 288 с.*

*13. https: / ru.m. wikipedia.org Маритен Жак*

*14. Rolston H. Science and Religion. N. Y., 1987. p. 29.*

**Мамедтаги Рзаев**
**Научное и религиозное мировоззрение: драматизм и диалектика взаимовлияния**

## РЕЗЮМЕ

В статье раскрывается сущность научного и религиозного мировоззрения. Делается исторический экскурс их взаимоотношениям. Рассматривается взаимовлияние и развитие этих двух типов мировоззрения. Отмечается что, в последнее время эти мировоззрения вступают с одной позиции в вопросах связанных с духовной жизни человека и человечества. А также ведется параллели этих двух мировоззрений в вопросах устройства общества.

**Ключевые слова:** *религия, наука, мировоззрение, ислам, христианство, иудаизм, общество, мораль.*

**Mammadtagi Rzayev**
**Scientific and religious worldview: drama and dialectics of mutual influence**

## SUMMARY

The article reveals the essence of the scientific and religious worldview. The mutual influence and development of these two types of worldview is considered. It is noted that, in recent times, these worldviews come from the same position in matters related to the spiritual life of man and humanity. And also there are parallels of these two worldviews in matters of the structure of society.

**Keywords:** *religion, science, worldview, Islam, Christianity, Judaism, society, morality.*

# MÜNDƏRİCAT

## SİYASİ ELMLƏR

NGUYEN TRAN TAN HIEP: DIPLOMATIC RELATIONS OF AZERBAIJAN – VIETNAM: SPECIAL FRIENDSHIP OVERCOMES ALL DIFFICULTIES............ 5

XƏYYAM MƏMMƏDOV: DÖVLƏT İDARƏÇİLİYİNDƏ XİDMƏT SEKTORUNUN YERİ............ 11

VÜSAL MƏMMƏDOV: RUSİYANIN GÜNEY QAFQAZ SİYASƏTİNİN GEOSİYASI KODLARI............ 16

SEVDA HÜSEYNOVA: QLOBALLAŞAN DÜNYANIN İNKİŞAF İSTİQAMƏTLƏRİ VƏ ÜMUMDÜNYA TİCARƏT TƏŞKİLATI............ 20

SİMNAR MAMEDOV: ŞƏKİ-ZAQATALA REGİONU AZƏRBAYCAN RESPUBLİKASININ GÜRCÜSTAN VƏ RUSİYA FEDERASİYASI İLƏ TRANS-SƏRHƏD ƏMƏKDAŞLIQ SİSTEMİNDƏ............ 27

TOGRUL SALMANZADE: THE ROLE OF MULTICULTURALISM ON THE DIALOGUE OF CIVILISATIONS: THE AZERBAIJANI PERSPECTIVE............ 33

NİGAR ADİLOVA: YENİ MEDİANIN AZƏRBAYCANDA SİYASİ MƏDƏNİYYƏTİN FORMALAŞMASINA TƏSİRİ............ 38

## İQTİSADİYYAT

ƏVƏZ BAYRAMOV: MİLLİ MENTALİTETİN İQTİSADİ PROYEKSİYASI: HƏQİQƏT AXTARIŞINDA............ 46

СОФИЯ БАКУРИДЗЕ: ВОЗМОЖНОСТИ ПОВЫШЕНИЯ РЕГИОНАЛЬНЫХ МЕДИЦИНСКИХ УСЛУГ И ИХ ЭФФЕКТИВНОСТИ............ 57

FAMİL RÜSTƏMOV: MÜASİR BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ FİRMA STRATEGİYASININ HAZIRLANMASININ ƏSAS XÜSUSİYYƏTLƏRİ............ 64

AYGÜN ABDULOVA: AZƏRBAYCANIN BİZNES MÜHİTİNDƏ İNSAN RESURSLARININ İNNOVATİV İDARƏETMƏ İSTİQAMƏTLƏRİ............ 68

VƏFA QULİYEVA : ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ ÜZRƏ VƏZİYYƏTİN TƏHLİLİ VƏ AZƏRBAYCANDA APARILAN İSLAHATLAR............ 72

ORXAN ŞÜKÜROV: İNNOVASİYA POTENSİALININ FİSKAL ASPEKTDƏN STİMULLAŞDIRILMASI İSTİQAMƏTLƏRİ............ 76

ƏSLİ KAZIMOVA: QEYRİ-NEFT TƏMAYÜLLÜ İQTİSADİ İNKİŞAFIN MODELLƏŞDİRİLMƏSİNDƏ DÜNYA TƏCRÜBƏSİ............ 80

AYTAC ALLAHVERDİYEVA, SUQRA ABDULLAYEVA: ÖHDƏLİYİN İCRASININ ANLAYIŞI, PRİNSİPLƏRİ VƏ ÜSULLARI............ 85

NARMIN AGAYEVA : FACTORS AFFECTING OPEN END EQUITY FUNDS' PERFORMANCE........ 90

TƏBRİZ ƏLİYEV: QİYMƏTLİ KAĞIZLAR BAZARININ TƏKMİLLƏŞMƏSİNDƏ SƏHM BAZARININ ÖNƏ ÇƏKİLMƏSİNİN ƏHƏMİYYƏTİ........ 94

MATIN HASANOV: METHODS OF STATISTICAL ASSESSMENT OF THE IMPACT OF NON-CASH PAYMENTS ON INFLATION........ 99

AYAZ TAĞIYEV: AZERBAYCAN'DA AQROBİZNES SEKTÖRÜNÜN YENİLİK POTANSİYELİNİ GÜÇLENDİRME YOLLARI........ 104

AYDAN BAĞIRLI: KAMU SEKTÖRÜNDE DÜNYA TECRÜBESİ VE AZERBAYCAN UYGULAMASI........ 109

ELVIN AJDARLI: THE ORETICAL BASIS OF THE EFFECT OF THE EMPLOYMENT LEVEL ON THE ECONOMY........ 114

**TARİX**

ASƏF HACIYEV: BAKI ƏHALİSİNİN YERLƏŞMƏSİ, SAY VƏ ETNİK TƏRKİBİ (XIX ƏSR)....... 118

QORXMAZ MUSTAFAYEV: QARABAĞ XANLIĞINDA İNZİBATİ BÖLGÜ VƏ BƏZİ MAHALLARIN "MƏLİKLİK" ADLANDIRILMASI HAQQINDA........ 125

AYNUR ORUCOVA: "ÇALDIRAN DÖYÜŞÜ" PALERMODA MİRTO SARAYINDA........ 131

ŞƏFAYƏT FƏRƏCOV: 1823-Cİ İL SİYAHIYAALMA MATERİALLARINA ƏSASƏN ŞİMAL AZƏRBAYCAN ƏHALİSİNİN DEMOQRAFİK VƏZİYYƏTİ........ 136

ŞÖVKƏT PƏNAHOVA: AZƏRBAYCAN XALQININ MÜSTƏQİL DÖVLƏTÇİLİK, KONSTİTUSİYALI AZAD VƏTƏNDAŞ CƏMİYYƏTİNİ YARATMAQ İDEYASI VƏ MÜSTƏMLƏKƏÇİLİK ƏLEYHİNƏ MÜBARİZƏSİ "FÜYUZAT"IN SƏHİFƏLƏRİNDƏ........ 140

AYSEL SADİQOVA: QARABAĞIN DİZAQ MƏLİKLİYİ........ 148

**FƏLSƏFƏ VƏ SOSİOLOGİYA**

SEVİNC ŞAXHÜSEYNOVA: NİZAMİ GƏNCƏVİNİN FƏLSƏFİ-ESTETİK GÖRÜŞLƏRİNDƏ BƏZİ MƏQAMLAR........ 153

SABİR BEHBUDOV: MİRZƏ FƏTƏLİ AXUNDZADƏNİN AKSİOLOJİ SİSTEMİNDƏ FƏLSƏFƏNİN YERİ........ 157

GÜLAĞA İSMAYILOV: AMEA-NIN M. FÜZULİ ADINA ƏLYAZMALAR İSTİTUTUNDA SAXLANILAN "MƏSABIH-ƏS-SÜNNƏ" ƏSƏRİNİN ƏLYAZMASI NÜSXƏLƏRİNİN ARAŞDIRILMASI........ 161

MƏMMƏDTAĞI RZAYEV: ELMİ VƏ DİNİ DÜNYAGÖRÜŞÜ: QARŞILIQLI TƏSİRLƏRİN ZİDDİYYƏTLƏRİ VƏ DİALEKTİKASI........ 165

| | |
|---|---|
| **Təsisiçi:**<br>**“Kaspi MY” MMC** | **Founder:**<br>**“Kaspi PD” MMC** |
| **Korrektor:**<br>**Leyla Binyatova** | **Corrector:**<br>**Leyla Binyatova** |
| **Dizayner:**<br>**İman Hüseynov** | **Designer:**<br>**Iman Huseynov** |
| **Redaksiyanın ünvanı:**<br>**Mətbuat pr. 23M. Beynəlxalq Mətbuat Mərkəzi**<br>**Tel: (+994 12) 537 16 05**<br>**Faks: (+994 12) 537 16 05**<br>**E-poçt: strategiya.az@mail.ru** | **Address of the editorial office:**<br>**Matbuat ave. 23M. International Press Centre**<br>**Tel: (+994 12) 537 16 05**<br>**Fax: (+994 12) 537 16 05**<br>**E-mail: strategiya.az@mail.ru** |
| **Tiraj: 300**<br>**Sifariş №394** | **Number of copies printed: 300**<br>**Order №394** |
| **“Elm və təhsil” nəşriyyat-poliqrafiya müəssisəsində çap olunub** | **Published by**<br>**“Science and Education” publishing house** |